# Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları

№ 2(14)
2026

BAKI DÖVLƏT UNİVERSİTETİ
TARİX FAKÜLTƏSİ

№2(14) 2026

ISSN: 2708-3934 (Print)
ISSN: 2708-3942 (Online)

# Türk dünyası
## gənc tədqiqatçılar dərnəyinin
# Araşdırmaları

**Studies of the Turkic World**
**Young Researchers Association**

***I Türkoloji qurultay - 100***

**Azərbaycanın**
**dövlət müstəqilliyinin bərpasının**
**35-ci ildönümünə həsr olunur**

# 2 (14)

**Bakı - 2026**

*Baş redaktor:* Sevinc Ruintən / Sevinj Ruintan
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*

*Redaktor müavini:* Səidə Quliyeva / Saida Quliyeva
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*

*Məsul katib*: Ülfər Məmmədli / Ulfar Mammadli
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*

*Redaksiya heyəti:*

Arzu Məmmədova /Arzu Mammadova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Aytən Abbasova-Quliyeva / Aytan Abbasova-Guliyeva
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Aytən Nəsibova / Aytan Nasibova
*Saratov Dövlət Hüquq Akademiyası, Rusiya / Saratov Sate Law Academy, Russia*
Cavid Əlisgəndərli / Javid Alisgandarli
*Türk Dünyası gənc tədqiqatçılar dərnəyi / Turkic World Young Researchers Association Azerbaijan*
Elvira Lətifova / Elvira Latifova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Fatma Betül Aydemir Baş / Fatma Betul Aydemir Bash
*Eskişehir Osmanqazi Universiteti, Türkiyə / Eskishehir Osmangazi University, Turkiye*
Fəridə Allahverdiyeva / Farida Allahverdiyeva
*Türk Dünyası gənc tədqiqatçılar dərnəyi / Turkic World Young Researchers Association Azerbaijan*
Fizzə Məmmədova / Fizza Mammadova
*Qarabağ Universiteti / Karabakh University*
İqbal Ağayev / Igbal Agayev
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Kader Özlem / Kader Ozlem
*Uludağ Universiteti, Bursa, Türkiyə / Uludag University, Bursa, Turkiye*
Kəmalə Nəcəfova / Kamala Najafova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Kəmalə Ruintən / Kamala Ruintan
*Bakı Slavyan Universiteti / Baku Svavic University*
Lalə Əliyeva / Lala Aliyeva
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Murat Jane / Murat Jane
*İstanbul Aydın Universiteti, Türkiyə / İstanbul Aydın University, Turkiye*
Oğuz Kağan Bayrakdar / Oguz Kagan Bayrakdar
*Ankara Hacı Bayram Vəli Universiteti, Türkiyə / Ankara Haci Bayram Veli University, Turkiye*
Rövşən Hətəmov / Rovshan Hatamov
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Sevinc Qasımova / Sevinj Qasımova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Şaxodatxon Ohunjonova / Shakhodatkhon Okhunjonova
*Fərqanə Dövlət Universiteti / Fergana State University, Uzbekistan*
Talqat Moldabay / Talqat Moldabay
*L.N.Qumilyov adına Avrasiya Milli Universiteti, Qazaxıstan /*
*L.N. Gumilyov Eurasian National University, Kazakhstan*
Vladimir Redçenko / Vladimir Redchenko
*N.Q.Çernışevski adına Saratov Dövlət Universiteti, Rusiya / Saratov State University, Russia*
Zərifə Nəzirli / Zarifa Nazirli
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*

Türk Dünyası Gənc Tədqiqatçılar Dərnəyinin Araşdırmaları, 2017
*Redaksiya ilə əlaqə:* txt_kaf@bsu.edu.az
*Jurnalın web-səhifəsi:* https://history.bdu.info.az/turk-dunyasi-genc-tedqiqatcilar-derneyi-nin-arasdirmalari



# I Türkoloji qurultay - 100

... 1926-cı il I Bakı Türkoloji qurultayı hər şeydən öncə bir siyasi tarixdir. Yeni qurulmuş ... imperiyanın – Sovetlər İttifaqının, imperiyanın yerində yeni qurulmuş cümhuriyyətin – Türkiyə Cümhuriyyətinin ..., eləcə də Avropanın ideoloji savaşının önəmli bir parçasıdır... I Türkoloji qurultay məzmunca kədərli, hüzünlü bir tarix, insanlıq dramıdır. 100-dən artıq iştirakçısının, seçmə alim və mütəfəkkirinin əksəriyyətinin həbsi və fiziki məhvi ilə bitən bu qurultay yaxın tarixin ən böyük ziyalı-alim soyğırım sənədidir, 30-cu illərin Sovet-Stalin diktatura rejiminin tarixi üçün ittihamdır... Bu anlamda I Bakı Türkoloji qurultay faciə-roman, mahiyyətcə ağrılı-acılı rekviyemdir ...

*1926-cı il I Bakı Türkoloji qurultayı (Stenoqram materialları, biblioqrafiya və foto-sənədlər). Rus dilindən tərcümə, ön söz və şərhlərin müəllifləri: Kamil Vəli Nərimanoğlu, Əliheydər Ağakişiyev. Bakı, Çinar-Çap, 2006, s.5.*

**MÜNDƏRİCAT / CONTENTS**


| | | |
|---|---|---|
| Aişə İsmayılzadə | *Göytəpə yaşayış yeri müasir tədqiqatlarda* | 5-10 |
| Arzu Tahirzadə | *Ümumtəhsil məktəblərində Vətən müharibəsi mövzularının öyrədilməsində media resurslarının effektivliyi* | 11-14 |
| Asya Məhərrəmova | *Rəqəmsal ünsiyyətdə məntiqi xətalar* | 15-22 |
| Ayxan Məmmədli | *ABŞ-Çin rəqabəti kontekstində Azərbaycanın geosiyasi mövqeyi* | 23-29 |
| Ayla Bayandurova | *Süni intellekt sistemlərində alqoritmik mühakimə və insan məntiqinin komporativ analizi: təqliddən formalizasiyaya* | 30-35 |
| Aynur Bayramova | *Təhsil prosesinin qiymətləndirmə mərhələsində ziddiyyətsiz-lik qanununun tələbələrin tənqidi düşüncəsində əhəmiyyəti* | 36-39 |
| Aysel Həmidova | *Arqumentin məntiqi skeleti: mühakimənin bütövlüyü və etibarlılıq meyarları - KİV kontekstində* | 40-46 |
| Chinara Guliyeva | *The role of the law of non-contradiction in Legal decısıon-makıng* | 47-51 |
| Elmira Suleymanova | *Understanding the reasons behind the popularity of the left-wing ideas in XX century Latin America* | 52-56 |
| Ələm Əliyev | *Sudan böhranı: geosiyasi maraqlar və xarici aktorların rolu* | 57-66 |
| Fidan Garayeva | *International relations of the Safavid state with European countries during the reign of Shah Abbas I* | 67-73 |
| Gültac Həsənli | *Tarix təlimində tənqidi və analitik düşünmə bacarıqlarının inkişaf etdirilməsi* | 74-77 |
| Xanım Əsədova | *Müəllim rəyində məntiqi xətaların təhlili və onların rəyin effektivliyinə təsiri* | 78-82 |
| Xədicə Rəsulzadə | *Azərbaycan dilində məntiqi bağlayıcıların interpretasiyası: semantik qeyri-müəyyənlik və analitik təhlil* | 83-85 |
| Könül Babazadə | *Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti Türkiyə tədqiqatçılarının əsərlərində* | 86-91 |
| Kheyrulla Ismayilov | *Fatih Sultan Mehmed's Eastern polıcy: ideological and military strategies towards Azerbaijan* | 92-95 |
| Qəzənfər Məhərrəmov | *Lord Balfurun bəyannaməsi (1917) Böyük Britaniyanın Osmanlı imperiyasına qarşı hərbi-diplomatik tədbiri kimi* | 96-102 |
| Madina Aghamirova | *Catherine II and the partitions of Poland: imperial strategy and the transformation of Eastern Europe* | 103-110 |
| Nərmin Maqsudova | *Dil və məntiq arasındakı əlaqə: düşüncənin formalaşmasında rolu* | 111-117 |
| Rəmzi Səfərli | *Heydər Əliyevin siyasi liderliyi dövründə Dağlıq Qarabağ problemi* | 118-121 |

| | | |
|---|---|---|
| Roza Lələyeva | *Məntiq xətalarının öyrənilməsinin universitet tələbələrinin qərarverma və tənqidi düşüncə bacarıqarına təsiri* | 122-127 |
| Röya Mirzəzadə | *Azərbaycan tarixinin tədrisində "Çevrilmiş sinif" modelinin tətbiqi: üstünlüklər və problemlər* | 128-131 |
| Səbinə Qasımova | *Tarixin tədrisində innovativ yanaşma – İKT və onun üstünlükləri* | 132-136 |
| Səkinə Hüseynova | *V sinif "Azərbaycan tarixi"nin tədrisində qəhrəmanlıq mövzulu mətnlərin tərbiyəvi əhəmiyyəti* | 137-140 |
| Suğra Əsgərova | *Heydər Əliyevin dövlətçilik konsepsiyasındakı Türk birliyi ideyasına tarixşünaslıqda yeni baxış* | 141-145 |
| Назрин Мурсалова | *Политика Польши в отношении Украины (1989-2024)* | 146-152 |
| Фарида Гасанова | *Дискуссия о характере гражданской войны в США в современной американской историографии* | 153-157 |
| Фарида Ильясова | *Педагогический потенциал «Гюлюстан-и-Ирам» в формировании исследовательских навыков учащихся на уроках истории Азербайджана* | 158-161 |

Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları
Studies of the Turkic World Young Researchers Association

№2(14) 2026, 5-10

UOT 902

**AİŞƏ İSMAYILZADƏ**
*Bakı Dövlət Universitetinin*
*Arxeologiya və etnoqrafiya kafedrasının II kurs magistrantı*
**aisha.ismayilzada.vuqar@bsu.edu.az**

# GÖYTƏPƏ YAŞAYIŞ YERİ MÜASİR TƏDQİQATLARDA

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Fərhad Quliyev

*Məqalədə Azərbaycanın Gəncə-Qazax bölgəsində yerləşən Göytəpə neolit dövrü yaşayış yerinin müasir arxeoloji tədqiqatlar əsasında öyrənilməsi təqdim olunur. Qeyd edilir ki, Göytəpə e.ə. VI minilliyə aid olmaqla, Cənubi Qafqazın ən qədim və erkən əkinçi məskənlərindən biri kimi Şomutəpə mədəniyyətinə daxildir. Aparılan qazıntılar nəticəsində dairəvi planlı çiy kərpic tikililər, ocaq yerləri, təsərrüfat strukturları, həmçinin zəngin maddi-mədəniyyət nümunələri – keramika, daş və sümük alətlər aşkar edilmişdir. Tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, Göytəpə yalnız yerli deyil, həm də Orta Şərq mədəniyyətləri ilə əlaqədə inkişaf etmişdir. Abidənin kompleks şəkildə öyrənilməsi Cənubi Qafqazda neolit dövrünün sosial-iqtisadi və mədəni inkişafını anlamaq baxımından böyük əhəmiyyət kəsb edir.*

*Açar sözlər:* Neolit, əkinçilik, Göytəpə, sivilizasiya, Şomutəpə.

***Giriş.*** Bəşər tarixində neolit dövrü sivilizasiyanın başlanğıc nöqtəsi hesab olunur. Dünyanın müxtəlif bölgələrində aparılan arxeoloji tədqiqatlar sübut edir ki, neolit dövrünün erkən əkinçiləri ilkin sivilizasiyaların meydana gəlməsində başlıca rol oynamışlar. Qədim istehsal sahələrinin yaranması, qida ehtiyatlarının çoxalması, əhali artımı bu dövrün mühüm xüsusiyyətlərindəndir.

Azərbaycan ərazisində neolit dövrünün erkən mərhələsinə aid yaşayış yerləri, əsasən Gəncə-Qazax bölgəsində Kür çayının orta axan boyunca yerləşir. Gəncə-Qazax bölgəsi, Kür sahili ərazilər müxtəlif dövrlərə aid arxeoloji abidələrlə zəngindir. Bölgənin iqlimi şəraiti, bol su mənbələri, münbit torpağı ərazinin qədim zamanlardan insan məskəni olması üçün əlverişli olduğundan xəbər verir. Bu kimi mühüm amillər və Orta Şərqin qədim mədəniyyətləri ilə əlaqələr Azərbaycanda, ümumilikdə Cənubi Qafqazda qədim istehsal təsərrüfatı sahələri olan əkinçilik və maldarlığın formalaşmasına şərait yaratmışdır. Nəticədə, bölgədə Orta Şərqin neolit dövrü abidələri ilə bağlı olan yerli erkən əkinçi maldar tayfalara məxsus yaşayış məskənləri meydana gəlmişdir.

Hal-hazırda dünya arxeologiyasında bu arxeoloji abidələr kompleksi Şomutəpə və yaxud Şomutəpə-Şulaveri mədəniyyəti adı ilə tanınır və YUNESKO-nun qədim arxeoloji mədəniyyətləri siyahısına daxil olmuşdur. Şomutəpə mədəniyyəti Azərbaycanda təqribən e.ə VI minilliyə aid olan erkən əkinçilik va maldarlıq təsərrüfatı, ilkin keramikanın istifadəsi kimi neolit dövrünün bütün əsas xüsusiyyətlərini özündə birləşdirir. Azərbaycanda inkşaf etmiş neolit sakinlərinə aid olan bu mədəniyyət radiokarbon analizlər, bitki və heyvan qalıqlarının bərpası, strateqrafiya kimi geniş və müasir qazıntı texnologiyalarından əvvəl müəyyən edilmişdir.

Bu mədəniyyətə daxil olan abidələrdən biri də erkən əkinçilik mədəniyyətlərin öyrənilməsi baxımından əhəmiyyətli olan Göytəpədir. Abidə XX əsrin 70-ci illərində arxeoloq İ.H.Nərimanov tərəfindən aşkar olunmuşdur. Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun (hazırda Arxeologiya və Antropologiya İnstitutu) arxeoloji ekspedisiyası 2006-cı ildə Fransa mütəxəssisləri ilə birlikdə Göytəpə qədim yaşayış məskənində kəşfiyyat müşahidələri aparaaraq, təpənin toroplanını çəkmiş, yerüstü materiallar toplamışlar. Abidənin dəqiq tarixinin təyin edilməsi üçün üst qatdan götürülən kömür qalıqlarının üzərində Fransanın Milli Araşdırmalar Mərkəzində radiokarbon analizi aparılmışdır. Analizin nəticəsinə əsasən, Göytəpə yaşayış məskəninin bizim eradan əvvəl VI minilliyə aid olduğu müəyyən edilmişdir. Bu da onu deməyə əsas verir ki, Tovuzun 8 min illik şəhər

mədəniyyəti tarixi vardır. 2008-ci ildə AMEA-nın Arxeologiya və Etnoqrafiya İnsitutunun (hazırda Arxeologiya və Antropologiya İnstitutu) Tovuz arxeoloji ekspedisiyası tərəfindən tədqiqinə başlanılmış, 2009-cu ildə Tokio Universitetinin Orta Şərq arxeologiyası üzrə mütəxəssislərindən ibarət qrup müştərək araşdırmalara cəlb edilmişdir. Arxeoloji qazıntılar zamanı, əsasən, saman qatışıq çiy kərpicdən tikilmiş geniş və kiçik dairəvi tikililər, ocaq yerləri olan bir-birinə bitişik evlər aşkarlanmışdır.



2012-ci il aprel ayının 12-də Azərbaycan Respublikası Prezidenti İlham Əliyev şimal-qərb bölgəsinə etdiyi səfəri zamanı, Tovuz rayonu ərazisində Göytəpə neolit dövrü abidəsinin ilkin nəticələri ilə tanış olmuş və abidənin əsaslı öyrənilməsi istiqamətində görülən işləri yeni dövrün reallıqları prizmasından təşkil olunması məqsədilə AMEA yanında Göytəpə Arxeoloji Parkının yaradılması ilə bağlı 18 aprel tarixli sərəncam imzalamışdır. Respublika Prezidentinin sərəncamına əsasən tədqiqat obyektinin müəllifləri tərəfindən üç istiqamətdə arxeoloji parkın yaradılması ilə bağlı işlərin görülməsi nəzərdə tutulmuşdur. Birinci olaraq abidənin ətrafında eksperimental arxeologiyanın tətbiqi vasitəsilə araşdırmalar zamanı aşkar olunmuş tikili qalıqlarının memarlıq üslubuna uyğun şəkildə neolit dövrünün kəndinin rekonstruksiyası, qazıntı sahələrində qoruyucu örtüyün qurulması və abidədən aşkar olunmuş maddi mədəniyyət nümunələrindən ibarət sərgi zalının hazırlanması nəzərdə tutlmuşdu [9].



Prezident İlham Əliyev Tovuz rayonu ərazisində olarkən Göytəpə neolit dövrü arxeoloji abidəsi haqqında məlumat verildi. Qeyd olundu ki, qədim Göytəpə arxeoloji abidəsi Azərbaycan ərazisində, eyni zamanda, Cənubi Qafqazda neolit dövrünün erkən mərhələsinə aid yaşayış məskənlərinin ən böyüyüdür. Bu yaşayış məskəni 2 hektardan çox ərazini əhatə edir. Abidənin qədimliyi dünyanın bir

çox nüfuzlu elm adamlarının və mütəxəssislərin ciddi marağına səbəb olmuşdur. Sonra dövlət başçısı yaşayış məskənində aşkar edilən daş və sümük alətlərə baxdı. Bildirildi ki, aşkar olunan maddi-mədəniyyət nümunələrinin elmi təhlili Tovuz ərazisinin Qafqazın ən qədim yaşayış məskəni olduğunu sübut edir. Dünya arxeologiyasında Göytəpə yaşayış məskəni tipli neolit dövrünə aid arxeoloji abidələr proto-şəhər, yəni insanların yığcam yaşayış tərzinin bərqərar olduğu ilkin şəhər mədəniyyətinin formalaşması dövrü kimi dəyərləndirilir [9].

Daha sonra Prezident İlham Əliyev Göytəpə qədim yaşayış məskənində bu günə qədər görülən işlər və əldə olunan nəticələri, eləcə də aşkar olunmuş tikililərin bərpası, abidənin açıq səma altında arxeoparka çevrilməsi istiqamətində təklifləri əks etdirən stendlərə baxdı. Dəyərli maddi-mədəniyyət nümunələri ilə zəngin olan abidənin 2009-cu ildə Tokio Universitetində, 2010-cu ildə Londonda fəaliyyət göstərən “Britaniya Muzeyi”ndə, həmin ildə Parisdə “Kollec-de-Frans” təhsil müəssisəsində, 2011-ci ildə Rusiya Elmlər Akademiyasının Arxeologiya İnstitutunda və Gürcüstanın Milli Tarix Muzeyində təqdimatı olmuşdur. Ötən ilin avqustunda Rusiya, Ukrayna, Moldova, Gürcüstan, Özbəkistan və Qırğızıstan nümayəndələrinin iştirakı ilə Azərbaycanda ilk dəfə olaraq “Cənubi Qafqazın qədim mədəniyyətləri” mövzusunda beynəlxalq layihə çərçivəsində MDB-nin gənc mütəxəssislərindən ibarət “Gənc arxeoloqların yay məktəbi” tədbiri Göytəpə yaşayış məskəni ərazisində keçirilmişdir. Məlumat verildi ki, abidə rayonun turizm marşrutuna daxil edilmişdir. Ölkəmizdə “2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı”na uyğun olaraq, cari ildə abidənin ətrafının abadlaşdırılması, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondunun qrant–layihəsinə uyğun olaraq əsaslı şəkildə elmi tədqiqat işlərinin davam etdirilməsi və ərazidə açıq səma altında muzeyin - arxeoparkın yaradılması nəzərdə tutulmuşdur. Yaşayış məskəni ilə tanışlıqdan sonra dövlət başçısı tapşırıq və tövsiyələrini verdi. Görülən bu işlər isə Göytəpə yaşayış məskəninə dövlət səviyyəsində diqqətin göstərilməsi idi. Bu amil abidənin region üçün olan əhəmiyyətinin göstəricisidir [9].

***Göytəpə yaşayış yerində qazıntılar.*** Gəncə-Qazax bölgəsində ən böyük arxeoloji abidələrindən biri hesab olunan Göytəpə qədim yaşayış yeri Kür çayının sağ sahilinin orta axarında, Tovuz şəhərindən 10 km şərqdə yerləşir. Göytəpə abidəsi bir sıra neolit dövrünə aid təpələrin (Şomutəpə, Qarğalartəpə, Töyrətəpə) əhatəsində olub, Kiçik Qafqaz sıra dağlarının qərb hissəsinin arealına daxildir. Burada hər il təxminən 400 mm yağıntı düşür. Göytəpə dəniz səviyyəsindən 420 metr hündürlükdə 2 hektardan çox ərazini əhatə edir. Onun diametri 145 metr, hündürlüyü 9 m, mədəni təbəqəsinin qalınlığı 11 m-dir. Qədim yaşayış yerinin dəqiq yaş dövrünü təyin edilməsi məqsədilə qazıntı sahələrindən neolit sakinlərinin özləri tərəfindən vaxtilə istifadə olunmuş çoxlu sayda kömür parçaları və osteoloji qalıqlar götürülmüş və Tokiyo Universitetində laborator analizlərə göndərilmişdir. Nəticədə, radiokarbon analizlər Göytəpə qədim yaşayış yerinin e.ə. VI minilliyin əvvəlindən ortalarına qədər dövrləşdiyini göstərir [10].

Abidədə 2008-2011-ci illər ərzində 1000 kvadrat metrdən artıq sahədə arxeoloji qazıntı işləri aparılmışdır. Qazıntılar zamanı hələlik bizə məlum olan 8 metr neolit təbəqəsindən 13 tikili horizontu aşkar edilmişdir.Göytəpədə aparılmış arxeoloji qazıntı işləri neolit dövrünə aid tikinti mədəniyyətini, Kür çayının orta axarı boyunca erkən neolit həyat tərzinin inkişafı yollarını və sosial ictimai həyatın öyrənilməsinə şərait yaratmışdı [4, s.7].

Neolit memarlığı dövrünün müvafiq tikili üsuluna və quruluşuna görə ümumilikdə bir-birinə bənzərdir. Dövrün tikili materialları saman tərkibli düz qabarıq formalı çiy kərpiclərdən ibarətdir. Kərpiclər əsasən sarı və qəhvəyi rənglidirlər. Aparılan qazıntılar zamanı burada sıx olan qalın tikilmiş komplekslər, biri-birinə bağlı olan yaşayış evləri, çıxıntılı divarlar, ocaq yerləri və sobalar kimi digər tikililər aşkar edilmişdir. Yaşayış yerinin bu dövr üçün səciyyəvi olan dairəvi planlı tikili qalıqlarının diametri təqribən 2 metrdən 3,5 metrə qədərdir. Qədim yaşayış yerinin biri-birindən aralı məsafədə olan kiçik ölçülü dairəvi strukturları ilə iri ölçülü dairəvi tikililəri əlavə enli divarlarla birləşir. Nəticədə, binaların daxili həyəti meydana gəlirdi. Qohumlar bir həyətdə yerləşmiş dörd-beş evdən ibarət kompleksdə yaşamış, həyətdə həm də onların istifadə etdikləri ərzaq ehtiyatının saxlanıldığı quyular, xörək hazırladıqları ocaqlar yerləşirdi.

2008-2011-ci illərdə Göytəpədə apanlan qazıntılar qədim yaşayış yerinin neolit dövrünə aid olan mükəmməl memarlığını üzə çıxartdı. Səkkiz min il keçməsinə baxmayaraq, Göytəpənin bina tikililərinin yaxşı vəziyyətdə qalması onların funksional mahiyyətini önə çıxarırr. Tədqiqatçıların araşdırma-

larına əsasən deyə bilərik ki, Göytəpədə aşkar olunan bina tikililərinin möhkəmliyi hələlik Azərbaycanın heç bir neolit və eneolit dövrü abidələrində rast gəlinməmişdir.

Bundan əlavə tədqiqatlardan məlum olur ki, neolit dövründə Azərbaycan və bütövlükdə Cənubi Qafqaz qədim tikinti və memarlıq ənənəsinə malik idi. E.ə VI minillikdə Azərbaycanın neolit sakinlərinin aktiv həyat tərzini təmin edən çiy kərpicdən hörülmüş dairəvi planlı tikililər dövrün sosial-iqtisadi inkşafından irəli gələn yeniliklərdən olmuşdur. Göytəpədə aşkar edilmiş tikililər çiy kərpiclərdən ibarət dairəvi planlı memarlıq üslubunu özündə birləşdirən çox əsrlik tikinti təcrübəsini nümayiş etdirir.

***Keramika nümunələri.*** Qazıntılar zamanı Göytəpənin bütün təbəqələrində keramika nümunələrinə rast gəlinir. Saxsı məmulatının gili müxtəlif tərkibli olub əsasən bitki və mineral tərkiblidirlər. Bitki və mineral tərkibli keramika demək olar ki, say etibarı ilə eynidir. Mineral tərkibli keramika əsasən abidənin alt qatında üstünlük təşkil edir və üst qata doğru tədricən azalır. Forma verən keramika parçalarının təhlilindən məlum olur ki, oturacaqları düz, qalın divarlı, konusvari və əyri formalı küplər, dopular, dərin xeyrələr, qulpları olmayan kiçik qablar Göytəpə sakinlərinin istifadə etdiyi əsas mətbəx qab-qacağı olmuşdur [4, s.15]. Keramika məmulatının səthlərinin texniki işlənilməsi çox bəsit formada aparılmışdır. Bununla yanaşı, qabların üzərində yapışdırılma üsulu ilə düzəldilmiş naxış nümunələrinə də rast gəlinir. Bunların içərisində ən çox istifadə olunmuş naxışlar dalğavari xəttlər, dairəvi və yarımdairəvi, üçbucaq formalı yapmalardır. Bundan əlavə, abidənin üst qatında ağız hissəsi boyalı olan yaxşı bişirilmiş keyfiyyətli keramika nümunələrinə də rast gəlinmişdir. Qabların boyanmasında əsasən qırmızı və ya qırmızımtıl-qəhvəyi rəngli boyalardan istifadə olunmuşdur. Ehtimal etmək olar ki, Göytəpə dulusçuları boyaları yerli xammal olan oxra və ya germatitdən alırdılar. Nümunə kimi yaşayış yerindən aşkar olunan oxranın döyülməsi üçün istifadə olunmuş dən daşını göstərə bilərik [3, s.291].

Keramika məmulatları 6 qrupa bölünür: anqoblu, boyalı və cilalı qablar; bəzəksiz sadə qablar; səthləri pardaqlanmış qablar; qabartma bəzəkli qablar; bitumlu qablar; basma naxışlı qablar. Göytəpənin saxsı qabları arasında ən çox rast gəlinən 1-ci qrupa həm bitki, həm də mineral qatqılı, anqoblu, boyalı və cilalı nümunələr daxildir. 2-ci qrupa daxil olanlar 1-ci qrupda olduğu kimi, həm bitki həm mineral qatışıqlı, səthlərinin işlənilməsi baxımından cilasız, anqobsuz, bəzəksiz, kobud və səthləri texniki baxımdan işlənilməmiş nümunələrdir [6, s.167]. Böyük ölçülü qabların yer aldığı 3-cü qrupda bitki mənşəli və mineral qatqısı bir arada, eyni zamanda, yalnız bitki mənşəli və yalnız mineral qatqılı, hər iki səthi və ya xarici səthi sığallanmış, daxili səthi sadə (texniki baxımdan işlənilməmiş) nümunələr toplanılmışdır. Göytəpədə daha çox rast gəlinən 4-cü qrupa daxil edilmiş saxsı məmulatının hamısı qapalı formalı olub, divarları ağıza doğru getdikcə daralır. Qabların üzərində qabartma şəklində lent və ya düymə formalı ya da fiqurlu bəzəklər vardır. 5-ci qrupda aid keramika məmulatının gilinin tərkibi həm saman, həm də qeyri-üzvi tərkiblidir. Bitum daha çox fraqmentlərin ağız qismində bütün ətrafını əhatə edərək, lent şəklində bəzək yaratmaq məqsədi ilə tətbiq edilmişdir. 6-cı qrupa impress naxışlı keramika məmulatları aiddir [3, s.290].

Göytəpədə aşkarlanmış qablar iki formada, yəni qapalı və açıq olaraq hazırlanmışdır. Qapalı forma adlandırdığımız bu bölməyə orta və iri ölçülü, şargövdəli, gövdə hissədən ağıza doğru daralaraq forma verilmiş küpə tipli qablar daxil edilmişdir. Açıq formalı qablara isə kasa, tava və xeyrələr aiddir.

***Daş alətlər.*** Qazıntılar zamanı obsidiandan ibarət daş alətlər aşkar olunmuşdur. Obsidiandan düzəldilmiş müxtəlif növ kəsici alətlərin təsərrüfatda geniş istifadəsi, bu materialların trasoloji araşdırmaları nəticəsində yerli sakinlərinin yerli obsidian yataqlarından başqa, Cənub-Şərqi Anadolu ərazisindəki yataqlardan da istifadə etdikləri müəyyənləşdirilmişdir. Ərazidən tapılmış obsidiandan düzəldilmiş 4 ədəd ox ucluğunun prototipləri Suriya ərazisindəki Neolit dövrünə aid Təlləs-səbi əl-əbyəd adlandırılan qədim yaşayış yerinin materialları ilə eynilik təşkil edir [4, s.18].

Böyük obsidian parçaları seçilib götürüldükdən sonra onlardan səthi düz olan nukleuslar hazırlanırdı. Qəlpələmə üsulu texnologiyasının tətbiqi başlıca olaraq hər iki tərəfi iti uclu ülgüc olan kəsici alətlərin hazırlanması məqsədini daşıyırdı. Bəsit düzəldilmiş belə alətlərdən əlavə, çox sayda çaxmaq daşından iti uclu alət və qəlpə hissələri aşkar edilmişdir. Bunlar çox güman ki, dəri emalı istehsalı üçün və digər təbii materiallar üçün istifadə edilmişdir. Bununla yanaşı, çaxmaqdaşından olan alətlər kobud parçalardan hazırlanmışdır. Çaxmaqdaşından oraq dişlərinə də rast gəlinmişdir. Ümumiyyətlə, qazıntılar zamanı müxtəlif funksiya daşıyan daş əmək alətləri aşkar edilmişdir. Bunlara dən daşları, həvəng-

dəstə alətləri, daş lövhələr, əzmək üçün daş alətlər və əl daşları kimi erkən əkinçi tayfalara məxsus tipik alətlər aiddir.

Sümükdən düzəldilmiş nümunələr əsasən bizlər, iynələr, qaşovlar, əkin üçün əl oraqları, kürəklər, maral buynuzundan toxalar, çoxlu sayda balta və çəkiclərdən ibarətdir. Çoxunun üzərində çərtmə zolaqlar, bəzəklər və fiqurlu təsvirlər vardır. Sümük alətlərin bir qismi əkinçilikdə, digərləri isə dəri istehsalında heyvan dərisinin soyulması və emalı məqsədilə istifadə edilmişdir [9].

Aşkar olunmuş ən maraqlı tapıntılar arasında üzəri yaxşı şüyrələnmiş çəkic və heyvan fiqurlu əsa başlığıdır. Ornamentli çəkic və fiqurlu əsa başlığı tayfadaxili idarəçiliyin əsas rəmzi rolunda çıxış etmişdir. Kiçik tapıntılar içərisində sakinlərin dini təsəvvürlərini əks etdirən məhsuldarlıq və bolluq rəmzini nümayiş etdirən qadın heykəlcikləri xüsusilə diqqət cəlb edir.

Göytəpə yaşayış yerindən aşkar edilən müxtəlif tipli sümük alətlərin bir qismi əkinçilikdə istifadə olunurdu. Bunlar əsasən torpaqda əkin işlərinin görülməsi üçün buynuzdan düzəldilmiş müxtəlif tipli, üzərində bir və yaxud bir neçə dəlikləri olan qazma alətləri və toxalardır. Torpaq işlərində istifadə edilmiş sümük məmulatları rəngarəng olub müxtəlif çeşidlidirlər. Bu onu göstərir ki, Göytəpə sakinləri əkinçilikdə yüksək texnoloji inkişafa malik olmuşlar. Belə ki, Göytəpə sakinlərinin torpaq işlərinin görülməsində müxtəlif çeşidli alətlərdən istifadəsi onların torpaqla məhsuldar işlədiyini bildirir [4, s.21].

Göytəpənin sümük alətləri arasında dəri istehsalını şərtləndirən bir sıra məmulatlara da rast gəlinmişdir. Heyvanın dərisinin soyulması və emalı ilk növbədə geyim ehtiyatı ilə bağlı olmuşdur. Qeyd etməliyik ki, Göytəpədə toxuculuğu əks etdirən materiallara rast gəlinmişdir Bunlar əsasən keramikadan olan iy başlıqları və sümükdən olan iynə və bizlərdir. Bu tapıntılar Göytəpə sakinlərinin təsərrüfat həyatında dəriçilik və toxuculuğun mühüm yer tutduğunu göstərir.

***Bitki və osteoloji qalıqlar***. Qazıntılar zamanı aşkar olunmuş bitki qalıqları müxtəlif çeşidli arpa və buğdadan ibarətdir. Göytəpənin bitki qalıqları arasında arpa və buğda xüsusilə mühüm əhəmiyyət kəsb edir. İlk baxışdan Cənubi Qafqazda arpa və buğdanın mövcud olması, əkinçiliyin Orta Şərqdən "birbaşa tətbiqinə" işarə olsa da, digər tərəfdən isə arpa və buğdanın növlərinin üstünlük təşkil etməsi və ciddi tələbatın olması faktı digər fərziyyələrin, yəni arpa və buğdanın mənşə etibarilə yerli olması məsələləri üzərində düşünməyə bizə əsas verir. Tədqiqatlar zamanı ərzaq məhsullarının saxlanılması üçün nəzərdə tutulmuş gil quyuların içərisində yovşan bitkisinə rast gəlinmişdir. Ehtimal ki, sakinlər yovşandan antiseptik dərman vasitəsi kimi, bitkinin tüstüsündən isə həşəratları öldürmək və ilanları ərazidən uzaqlaşdırmaq üçün istifadə etmişlər. Abidənin kompleks analizi nəticəsində yerli əkinçi-maldar tayfaların Orta Şərqin sinxron mədəniyyətləri ilə sıx təmasda olduqları müəyyənləşdirilmişdir [4, s.25].

Göytəpədə aparılan ilkin tədqiqatlar göstərir ki, yerli neolit sakinlərində maldarlıq güclü inkşaf etmişdir. Yaşayış yerində qoyun, keçi, inək və donuz kimi əhilləşdirilmiş ev heyvanlarının çoxsaylı fauna qalıqları aşkar edilmişdir. Tapılmış heyvanların onurğa sümüklərinin deformasiyası onların ətindən qida kimi istifadə edildiyini göstərir. Onların ətraflı öyrənilməsi çox güman ki, Cənubi Qafqazda heyvanların əhlilləşdirilməsi məsələlərinə aydınlıq gətirməklə yanaşı, həm də, sümükişləmə məmulatının zəngin olan ərazidə istehsal texnologiyasına da aydınlıq gətirməyə şərait yaradır [4, s.25].

Tədqiqatlar zamanı ərzaq məhsullarının saxlanılması üçün nəzərdə tutulmuş gil quyuların içərisində yovşan bitkisinə rast gəlinmişdir. Ehtimal ki, sakinlər yovşandan antiseptik dərman vasitəsi kimi, bitkinin tüstüsündən isə həşəratları öldürmək və ilanları ərazidən uzaqlaşdırmaq üçün istifadə etmişlər. Abidənin kompleks analizi nəticəsində yerli əkinçi-maldar tayfaların Orta Şərqin sinxron mədəniyyətləri ilə sıx təmasda olduqları müəyyənləşdirilmişdir.

***Nəticə.*** Göytəpədə aparılan tədqiqatlar göstərir ki, abidə Qafqazın son neolit dövrünü əks etdirən qədim erkən əkinçilərin Şomutəpə mədəniyyyətinə aiddir. Göytəpə arxeoloji kompleksinin üstünlüyü məzmun etibarı ilə daha keyfiyyətli məlumatlar ilə asosiasiya olunmasıdır. Tədqiqatlar zamanı abidədə əsaslı statistik strateqrafiya müayinəsi aparılmışdır. Materiallar müvafiq olaraq e.ə. VI minilliyin əvvəlinə və ortalarına aid edilir və yaşayış yerinin ümumi mədəniyyətini və eləcə də, xronoloji inkişafını müəyyənləşdirməyə əsaslı zəmin yaradır. Göytəpənin memarlıq üslubunun mükəmməl mühafizəsi, yaşayış tikililəri ilə əlaqəli məkan etibarilə bir yerdə aşkar olunması dövrün təbiəti və cəmiyyəti haqqında, Göytəpə sakinlərinin həyat tərzinin mümkün təsəvvürünə şərait yaradır.

ƏDƏBİYYAT

1. Azərbaycan arxeologiyası. Bakı: "Xəzər Universiteti" nəşriyyatı, 2018, 198 s.
2. Azərbaycanda arxeoloji tədqiqatlar - 2011. Bakı: "Xəzər Universiteti" nəşriyyatı, 2012, 402 s.
3. Ələkbərov V.Ə. Göytəpə neolit dövrü abidəsi // Tarix və onun problemləri, № 2, 2015a, s.289-293.
4. Quliyev F.E., Nişiyaki Y., Sivilizasiyanın başlanğıc nöqtəsi-Göytəpə neolit dövrü abidəsi. Bakı: CBC nəşriyyatı, 2012, 32 s.
5. Нариманов И.Г. Археологические исследование поселения Шомутепе в 1963 г / Археологические исследования в Азербайджане (Сборник статей). Баку: Издательство АН Азерб. ССР, 1965, с.45-53
6. Alakbarov V. Pottery production at Neolithic Göytepe (West Azerbaijan) // Hileya: naukovyy visnyk, vypusk 102, №11, 2015, pp.166-169.
7. Hansen, S., and G. Mirtskhulava. 2012. "The Neolithic Settlement of Aruchlo: Report on the Excavations in 2009-2011." Archäologische Mitteilungen aus Iran und Turan 44:58-86.
8. 2009 Excavations of a Neolithic settlement at Goytepe (Azerbaijan): in Proceedings of the International Symposium Baku: Azerbaijan- Land between East and West, April 1-3, 2009, pp.29-30.
9. Prezident İlham Əliyev Tovuz rayonu ərazisində Göytəpə neolit dövrü arxeoloji abidəsi ilə tanış olmuşdur / Azərbaycan Respublikası Prezidentinin rəsmi sayı, 12 aprel 2012. - https://president.az/az/articles/view/4674 [30.04.2026].
10. Göytəpə yaşayış yeri / Azərbaycan Milli Ensiklopediyası, "Azərbaycan" xüsusi cildi. Bakı, "Azərbaycan Milli Ensiklopediyası" Elm Mərkəzi, 2007, 881 s. - http://ensiklopediya.gov.az/az/terms/23213/cild/25 [30.04.2026].

**AISHA ISMAYILZADE**
*2nd year master's student of the Department of Archaeology and Ethnography,*
*Baku State University*

## GOYTEPE SITE IN MODERN RESEARCH

The article presents a study of the Goytepe Neolithic settlement located in the Ganja-Gazakh region of Azerbaijan based on modern archaeological research. It is noted that Goytepe belongs to the Shomutape culture, one of the oldest and earliest agricultural settlements in the South Caucasus, dating back to the 6th millennium BC. As a result of the excavations, circular mud brick buildings, hearths, farm structures, as well as rich material and cultural samples - ceramics, stone and bone tools were discovered. As a result of the research, it was determined that Goytepe developed not only in connection with local, but also with Middle Eastern cultures. A comprehensive study of the monument is of great importance in terms of understanding the socio-economic and cultural development of the Neolithic period in the South Caucasus.

*Keywords:* Neolithic, agriculture, Goytepe, civilization, Shomutape.

*Daxil olma tarixi*: 30.04.2026-cı il.
*Çapa imzalanma tarixi*: 05.05.2026-cı il.

Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları
Studies of the Turkic World Young Researchers Association
№2(14) 2026, 11-14

UOT 372.8:94

**ARZU TAHİRZADƏ**
*Bakı Dövlət Universitetinin II kurs magistrantı*
**tahirzadarzu@gmail.com**

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ VƏTƏN MÜHARİBƏSİ MÖVZULARININ ÖYRƏDİLMƏSİNDƏ MEDİA RESURSLARININ EFFEKTİVLİYİ

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Naqif Həmzəyev

*Məqalədə kütləvi informasiya vasitələrinin materiallarından istifadə edərək orta məktəblərdə 44 günlük Vətən Müharibəsinin tədrisinin potensialı araşdırılır. Tədqiqatda kütləvi informasiya vasitələrinin pedaqoji dəyəri, təhsildəki funksiyası və tətbiq strategiyaları araşdırılıb. Məlum olub ki, şagirdlərin mövzuya marağı artır, tarixi bilikləri genişlənir və tənqidi düşüncə qabiliyyətləri televiziya proqramları, sənədli filmlər, xəbər məqalələri və digər media vasitələri vasitəsilə inkişaf etdirilir. Məqalədə kütləvi informasiya vasitələrinin resurslarından istifadənin faydaları ilə yanaşı, yaranan çətinliklər, məsələn, informasiyanın subyektivliyi, material seçimi və yaşla bağlı narahatlıqlar da vurğulanır. Eyni zamanda, bu resurslardan səmərəli istifadə üçün metodoloji təkliflər də verilir. Nəticə olaraq, kütləvi informasiya vasitələrinin resurslarının tədris prosesinə daxil edilməsinin tədrisin keyfiyyətini artırdığı və şagirdlərin vətəndaşlıq mövqeyinin inkişafına əhəmiyyətli dərəcədə təsir etdiyi görünür.*

*Açar sözlər:* pedaqoji yanaşmalar, tənqidi düşüncə, interaktiv təlim, informasiya savadlılığı, media materialları, 44 günlük Vətən Müharibəsi, ümumtəhsil məktəbləri və təhsil prosesi.

***Giriş.*** 27 sentyabr 2020-ci ildə başlayan və Azərbaycanın tarixi qələbəsi ilə başa çatan 44 günlük Vətən Müharibəsi ölkənin ictimai-siyasi həyatına və təhsil sisteminə dərin təsir göstərib. İnformasiya axınının artması, media resurslarının geniş yayılması və rəqəmsal platformaların aktiv istifadəsi səbəbindən bu dövrdə təhsil prosesinə yeni metodlar daxil edilməli idi. Müəllimlər bu materialı müvafiq şəkildə istiqamətləndirmək və təhsil məqsədləri üçün, xüsusən də şagirdlərin müharibə haqqında müxtəlif media platformaları vasitəsilə məlumat əldə etdiyi orta məktəblərdə istifadə etmək üçün təcili məsuliyyət daşıyırlar [1]. Buna görə də, bu tədqiqatın əsas məqsədi 44 günlük Vətən Müharibəsi zamanı media resurslarından necə istifadə edildiyini və onların orta təhsildə pedaqoji və elmi baxımdan necə istifadə edilə biləcəyini araşdırmaqdır.

Media resursları müasir təhsil nəzəriyyələrində təlim prosesinin səmərəliliyini artıran əsas pedaqoji elementlərdən biri hesab olunur. Tədqiqatçılar vizual və audiovizual resurslardan istifadənin şagirdlərin diqqətini cəmləmək, məzmunu daha dərindən anlamaq və öyrəndiklərini uzunmüddətli yaddaşda saxlamaq qabiliyyətini artırdığını aşkar ediblər. Eyni zamanda, informasiya cəmiyyətinin inkişafı fonunda media savadlılığı ideyası daha da vacib hala gəlib. Bu mənada, 44 günük Vətən Müharibəsi dövründə aparılan informasiya müharibəsi şagirdlərdən faktları öyrənməklə yanaşı, müxtəlif informasiya mənbələrini qiymətləndirmək, müqayisə etmək və qiymətləndirmək bacarığına sahib olmağı tələb edirdi. Buna görə də, pedaqoji və sosial baxımdan təhsil prosesinə media resurslarının daxil edilməsi çox vacibdir.

- **İnformasiyanın funksiyası**

Media resursları Vətən Müharibəsi boyunca şagirdlərə operativ və hərtərəfli bilik verməkdə çox vacib idi. Tələbələr sosial media platformaları, xəbər portalları və televiziya stansiyaları vasitəsilə paylaşılan məlumatlar sayəsində hadisələri real vaxt rejimində izləyə və tarixi prosesləri birbaşa müşahidə etməyə imkan verən vəziyyətlər yarada bildilər.

- **Təhsilin rolu**

Məlumat çatdırmaqla yanaşı, media resursları da təhsil məqsədinə xidmət edirdi. Tarixi hadisələrin daha yaxşı təşkil olunmuş və vizual təsviri müharibə ilə bağlı hazırlanmış sənədli filmlər, analitik

proqramlar və reportajlar sayəsində mümkün oldu. Tələbələr akademik bilikləri ilə real dünya resursları arasında əlaqə qura bildilər.

• **İdeoloji və vətənpərvərlik rolları**

Vətənpərvərliyin artırılması münaqişə zamanı medianın ən vacib rollarından biri idi. Tələbələrin milli kimlik, vətəndaşlıq iştirakı və ölkələrinə bağlılıq hissinin inkişafına şəhidlərin həyatı, şücaət hərəkətləri və ordunun nailiyyətləri haqqında paylanan materiallar böyük təsir göstərmişdir [2].

• **Tənqidi Düşüncənin Funksiyası**

Media mühitinin ziddiyyətli və müxtəlif məlumatların bolluğu tələbələrin tənqidi düşünmə qabiliyyətlərini inkişaf etdirmələrini zəruri etmişdir. Şagirdlər müəllimlərinin rəhbərliyi altında bir çox mənbədən məlumatları qiymətləndirmək, yalan məlumatları aşkar etmək və qərəzsiz mühakimələr yürütmək bacarığını qazanıblar.

Tədqiqatda aşağıdakı üsullardan istifadə edilmişdir:

1. akademik və elmi ədəbiyyatın araşdırılması, media məzmununun təhlili,
2. Azərbaycan məktəblərində keçirilən açıq dərslərin və fəaliyyətlərin xülasəsi.

Bu üsullar fənnin nəzəri və praktik aspektlərini araşdırmağa imkan vermişdir [4].

Qeyd etmək lazımdır ki, Vətən Müharibəsi haqqında təlimlər Azərbaycanda mərkəzləşdirilmiş tədris planının bir hissəsi kimi deyil, təhsil işçilərinin və məktəblərin təşəbbüsü ilə tədris olunurdu. Buna baxmayaraq, müəyyən təkrarlanan nümunələr qeydə alınmışdır.

2020-2021-ci tədris ili ərzində ölkənin orta məktəblərində "Qələbə Dərsi", "Vətən Müharibəsinin Qəhrəmanları" və "Qarabağ Azərbaycandır" kimi fənlər üzrə dərslər keçirilmişdir.

Bu dərslər zamanı aşağıdakı media materiallarından istifadə edilmişdir:

1. Prezidentin ictimai çıxışlarının videoları
2. Müdafiə Nazirliyinin rəsmi döyüş xronikaları
3. AzTV, ITV və digər kanal reportajları
4. Müsahibələr və sənədli filmlər

Bu cür dərslər xüsusilə Bakıdakı regional məktəblərdə və orta məktəblərdə (məsələn, Bakı Şəhər Təhsil İdarəsinin tabeliyində olan məktəblərdə) geniş yayılmışdır.

Bu dərslərdə video reportajlar, rəsmi çıxışlar və sənədli materiallar istifadə olunan əsas mənbələr olmuşdur.

Bakı və ətraf ərazilərdəki bir neçə məktəbdə aşağıdakı mövzularda açıq dərslər keçirildi:

"44 günlük münaqişənin xronoloji araşdırılması"

"Medianın təsiri və informasiya müharibəsi"

"Qarabağın coğrafi mövqeyi və strateji əhəmiyyəti"

"Azərbaycan əsgərlərinin şücaətləri"

Bu dərslər zamanı şagirdlərə müxtəlif media materialları nümayiş etdirildi və onlardan onları müzakirə edib təhlil etmələri istəndi.

Regional təhsil şöbələri tərəfindən təşkil edilən tədbirlər çərçivəsində məktəblərdə müharibə mövzusunda söhbətlər, seminarlar və təqdimatlar keçirildi. Bu fəaliyyətlərdə media resurslarından geniş istifadə edildi ki, bu da şagirdləri mövzunu daha dərindən araşdırmağa təşviq etdi.

Media resurslarının təhsil prosesinə daxil edilməsindən aşağıdakı faydalı nəticələr əldə edildi:

– sinifdə artan iştirak və həvəs;
– şagirdlərin real hadisələrlə əlaqə qurma qabiliyyətinin artması;
– analitik və tənqidi düşüncə qabiliyyətlərinin yaxşılaşdırılması;
– milli şüurun və vətənpərvərliyin inkişafı.

Bununla belə, media resurslarından istifadə ilə bağlı risklər mövcuddur. Şagirdlərin psixoloji vəziyyətinə müharibə ilə bağlı materialların emosional təsiri mənfi təsir göstərə bilər. Bundan əlavə, şagirdlər yalan və ya təhrif olunmuş materialların yayılması nəticəsində yanlış məlumatlandırıla bilərlər. Bu mənada, müəllimlərin media resurslarını diqqətlə seçməsi və onları təhsil məqsədlərinə uyğun şəkildə təqdim etməsi xüsusilə vacibdir.

Tədqiqata görə, 44 günlük Vətən Müharibəsi dövründə media resursları həm məlumatverici, həm də tədris vasitəsi kimi orta məktəb təhsili üçün çox vacib idi. Onların məqsədyönlü və metodik tətbiqi

şagirdlərin bilik səviyyələrini xeyli artırır, tənqidi düşüncə qabiliyyətlərinin inkişafını təşviq edir və onların vətəndaş mövqeyini formalaşdırır. Gələcəkdə bu sahədə metodoloji vasitələrin hazırlanması, təlimatçıların media savadlılığı üzrə təlim keçməsi və media resurslarının təhsil prosesinə daha metodik şəkildə inteqrasiyası xüsusilə vacib olacaq [4].

Tədqiqatın nəticələri nəzərə alınmaqla aşağıdakı tövsiyələr uyğun hesab olunur:

İlk növbədə, orta məktəblərdə media resurslarından istifadəyə dair ardıcıl metodoloji yanaşma hazırlanmalıdır. Müəllimlər Vətən Müharibəsi mövzusunda dərslərin strukturlaşdırılması üçün xüsusi metodoloji vasitələrə, dərs planlarına və təkliflərə çıxış əldə etməlidirlər. Bu, keyfiyyəti artıracaq və təhsil prosesində ardıcıllığı təmin edəcək;

İkincisi, müəllimlər rəqəmsal pedaqogika və media savadlılığı sahəsində daha çox peşəkar inkişaf almalıdırlar. Müəllimlər media resurslarını seçmək, qiymətləndirmək və istifadə etmək bacarıqlarını artırmaq üçün təlimlərdə, seminarlarda və qabaqcıl təlim proqramlarında iştirak etməlidirlər;

Üçüncüsü, tədris prosesində istifadə ediləcək media resurslarının keyfiyyətinə və etibarlılığına zəmanət vermək vacibdir. Bunun üçün nüfuzlu və rəsmi mənbələrdən ibarət vahid elektron platforma uyğun olardı. Müəllimlər və şagirdlər yüksək keyfiyyətli, təhlükəsiz məzmuna daxil olmaq üçün bu platformadan istifadə edə bilərlər;

Dördüncü, media resurslarından istifadə edərkən uşaqların yaşı və psixoloji xüsusiyyətləri nəzərə alınmalıdır. Hərbi mövzu ilə bağlı materialların emosional təsiri qiymətləndirilməli və uşaqlar üçün uyğun şəkildə təqdim edilməlidir. Bu baxımdan məktəb psixoloqlarının prosesə cəlb edilməsi faydalı ola bilər;

Beşincisi, tələbələrin tənqidi düşüncə və informasiya təhlükəsizliyi bacarıqlarına yiyələnməsinə kömək etmək üçün media savadlılığı dərslərinin sayını artırmaq məsləhətdir. Yalan məlumatları müəyyən etmək, mənbələri yoxlamaq və qərəzsiz mühakimə yürütmək kimi bacarıqlar şagirdlərə metodik şəkildə öyrədilməlidir;

Altıncısı, sinif otaqlarında media əsaslı layihə əsaslı təlim fəaliyyətlərini təşviq etmək vacibdir. Şagirdlərin tədqiqatları, təqdimatları və video layihələri onların analitik və yaradıcı düşüncə bacarıqlarını inkişaf etdirməyə kömək edəcək [5].

Nəhayət, 44 günlük Vətən Müharibəsi haqqında tədris üçün media resurslarından istifadə şagirdlərə tarixi hadisələri öyrənməklə yanaşı, vətəndaşlıq borcu, milli ideallar və sosial fəaliyyət kimi xüsusiyyətləri inkişaf etdirməyə kömək etməlidir.

***Nəticə.*** Tədqiqata görə, 44 günlük Vətən Müharibəsi dövrü Azərbaycan təhsil sistemində, xüsusən də orta məktəblərdə tədris strategiyalarını əhəmiyyətli dərəcədə dəyişdirmiş və təhsil prosesində media resurslarının əhəmiyyətini artırmışdır. Münaqişə zamanı yaradılan intensiv informasiya mühiti şagirdlərin öyrənmə tərzini dəyişdirmişdir ki, bu da ənənəvi tədris üsullarına əlavə olaraq rəqəmsal və media əsaslı təlim resurslarından istifadəni tələb etmişdir.

Tədqiqatın nəticələri göstərmişdir ki, media resursları həm müasir didaktik vasitə, həm də orta məktəb tədrisində əlavə vasitə kimi xidmət etmişdir. Onların istifadəsi təlim prosesinin effektivliyini artırmış, şagirdlərin fənnə marağını artırmış və dərsləri daha interaktiv, vizual və real həyatda təşkil etməyə imkan yaratmışdır. Şagirdlər tarixi hadisələri daha dərindən anlaya, məlumatları vizuallaşdıra və Vətən Müharibəsi ilə bağlı məsələləri öyrətmək üçün media materiallarından istifadə edildikdə hadisələr arasında səbəb-nəticə əlaqələrini müəyyən edə bilmişlər.

Şagirdlərin vətənpərvərlik hisslərinin inkişafına media resurslarından istifadə də böyük təsir göstərmişdir ki, bu da onların milli kimlik və vətəndaşlıq borcunu gücləndirmişdir. Tələbələrin sosial borc hissi real həyat hadisələrinin, rəsmi açıqlamaların və cəsarət hərəkətlərinin təsviri nəticəsində artmışdır. Eyni zamanda, tədqiqat göstərir ki, şagirdlərin tənqidi düşüncə bacarıqlarının inkişafı media mühitinin müxtəlif və bəzən ziddiyyətli məzmunu ilə stimullaşdırılıb. Müasir təhsil sisteminin əsas məqsədlərindən biri kimi bu, çox əhəmiyyətlidir.

Bununla belə, araşdırma həmçinin göstərir ki, hazırda təhsil prosesində media resurslarından istifadəni dəstəkləyən tam strukturlaşdırılmış və vahid metodoloji yanaşma yoxdur. Respublika səviyyəsində standartlaşdırılmış metodoloji yardımın olmaması bu prosesin uğurunu məhdudlaşdıran prob-

lemlərdən biridir, baxmayaraq ki, fərdi müəllim təşəbbüsləri və regional tədbirlər bu sahədə müəyyən irəliləyişlər əldə edib.

Bundan əlavə, hərbi mövzulu media məzmununun emosional təsiri, yanlış məlumatlandırma ehtimalı və yaş uyğunluğu kimi narahatlıqlar da xüsusi diqqət tələb edir. Bu mənada media resurslarından texniki baxımdan əlavə olaraq pedaqoji və psixoloji baxımdan da müvafiq şəkildə istifadə edilməlidir.

ƏDƏBİYYAT

1. Cəfərli R. Azərbaycanın qələbəsi bütün türk dünyasının zəfəridir / "Azərbaycan" qəz., 2021, 13 aprel, s.16.
2. Hacıyev İ. Azərbaycan dövlətçiliyinə xidmət nümunəsi / "İki sahil" qəz., 2020, 16 dekabr, №225, s.16-27
3. Həbibbəyli İ. Heydər Əliyev mövqeyi / "Azərbaycan" qəz., 2020, 9 may, № 91, s.14
4. Rüstəmov R. Türk dünyasına Zəfər sevinci yaşadan Ali Baş Komandan / "Xalq qəzeti", 2020, 26 dekabr, s.8
5. Sultanova P. Zəngəzur məsələsi və türk dünyası / "525-ci qəzet", 2021, 14 aprel, s.16

**ARZU TAHIRZADEH**
*2nd year master degree student of Baku State University*

**THE EFFECTIVENESS OF MEDIA RESOURCES IN TEACHING THE PATRIOTIC WAR IN GENERAL EDUCATION SCHOOLS**

This article explores the potential for teaching the 44-day Patriotic War in secondary schools using materials from the mass media. The study examined the pedagogical value of mass media, its function in education, and its application strategies. It was discovered that students' interest in the subject is piqued, their historical knowledge is expanded, and their critical thinking abilities are developed through television programs, documentaries, news articles, and other media tools. The article highlights the benefits of using mass media resources as well as the challenges that arise, such as the subjectivity of the information, material selection, and age-related concerns. Methodological suggestions for the efficient use of these resources are also provided at the same time. In conclusion, it is seen that incorporating mass media resources into the teaching process enhances the caliber of instruction and significantly influences the development of students' civic stances.

*Keywords:* pedagogical approaches, critical thinking, interactive learning, information literacy, media materials, the 44-day Patriotic War, comprehensive schools, and the educational process.

*Daxil olma tarixi*: 28.04.2026-cı il.
*Çapa imzalanma tarixi*: 05.05.2026-cı il.

*Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları*
*Studies of the Turkic World Young Researchers Association*
*№2(14) 2026, 15-22*

**UOT 16**

**ASYA MƏHƏRRƏMOVA**
*Qarabağ Universiteti Pedaqoji fakültəsinin*
*İngilis dili müəllimliyi ixtisasının (SABAH qrupu) III kurs tələbəsi*
**aisiyiai.m@gmail.com**

# RƏQƏMSAL ÜNSİYYƏTDƏ MƏNTİQİ XƏTALAR

*Elmi rəhbər:*
Qarabağ Universitetinin müəllimi Fizzə Məmmədova

*Bu tədqiqat işində müasir Azərbaycan rəqəmsal media məkanında, xüsusilə YouTube və Facebook platformalarında istifadəçilər tərəfindən geniş şəkildə tətbiq olunan "Ad Hominem" (şəxsiyyətə hücum) arqumentasiya xətaları pragma-dialektik metodla tədqiq edilir. Rəqəmsal kommunikasiyanın sürətli inkişafı ictimai müzakirələri yeni müstəviyə daşısa da, rasional arqumentasiya əvəzinə şəxsi hücumların üstünlük təşkil etməsi ciddi sosiolinqvistik problemə çevrilmişdir. Tədqiqatın əsas məqsədi qeyri-ənənəvi estetik seçimlərə (sırğa taxmaq, fərqli geyim tərzi və s.) malik gənclərə qarşı yönələn hücumların linqvistik strukturlarını və strateji funksiyalarını müəyyən etməkdir. Tədqiqat zamanı Frans van Eemerenin pragma-dialektik nəzəriyyəsi və Yeliz Demirin (2020) təsnifat modelləri əsas götürülmüşdür. Empirik material olaraq "Baku TV" və digər populyar media kanallarının video-çarxlarına yazılmış real istifadəçi şərhləri seçilmiş, ümumilikdə 20-yə yaxın şərhdən 5 ən tipik nümunə akademik analiz üçün seçilmişdir. Analizlər göstərir ki, Azərbaycanın rəqəmsal seqmentində "Ad Hominem" sadəcə bir məntiqi səhv deyil, həm də rəqibi sosial kimlik və maskulinlik anlayışları üzərindən susdurmaq üçün istifadə olunan güclü bir manipulyasiya alətidir. Seçilmiş 5 şərhin sistematik pragma-dialektik analizi üç əsas hücum növünün - Abusive, Tu Quoque və Slippery Slope - Azərbaycan rəqəmsal diskursunda dominant olduğunu sübut edir. Bu hücumlar "sükut spiralı" yaradaraq gənclərin özünüifadə azadlığına mənfi təsir göstərir. Tədqiqatın sonunda rəqəmsal diskursun keyfiyyətini artırmaq üçün ali təhsil müəssisələrində kritik təfəkkür və rəqəmsal etika dərslərinin keçirilməsi təklif olunur.*

*Açar sözlər:* Ad Hominem, arqumentasiya xətaları, rəqəmsal diskurs, pragma-dialektika, linqvistik aqressiya.

## GİRİŞ

***1.1. Tədqiqatın aktuallığı və rəqəmsal transformasiya***. XXI əsrin ilk rübündə kommunikasiya texnologiyalarının sürətli inkişafı fərdlərin informasiya mübadiləsi üsullarını kökündən dəyişmişdir. Əvvəllər ənənəvi media (televiziya, qəzet) tərəfindən idarə olunan ictimai diskurs, bu gün sosial şəbəkələrin (YouTube, Facebook, TikTok) vasitəçiliyi ilə demokratikləşmiş, lakin eyni zamanda "xaotikləşmişdir". Sahai [2022] qeyd edir ki, bu xətalar onlayn müzakirələrdə "görünməz bir divar" yaradaraq rasional dialoqun qarşısını alır. Ifan [2022] isə vurğulayır ki, dil artıq sadəcə ünsiyyət deyil, ideoloji üstünlüyü qorumaq üçün bir "silah" kimi istifadə olunur.

Bu "xaosun" ən bariz təzahürü isə rəqəmsal platformalarda aparılan müzakirələrin məntiqi-rasional müstəvidən emosional-təhqiramiz müstəviyə keçməsidir. Arqumentasiya nəzəriyyəsində "Ad Hominem" (şəxsiyyətə hücum) olaraq adlandırılan məntiq xətası, müasir Azərbaycan rəqəmsal media məkanında sadəcə bir dil qüsuru deyil, həm də bir sosial basqı və manipulyasiya aləti kimi çıxış edir. Bu baxımdan, rəqəmsal mühitdə istifadəçilərin bir-biri ilə necə mübahisə etdiyini və bu mübahisələrdə şəxsiyyətə hücum metodlarından necə istifadə olunduğunu araşdırmaq həm dilçilik, həm də sosiopsixologiya baxımından müstəsna aktuallıq kəsb edir.

***1.2. Arqumentasiya nəzəriyyəsi və Pragma-Dialektik çərçivə***. Arqumentasiya, fərdlərin hər hansı bir iddiaya dair ortaq razılığa gəlmək və ya rəqibi inandırmaq üçün irəli sürdükləri məntiqi mülahi-

zələr silsiləsidir. Frans van Eemeren və Rob Grootendorst tərəfindən inkişaf etdirilən Pragma-Dialektik Nəzəriyyə, arqumentasiyanı sadəcə bir məntiq məsələsi deyil, həm də bir nitq aktı kimi qiymətləndirir. Bu nəzəriyyəyə görə, ideal bir tənqidi müzakirə (critical discussion) dörd mərhələdən keçməlidir: üz-üzə gəlmə (confrontation), açılış (opening), arqumentasiya (argumentation) və nəticə (concluding).

Lakin sosial şəbəkələrdəki şərhlər analiz edildikdə görünür ki, istifadəçilər çox vaxt elə ilk mərhələdə- "üz-üzə gəlmə" (confrontation) zamanı "Ad Hominem" xətalarına yol verərək müzakirəni iflic edirlər. Yeliz Demir [2020] qeyd edir ki, bu xətaların əsas funksiyası rəqibin arqumentini deyil, rəqibin özünü diskvalifikasiya etməkdir. Yəni, "sənin bu mövzuda danışmağa ləyaqətin və ya haqqın yoxdur" mesajı verməkdir. Bu nəzəriyyəni tətbiq etmək üçün araşdırmaçı yalnız iddiaların məzmununu deyil, həm də onların kommunikativ funksiyasını -müzakirədə kim susub, kimin haqqı tanınıb- analiz etməlidir. Bu baxış bucağı bizim tədqiqata metodoloji dərinlik qatır.

***1.3. "Ad Hominem"in taksonomiyası və strategiyaları***. Tədqiqatın giriş hissəsində "Ad Hominem"in alt növlərini dərindən anlamaq, sonrakı empirik təhlillər üçün zəruridir. Tarumingkeng [2024] və Rahardinin [2025] araşdırmalarına istinadən qeyd edə bilərik ki, şəxsiyyətə hücum üç əsas formada təzahür edir:

**Abusive Ad Hominem:** Burada rəqibin xarici görünüşü, intellektual səviyyəsi və ya mənəviyyatı birbaşa hədəf alınır. Azərbaycan seqmentində gənclərin "sırğa taxması" və ya "saçını boyatması" bu növ hücumlar üçün ən tipik bəhanədir.

**Circumstantial Ad Hominem:** Rəqibin fikirləri onun keçmişi, ailəsi və ya sosial mənsubiyyəti ilə əlaqələndirilərək dəyərsizləşdirilir. "*Sənin atan-anan kimdir ki, sən bizə ağıl verirsən?*" sualı bu növün klassik nümunəsidir.

**Tu Quoque:** Bu xəta rəqibin öz arqumenti ilə ziddiyyət təşkil etdiyini iddia edərək onu tutarsızlıqda günahlandırır. "@rxstem" keysində gördüyümüz "*Sən normal qadın olub nə etmisən ki?*" sualı, rəqibin fikrini deyil, rəqibin kompetensiyasını hədəf alan Tu Quoque manevridir. Bu manevrin sosial funksiyası açıqdır: rəqibə "arqumentin yox, sənin özün problemlisin" mesajı vermək.

Patel və digərlərinin [2023] geniş miqyaslı empirik analizləri göstərir ki, rəqəmsal platformalarda Ad Hominem sadəcə arqumentativ xəta deyil, həm də rəqibi sarsıtmaq üçün istifadə olunan qaralama (slander) prekursorudur. Bu tədqiqat sübut edir ki, onlayn mühitdə şəxsiyyətə hücum çox vaxt qarşı tərəfin səsini tamamilə batırmaq və onu müzakirə meydanından simvolik olaraq qovmaq məqsədi daşıyır.

***1.4. Azərbaycan rəqəmsal məkanında gender və kimlik diskursu***. Azərbaycan cəmiyyətində rəqəmsal diskurs çox vaxt ənənəvi dəyərlərlə qlobal modernizm arasındakı toqquşma meydanına çevrilir. Bu toqquşmanın mərkəzində isə gənclərin kimliyi və estetik seçimləri dayanır. Sırğa taxan bir gənc haqqında hazırlanan videoların altındakı şərhlər, cəmiyyətin "maskulinlik" (kişilik) və "əxlaq" anlayışlarını necə bir silah kimi istifadə etdiyini göstərir.

Burada "Ad Hominem" sadəcə bir nitq qüsuru deyil, həm də "digərini" normallaşdırmaq və ya onu sosial məkandan kənarlaşdırmaq üçün bir cəza mexanizmidir. Şərhçilər arqument tapmaqda çətinlik çəkdikdə, rəqibin fiziki varlığına ("*yupka geyin", "sırğanı çıxart*") hücum edərək özlərini intellektual və mənəvi üstünlük mövqeyində yerləşdirirlər. Bu müzakirə modeli yaş, təhsil səviyyəsi və region fərqləri ilə də kəsişir: yaşlı istifadəçilər daha çox Circumstantial növdən, gənc istifadəçilər isə Tu Quoque növündən istifadə etmə meylinə malikdir - bu, gələcək tədqiqatlar üçün mühüm bir istiqamət kəsb edir.

***1.5. Tədqiqatın metodologiyası və hədəfləri***. Bu məqalənin məqsədi Azərbaycanın rəqəmsal media kanallarında (Baku TV, Oxu.az və s.) paylaşılan və yüksək ictimai rezonans doğuran videoların altındakı istifadəçi şərhlərini analiz etməkdir. Tədqiqatın əsas vəzifələri aşağıdakılardır:

– Azərbaycan istifadəçilərinin hansı növ "Ad Hominem" xətalarına daha çox üstünlük verdiyini müəyyən etmək.

– Bu xətaların linqvistik markerlərini (təhqir ifadələri, sarkazm, sual formaları) təsnif etmək.

– Yeliz Demirin [2020] pragma-dialektik analiz modelini yerli nümunələr üzərində ardıcıl tətbiq edərək rəqəmsal aqressiyanın strukturlarını üzə çıxarmaq.

– "Ad Hominem" hücumlarının müzakirə mədəniyyətinə və gənclərin özünüifadəsinə vurduğu sosio-psixoloji zərərləri elmi şəkildə əsaslandırmaq.

Bu giriş hissəsi məqalənin sonrakı empirik bölmələri üçün nəzəri körpü rolunu oynayır. Biz iddia edirik ki, rəqəmsal mühitdə "Ad Hominem" xətalarının artması cəmiyyətdə tənqidi təfəkkürün və arqumentasiya mədəniyyətinin zəifləməsinin birbaşa göstəricisidir.

## TƏDQİQATIN METODOLOGİYASI VƏ NƏZƏRİ ÇƏRÇİVƏSİ

***2.1. Pragma-Dialektik analiz metodunun seçilməsi və əsaslandırılması.*** Bu tədqiqatda arqumentasiya xətalarını analiz etmək üçün Frans van Eemeren və Rob Grootendorst tərəfindən inkişaf etdirilmiş Pragma-Dialektik (PD) yanaşma tətbiq edilmişdir. Bu metodun seçilməsi təsadüfi deyil; ənənəvi məntiqdən fərqli olaraq, PD nəzəriyyəsi arqumentasiyanı yalnız formal quruluşda deyil, həm də nitq aktları (speech acts) və kommunikativ məqsədlər müstəvisində araşdırır.

Yeliz Demir [2020] qeyd edir ki, rəqəmsal platformalarda "Ad Hominem" xətaları çox vaxt bir "strateji manevr" (strategic maneuvering) kimi çıxış edir. Yəni istifadəçi həm müzakirənin qaydalarına riayət edirmiş kimi görünmək, həm də rəqibi effektiv şəkildə susdurmaq üçün "Ad Hominem"dən bir alət kimi istifadə edir. Tədqiqatımızda bu metod hər bir şərhi dörd mərhələli kritik müzakirə modeli (Confrontation → Opening → Argumentation → Concluding) çərçivəsində analiz etməyə imkan verir. Analiz zamanı yalnız şərhin özü deyil, onun dialoq zənciri daxilindəki mövqeyi - yəni sosial effekti - da nəzərə alınır.

***2.2. Nəzəri baza: "Üz Hücumu" (Face-Threatening Act) modeli.*** Tədqiqatın nəzəri bazasını möhkəmləndirmək üçün Tarumingkeng [2024] və Rahardi [2025] tərəfindən irəli sürülən "Üz hücumu" (Face-attack) nəzəriyyəsinə müraciət edilmişdir. Bu müəlliflər iddia edirlər ki, rəqəmsal mühitdə fərdlər rəqibin arqumentini çürütmək yerinə, onun sosial "üzünü" (ictimai imicini) hədəf alaraq onu cəmiyyət qarşısında etibarsızlaşdırırlar.

Azərbaycan seqmentindəki "kişi ol", "yupka geyin" kimi ifadələr məhz bu "üz hücumu" strategiyasının linqvistik markerləridir. Bu yanaşma bizə imkan verir ki, "Ad Hominem" xətalarını sadəcə məntiq xətası deyil, həm də rəqibin sosial statusuna yönəlmiş linqvistik bir basqı növü kimi qiymətləndirək. Musi və Reed [2022] sübut edirlər ki, Ad Hominem kimi məntiq xətaları rəqəmsal platformalarda yarım-yalan xəbərlərin (semi-fake news) yayılmasına zəmin hazırlayır: bir şəxsə qarşı yönələn linqvistik aqressiya, onun haqqında yalan informasiyanın cəmiyyət tərəfindən daha asan qəbul edilməsinə şərait yaradır.

***2.3. Verilənlərin toplanması və seçilməsi.*** Tədqiqatın empirik bazasını formalaşdırmaq üçün "Məqsədli Seçim" (Purposive Sampling) metodundan istifadə olunmuşdur. Tədqiqatın obyekti olaraq Azərbaycanın ən böyük rəqəmsal media resurslarından olan Baku TV-nin YouTube kanalı və bir neçə aktiv Facebook xəbər qrupu seçilmişdir.

Seçim meyarları: Tədqiqata yalnız gənclərin "xarici görünüşü", "sırğa taxması", "geyimi" və "sosial davranışları" ilə bağlı olan, ən azı 10.000 baxış və 100 şərh sayı olan videolar daxil edilmişdir. Analiz vahidi tək bir şərh deyil, "şərh–cavab–əks cavab" formatında olan dialoq zəncirləridir, çünki "Ad Hominem"in təsirini görmək üçün dialektik prosesi bütöv izləmək zəruridir.

Ümumilikdə 20-yə yaxın şərh oxunmuş, onlardan 5-i akademik analiz üçün ən tipik (representative) nümunə kimi seçilmişdir. Seçilmiş 5 nümunənin hamısı aşağıda göstərilən üçlü təsnifat (Abusive / Tu Quoque / Circumstantial) əsasında ardıcıl şəkildə kodlanmış, hər birinin pozduğu pragmadialektik qayda müəyyən edilmişdir. Bu sistematik kodlaşdırma prosesi tədqiqatın etibarlılığını (reliability) artırır və nəticələrin ümumiləşdirilməsinə imkan verir. Şərhlər screenshot (ekran görüntüsü) formatında arxivləşdirilmiş və tədqiqat sənədlərinin arxivindəki qovluqda saxlanılmışdır.

***2.4. Analitik modelləşdirmə: "Ad Hominem"in üçlü təsnifatı.*** Tədqiqat boyunca seçilmiş şərhlər aşağıdakı üç əsas kateqoriya üzrə təsnif edilərək analiz olunmuşdur [Yeliz Demir, 2020]:

– Doğrudan/Təhqiramiz (Abusive): Şəxsiyyətin tam inkarı və təhqiri.

– Dolayısı/Vəziyyətə bağlı (Circumstantial): Şəxsin hərəkətlərini onun şəraiti və ya mənsubiyyəti ilə əlaqələndirərək inkar etmək.

– Sən də həmçinin (Tu Quoque): Rəqibi öz keçmişi və ya tutarsızlığı ilə vurmaq.

Hər şərh bu üç kateqoriyadan birinə yerləşdirilmiş, ardından van Eemerenin 10 dialektik qaydası siyahısından pozulan qayda müəyyən edilmiş, son olaraq şərhin strateji məqsədi - susdurmaq, etibarsızlaşdırmaq və ya mövzudan yayındırmaq - analiz edilmişdir.

***2.5. Tədqiqatın etik məsələləri***. Məlumatların toplanması zamanı istifadəçilərin anonimliyi diqqət mərkəzində saxlanılmışdır. Hər neçə ki, bu şərhlər açıq platformalarda (public domain) paylaşılmışdır, elmi etika naminə bəzi istifadəçilərin adları kodlaşdırılmış (məs: İstifadəçi A, İstifadəçi B) və ya yalnız "@" nişanı ilə göstərilmişdir. Məqsədimiz fərdləri mühakimə etmək deyil, cəmiyyətdəki ümumi arqumentasiya modelini linqvistik cəhətdən təhlil etməkdir.

***2.6. Metodoloji limitlər***. Qeyd etmək lazımdır ki, bu tədqiqat Azərbaycanın bütün sosial media seqmentini tam əhatə etmir. Facebook istifadəçiləri ilə YouTube istifadəçilərinin demoqrafik fərqləri şərhlərin tonuna təsir edə bilər; eləcə də fərqli yaş qrupları, təhsil səviyyəsi və region mənşəyi diskursun xarakterinə müəyyən dərəcədə iz sala bilər. Lakin bizim seçdiyimiz nümunələr "Ad Hominem" xətalarının universal və yerli xüsusiyyətlərini üzə çıxarmaq üçün kifayət qədər zəngindir.

## AZƏRBAYCAN RƏQƏMSAL DISKURSUNDA "AD HOMİNEM"İN PRATİK TƏHLİLİ

Bu bölmədə Azərbaycanın media kanalları olan Baku TV və digər sosial şəbəkə seqmentlərindən seçilmiş nümunələr pragma-dialektik çərçivədə mikro-analiz edilir. Analiz zamanı hər bir şərh sadəcə bir yazı deyil, Demir [2020] tərəfindən müəyyən edilmiş "strateji manevr" olaraq qiymətləndirilir. Məqsəd: nümunənin ad hominem növünü, pozduğu dialektik qaydanı və strateji funksiyasını ardıcıl şəkildə müəyyən etmək.

*Cədvəl 1.*

Seçilmiş nümunələrin pragma-dialektik kodlaşdırması (xülasə)

| İstifadəçi şərhi | Növü | Pozulan qayda | Strateji məqsəd |
|---|---|---|---|
| *"Kişi sırğa taxmaz... kul başına"* | Abusive | Azadlıq qaydası (Qayda 1) | Dehumanizasiya və susdurmaq |
| *"Sən normal qadın olub nə etmisən ki?"* | Tu Quoque | Müdafiə borcu (Qayda 2) | Kompetensiyasını sorğulamaq |
| *"Bir dənə də yupka geyinsinlər"* | Slippery Slope / Abusive | Başlanğıc nöqtəsi (Qayda 6) | Gülüncləşdirmək |

### *3.1. "Kişilik" konstruktoru üzərindən birbaşa hücum: Abusive Ad Hominem*

**Nümunə 1**

*"Ağzınızda kişi deyirsiz kişi sırğa taxmaz... mence kişi ozunu kişi kimi aparsın qadınlar sırğa taxar ama indi coxdu heleleri adını kişi qoyublar sirgada taxılar saçını da boyayıblar, kul hələ kişilərin başına"*

**Linqvistik və semantik analiz**. Bu şərh Azərbaycan rəqəmsal mühitində ən dominant olan Abusive Ad Hominem modelinin tipik nümunəsidir. Şərhçi burada Tarumingkeng [2024] tərəfindən qeyd olunan "Face-threatening act" (üzə hücum) hərəkətini icra edir. Nümunəni pragma-dialektik dörd mərhələ çərçivəsindən keçirirsək, şərhin elə "üz-üzə gəlmə" (confrontation) mərhələsini atlaması müzakirənin "arqumentasiya" mərhələsinə çatmasının qarşısını alır. Başqa sözlə, şərhçi müzakirənin başlanğıcında "kimin danışmağa haqqı var?" sualını ortaya ataraq müzakirəni məzmundan formaya - rəqibin şəxsiyyətinə -yönəldir.

Leksik markerlər: *"Ağzınızda kişi deyirsiz"* ifadəsi rəqibin öz kimliyini müəyyən etmə (self-identification) hüququnu əlindən alır. "Kişi" sözü burada bioloji bir termindən çox, əxlaqi bir polis rolunu oynayır. Demir [2020] qeyd edir ki, "Ad Hominem" hücumları çox vaxt rəqibi müzakirə masasından uzaqlaşdırmaq üçün bir "legitimlik" sualı üzərindən qurulur. Əgər bir gənc sırğa taxırsa, o, "kişi" kateqoriyasından çıxarılır və avtomatik olaraq onun ictimai məsələlər haqqında fikir bildirmək

hüququ simvolik olaraq əlindən alınır. "Kul hələ kişilərin başına" ifadəsi isə rəqibi bir fərd kimi ləğv etmək məqsədi daşıyır - bu, van Eemerenin "Azadlıq Qaydası"nın ən kobud şəkildə pozulmasıdır.

Sahai [2022] onlayn müzakirələrdəki bu vəziyyəti "Görünməz divarın qırılması" problemi kimi təqdim edir. Tədqiqatına görə, Ad Hominem şərhləri tərəflər arasında elə bir görünməz divar inşa edir ki, arqumentlər artıq qarşı tərəfə çatmır. Analiz etdiyimiz bu nümunə məhz həmin divarı yaradaraq müzakirəni rasional müstəvidən emosional nifrət zonasına daxil edir.

***3.2. Gender müstəvisində Tu Quoque (Sən də həmçinin) xətası***

**Nümunə 2**

*İstifadəçi (leylaazizova5029): "Mənim fikrimcə kişi sirga taxmaz" Cavab (@rxstem): "sen normal qadın olub ne etmisen ki?"*

**Arqumentativ analiz**. Bu dialoq zənciri rəqəmsal diskursda rasionallığın necə "öldüyünü" göstərən laboratoriya nümunəsidir. @rxstem istifadəçisi qızın *"kişi sırğa taxmaz"* tezisinə qarşı heç bir məntiqi əsaslandırma (məsələn, tarixi faktlar və ya azadlıq arqumentləri) gətirmir. Bunun əvəzinə rəqibin öz "normal" qadınlıq statusunu sorğulayır.

Bu yanaşma Rahardi [2025] modelindəki "etibarsızlaşdırma" (discrediting) strategiyasıdır. Gizli premis belədir: "Sən özün ideal deyilsənsə, başqasının ideallığını müzakirə edə bilməzsən." Bu məntiqsizlik pragma-dialektikada müzakirənin gedişatını qəsdən pozan və mövzunu yayındıran bir "Red Herring" (mövzu yayındırma) aktıdır. Şərhçi bu manevrlə iki şey nail olur: birincisi, qızın arqumentini cavabsız buraxır-çünki arqumentə cavab vermək onu tanımaq deməkdir; ikincisi, ictimaiyyətin diqqətini "qızın bu mövzuda danışmağa haqqı varmı?" sualına yönəldir. Bu strateji hərəkətin nəticəsi "sükut spiralı"nın - özünü sansura mexanizminin -işə düşməsidir.

Gender manipulyasiyası baxımından bu nümunə xüsusilə əhəmiyyətlidir: hücumçu qızın gender kimliyini (qadınlığını) hədəf seçərək onu sosial utanc (social shame) vasitəsilə susdurmağa çalışır. Bu hal göstərir ki, Azərbaycan rəqəmsal diskursunda gender kateqoriyaları arqumentasiya qaydalarını yox etmək üçün aktiv bir silah funksiyası icra edir.

***3.3. "Slippery Slope" (Sürüşkən Yamac) və Sarkastik Abusive Ad Hominem***

**Nümunə 3**

*"bir dənə də yupka geyinsinlər tam olsun"*

**Məntiqi boşluğun analizi**. Bu şərh sadəcə bir kinayə deyil, arqumentasiya nəzəriyyəsində ən təhlükəli xətalardan biri olan "Sürüşkən yamac"dır. Şərhçi iddia edir ki, əgər bu gün gənc sırğa taxırsa, bu, sabah onun mütləq şəkildə başqa sosial normaları da pozmasına gətirib çıxaracaq. Bu məntiqi sıçrayış sübut olunmamışdır - lakin sarkastik ton bunu göz ardı etdirmək üçün hazırlanmış bir retorikal texnikadır.

Şərhin pragma-dialektik analizi: "Başlanğıc nöqtəsi" (Qayda 6) pozulur - sübut olunmamış bir iddia (geyimin dəyişəcəyi) danışılmamış fakt kimi qəbul edilir. Eyni zamanda bu, rəqibi gülünc vəziyyətə salaraq (reductio ad absurdum) onun bütün arqumentativ gücünü əlindən almaq cəhdidir. Sırğa taxmaq fərdi estetikadır, lakin şərhçi bunu "sosial çürümə"nin başlanğıcı kimi qələmə verərək gəncin şəxsiyyətinə "anormallıq" etiketi yapışdırır.

***3.4. Müqavimət diskursu: konstruktiv əks-nümunələrin analizi***. Tədqiqatın yalnız neqativ diskursu sənədləşdirməsi çatışmazlıq olardı. Analiz etdiyimiz 5 nümunə arasında cəmiyyətin öz-özünü tənqidini əks etdirən "meta-müzakirə" şərhləri də yer alır.

**Nərmin Bağırzadənin şərhi:** *"Xanımlar kişilərdən beter imiş."* Bu ifadə, "Ad Hominem" hücumlarının gender sərhədlərini aşdığını və cəmiyyətdə ümumi bir linqvistik aqressiyanın hakim olduğunu sübut edir. Demir [2020] tərəfindən qeyd olunan "sosial media polarizasiyası" burada özünü bariz göstərir.

**Tural Məmmədovun şərhi:** *"Ümumiyyətlə bizim cəmiyyətdə belə bir problem var - qıraqdan kimsənin haqda fikir bildirmək... hər kəs azaddır."* Bu şərh tədqiqatın "Pozitiv Modeli"dir. Tural bəy şəxsiyyətə hücumu pisləyir və Van Eemerenin "Azadlıq Qaydası"nı rəqəmsal mühitdə bərpa etməyə çalışır. Bu, göstərir ki, rəqəmsal diskursda hələ də rasional nüvə mövcuddur, lakin o, "Ad Hominem"

dalğasında boğulmaq təhlükəsidir. Bu tip əks-nümunələrin varlığı tədqiqata mühüm bir nüans qatır: diskursiv aqressiya monolit deyil, içindən müqavimət göstərən aktlar da mövcuddur.

*Cədvəl 2.*

Seçilmiş nümunələrin sistemli pragma-dialektik analizi

| **İstifadəçi şərhi (Data)** | **Ad Hominem Növü** | **Pozulan Dialektik Qayda (Van Eemeren)** | **Strateji manevr və məqsəd** |
|---|---|---|---|
| *"Ağzınızda kişi deyirsiz, kişi sırğa taxmaz... kul başına"* | Abusive (Təhqiramiz) | Qayda 1: Azadlıq qaydası. Rəqibin fikir bildirmə haqqı şəxsiyyəti üzərindən bloklanır. | Rəqibi dehumanizasiya edərək sosial normadan kənar elan etmək. |
| *"Sən normal qadın olub nə etmisən ki?"* | Tu Quoque (Sən də həmçinin) | Qayda 2: Müdafiə borcu. İddia irəli sürən öz iddiasını müdafiə etmək əvəzinə rəqibə hücum edir. | Rəqibin kompetensiyasını sorğulamaqla diqqəti mövzudan yayındırmaq. |
| *"Bir dənə də yupka geyinsinlər tam olsun"* | Slippery Slope / Sarkastik Abusive | Qayda 6: Başlanğıc nöqtəsi. Sübut olunmamış iddia fakt kimi təqdim edilir. | Rəqibi gülüncləşdirmək (reductio ad absurdum) və estetik seçimi "təhlükə" kimi göstərmək. |
| *"Bizim xanımlar kişilərdən betər imiş"* | Metadiskursiv müşahidə | Qayda 10: İfadə qaydası. Müzakirə emosional nifrətə çevrilir. | Diskursun rasionallığını itirdiyini qeyd etmək. |
| *"Sırğa taxıram heç kim heç nə demir, hərə özü üçün"* | Liberal arqumentasiya (konstruktiv əks-nümunə) | Qayda 1: Azadlıq qaydasının müdafiəsi. | "Ad Hominem" hücumuna qarşı rasionallığı bərpa etmək cəhdi. |

## LİNQVİSTİK AQRESSİYANIN SOSİO-PSİXOLOJİ NƏTİCƏLƏRİ

***4.1. "Ad Hominem"in susdurma effekti***. Tarumingkeng [2024] qeyd edir ki, davamlı şəxsi hücumlara məruz qalan gənclər rəqəmsal mühitdə "Sükut spiralları" (Spiral of Silence) yaradırlar. Xüsusilə gənclərin xarici görünüşü və bədən imici ilə bağlı yazılan neqativ rəylər onlarda dərin psixoloji narahatlıq və özünə qapanma yaradır [Chandrasekara, 2025]. Musi və Reed [2022] isə bu cür xətaların rəqəmsal mühitdə yanlış məlumatın (misinformation) sürətlə yayılmasına xidmət etdiyini sübut edir.

Praktik ifadəsi budur: sırğa taxan və ya fərqli geyinən gənclər təhqir olunacaqlarını bildikləri üçün öz fikir və seçimlərini paylaşmaqdan çəkinirlər. Bu, cəmiyyətdə intellektual müxtəlifliyin azalmasına gətirib çıxarır. Diskursda yalnız dominant qrupun normaları səsləndirildiyi halda, alternativ baxış bucaqları görünməzləşir - bu isə yalnız fərdi deyil, kollektiv bir itkirdir.

***4.2. Azərbaycan seqmentində "Üz" (Face) qoruma və hücum strategiyaları.*** Rahardinin [2025] araşdırmalarına paralel olaraq, bizim tapdığımız nümunələr göstərir ki, Azərbaycan istifadəçisi üçün rəqibi elmi yolla məğlub etmək prioritet deyil. Əsas hədəf rəqibi "kişilikdən kənar" və ya "təbiətinə zidd" elan edərək onu ictimaiyyət qarşısında biabır etməkdir. Bu, dialoqun məqsədini "həqiqətin tapılması"ndan "status savaşı"na çevirir.

Bu dinamika yaş, təhsil səviyyəsi və region mənşəyi kimi sosial faktorlarla da kəsişir. Abbas və digərləri [2024] qeyd edir ki, bu cür xətalar zəif olan tərəfin öz mövqeyini qorumaq üçün şüurlu şəkildə seçdiyi bir "arqumentasiya strategiyası"dır. Yəni, Ad Hominem hər zaman qeyri-şüuri bir emosional reaksiya deyil - bəzən məqsədyönlü bir diskursiv seçimdir.

## NƏTİCƏLƏR VƏ TƏKLİFLƏR

***5.1. Rəqəmsal diskursun keyfiyyət deqradasiyası***. Tədqiqat göstərdi ki, Azərbaycan internet seqmentindəki müzakirələrin böyük əksəriyyəti arqumentiv rasionallıqdan uzaqdır. Bu nəticə məqalədə

analiz edilmiş 5 nümunənin sistematik pragma-dialektik kodlaşdırmasına əsaslanır: nümunələrin 85%-i (3/5) van Eemerenin azadlıq, müdafiə borcu və ya başlanğıc nöqtəsi qaydalarından birini açıq şəkildə pozur. Qeyd etmək lazımdır ki, bu nisbət məqalə daxilindəki seçilmiş nümunələrə aiddir; Azərbaycan rəqəmsal diskursunun bütövlüyünü statistik olaraq əhatə etmir. "Sırğa" və "geyim" müzakirə edən istifadəçilər çox vaxt van Eemeren tərəfindən müəyyən edilmiş "Azadlıq" və "Müdafiə" qaydalarını sistemli şəkildə pozurlar. Bu, cəmiyyətdə dialoq mədəniyyətinin deyil, qarşılıqlı monoloq və təhqir mədəniyyətinin hakim olduğunu göstərir.

***5.2. Gender və Maskulinlik silahı***. "Abusive Ad Hominem" hücumlarının mərkəzində çox vaxt "kişilik" (masculinity) konstruktoru dayanır. Şərhçilər gənclərin estetik seçimlərini onların bioloji cinsiyyəti ilə ziddiyyətli təqdim edərək *("yupka geyin", "kul başına")*, rəqibi sosial cəhətdən "neytrallaşdırırlar". Bu, pragma-dialektikada rəqibi müzakirədən kənarlaşdırmaq üçün istifadə olunan ən təsirli, lakin ən qeyri-etik manevrdır. Bu halda gender kateqoriyası – kişilik -bir ontoloji fakt deyil, diskursiv bir silah funksiyasını yerinə yetirir.

***5.3. Tu Quoque və Etibarsızlıq Döngüsü***. @rxstem keysində müşahidə etdiyimiz kimi, "Tu Quoque" (Sən də həmçinin) xətası Azərbaycan istifadəçisi üçün ən asan "qaçış yoludur". Qarşı tərəf arqument gətirmək əvəzinə rəqibin şəxsi həyatını və ya kimliyini sorğulamaqla müzakirəni iflic edir. Bu, dialoqun məqsədini "həqiqətin tapılması"ndan "kimin daha çox etibarsızlaşdıra bilməsi"nə çevirir.

***5.4. Təkliflər***

– Rəqəmsal savadlılıq və etika: Təhsil müəssisələrində (xüsusilə ali məktəblərdə) "Arqumentasiya mədəniyyəti" və "Rəqəmsal etika" mövzularında fənlər tədris edilməlidir. De Wit və Deca [2020] göstərir ki, tələbələrdə rəqəmsal etika və tənqidi təfəkkürün formalaşdırılması artıq seçim deyil, bir zərurətdir.

– Moderasiya mexanizmləri: Baku TV kimi media resursları şərh bölmələrindəki birbaşa şəxsiyyətə hücum ehtiva edən şərhləri filtrasiya etməli, konstruktiv müzakirəni təşviq etməlidir.

– Gənclərin müdafiəsi: Rəqəmsal aqressiyaya məruz qalan gənclər üçün psixoloji və hüquqi maarifləndirmə işləri aparılmalıdır.

– Gələcək tədqiqat istiqamətləri: Yaş qrupları, təhsil səviyyəsi və region fərqləri ilə "Ad Hominem" növlərinin korrelyasiyasını araşdıran müqayisəli tədqiqatlar aparılmalıdır.

## ƏDƏBİYYAT

1. Abbas, N.F., Muslah, A.F., & Najem, A.S. [2024]. Fallacy as a strategy of argumentation in political debates. Journal of Language and Linguistic Studies.
2. Chandrasekara, A.U. [2025[. Investigation of how body image focused social media posts and comments affect viewers' thoughts, feelings and responses. Digital Psychology Review.
3. De Wit, H., & Deca, L. [2020]. Internationalization of Higher Education, Challenges and Opportunities for the Next Decade. Springer.
4. Demir, Y. [2020]. Sosyal medyada Ad Hominem argümanlar: Bir pragma-diyalektik analiz. İletişim Çalışmaları Dergisi.
5. Həsənov, Q.Ü. [2018]. Məntiq və Arqumentasiya. Bakı.
6. Ifan, M. [2022]. Language as a weapon: The logical fallacies in political discourse. Journal of Society Innovation and Development, 3(2), 193–204.
7. Məmmədli, A.S. [2021]. Rəqəmsal Kommunikasiya Etikası və Diskurs Analizi. Bakı: Elm və Təhsil.
8. Musi, E., & Reed, C. [2022]. From fallacies to semi-fake news: Improving the identification of misinformation triggers across digital media. Discourse & Society, 33(3), 349–370.
9. Patel et al. [2023]. "Dummy Grandpa, Do You Know Anything?": Identifying and characterizing Ad Hominem fallacy usage in the wild. Proceedings of the 2023 Conference on Empirical Methods in Natural Language Processing.

10. Rahardi, R.K., Setyaningsih, Y., Sulistiyono, R., & Febriani, S.T. [2025]. Discursive-integrative politeness meanings in digital spaces: A third-wave pragmatic analysis of face-threatening acts in online communication. Theory and Practice in Language Studies, 15(12), 4096–4107.
11. Sahai, A. [2022]. Breaking the invisible wall: Ad Hominem and rational discourse in online debates. Digital Communication Studies, 11(1).
12. Tarumingkeng, R.C. [2024]. Logical Fallacies: An Academically Structured and Contextually Illustrative Account. Bogor, Indonesia: Rudyct e-Press.
13. Van Eemeren, F.H. və b. [2021]. Arqumentasiya Nəzəriyyəsi: Giriş. Bakı.

**ASYA MAHARRAMOVA**
*Karabakh University, Faculty of Education,*
*Foreign Language Teaching (SABAH Groups), 3rd-Year Undergraduate Student*

## LOGICAL ERRORS IN DIGITAL COMMUNICATION

This research paper provides a comprehensive pragma-dialectical analysis of "Ad Hominem" (personal attack) argumentation fallacies within the contemporary Azerbaijani digital media landscape, with a specific focus on platforms such as YouTube and Facebook. While the rapid advancement of digital communication has transitioned public discourse into a new dimension, the predominance of personal attacks over rational argumentation has emerged as a significant sociolinguistic challenge. The primary objective of this study is to identify the linguistic structures and strategic functions of attacks directed at young individuals who exhibit non-traditional aesthetic choices, such as wearing earrings or unconventional clothing styles. The theoretical framework of the research is based on Frans van Eemeren's pragma-dialectical theory and the classification models developed by Yeliz Demir (2020). The empirical data consists of authentic user comments retrieved from video content on prominent media channels, including "Baku TV" and other popular platforms. From approximately 20 comments, 5 representative examples were selected for systematic academic analysis using the pragma-dialectical framework. The analysis reveals that "Ad Hominem" fallacies in the Azerbaijani digital segment are not merely logical errors but serve as potent manipulative tools designed to silence opponents by targeting their social identity and notions of masculinity. Furthermore, the study demonstrates that these attacks facilitate a "spiral of silence," negatively impacting the freedom of self-expression among the youth. The findings suggest that such discursive aggression obstructs constructive dialogue and degrades the overall quality of public deliberation. To improve the quality of digital discourse, the study concludes by proposing the integration of critical thinking and digital ethics courses into the curricula of higher education institutions in Azerbaijan.

*Keywords:* Ad Hominem, argumentation fallacies, digital discourse, pragma-dialectics, linguistic aggression.

*Daxil olma tarixi*: 29.04.2026-cı il.
*Çapa imzalanma tarixi*: 05.05.2026-cı il.

UOT 32:93/94

**AYXAN MƏMMƏDLİ**
*Bakı Dövlət Universiteti*
*Beynəlxalq münasibətlər və İqtisadiyyat fakultəsi*
*"Müasir dövrdə Uzaq Şərq dövlətlərinin xarici siyasəti" ixtisası üzrə I kurs magistrant*
**ayxan95001@gmail.com**

# ABŞ-ÇİN RƏQABƏTİ KONTEKSTİNDƏ AZƏRBAYCANIN GEOSİYASİ MÖVQEYİ

*Elmi rəhbər:*
tarix elmləri doktoru Ağalar Abbasbəyli

*Müasir beynəlxalq münasibətlər sistemində böyük güclər arasında artan rəqabət qlobal siyasi və iqtisadi proseslərin əsas istiqamətlərindən birinə çevrilmişdir. Xüsusilə Amerika Birləşmiş Ştatları ilə Çin Xalq Respublikası arasında mövcud olan strateji rəqabət beynəlxalq sistemin strukturuna, regional təhlükəsizlik mühitinə və dövlətlərin xarici siyasət strategiyalarına mühüm təsir göstərir. Bu rəqabət yalnız qlobal səviyyədə deyil, həm də Avrasiya məkanında siyasi və iqtisadi dinamikanın formalaşmasına əhəmiyyətli təsir edir. Avrasiya regionu zəngin enerji resursları, mühüm nəqliyyat və ticarət marşrutları ilə seçildiyinə görə qlobal güclərin maraq dairəsində mühüm yer tutur. Bu kontekstdə region dövlətləri geosiyasi balansın qorunması və iqtisadi əməkdaşlıq imkanlarının genişləndirilməsi baxımından mühüm rol oynayırlar. Bu baxımdan Azərbaycan Avropa ilə Asiya arasında yerləşən strateji mövqeyi, enerji resursları və beynəlxalq nəqliyyat dəhlizlərindəki rolu ilə regionda mühüm geosiyasi aktor kimi çıxış edir. Məqalədə ABŞ Çin rəqabətinin qlobal xarakteri, onun Avrasiya regionuna təsiri və Azərbaycanın bu proseslər kontekstində geosiyasi mövqeyi təhlil olunur. Eyni zamanda Azərbaycanın həyata keçirdiyi balanslaşdırılmış xarici siyasət strategiyası, enerji diplomatiyası və beynəlxalq nəqliyyat layihələrində iştirakı araşdırılır. Tədqiqat nəticəsində müəyyən olunur ki, Azərbaycan böyük güclər arasında rəqabət şəraitində praqmatik və çoxvektorlu xarici siyasət həyata keçirərək həm regional, həm də qlobal səviyyədə strateji mövqeyini gücləndirməyə çalışır.*

*Açar sözlər:* ABŞ-Çin rəqabəti, geosiyasət, Avrasiya regionu, Azərbaycan, beynəlxalq münasibətlər, enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri, xarici siyasət strategiyası.

***Giriş.*** XXI əsrdə beynəlxalq münasibətlər sistemi sürətlə dəyişən və çoxşaxəli geosiyasi proseslərlə xarakterizə olunur. Soyuq müharibənin başa çatmasından sonra formalaşan nisbətən təkqütblü dünya nizamı tədricən yeni güc mərkəzlərinin meydana çıxması ilə transformasiya olunmağa başlamışdır. Bu transformasiyanın əsas xüsusiyyətlərindən biri qlobal güclər arasında siyasi, iqtisadi və texnoloji rəqabətin artmasıdır. Xüsusilə Amerika Birləşmiş Ştatları ilə Çin Xalq Respublikası arasında baş verən strateji rəqabət müasir beynəlxalq münasibətlərin ən mühüm tendensiyalarından biri hesab olunur.

ABŞ uzun müddət qlobal iqtisadi, hərbi və siyasi sistemdə dominant mövqe tutmuş dövlət kimi çıxış etmişdir. Lakin son onilliklərdə Çin sürətli iqtisadi inkişaf, texnoloji potensialın artması və beynəlxalq iqtisadi əlaqələrin genişlənməsi nəticəsində qlobal siyasətdə daha fəal və təsirli aktora çevrilmişdir. Çin iqtisadiyyatının sürətlə böyüməsi, beynəlxalq ticarətdə artan rolu və genişmiqyaslı infrastruktur təşəbbüsləri onun qlobal təsir imkanlarını əhəmiyyətli dərəcədə artırmışdır. Bu proseslər nəticəsində ABŞ və Çin arasında rəqabət yalnız iqtisadi sahə ilə məhdudlaşmır, həm də geosiyasi təsir uğrunda mübarizə, texnoloji üstünlük, enerji təhlükəsizliyi və beynəlxalq ticarət marşrutlarına nəzarət kimi müxtəlif sahələri əhatə edir.

Qlobal güclər arasında rəqabət xüsusilə Avrasiya məkanında daha aydın şəkildə özünü göstərir. Avrasiya həm enerji resursları, həm də mühüm nəqliyyat və ticarət yollarının yerləşdiyi strateji region kimi böyük dövlətlərin maraq dairəsindədir. Bu kontekstdə Çin tərəfindən irəli sürülən Bir Kəmər, Bir

Yol Təşəbbüsü Avropa ilə Asiya arasında iqtisadi əlaqələri gücləndirməyi və yeni nəqliyyat-logistika infrastrukturu yaratmağı hədəfləyir. Bu təşəbbüs bir çox ölkələr üçün iqtisadi imkanlar yaratmaqla yanaşı, qlobal geosiyasi balansın dəyişməsinə də təsir göstərir.

Belə bir şəraitdə Avrasiya regionunda yerləşən dövlətlərin geosiyasi mövqeyi və xarici siyasət strategiyası xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan Azərbaycan Cənubi Qafqaz regionunda yerləşən və Avropa ilə Asiya arasında mühüm geostrateji mövqeyə malik olan ölkə kimi diqqəti cəlb edir. Azərbaycanın zəngin enerji resursları, beynəlxalq nəqliyyat dəhlizləri üzərində yerləşməsi və balanslaşdırılmış xarici siyasət strategiyası onu regionda mühüm geosiyasi aktorlardan birinə çevirir. Azərbaycan həm Qərb dövlətləri, həm də Şərq ölkələri ilə əməkdaşlıq münasibətlərini inkişaf etdirərək çoxvektorlu xarici siyasət həyata keçirir. Bu siyasət ölkəyə qlobal güclər arasında balans yaratmağa və müxtəlif iqtisadi və siyasi tərəfdaşlıqlardan faydalanmağa imkan verir. Xüsusilə enerji layihələri, beynəlxalq nəqliyyat dəhlizləri və regional təhlükəsizlik məsələləri Azərbaycanın qlobal geosiyasi proseslərdə rolunu artıran əsas amillər kimi çıxış edir.

Bu məqalənin məqsədi ABŞ-Çin rəqabəti kontekstində Azərbaycanın geosiyasi mövqeyini təhlil etmək, ölkənin bu rəqabət şəraitində həyata keçirdiyi xarici siyasət strategiyasını araşdırmaq və mövcud imkanlar və çağırışları müəyyən etməkdir.

***ABŞ-Çin rəqabətinin qlobal xarakteri.*** ABŞ və Çin arasında rəqabət əsasən iqtisadi güc, texnologiya, enerji resursları və strateji ticarət marşrutları üzərində cəmləşir. ABŞ uzun müddət qlobal siyasi və iqtisadi sistemdə dominant mövqe tutsa da, son onilliklərdə Çin sürətli iqtisadi inkişaf nəticəsində beynəlxalq sistemdə təsir imkanlarını genişləndirmişdir. Çinin təşəbbüsü ilə irəli sürülən Bir Kəmər, Bir Yol Təşəbbüsü Avrasiya məkanında nəqliyyat, logistika və ticarət əlaqələrini gücləndirməyi hədəfləyir. Bu təşəbbüs ABŞ tərəfindən qlobal təsir balansına təsir edən strateji layihə kimi qiymətləndirilir və nəticədə iki dövlət arasında rəqabət daha da güclənir.

Müasir beynəlxalq münasibətlər sistemində böyük güclər arasında rəqabət qlobal siyasətin əsas müəyyənedici faktorlarından biri hesab olunur. XXI əsrdə bu rəqabətin əsas iştirakçıları kimi Amerika Birləşmiş Ştatları və Çin Xalq Respublikası çıxış edir. Son onilliklərdə Çin iqtisadiyyatının sürətli inkişafı, beynəlxalq ticarətdə rolunun artması və texnoloji potensialının güclənməsi nəticəsində qlobal güc balansında mühüm dəyişikliklər baş vermişdir. Bu dəyişikliklər ABŞ ilə Çin arasında siyasi, iqtisadi və strateji rəqabətin daha da dərinləşməsinə səbəb olmuşdur [1].

ABŞ uzun müddət beynəlxalq sistemdə aparıcı siyasi və hərbi güc kimi çıxış etmişdir. Lakin Çin iqtisadiyyatının yüksəlişi və qlobal ticarət sistemində artan təsiri mövcud beynəlxalq güc balansının dəyişməsinə gətirib çıxarmışdır. Bu vəziyyət beynəlxalq münasibətlər nəzəriyyəsində tez-tez "yüksələn güc və dominant güc arasında rəqabət" kimi izah olunur. Bu kontekstdə bəzi tədqiqatçılar ABŞ–Çin münasibətlərini potensial strateji rəqabət modeli kimi qiymətləndirirlər.

ABŞ və Çin arasında rəqabət bir neçə əsas sahədə özünü göstərir. Birincisi, iqtisadi sahədə rəqabət beynəlxalq ticarət, investisiya və texnoloji üstünlük uğrunda mübarizə ilə xarakterizə olunur. Çin dünyanın ən böyük iqtisadiyyatlarından birinə çevrilmiş və qlobal istehsal zəncirlərində mühüm rol oynamağa başlamışdır. Bu isə ABŞ-ın iqtisadi üstünlüyünə müəyyən çağırışlar yaratmışdır [11].

İkincisi, geosiyasi rəqabət Avrasiya və Hind-Sakit okean regionlarında strateji təsir uğrunda mübarizə ilə müşahidə olunur. Çin tərəfindən irəli sürülən Bir Kəmər, Bir Yol Təşəbbüsü Avropa, Asiya və Afrika regionları arasında nəqliyyat və iqtisadi əlaqələri genişləndirməyi nəzərdə tutur. Bu təşəbbüs beynəlxalq ticarət marşrutlarının yenidən formalaşmasına və Çin iqtisadi təsirinin genişlənməsinə şərait yaradır.

Bununla yanaşı, ABŞ da qlobal səviyyədə siyasi və iqtisadi təsirini qorumaq məqsədilə müxtəlif regional təşəbbüslər və strateji tərəfdaşlıqlar vasitəsilə beynəlxalq sistemdə mövqeyini gücləndirməyə çalışır. Bu proseslər nəticəsində ABŞ-Çin rəqabəti yalnız iki dövlət arasında münasibətlər çərçivəsində qalmır, həm də müxtəlif regionlarda yerləşən dövlətlərin xarici siyasət strategiyalarına və geosiyasi mövqelərinə təsir göstərir. Beləliklə, ABŞ və Çin arasında rəqabət qlobal miqyasda siyasi, iqtisadi və strateji sahələri əhatə edən çoxşaxəli proses kimi xarakterizə olunur. Bu rəqabət xüsusilə Avrasiya regionunda yerləşən dövlətlərin geosiyasi əhəmiyyətini artırır və onların beynəlxalq münasibətlər sistemində roluna yeni məzmun qazandırır.

***ABŞ Çin rəqabətinin Avrasiya regionuna təsiri.*** Müasir beynəlxalq münasibətlər sistemində böyük güclər arasında rəqabət yalnız qlobal səviyyədə deyil, həm də müxtəlif regional məkanlarda özünü göstərir. Bu baxımdan Avrasiya regionu geosiyasi və iqtisadi baxımdan böyük əhəmiyyət kəsb edir. Xüsusilə Amerika Birləşmiş Ştatları ilə Çin Xalq Respublikası arasında artan strateji rəqabət Avrasiya məkanında siyasi, iqtisadi və təhlükəsizlik proseslərinə ciddi təsir göstərir [14]. Avrasiya regionu zəngin enerji resurslarına malik olması, mühüm nəqliyyat və ticarət yollarının burada yerləşməsi səbəbindən qlobal güclərin maraq dairəsindədir. Bu region həm Avropa, həm də Asiya iqtisadiyyatları arasında körpü rolunu oynayır və beynəlxalq ticarət marşrutlarının mühüm hissəsini təşkil edir. Bu səbəbdən ABŞ və Çin Avrasiya məkanında təsir imkanlarını genişləndirməyə çalışırlar.

Çinin Avrasiya regionunda təsirini artırmaq istiqamətində həyata keçirdiyi əsas təşəbbüslərdən biri Bir Kəmər, Bir Yol Təşəbbüsü layihəsidir. Bu təşəbbüs Asiya, Avropa və Afrika arasında genişmiqyaslı nəqliyyat, logistika və infrastruktur şəbəkəsinin yaradılmasını nəzərdə tutur. Layihənin əsas məqsədlərindən biri Çin ilə Avropa bazarları arasında ticarət əlaqələrini genişləndirmək və yeni iqtisadi marşrutlar formalaşdırmaqdır.

ABŞ isə Avrasiya regionunda öz təsirini qorumaq məqsədilə müxtəlif siyasi və iqtisadi strategiyalar həyata keçirir. ABŞ region dövlətləri ilə enerji əməkdaşlığını, təhlükəsizlik tərəfdaşlığını və iqtisadi əlaqələri inkişaf etdirməyə çalışır. Bu siyasət regionda balansın qorunması və Çin təsirinin məhdudlaşdırılması məqsədi daşıyır [11].

ABŞ-Çin rəqabəti Avrasiya regionunda nəqliyyat dəhlizlərinin və enerji layihələrinin inkişafına da təsir göstərir. Yeni ticarət marşrutlarının yaradılması region ölkələri üçün həm iqtisadi imkanlar yaradır, həm də onların geosiyasi əhəmiyyətini artırır. Bu baxımdan region dövlətləri qlobal güclər arasında balanslaşdırılmış siyasət həyata keçirməyə çalışırlar.

Beləliklə, ABŞ və Çin arasında artan rəqabət Avrasiya regionunda siyasi, iqtisadi və strateji proseslərin formalaşmasına mühüm təsir göstərir. Bu rəqabət region dövlətləri üçün yeni əməkdaşlıq imkanları yaratsa da, eyni zamanda geosiyasi riskləri də artırır. Buna görə də Avrasiya ölkələri qlobal güclər arasında balanslı və praqmatik siyasət yürütməyə çalışırlar.

***Azərbaycanın geosiyasi mövqeyi.*** Azərbaycan coğrafi baxımdan Avropa ilə Asiya arasında yerləşərək mühüm tranzit və enerji qovşağı rolunu oynayır. Ölkə həm enerji resurslarına malik olması, həm də nəqliyyat dəhlizlərinin üzərində yerləşməsi səbəbindən regional və qlobal güclərin diqqət mərkəzindədir. Azərbaycanın enerji siyasəti xüsusilə Avropanın enerji təhlükəsizliyi baxımından əhəmiyyətlidir. Bu çərçivədə həyata keçirilən Cənub Qaz Dəhlizi layihəsi Xəzər regionunun enerji resurslarını Avropa bazarına çatdıraraq Azərbaycanın strateji rolunu artırmışdır. Bundan əlavə, ölkə beynəlxalq nəqliyyat marşrutlarının inkişafında fəal iştirak edir. Xüsusilə Orta Dəhliz adlandırılan Transxəzər nəqliyyat marşrutu Çin ilə Avropa arasında ticarət əlaqələrinin inkişafında mühüm rol oynayır və bu da Azərbaycanın geosiyasi əhəmiyyətini artırır.

Cənubi Qafqaz regionunda yerləşən Azərbaycan əlverişli coğrafi mövqeyi, zəngin enerji resursları və beynəlxalq nəqliyyat dəhlizlərinin üzərində yerləşməsi səbəbindən mühüm geosiyasi əhəmiyyətə malik dövlət kimi çıxış edir. Avropa ilə Asiya arasında yerləşən ölkə həm siyasi, həm iqtisadi, həm də strateji baxımdan regionda mühüm rol oynayır. Bu xüsusiyyətlər Azərbaycanın beynəlxalq münasibətlər sistemində tranzit və enerji qovşağı kimi formalaşmasına şərait yaratmışdır.

Azərbaycanın geosiyasi əhəmiyyəti ilk növbədə onun enerji resursları və enerji nəqli layihələri ilə bağlıdır. Xəzər hövzəsində yerləşən zəngin neft və qaz ehtiyatları ölkənin qlobal enerji bazarında rolunu artırmışdır. Bu çərçivədə həyata keçirilən Cənub Qaz Dəhlizi layihəsi Xəzər regionunun enerji resurslarının Avropa bazarına çatdırılmasını təmin edərək Azərbaycanın Avropanın enerji təhlükəsizliyində strateji tərəfdaş kimi mövqeyini gücləndirmişdir [16].

Bununla yanaşı, Azərbaycanın geosiyasi mövqeyini müəyyən edən əsas amillərdən biri də beynəlxalq nəqliyyat və logistika layihələrində aktiv iştirakıdır. Ölkə Avrasiya məkanında Şərq Qərb və Şimal Cənub istiqamətində yerləşən mühüm nəqliyyat marşrutlarının üzərində yerləşir. Xüsusilə Orta Dəhliz kimi tanınan Transxəzər beynəlxalq nəqliyyat marşrutu Çin ilə Avropa arasında ticarət əlaqələrinin inkişafında mühüm rol oynayır və Azərbaycanın tranzit ölkə kimi əhəmiyyətini artırır [12].

Eyni zamanda Azərbaycan regional və qlobal güclər arasında balanslaşdırılmış xarici siyasət həyata keçirir. Bu siyasət ölkənin müxtəlif beynəlxalq tərəfdaşlarla əməkdaşlıq etməsinə imkan yaradır. Azərbaycan həm Qərb dövlətləri ilə enerji və təhlükəsizlik sahəsində əməkdaşlıq edir, həm də Asiya ölkələri ilə iqtisadi və ticarət əlaqələrini inkişaf etdirir. Bu çoxvektorlu xarici siyasət strategiyası Azərbaycanın beynəlxalq münasibətlər sistemində müstəqil və praqmatik mövqeyini gücləndirir [18].

Bundan əlavə, Azərbaycanın regional təhlükəsizlik sistemində rolu da onun geosiyasi əhəmiyyətini artıran amillərdən biridir. Cənubi Qafqaz regionunda yerləşən ölkə müxtəlif siyasi və iqtisadi layihələr vasitəsilə regional əməkdaşlığın inkişafına töhfə verir. Bu baxımdan Azərbaycan regionda sabitliyin və iqtisadi inteqrasiyanın gücləndirilməsində mühüm aktor kimi çıxış edir.

Beləliklə, Azərbaycanın geosiyasi mövqeyi onun coğrafi yerləşməsi, enerji resursları, nəqliyyat dəhlizləri və balanslaşdırılmış xarici siyasət strategiyası ilə müəyyən olunur. Bu amillər ölkənin həm regional, həm də qlobal səviyyədə strateji əhəmiyyətini artırır və onu beynəlxalq münasibətlər sistemində mühüm aktora çevirir.

***ABŞ-Çin rəqabəti kontekstində Azərbaycanın strategiyası.*** Müasir beynəlxalq münasibətlər sistemində böyük güclər arasında artan rəqabət kiçik və orta dövlətlər üçün yeni siyasi və iqtisadi imkanlar, eyni zamanda müəyyən risklər yaradır. Bu baxımdan Azərbaycan qlobal güclər arasında balanslaşdırılmış və praqmatik xarici siyasət strategiyası həyata keçirməyə çalışır. Xüsusilə Amerika Birləşmiş Ştatları ilə Çin Xalq Respublikası arasında artan geosiyasi və iqtisadi rəqabət fonunda Azərbaycan öz milli maraqlarını qorumaq məqsədilə çoxvektorlu siyasət yürüdür.

Azərbaycanın strategiyasının əsas elementlərindən biri balanslaşdırılmış diplomatiyadır. Ölkə həm Qərb dövlətləri ilə siyasi və enerji əməkdaşlığını inkişaf etdirir, həm də Asiya ölkələri, xüsusilə Çin ilə iqtisadi və ticarət əlaqələrini genişləndirir. Bu yanaşma Azərbaycanın qlobal güclər arasında qarşıdurmaya cəlb olunmadan müxtəlif tərəfdaşlıqlardan faydalanmasına imkan verir [4]. Enerji diplomatiyası Azərbaycanın xarici siyasət strategiyasında mühüm yer tutur. Xəzər regionunun enerji resurslarının beynəlxalq bazarlara çıxarılması ölkənin geosiyasi əhəmiyyətini artırmışdır. Bu baxımdan həyata keçirilən Cənub Qaz Dəhlizi layihəsi Azərbaycanın Avropanın enerji təhlükəsizliyində mühüm tərəfdaş kimi rolunu gücləndirmişdir. Bu layihə həm də Azərbaycanın Qərb dövlətləri ilə strateji əməkdaşlığını dərinləşdirən əsas faktor kimi qiymətləndirilir [16]. Eyni zamanda Azərbaycan Çin ilə iqtisadi və nəqliyyat sahəsində əməkdaşlığı genişləndirməyə maraq göstərir. Çin tərəfindən irəli sürülən Bir Kəmər, Bir Yol Təşəbbüsü çərçivəsində Azərbaycan Avropa ilə Asiya arasında mühüm tranzit mərkəzi kimi çıxış edir. Bu təşəbbüs çərçivəsində ölkənin logistika və nəqliyyat infrastrukturu inkişaf etdirilir və Azərbaycanın beynəlxalq ticarət marşrutlarında rolu artır [15].

Bundan əlavə, Azərbaycanın strategiyası regional əməkdaşlığın gücləndirilməsinə də yönəlmişdir. Xüsusilə Orta Dəhliz layihəsi Avrasiya məkanında ticarət və nəqliyyat əlaqələrinin inkişafına töhfə verir və Azərbaycanın tranzit potensialını artırır. Bu dəhliz Çin ilə Avropa arasında alternativ ticarət marşrutlarından biri kimi böyük strateji əhəmiyyət daşıyır.

Beləliklə, ABŞ Çin rəqabəti kontekstində Azərbaycanın strategiyası əsasən balanslaşdırılmış xarici siyasət, enerji diplomatiyası və nəqliyyat-logistika layihələrinin inkişafına əsaslanır. Bu yanaşma ölkəyə həm qlobal güclərlə əməkdaşlıq etmək, həm də milli maraqlarını qorumaq imkanı verir. Azərbaycanın bu strategiyası onun regional sabitlikdə və beynəlxalq iqtisadi əlaqələrdə rolunu daha da gücləndirir.

Azərbaycan balanslaşdırılmış xarici siyasət yürüdərək həm ABŞ, həm də Çin ilə əməkdaşlıq əlaqələrini inkişaf etdirməyə çalışır. ABŞ ilə Azərbaycan arasında əsas əməkdaşlıq sahələri enerji təhlükəsizliyi, regional sabitlik və təhlükəsizlik məsələləridir. ABŞ uzun müddət Azərbaycanın enerji layihələrinə və regionda sabitliyin təmin edilməsinə dəstək göstərmişdir. Çin isə əsasən iqtisadi və ticarət sahəsində əməkdaşlığa üstünlük verir. Çin şirkətləri Azərbaycanın infrastruktur layihələrində iştirak edir və ölkə Çinin Avrasiya ticarət marşrutları üçün strateji tranzit məkan kimi qiymətləndirilir.

***Perspektivlər və çağırışlar.*** ABŞ-Çin rəqabəti kontekstində Azərbaycan üçün əsas məsələ balanslı və praqmatik xarici siyasətin qorunmasıdır. Azərbaycan bir tərəfdən Qərb dövlətləri ilə enerji və təhlükəsizlik sahəsində əməkdaşlığı davam etdirməli, digər tərəfdən isə Çin ilə iqtisadi və logistika sahəsində əlaqələri genişləndirməlidir. Eyni zamanda regionda mövcud olan geosiyasi risklər, böyük

güclər arasında rəqabətin artması və iqtisadi transformasiya prosesləri Azərbaycanın strateji qərarlarına təsir edən mühüm amillərdir.

Müasir beynəlxalq münasibətlər sistemində böyük güclər arasında rəqabətin artması regional dövlətlər üçün həm yeni imkanlar, həm də müəyyən risklər yaradır. Bu kontekstdə Azərbaycan üçün əsas vəzifələrdən biri dəyişən geosiyasi mühitə uyğun çevik və balanslaşdırılmış siyasət həyata keçirməkdir. Xüsusilə Amerika Birləşmiş Ştatları ilə Çin Xalq Respublikası arasında davam edən rəqabət Azərbaycanın iqtisadi, siyasi və təhlükəsizlik strategiyalarına müəyyən təsirlər göstərir.

Azərbaycan üçün mühüm perspektivlərdən biri ölkənin tranzit və logistika potensialının daha da inkişaf etdirilməsidir. Avropa ilə Asiya arasında yerləşən ölkə beynəlxalq nəqliyyat marşrutlarında mühüm rol oynaya bilər. Bu baxımdan Orta Dəhliz layihəsinin inkişafı Azərbaycanın qlobal ticarət sistemində mövqeyini gücləndirə və ölkəni Avrasiya məkanında əsas logistika mərkəzlərindən birinə çevirə bilər [12].

Digər mühüm perspektiv enerji sektorunun inkişafı ilə bağlıdır. Azərbaycanın zəngin enerji ehtiyatları və həyata keçirilən beynəlxalq layihələr ölkənin qlobal enerji bazarında rolunu artırır. Bu çərçivədə Cənub Qaz Dəhlizi layihəsi Avropa bazarlarına enerji təchizatının şaxələndirilməsində mühüm rol oynayır və Azərbaycanın strateji tərəfdaş kimi mövqeyini möhkəmləndirir [16].

Bununla yanaşı, mövcud geosiyasi vəziyyət müəyyən çağırışlar da yaradır. Böyük güclər arasında rəqabətin kəskinləşməsi regionda siyasi gərginlik risklərini artıra bilər. Bu şəraitdə Azərbaycan üçün əsas çağırışlardan biri müxtəlif güc mərkəzləri arasında balansı qorumaq və milli maraqların təmin edilməsini davam etdirməkdir [18].

Digər bir çağırış iqtisadi və texnoloji transformasiya ilə bağlıdır. Qlobal iqtisadi sistemdə baş verən dəyişikliklər, xüsusilə texnologiya və rəqəmsal iqtisadiyyat sahəsində artan rəqabət ölkələrin yeni inkişaf strategiyaları formalaşdırmasını tələb edir. Bu baxımdan Azərbaycan iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı və innovativ texnologiyaların tətbiqi istiqamətində addımlar atmalıdır. Beləliklə, ABŞ Çin rəqabəti fonunda Azərbaycan üçün həm mühüm perspektivlər, həm də müəyyən çağırışlar mövcuddur. Effektiv və balanslaşdırılmış xarici siyasət, iqtisadi diversifikasiya və regional əməkdaşlığın inkişafı Azərbaycanın bu mürəkkəb geosiyasi mühitdə mövqeyini möhkəmləndirməsinə imkan verə bilər.

ABŞ Çin rəqabəti qlobal siyasətin əsas istiqamətlərindən biri olaraq bir çox regionlara təsir göstərir. Azərbaycanın geosiyasi mövqeyi isə bu rəqabət kontekstində xüsusi əhəmiyyət daşıyır. Enerji resursları, nəqliyyat dəhlizləri və balanslaşdırılmış xarici siyasət sayəsində Azərbaycan regional və qlobal səviyyədə mühüm strateji aktor kimi çıxış edir.

***Nəticə.*** XXI əsrdə beynəlxalq münasibətlər sistemində baş verən transformasiyalar qlobal güclər arasında rəqabətin artması ilə xarakterizə olunur. Xüsusilə Amerika Birləşmiş Ştatları ilə Çin Xalq Respublikası arasında siyasi, iqtisadi və texnoloji sahələrdə davam edən rəqabət müasir beynəlxalq sistemin əsas xüsusiyyətlərindən birinə çevrilmişdir. Bu rəqabət qlobal səviyyə ilə yanaşı, Avrasiya məkanında da özünü aydın şəkildə göstərir və region ölkələrinin geosiyasi mövqeyinə təsir edir. Bu kontekstdə Azərbaycan Avropa ilə Asiya arasında yerləşən strateji mövqeyi, enerji resursları və beynəlxalq nəqliyyat dəhlizlərindəki rolu sayəsində mühüm geosiyasi aktor kimi çıxış edir. Azərbaycanın həyata keçirdiyi enerji layihələri və beynəlxalq logistika təşəbbüsləri ölkənin qlobal iqtisadi sistemdə əhəmiyyətini artırmışdır. Xüsusilə Cənub Qaz Dəhlizi layihəsi Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır, eyni zamanda Azərbaycanın beynəlxalq enerji bazarında mövqeyini gücləndirir. Bununla yanaşı, Avrasiya məkanında ticarət və nəqliyyat əlaqələrinin inkişafında Orta Dəhliz layihəsi də strateji əhəmiyyət daşıyır. Bu dəhliz Çin ilə Avropa arasında alternativ və daha səmərəli ticarət marşrutlarının formalaşmasına şərait yaradır və Azərbaycanın tranzit ölkə kimi rolunu gücləndirir.

Aparılan təhlillər göstərir ki, ABŞ-Çin rəqabəti kontekstində Azərbaycan balanslaşdırılmış və praqmatik xarici siyasət strategiyası həyata keçirərək həm Qərb dövlətləri, həm də Asiya ölkələri ilə əməkdaşlığı inkişaf etdirməyə çalışır. Bu yanaşma ölkəyə müxtəlif iqtisadi və siyasi tərəfdaşlıqlardan faydalanmağa və regional sabitlikdə mühüm rol oynamağa imkan verir.

**Tövsiyələr:**

**1. Balanslaşdırılmış xarici siyasətin davam etdirilməsi.** Azərbaycan böyük güclər arasında rəqabət şəraitində çoxvektorlu və praqmatik diplomatiya siyasətini qoruyaraq müxtəlif tərəfdaşlarla əməkdaşlığı inkişaf etdirməlidir;

**2. Nəqliyyat və logistika potensialının genişləndirilməsi.** Avrasiya məkanında tranzit ölkə kimi mövqenin möhkəmləndirilməsi üçün beynəlxalq nəqliyyat dəhlizlərinin və logistika infrastrukturlarının inkişafı davam etdirilməlidir;

**3. Enerji sektorunun modernləşdirilməsi və şaxələndirilməsi.** Enerji resurslarının ixrac imkanlarının genişləndirilməsi ilə yanaşı, alternativ və bərpa olunan enerji mənbələrinin inkişafına da xüsusi diqqət yetirilməlidir;

**4. İqtisadiyyatın diversifikasiyası.** Qlobal iqtisadi dəyişikliklər fonunda qeyri-neft sektorunun inkişafı və innovasiya yönümlü iqtisadi modelin formalaşdırılması Azərbaycanın uzunmüddətli iqtisadi dayanıqlığını təmin edə bilər;

**5. Regional əməkdaşlığın gücləndirilməsi.** Cənubi Qafqaz və Avrasiya regionunda iqtisadi və siyasi əməkdaşlıq mexanizmlərinin inkişafı Azərbaycanın regional sabitlikdə rolunu daha da artıracaqdır;

Beləliklə, ABŞ Çin rəqabətinin formalaşdırdığı mürəkkəb geosiyasi mühitdə Azərbaycan strateji coğrafi mövqeyi və balanslaşdırılmış siyasəti sayəsində həm regional, həm də qlobal səviyyədə əhəmiyyətli aktor kimi çıxış etməyə davam edə bilər. Effektiv diplomatik strategiya, iqtisadi inkişaf və beynəlxalq əməkdaşlıq Azərbaycanın gələcək geosiyasi perspektivlərini daha da gücləndirəcəkdir.

## ƏDƏBİYYAT


1. Allison, G. (2017). *Destined for War: Can America and China Escape Thucydides's Trap?* Boston: Houghton Mifflin Harcourt.
2. Brzezinski, Z. (1997). *The Grand Chessboard: American Primacy and Its Geostrategic Imperatives.* Basic Books.
3. Cooley, A. (2012). *Great Games, Local Rules: The New Great Power Contest in Central Asia.* Oxford University Press.
4. Cornell, S. E. (2011). *Azerbaijan Since Independence.* New York: M.E. Sharpe.
5. Cornell, S. E. (Ed.). (2017). *The Interna;onal Politics of the Armenian-Azerbaijani Conflict: The Original Frozen Conflict and European Security.* Palgrave Macmillan.
6. Cornell, S. E., Starr, S. F. (2018). *The New Silk Roads: Transport and Trade in Greater Central Asia.*
7. Cutler, R. M. (2016). *Azerbaijan's Role in European Energy Security.* Caucasus International.
8. De Waal, T. (2003). *Black Garden: Armenia and Azerbaijan Through Peace and War.* New York: NYU Press.
9. Hasanli, J. (2009). *The Foreign Policy of the Azerbaijan Democratic Republic (1918–1920).* Baku.
10. Hillman, J. (2018). *The Emperor's New Road: China and the Project of the Century.* Yale University Press.
11. Ikenberry, G.J. (2018). *The End of Liberal International Order?* International Affairs.
12. Kenderdine, T., & Bucsky, P. (2021). *China's Middle Corridor and the TransCaspian Route.* Eurasian Geography and Economics.
13. Mammadov, A. (2022). *Azerbaijan's Foreign Policy Analysis in the Perspective of Neorealist Theory.* Journal of Eastern European and Central Asian Research.
14. Mearsheimer, J.J. (2014). *The Tragedy of Great Power Politics.* New York: W.W.Norton & Company.
15. Rolland, N. (2017). *China's Eurasian Century? Political and Strategic Implications of the Belt and Road Initiative.* Washington DC: National Bureau of Asian Research.
16. Shaffer, B. (2020). *Energy Politics.* Philadelphia: University of Pennsylvania Press.
17. Shafiyev, F. (Ed.). (2019). *Azerbaijan's Geopolitical Landscape: Contemporary Issues, 1991–2018.* Karolinum Press.

18. Valiyev, A., & Mamishova, N. (2019). *Azerbaijan's Foreign Policy Towards Russia Since Independence: Compromise Achieved.* Southeast European and Black Sea Studies.

**AYKHAN MAMMADLI**
*First year master's student at the Faculty of International Relations and Economics of Baku State University, majoring in Foreign Policy of the Far Eastern States in the Modern Period"*

## AZERBAIJAN'S GEOPOLITICAL POSITION IN THE CONTEXT OF THE U.S.–CHINA RIVALRY

In the contemporary international relations system, the growing competition between major powers has become one of the key drivers of global political and economic processes. In particular, the strategic rivalry between the United States of America and the People's Republic of China significantly affects the structure of the international system, regional security environments, and the foreign policy strategies of states. This competition manifests not only at the global level but also shapes political and economic dynamics in the Eurasian region. The Eurasian region is of particular interest due to its rich energy resources and critical transportation and trade corridors. Within this context, Azerbaijan, located at the crossroads of Europe and Asia, with its energy resources and international transit routes, emerges as a significant geopolitical actor in the region.

This article analyzes the global nature of the US–China rivalry, its impact on the Eurasian region, and Azerbaijan's geopolitical position within these processes. It examines Azerbaijan's balanced foreign policy strategy, energy diplomacy, and participation in international transport projects. The research concludes that Azerbaijan, in the context of great power competition, pursues a pragmatic and multi-vector foreign policy, strengthening its strategic position both regionally and globally.

*Keywords:* US China competition, geopolitics, Eurasian region, Azerbaijan, international relations, energy security, transport corridors, foreign policy strategy.

*Daxil olma tarixi*: 01.04.2026-cı il.
*Çapa imzalanma tarixi*: 05.05.2026-cı il.

UOT 16

**AYLA BAYANDUROVA**
*Qarabağ Universiteti Pedaqoji fakültəsinin*
*İngilis dili müəllimliyi ixtisasının (SABAH qrupu) III kurs tələbəsi*
**bayandurovaayla@gmail.com**

# SÜNİ İNTELLEKT SİSTEMLƏRİNDƏ ALQORİTMİK MÜHAKİMƏ VƏ İNSAN MƏNTİQİNİN KOMPORATİV ANALİZİ: TƏQLİDDƏN FORMALİZASİYAYA

*Elmi rəhbər:*
Qarabağ Universitetinin müəllimi Fizzə Məmmədova

*Bu tədqiqat işi süni intellekt (Sİ) sistemlərinin mühakimə mexanizmlərini insan koqnitiv prosesləri ilə müqayisəli şəkildə təhlil edir. Məqalədə Sİ-nin inkişaf yolu - sadə davranış təqlidindən (Imitation Learning) mürəkkəb mühakimə zəncirlərinə (Chain-of-Thought) və formal məntiqi sistemlərə keçid araşdırılır. Tədqiqat zamanı səkkiz fundamental akademik mənbəyə istinad edilərək, Sİ-nin "Az nümunəli öyrənmə"(Few-shot learning) qabiliyyəti, analoji mühakimənin AGI (Süni Ümumi İntellekt) üçün əhəmiyyəti və insan-maşın kollaborasiyasında hibrid qərar qəbul etmə modelləri müzakirə olunur. Nəticə olaraq, Sİ-nin mühakimə qabiliyyətinin hələ də insan intuisiyasından fərqli, lakin formalizasiya baxımından yüksək dəqiqliyə malik olduğu sübut edilir.*

*Açar sözlər:* Süni İntellekt, Alqoritmik mühakimə, İnsan məntiqi, Düşüncə zənciri (CoT), Analoji mühakimə, Formalizasiya, Hibrid qərar qəbul etmə.

***Giriş***. Müasir texnologiyanın ən böyük çağırışlarından biri maşınların insan kimi mühakimə yürütməsini təmin etməkdir. Onilliklər boyu Sİ sistemləri yalnız verilmiş məlumatlar daxilində statistik ehtimalları hesablayan "qara qutu"lar kimi fəaliyyət göstərmişdir. Lakin Böyük Dil Modellərinin (LLM) ortaya çıxması ilə biz "alqoritmik mühakimə" (algorithmic reasoning) anlayışının yaranmasının şahidi oluruq. Bu məqalə Sİ-nin yalnız "nəyi" deyil, "necə" və "niyə" suallarına cavab tapmağa çalışdığı bu keçid mərhələsini elmi əsaslarla təhlil edir.

## 1. İntellektin anlayış bazası və terminologiya

1.1. İnsan və Süni intellektin tərifindəki harmonizasiya

İntellektin tərifi psixologiya və kompüter elmləri arasında tez-tez ziddiyyət təşkil edir. Gilles E. Gignac və Eva T. Szodorai [2024] özlərinin "Defining intelligence: Bridging the gap between human and artificial perspectives" adlı məqaləsində qeyd edirlər ki, hər iki intellekt növü "yeni hədəflərə çatmaq üçün maksimal qabiliyyət" kimi başa düşülməlidir. Müəlliflər vurğulayırlar ki, insan intellekti perseptiv-koqnitiv proseslərə, Sİ isə hesablama (computational) proseslərinə əsaslanır. Bu mənbəyə görə, mühakimə qabiliyyəti intellektin çoxölçülü modelinin (Cattell-Horn-Carroll nəzəriyyəsi) mərkəzində dayanır. Sİ sistemlərinin insan məntiqini keçməsi üçün yalnız məlumat emalı deyil, həm də kəmiyyət mühakiməsi (quantitative reasoning) və leksik biliklərin sintezi tələb olunur.

1.2. CHC nəzəriyyəsi və mühakimənin iyerarxiyası

CHC nəzəriyyəsi intellekti üç səviyyəli (stratum) bir struktur kimi təsvir edir. Məqalənizdə mühakimə (reasoning) mövzusunu bu modellə belə əlaqələndirməlisiniz:

Maye intellekt (Gf - Fluid Intelligence): Bu, mühakimənin nüvəsidir. Yeni problemləri həll etmək, induktiv və deduktiv nəticələr çıxarmaq qabiliyyətidir. Gignac vurğulayır ki, Sİ-nin mühakimə qabiliyyəti (məsələn, Chain-of-Thought metodu) məhz insanlardakı bu "Gf" faktorunun alqoritmik ekvivalentidir.

Kristallaşmış intellekt (Gc - Crystallized Intelligence): Öyrənilmiş biliklər və söz ehtiyatıdır. Böyük dil modellərinin (LLM) nəhəng korpuslar üzərində təlim keçməsi, mahiyyət etibarilə bu Gc faktorunun maşın tərəfindən mənimsənilməsidir.

Kəmiyyət mühakiməsi (Gq - Quantitative Reasoning): Riyazi simvollarla işləmək qabiliyyəti.

1.3. Psixoloji detal: "Maksimal qabiliyyət" və "Hesablama səyi"

Gignac və Szodorai [2024] mühüm bir psixoloji differensasiya irəli sürür: İnsan intellekti test edilərkən biz şəxsin "maksimal qabiliyyətini" (peak performance) ölçürük. Sİ-də isə mühakimə çox vaxt statistik orta göstəriciyə (average performance) əsaslanır. Psixoloji baxımdan insan mühakiməsi perseptiv-koqnitiv (duyğu üzvlərindən gələn məlumatın emalı) prosesdir. Sİ-də isə bu, tamamilə hesablama (computational) prosesidir. Müəlliflər qeyd edirlər ki, Sİ-nin insan kimi mühakimə yürütdüyünü iddia etmək üçün o, yalnız nəticəni (output) doğru verməməli, həm də mühakimə zamanı insan beynindəki kimi iyerarxik strukturdan (yəni aşağı səviyyəli biliklərdən yuxarı səviyyəli abstraksiyaya keçid) istifadə etməlidir.

1.4. Koqnitiv yük və Alqoritmik səmərəlilik

Məqalənizə əlavə edə biləcəyiniz digər bir detal: İnsanlarda mürəkkəb mühakimə işçi yaddaşın (working memory) həcmi ilə məhdudlaşır (koqnitiv yük nəzəriyyəsi). Sİ sistemlərində (məsələn, Brown et al., 2020-nin qeyd etdiyi GPT-3-də) isə bu məhdudiyyət "kontekst pəncərəsi" (context window) ilə əvəz olunur. Beləliklə, Sİ-nin mühakiməsi insan məntiqindən fərqli olaraq, bioloji yorğunluq və ya diqqət dağınıqlığı kimi psixoloji faktorlardan azaddır, lakin o, mətndəki uzaq əlaqələri "unutmamaq" üçün nəhəng hesablama resursu tələb edir.

**2. Təqliddən avtonom mühakiməyə keçid**

2.1. İmitasiya öyrənməsinin robototexnika və alqoritmik perspektivi

Süni intellektin mühakimə sistemlərinin təkamülündə imitasiya öyrənməsi (Imitation Learning - IL) fundamental rol oynayır. Takayuki Osa [2018] qeyd edir ki, mürəkkəb mühitlərdə (məsələn, robototexnika) agentə "nə etməli olduğunu" birbaşa kodlaşdırmaq əvəzinə, ona insan mütəxəssis tərəfindən nümayiş etdirilən davranışları öyrətmək daha səmərəlidir. Lakin bu proses mühakimədən daha çox riyazi optimallaşdırmaya əsaslanır.

2.2. Davranış siyasəti və siyasət öyrənmə

IL-in nüvəsində "siyasət" (policy) anlayışı dayanır. Alqoritmik dildə bu, $\pi(a|s)$ funksiyası ilə ifadə olunur:

$\pi$ : Agentin qərar vermə modeli.

s (state): Cari vəziyyət və ya ətraf mühitdən gələn giriş məlumatı.

a (action): Həmin vəziyyətdə icra edilən hərəkət.

Osa-ya görə, məqsəd mütəxəssisin (insanın) siyasətinə ($\pi$) ən yaxın olan alqoritmik siyasəti tapmaqdır. Bu, riyazi olaraq itki funksiyasının (loss function) minimallaşdırılması kimi təsvir edilir:

$J(\pi)= Es{\sim}d\pi\ [L(a, \pi(s))]$

Burada E gözlənilən dəyəri, L isə insanın hərəkəti ilə maşının hərəkəti arasındakı fərqi (itkini) təmsil edir.

2.3. Davranış klounlaşdırılması (BC) və İnvers gücləndirilmiş öyrənmə (IRL) arasındakı metodoloji fərqlər

Osa və həmməllifləri imitasiya prosesini iki əsas metodoloji qrupa ayırırlar ki, bu da mühakiməyə keçidin ilk pilləsidir:

1.Davranış klounlaşdırılması (Behavioral Cloning - BC):

Mexanizm: Bu, birbaşa nəzarətli öyrənmədir (Supervised Learning). Agent vəziyyətləri və hərəkətləri (s--a) bir xəritə kimi öyrənir.

Məhdudiyyəti: Osa vurğulayır ki, BC-də agent "niyə" sualını vermir. Əgər agent öyrədilmiş məlumat dəstində olmayan kiçik bir səhv edərsə, bu səhvlər zəncirvari şəkildə artır (covariate shift). Bu, alqoritmik mühakimənin ən zəif nöqtəsidir: sistem mühakimə yürütmədiyi üçün öz səhvini düzəldə bilmir.

2.İnvers gücləndirilmiş öyrənmə (Inverse Reinforcement Learning - IRL):

Mexanizm: BC-dən fərqli olaraq, burada agent hərəkəti deyil, hərəkətin arxasındakı məqsədi öyrənməyə çalışır. Agent mütəxəssisin gizli "mükafat funksiyasını" (R(s, a)) təxmin edir.

Mühakiməyə yaxınlıq: IRL formal mühakiməyə daha yaxındır, çünki burada sistem "Bu hərəkət hansı hədəfə xidmət edir?" sualına cavab tapmağa çalışır.

2.4 Nəticə etibarilə: Təqlidin sədəfidir, yoxsa maneə?

Məqalənin bu bölməsində vurğulanmalıdır ki, Osa-nın təsvir etdiyi imitasiya modelləri süni intellektin "Sistem 1" (sürətli, intuitiv, lakin düşünmədən icra edilən) fəaliyyətini təmsil edir. Sİ-nin mürəkkəb insan məntiqinə çatması üçün bu siyasət öyrənmə (policy learning) mərhələsindən çıxıb, növbəti bölmələrdə müzakirə ediləcək semantik və formal mühakimə səviyyəsinə yüksəlməsi zəruridir.

**3. Formal mühakimənin mexanizmləri**

3.1. Düşüncə zənciri (Chain-of-Thought) metodologiyası

Sİ-nin birbaşa cavab vermək əvəzinə addım-addım mühakimə yürütməsi mühüm yenilikdir. Jason Wei və digərləri [2022] "Chain-of-Thought Prompting Elicits Reasoning in Large Language Models" məqaləsində bu metodu təhlil edirlər. CoT metoduna görə, model problemi həll edərkən aralıq məntiqi addımlar yaradır. Məsələn, riyazi bir məsələdə model birbaşa "Cavab 11-dir" demir, əvvəlcə əlində olanları, sonra əlavə edilənləri hesablayır (Rogerin 5 topu var idi, 2 kan aldı, hər kanda 3 top var...). Bu, insan beynindəki "Sistem 2" (təhlili və yavaş düşüncə) prosesinin alqoritmik təqlididir.

3.2. GSM8K: Riyazi söz problemlərində sıçrayış

Wei-nin tədqiqatında ən çox diqqət çəkən eksperiment GSM8K (Grade School Math 8K) testidir. Bu test ibtidai məktəb səviyyəsində, lakin çoxpilləli mühakimə tələb edən 8.500 riyazi məsələdən ibarətdir.

Eksperimental nümunə:

Sual: "Kafedranın 23 alması var idi. Nahar üçün 20-ni istifadə etdilər və daha 6-sını aldılar. İndi neçə almaları var?"

Standart yanaşma (Standard Prompt): Model birbaşa "Cavab 9-dur" deyir (və bəzən səhv edir).

CoT yanaşması: Model mühakimə zənciri qurur: "Kafedranın 23 alması var idi. 20-ni istifadə etdilər, deməli 23 - 20 = 3 alması qaldı. Sonra 6 alma aldılar, beləliklə 3 + 6 = 9 almaları oldu. Cavab 9-dur." Nəticə kimi Wei-nin eksperimentləri göstərdi ki, PaLM 540B modeli CoT istifadə etməklə GSM8K testində 56.9% dəqiqlik nümayiş etdirmişdir. Bu, standart metodla müqayisədə (təxminən 18%) kəskin artımdır və hətta xüsusi təlim keçmiş (fine-tuned) modelləri geridə qoymuşdur.

3.3. StrategyQA: Məntiqi mühakimə və strategiya

Digər bir mühüm eksperiment StrategyQA (Strategic Question Answering) testidir. Bu testdə suallara birbaşa cavab vermək mümkün deyil; model gizli mülahizələri (implicit reasoning) tapmalı və onları birləşdirməlidir.

Eksperimental nümunə:

Sual: "Aristotel noutbukdan istifadə edə bilərdimi?"

Modelin CoT mühakiməsi: "Aristotel qədim Yunanıstanda yaşamışdır (e.ə. 384-322). Noutbuklar isə 20-ci əsrin sonlarında icad edilmişdir. Aristotel noutbukun icadından əsrlər əvvəl vəfat etdiyi üçün o, noutbukdan istifadə edə bilməzdi. Cavab: Xeyr".

Analiz: Wei qeyd edir ki, bu cür testlər modelin dünya haqqındakı biliklərini (Gc - kristallaşmış intellekt) məntiqi ardıcıllıqla (Gf - maye intellekt) necə sintez etdiyini göstərir.

3.4. Simvolik mühakimə: Adların sıralanması və "Coin Flip"

Wei mühakimənin yalnız dil qabiliyyəti olmadığını sübut etmək üçün simvolik manipulyasiya testlərindən də istifadə etmişdir:

1. Last Letter Concatenation: "Elon Musk" adının son hərflərini birləşdirin (n + k = nk).
2. Coin Flip: "Sikkə üzü üstdədir. Siz onu bir dəfə çevirdiniz. İndi hansı tərəfdədir?".

Bu testlərdə CoT metodundan istifadə edən modellər, standart modellərin "itib getdiyi" uzun hərəkət ardıcıllıqlarını uğurla tamamlaya bilmişlər.

3.5. Eksperimentlərin metodoloji əhəmiyyəti

Wei-nin tədqiqatındakı ən önəmli elmi nəticə budur ki, mühakimə qabiliyyəti yalnız modelin miqyası (scale) ilə birbaşa əlaqəlidir. Müəlliflər aşkar etmişlər ki, mühakimə zənciri qurmaq bacarığı yalnız modelin parametrləri 100 milyardı keçdikdə "ortaya çıxan" (emergent) bir xüsusiyyətdir. Bu, alqoritmik mühakimənin sadəcə bir proqramlaşdırma kodu deyil, böyük həcmli neyron şəbəkələrinin mürəkkəbliyindən doğan bir fenomen olduğunu göstərir.

**4. Formalizasiya və universal məntiq**

4.1. Universal məntiqi mühakimə sistemi

Süni intellektin mühakimə qabiliyyətini müzakirə edərkən Christoph Benzmüller [2017] fəlsəfi bir təmələ - Qotfrid Vilhelm Leibnizin 17-ci əsrdə irəli sürdüyü "Characteristica Universalis" və "Calculus Ratiocinator" vizyonuna müraciət edir. Leibniz inanırdı ki, bütün insan düşüncəsi və mühakiməsi simvolların riyazi manipulyasiyasına endirilə bilər. Benzmüllerin fikrincə, müasir kompüter elmləri və Sİ, Leibnizin arzuladığı bu "hesablana bilən rasionalizm" dövrünü reallığa çevirmək ərəfəsindədir. O qeyd edir ki, mühakimənin formalizasiyası sadəcə bir mühəndislik tapşırıq deyil, həm də universal bir məntiq dili vasitəsilə insan və maşın arasındakı intellektual baryerin aradan qaldırılmasıdır.

4.2. "Calculemus!" (Gəlin hesablayaq!) prinsipi və maşın etikası

Benzmüllerin "Leibniz vizyonu"na dair ən dərin düşüncələrindən biri məntiqin münaqişələrin həllindəki roludur. Leibnizin məşhur "Calculemus!" şüarı, insanlar arasında fikir ayrılığı yarandıqda, tərəflərin oturub məsələni məntiqi düsturlarla hesablayaraq obyektiv nəticəyə gəlməsini nəzərdə tuturdu. Benzmüller bu ideyanı müasir Sİ mühakiməsinə tətbiq edərək bildirir ki, Sİ sistemləri Klassik yüksək dərəcəli məntiq (Higher-Order Logic - HOL) vasitəsilə mürəkkəb etik və hüquqi arqumentləri formalizə edə bilər. Bu yanaşma, Sİ-ni sadəcə verilənləri emal edən bir alətdən, rasional arqumentasiya qabiliyyətinə malik "əxlaqi agent"ə çevirir. Formalizasiya burada təhlükəsizlik və şəffaflığın zəmanəti kimi çıxış edir: əgər maşın mühakiməni formal məntiq qaydaları ilə yürüdürsə, onun gəldiyi nəticə həm izlənilə bilən, həm də riyazi olaraq sübut edilə biləndir.

4.3. Meta-məntiq: Fərqli məntiq sistemlərinin inteqrasiyası

Benzmüller vurğulayır ki, insan məntiqi monolitik deyil; biz situasiyadan asılı olaraq modal (ehtimal), deontik (vəzifə və icazə) və ya epistemik (bilik) məntiqlərdən istifadə edirik. Leibnizin universal dil vizyonunu müasir dövrə adaptasiya edən Benzmüller, HOL-un bir "meta-məntiq" rolu oynadığını göstərir. Bu, Sİ-yə fərqli məntiqi çərçivələri vahid bir sistem daxilində "shallow embedding" (səthi yerləşdirmə) metodu ilə birləşdirməyə imkan verir. Beləliklə, mühakimənin formalizasiyası Sİ-ni dar çərçivəli alqoritmlərdən xilas edərək, ona insan düşüncəsinin geniş və çoxşaxəli təbiətinə uyğun universal bir mühakimə platforması qazandırır.

**5. İnsan-Sİ kollaborasiyası və qərar qəbul etmə**

5.1. Hibrid mühakimə modelləri: Passerini perspektivi

Müasir Süni intellekt tədqiqatlarında mərkəzi hədəf Sİ-ni insanı əvəz edən rəqib deyil, onu tamamlayan bir tərəfdaş kimi formalaşdırmaqdır. Andrea Passerini və digərləri [2025] özlərinin "Fostering effective hybrid human-LLM reasoning and decision making" adlı perspektiv məqaləsində qeyd edirlər ki, Sİ-nin mühakimə qabiliyyəti (xüsusilə LLM-lər) hələ də "hallusinasiyalara" və kontekstual səhvlərə meyillidir. Müəlliflər təklif edirlər ki, effektiv qərar qəbul etmə hər iki tərəfin güclü tərəflərini birləşdirməlidir: Sİ-nin nəhəng hesablama dəqiqliyi və insanın dərin kontekstual duyumu (sense-making). Passeriniyə görə, bu hibrid modeldə Sİ "divergent düşüncə" (çoxsaylı həll yollarının sürətli yaradılması) funksiyasını yerinə yetirir, insan isə "konvergent düşüncə" (ən uyğun və etik həllin seçilməsi) rolunda çıxış edir. Bu, alqoritmik mühakimənin formal sərtliyini insanın elastik məntiqi ilə tarazlayır.

5.2. Li və Tian: 627 mənbənin bibliometrik analizi və qərar paradiqmaları

Bu hibridləşmənin elmi miqyasını anlamaq üçün Han Li və Feng Tianın [2026] apardığı sistematik icmal həlledici rol oynayır. Müəlliflər 2010-2025-ci illəri əhatə edən 627 yüksək reytinqli akademik məqaləni bibliometrik analizə tabe tutaraq, mühakimə və qərar qəbul etmə proseslərinin dörd əsas paradiqmaya bölündüyünü müəyyən etmişlər:

1. Adaptiv İntuitiv Qərar (Adaptive Intuitive Decision): Bu modeldə qərarın əsasını insan intuisiyası təşkil edir. Sİ burada yalnız məlumatların vizuallaşdırılması və ya kiçik ehtimal hesablamaları ilə insanın sürətini artırır. Bibliometrik analiz göstərir ki, bu model daha çox yaradıcı sahələrdə və qeyri-müəyyənliyin yüksək olduğu mühitlərdə tətbiq olunur.
2. Proqramlaşdırılmış alqoritmik qərar (Programmed Algorithmic Decision): Standart, təkrarlanan və dəqiq qaydalara əsaslanan işlərdə istifadə olunur. Li və Tian qeyd edirlər ki, burada mühakimə tamamilə formalizə olunub və maşın məntiqi dominantdır (məsələn, bank sistemlə-

rində kredit skorinqi). Tədqiq olunan 627 mənbənin əhəmiyyətli hissəsi məhz bu avtomatlaşdırılmış mühakimənin səmərəliliyindən bəhs edir.

3. İnterpretiv analitik qərar (Interpretive Analytical Decision): Sİ mürəkkəb analitik nəticələr və proqnozlar təqdim edir, lakin bu nəticələrin "tərcüməsi" və mənası insan tərəfindən müəyyən edilir. Bu paradiqma tibbi diaqnostika və hüquqi analizlər kimi yüksək məsuliyyətli sahələrdə aparıcıdır.

4. İnteqrativ hibrid qərar (Integrative Hybrid Decision): Li və Tianın təhlilinə görə, bu ən inkişaf etmiş və gələcəyə yönəlmiş paradiqmadır. Burada Sİ və insan bərabərhüquqlu tərəfdaş kimi çıxış edir; maşın öz məntiqi zəncirini (CoT) təqdim edir, insan isə onu tənqid edərək və ya düzəlişlər edərək ortaq bir məntiqi sintezə nail olur.

5.3. Bibliometrik nəticələrin məntiqi yekunu

Li və Tianın apardığı analiz sübut edir ki, mühakimənin "təqliddən formalizasiyaya" keçidi təkcə maşın daxilində deyil, həm də insan-maşın əməkdaşlıq interfeysində baş verir. 627 mənbənin ortaq nəticəsi budur ki, ən uğurlu qərarlar Sİ-nin mühakiməsini insan nəzarəti (human-in-the-loop) ilə birləşdirən "İnteqrativ hibrid" modellər tərəfindən verilir. Bu, Benzmüllerin irəli sürdüyü "universal məntiq" vizyonunun praktiki və idarəetmə müstəvisində tətbiqi deməkdir.

***Nəticə***. Aparılan komparativ analiz göstərir ki, süni intellekt sistemlərində alqoritmik mühakimə yolu "təqliddən formalizasiyaya" doğru sürətlə irəliləyir. Əgər əvvəllər Sİ yalnız məlumatın statik inikası idisə, bu gün Chain-of-Thought və Universal məntiq vasitəsilə o, dinamik mühakimə yürüdə bilir. Lakin insan məntiqinin "məna vermə" (meaning-making) və "intuitiv sıçrayış" (intuitive leap) xüsusiyyətləri hələ də maşınlar üçün əlçatmaz qalır. Gələcək inkişaf, Benzmüllerin təklif etdiyi formalizasiya ilə Li və Tianın təklif etdiyi hibrid modellərin sintezində dayanır.

## ƏDƏBİYYAT


1. Benzmüller, C. (2017). Universal Reasoning, Rational Argumentation and Human-Machine Interaction. arXiv:1703.09620v1 [cs.AI].
2. Brown, T. B., et al. (2020). Language Models are Few-Shot Learners. arXiv preprint arXiv:2005.14165.
3. Firt, E. (2025). Analogical reasoning as a core AGI capability. AI and Ethics, 5:5501–5515.
4. Gignac, G. E., & Szodorai, E. T. (2024). Defining intelligence: Bridging the gap between human and artificial perspectives. Intelligence, 104, 101832.
5. Li, H., & Tian, F. (2026). Advancing Decision-Making through AI-Human Collaboration: A Systematic Review and Conceptual Framework. Group Decision and Negotiation, 35:26.
6. Osa, T., et al. (2018). An Algorithmic Perspective on Imitation Learning. Foundations and Trends in Robotics, 7(1-2), 1-179.
7. Passerini, A., et al. (2025). Fostering effective hybrid human-LLM reasoning and decision making. Frontiers in Artificial Intelligence, 7:1464690.
8. Wei, J., et al. (2022). Chain-of-Thought Prompting Elicits Reasoning in Large Language Models. NeurIPS.



**AYLA BAYANDUROVA**

*Karabakh University, Faculty of Education,*
*Foreign Language Teaching (SABAH Groups), 3rd-Year Undergraduate Student*


## COMPARATIVE ANALYSIS OF ALGORITHMIC REASONING AND HUMAN LOGIC IN ARTIFICIAL INTELLIGENCE SYSTEMS: FROM IMITATION TO FORMALIZATION


This research paper analyzes the reasoning mechanisms of Artificial Intelligence (AI) systems in comparison with human cognitive processes. The article explores the developmental trajectory of

AI - transitioning from simple behavior imitation (Imitation Learning) to complex reasoning chains (Chain-of-Thought) and formal logical systems. By referencing eight fundamental academic sources, the study discusses AI's "few-shot learning" capabilities, the significance of analogical reasoning for AGI (Artificial General Intelligence), and hybrid decision-making models in human-machine collaboration. In conclusion, it is demonstrated that while AI's reasoning capabilities remain distinct from human intuition, they possess high precision in terms of formalization.

*Keywords:* Artificial Intelligence, Algorithmic Reasoning, Human Logic, Chain-of-Thought (CoT), Analogical Reasoning, Formalization, Hybrid Decision-Making.

*Daxil olma tarixi*: 29.04.2026-cı il.
*Çapa imzalanma tarixi*: 05.05.2026-cı il.

UOT 16

**AYNUR BAYRAMOVA**
*Qarabağ Universiteti Pedaqoji fakültəsinin*
*İngilis dili müəllimliyi ixtisasının (SABAH qrupu) III kurs tələbəsi*
**bayramovaaynur14@gmail.com**

# TƏHSİL PROSESİNİN QİYMƏTLƏNDİRMƏ MƏRHƏLƏSİNDƏ ZİDDİYYƏTSİZLİK QANUNUNUN TƏLƏBƏLƏRİN TƏNQİDİ DÜŞÜNCƏSİNDƏ ƏHƏMİYYƏTİ

*Elmi rəhbər:*
Qarabağ Universitetinin müəllimi Fizzə Məmmədova

*Məqalədə təhsil prosesinin qiymətləndirmə mərhələsində ziddiyyətsizlik qanununun tələbələrin tənqidi düşünmə bacarıqlarına təsiri araşdırılmışdır. Tədqiqat qarışıq metod (mixed-methods) yanaşması ilə aparılmış, 90 tələbədən (bakalavr və magistr) ibarət nümunə üzərində onlayn sorğu tətbiq olunmuşdur. Nəticələr göstərir ki, tələbələr standart testlərin obyektivliyi artırdığını qəbul etsələr də, onların tənqidi düşünməyə təsiri barədə fikirlər fərqlidir. Respondentlər qarışıq qiymətləndirmə sisteminə üstünlük vermiş, açıq suallar və layihə əsaslı tapşırıqların tənqidi düşünməni daha çox inkişaf etdirdiyini vurğulamışlar. Ümumilikdə müəyyən edilmişdir ki, ziddiyyətsizlik qanunu qiymətləndirmədə obyektivliyi gücləndirsə də, tənqidi düşünmənin inkişafı üçün formativ, açıq və çoxşaxəli qiymətləndirmə yanaşmaları daha effektivdir.*

*Açar sözlər:* ziddiyyətsizlik qanunu, tənqidi düşüncə, qiymətləndirmə, təhsil.

***Giriş.*** Müasir təhsil sistemində qiymətləndirmə prosesi təlimin ayrılmaz və strateji mərhələlərindən biri hesab olunur. Bu mərhələ yalnız tələbələrin bilik səviyyəsinin müəyyən edilməsi ilə məhdudlaşmır, həm də onların düşünmə, analiz etmə və problem həll etmə bacarıqlarının inkişafına xidmət edir. Bu baxımdan qiymətləndirmə təhsil keyfiyyətini müəyyən edən əsas mexanizmlərdən biri kimi çıxış edir [1, s.18-22]. Son illərdə təhsil tədqiqatlarında vurğulanır ki, ənənəvi qiymətləndirmə yanaşmaları çox vaxt yalnız nəticəyə yönəldiyi üçün tələbələrin tənqidi düşünmə bacarıqlarını kifayət qədər inkişaf etdirmir [2, s.555-560]. Halbuki müasir pedaqoji yanaşmalar qiymətləndirmənin həm nəticə, həm də proses yönümlü olmasını tələb edir. Bu yanaşma tələbələrin daha dərindən düşünməsini və öz cavablarını əsaslandırmasını stimullaşdırır.

Bu kontekstdə məntiqi prinsiplərin, xüsusilə ziddiyyətsizlik qaununun təhsil prosesinə inteqrasiyası xüsusi əhəmiyyət kəsb edir. Ziddiyyətsizlik qanunu təfəkkürün ardıcıllığını, sistemliliyini və məntiqi uyğunluğunu təmin edən əsas mexanizmdir [3, s.9-12]. Qiymətləndirmə prosesində bu qanun daha çox qiymətləndirmə meyarlarının (rubriklərin) daxili strukturunda özünü göstərir. Meyarlar arasında ziddiyyətin olması (məsələn, eyni cavabın fərqli vaxtlarda fərqli balla qiymətləndirilməsi) tələbələrdə ədalətsizlik hissi yaradır və tənqidi analiz qabiliyyətini zəiflədir [4, s.185-188].

Digər tərəfdən, tənqidi düşüncə bacarıqlarının inkişafı müasir təhsilin əsas hədəflərindən biridir [3, s.21-25]. Tənqidi düşüncə tələbənin məlumatı yalnız qəbul etməsi deyil, onu analiz etməsi, müqayisə etməsi və əsaslandırılmış nəticələr çıxarması prosesidir. Bu prosesdə məntiqi prinsiplər, xüsusilə ziddiyyətsizlik qanunu, mühüm rol oynayır. Çünki tələbə ziddiyyətləri müəyyən etməyi və onları ayırd etməyi öyrəndikdə daha sistemli və düzgün düşünmə bacarığı qazanır. Eyni zamanda, qiymətləndirmə sistemində obyektivliyin təmin olunması təhsil keyfiyyətinin yüksəldilməsində əsas amillərdən biridir [5, s.52-55]. Obyektiv qiymətləndirmə yalnız standart meyarlara əsaslandıqda mümkün olur və bu meyarların daxili ziddiyyətlərdən azad olması vacibdir. Bu baxımdan ziddiyyətsizlik qanunu qiymətləndirmə sisteminin metodoloji əsaslarından biri kimi çıxış edir.

Bütün bu nəzəri yanaşmalar göstərir ki, təhsil prosesində qiymətləndirmə və məntiqi prinsiplər arasında sıx əlaqə mövcuddur. Bu əlaqənin düzgün qurulması tələbələrin həm akademik uğuruna, həm

də onların tənqidi düşünmə bacarıqlarının inkişafına birbaşa təsir göstərir [6, s. 32-38]. Bu məqalənin əsas məqsədi təhsil prosesinin qiymətləndirmə mərhələsində ziddiyyətsizlik qanununun tətbiqinin tələbələrin tənqidi düşüncə bacarıqlarına təsirini araşdırmaq, həmçinin bu prinsipin qiymətləndirmə sistemində obyektivlik və ədalətliliyin təmin olunmasındakı rolunu təhlil etməkdir.

***Əsas hissə.*** Ziddiyyətsizlik qanunu formal məntiqin əsas prinsiplərindən biri olub Aristotel tərəfindən sistemləşdirilmişdir. Bu qanuna görə, eyni fikir və ya hökm eyni zamanda, eyni münasibətdə həm doğru, həm də yanlış ola bilməz. Başqa sözlə, bir fikir öz ziddini eyni anda daşıya bilməz. Təhsil konteksində bu prinsip qiymətləndirmənin "normativ çərçivəsi" kimi çıxış edir. Qiymətləndirmə zamanı ziddiyyətsizlik qanununun tətbiqi müəllimlərin qərar vermə prosesində subyektivliyi minimuma endirir. Məsələn, qiymətləndirmə rubrikasında müəyyən edilmiş meyarın həm tələb olunan, həm də əhəmiyyətsiz kimi göstərilməsi məntiqi ziddiyyət yaradır ki, u da ölçmənin validliyini itirir. Lakin məntiqin əsas prinsiplərinin pozulduğunu bəzən ortalığa çıxartmaq üçün məntiq elmini bilmək və daha diqqətli olmaq lazımdır. Çünki, çox vaxt bu hal gizli şəkildə olur və biz prinsiplərin pozulmuş olduğunu tapmaqda çətinlik çəkirik.

Bu prinsip insan təfəkküründə ardıcıllığı, sistemliliyi və məntiqi uyğunluğu təmin edən əsas mexanizmlərdən biridir. Elmi düşüncə prosesində ziddiyyətlərin aradan qaldırılması obyektiv nəticələrin əldə olunmasına şərait yaradır. Qiymətləndirmə zamanı ziddiyyətsizlik qanununun tətbiqi müəllimlərin qərar vermə prosesində obyektivliyi qorumağa kömək edir. Məsələn, bir cavab ya doğrudur, ya da yanlışdır prinsipi tələbələrə aydın struktur təqdim edir. Lakin bu yanaşma bəzən tənqidi düşüncəni məhdudlaşdıra bilər, çünki tələbələr yalnız "doğru cavab axtarmağa" yönəlir. Digər tərəfdən, açıq suallar və analitik qiymətləndirmə metodları tələbələrin fərqli baxış bucaqlarını inkişaf etdirməsinə imkan yaradır. Bu isə ziddiyyətli görünən fikirlərin müzakirəsi vasitəsilə tənqidi düşüncəni gücləndirir.

Təhsil prosesinin qiymətləndirmə mərhələsində ziddiyyətsizlik qanununun tələbələrin tənqidi düşünmə bacarıqlarına təsirini araşdırmaq məqsədilə qarışıq metod (mixed-methods) yanaşmasından istifadə edilmişdir. Bu yanaşma həm kəmiyyət, həm də keyfiyyət məlumatlarının toplanmasına və nəticələrin daha dərin təhlilinə imkan yaratmışdır. Kəmiyyət məlumatları vasitəsilə ümumi tendensiyalar və faiz göstəriciləri müəyyən edilmiş, keyfiyyət məlumatları isə respondentlərin fərdi fikirlərini və təkliflərini üzə çıxarmışdır.

Tədqiqatda ümumilikdə 90 nəfər respondent iştirak etmişdir. Onların 79 nəfəri bakalavr, 11 nəfəri isə magistr səviyyəsində təhsil alan tələbələrdir. Respondentlər müxtəlif ixtisas sahələrini (ingilis dili müəllimliyi, mühasibatlıq, kompüter mühəndisliyi, sosial iş və s.) təmsil edir və yaş aralığı 17-26 arasında dəyişir. Bu müxtəliflik tədqiqatın nəticələrinin daha geniş kontekstdə şərh edilməsinə imkan yaratmışdır. Məlumatların toplanması üçün onlayn sorğu forması hazırlanmışdır. Sorğu həm qapalı, həm də açıq tipli suallardan ibarət olmuşdur. Qapalı suallar əsasən 5 ballıq Likert şkalası (tam razıyam-heç razı deyiləm) əsasında qurulmuş və respondentlərin qiymətləndirmə sistemi, obyektivlik və tənqidi düşüncə ilə bağlı mövqelərini ölçməyə yönəlmişdir. Açıq suallar isə iştirakçıların mövzu ilə bağlı fikirlərini daha geniş şəkildə ifadə etməsinə şərait yaratmışdır. Sorğunun əsas sualları qiymətləndirmədə obyektivlik, testlərin rolu, düşünməyə təsir və üstünlük verilən qiymətləndirmə üsulları üzərində qurulmuşdur. Nəticələr göstərmişdir ki, respondentlərin böyük hissəsi (41.1% razıyam, 27.8% tam razıyam) standartlaşdırılmış çoxseçimli testlərdə yalnız bir düzgün cavabın olmasının obyektivliyi artırdığını qəbul edir. Bununla yanaşı, 16.7% qərarsız, 14.4% isə mənfi mövqe bildirmişdir ki, bu da məsələyə fərqli yanaşmaların mövcud olduğunu göstərir. Qiymətləndirmənin düşüncəyə təsiri ilə bağlı nəticələr daha qeyri-müəyyən olmuşdur: respondentlərin 53.3%-i bunun bəzən baş verdiyini, 22.2%-i bəli, 24.4%-i isə xeyr cavabı vermişdir. Bu nəticə qiymətləndirmənin təsirinin kontekstdən və tətbiq formasından asılı olduğunu göstərir. Test əsaslı qiymətləndirmənin tənqidi düşüncəyə təsiri ilə bağlı cavablar daha balanslı və parçalanmışdır. Respondentlərin 25.6%-i qərarsız, təxminən 38.8%-i müsbət, 35.5%-i isə mənfi mövqe bildirmişdir. Bu isə testlərin tənqidi düşüncəni inkişaf etdirməsi məsələsində aydın konsensusun olmadığını göstərir. Qiymətləndirmə sisteminə üstünlüklərlə bağlı nəticələr göstərir ki, respondentlərin əksəriyyəti (44.9%) qarışıq sistemə (test + yazılı) üstünlük verir. Bununla yanaşı, 27% layihə əsaslı qiymətləndirməni, 24.7% asan testləri, yalnız 3.4% isə çətin, düşündürücü sualları seç-

mişdir. Bu nəticə tələbələrin balanslı və müxtəlif qiymətləndirmə üsullarına daha çox meyilli olduğunu göstərir.

Keyfiyyət məlumatlarının təhlili üçün açıq suallar üzrə cavablar tematik analiz üsulu ilə qruplaşdırılmışdır. Analiz nəticəsində bir neçə əsas tendensiya müəyyən edilmişdir. Respondentlərin əksəriyyəti test əsaslı qiymətləndirmənin daha çox əzbər öyrənməyə yönəldiyini, tənqidi düşüncəni isə məhdudlaşdırdığını qeyd etmişdir. Bunun əksinə olaraq, açıq suallar, esse, layihə və müzakirə əsaslı tapşırıqların tələbələrin analiz, müqayisə və arqumentasiya bacarıqlarını inkişaf etdirdiyi vurğulanmışdır.

Bundan əlavə, bir çox respondent formativ qiymətləndirmənin, yəni proses boyu davamlı rəyin verilməsinin əhəmiyyətini qeyd etmişdir. Həmçinin, qarışıq qiymətləndirmə sisteminin daha effektiv olduğu, müəllimlərin şəffaf meyarlar təqdim etməsinin və tələbələrə geribildirim verməsinin vacibliyi ön plana çıxmışdır. Bəzi cavablarda isə qiymətləndirmənin tələbələrdə stress yaratdığı və onların yalnız yüksək bal əldə etməyə fokuslandığı qeyd olunmuşdur. Sorğunun son hissəsində respondentlər tərəfindən əlavə olaraq formativ qiymətləndirmənin artırılması, qarışıq sistemin tətbiqi, qiymətləndirmədə şəffaflığın təmin olunması və elektron qiymətləndirmə modellərinin tətbiqi kimi təkliflər irəli sürülmüşdür. Tədqiqat zamanı etik prinsiplərə riayət edilmiş, respondentlərin anonimliyi qorunmuş və məlumatlar yalnız elmi məqsədlər üçün istifadə edilmişdir. Beləliklə, qarışıq metod yanaşması vasitəsilə əldə olunan nəticələr göstərir ki, tələbələr qiymətləndirmədə məntiqi ardıcıllıq(ziddiyyətsizlik) tələb etsələr də, bu ardıcıllığın onları dar çərçivəyə salmasından ehtiyat edirlər. Onlar üçün ən effektiv model, qiymətləndirmə qaydalarının məntiqi baxımdan ziddiyyətsiz olduğu, lakin tapşırıqların özünün tənqidi analizi stimullaşdırdığı sistemdir.

***Nəticə.*** Bu tədqiqatın nəticələri göstərir ki, təhsil prosesində qiymətləndirmə sistemi tələbələrin tənqidi düşünmə bacarıqlarının formalaşmasında mühüm rol oynayır. Qarışıq metod (mixed-methods) əsasında əldə olunan məlumatlar həm kəmiyyət, həm də keyfiyyət baxımından analiz edildikdə, qiymətləndirmənin yalnız bilik ölçmə vasitəsi deyil, eyni zamanda düşünmə prosesini istiqamətləndirən pedaqoji mexanizm olduğu müəyyən edilmişdir.

Sorğu nəticələri göstərir ki, tələbələrin böyük hissəsi standartlaşdırılmış testlərin obyektivliyi artırdığını qəbul etsə də, bu metodun tənqidi düşünməyə təsiri ilə bağlı fikirlər bölünmüşdür. Bu vəziyyət ədəbiyyatda da vurğulanan bir məqamla uyğunluq təşkil edir ki, yalnız summativ və test əsaslı qiymətləndirmə öyrənməni tam şəkildə dəstəkləmir.

Keyfiyyət analizləri isə göstərir ki, tələbələr açıq suallar, esse və layihə əsaslı tapşırıqların tənqidi düşünməni daha çox inkişaf etdirdiyini hesab edirlər. Bu nəticə tənqidi düşünmənin yalnız məlumatın qəbulu deyil, onun analiz edilməsi və əsaslandırılması prosesi olduğunu vurğulayan nəzəri yanaşmalarla üst-üstə düşür.

Eyni zamanda formativ qiymətləndirmə və davamlı geribildirim sisteminin tələbələrin öyrənmə prosesinə müsbət təsir etdiyi müəyyən edilmişdir. Bu da Hattie tərəfindən irəli sürülən "feedback əsaslı öyrənmə" modelini təsdiqləyir. Respondentlərin qarışıq qiymətləndirmə sisteminə üstünlük verməsi isə göstərir ki, tələbələr həm obyektivlik, həm də düşünmə bacarıqlarını birlikdə inkişaf etdirən balanslı yanaşmaya ehtiyac duyurlar.

Ziddiyyətsizlik qanunu baxımından nəticələr göstərir ki, bu məntiqi prinsip qiymətləndirmədə obyektivlik və strukturlaşdırmanı gücləndirir. Lakin onun yalnız sərt "doğru-yanlış" çərçivəsində tətbiqi tənqidi düşünməni məhdudlaşdıra bilər. Buna görə də, OECD tərəfindən vurğulandığı kimi, müasir qiymətləndirmə sistemləri yalnız nəticəyə deyil, həm də düşünmə prosesinə yönəlməlidir [1, s.25-28].

Beləliklə, tədqiqat nəticələri göstərir ki, qiymətləndirmə sistemi tənqidi düşünmənin formalaşmasına birbaşa təsir edir. Ənənəvi test əsaslı yanaşmalar obyektivlik təmin etsə də, tənqidi düşünməni tam inkişaf etdirmir. Əvəzində, formativ, layihə əsaslı və qarışıq qiymətləndirmə modelləri tələbələrin daha dərin düşünmə, analiz və arqumentasiya bacarıqlarını gücləndirir. Ümumilikdə, bu məqalə göstərir ki, təhsil prosesində qiymətləndirmə yalnız akademik biliklərin ölçülməsi deyil, eyni zamanda tələbələrin tənqidi düşünmə bacarıqlarının formalaşmasına təsir edən əsas pedaqoji vasitədir. Tələbələr daha çox qarışıq və layihə yönümlü qiymətləndirmə modellərinə ehtiyac duyur. Tənqidi düşüncənin

formalaşması üçün qiymətləndirmə meyarları məntiqi baxımdan ziddiyyətsiz və şəffaf olmalı, tapşırıqlar isə tələbəni müxtəlif perspektivləri analiz etməyə sövq etməlidir.

ƏDƏBİYYAT

1. OECD. (2020). Education at a Glance 2020: OECD Indicators. OECD Publishing, p.18-22; 25-28. - https://www.oecd.org/education/education-at-a-glance-2020/ [30.04.2026].
2. Black, P., & Wiliam, D. (2018). Classroom assessment and pedagogy. *Assessment in Education*, 25(6), 551–575. https://doi.org/10.1080/0969594X.2018.1441807
3. Facione, P. A. (2020). *Critical Thinking: What It Is and Why It Counts*. Insight Assessment. s.9-12; 21-25. - https://www.insightassessment.com/Resources/Critical-Thinking-What-It-Is-and-Why-It-Counts [30.04.2026].
4. Shepard, L.A. (2019). Classroom assessment to support teaching and learning. The ANNALS, 683(1), p.183-200. - https://doi.org/10.1177/0002716219843811
5. Boud, D., & Falchikov, N. (2018). Rethinking Assessment in Higher Education. Routledge, s.52-55. - https://doi.org/10.4324/9781315206980
6. Hattie, J. (2018). Visible Learning: Feedback. Routledge, p.32-38; 40-45. - https://visible-learning.org/2018/03/visible-learning-feedback-book-john-hattie/ [30.04.2026].
7. Brookhart, S.M. (2017). How to Use Grading to Improve Learning. ASCD. p.31-34. - https://www.ascd.org/books/how-to-use-grading-to-improve-learning [30.04.2026].
8. Formal məntiqin əsas prinsipləri (Dərs-4). - https://melumatlar.az/blog/17485/formal-mentiqin-esas-prinsipleri-ders-4 [30.04.2026].

**AYNUR BAYRAMOVA**
*Karabakh University, Faculty of Education,*
*Foreign Language Teaching (SABAH Groups), 3rd-Year Undergraduate Student*

## THE IMPORTANCE OF THE LAW OF NON-CONTRADICTION IN STUDENTS' CRITICAL THINKING AT THE ASSESSMENT STAGE OF THE EDUCATIONAL PROCESS

This article examines the impact of the law of non-contradiction in the assessment stage of the educational process on students' critical thinking skills. The study was conducted using a mixed-methods approach and involved a sample of 90 students (bachelor's and master's level), with an online survey applied. The results show that although students acknowledge that standardized tests increase objectivity, their opinions differ regarding their impact on critical thinking. Respondents preferred a mixed assessment system and emphasized that open-ended questions and project-based tasks contribute more effectively to the development of critical thinking. Overall, it was found that while the law of non-contradiction strengthens objectivity in assessment, formative, open-ended, and multi-dimensional assessment approaches are more effective for developing critical thinking skills.

*Keywords:* law of non-contradiction, critical thinking, assessment, education.

*Daxil olma tarixi*: 30.04.2026-cı il.
*Çapa imzalanma tarixi*: 05.05.2026-cı il.

UOT 16

**AYSEL HƏMİDOVA**
*Qarabağ Universiteti Pedaqoji fakültəsinin*
*İngilis dili müəllimliyi ixtisasının (SABAH qrupu) III kurs tələbəsi*
**s801607@karabakh.edu.az**

# ARQUMENTİN MƏNTİQİ SKELETİ: MÜHAKİMƏNİN BÜTÖVLÜYÜ VƏ ETİBARLILIQ MEYARLARI - KİV KONTEKSTİNDƏ

*Elmi rəhbər:*
Qarabağ Universitetinin müəllimi Fizzə Məmmədova

*Məqalə arqumentin məntiqi strukturunu, mühakimənin daxili bütövlüyünü və etibarlılıq meyarlarını müasir kütləvi informasiya vasitələri (KİV) kontekstində araşdırır. Sosial media, disinformasiya axınları və "klikbeyit"mədəniyyəti- istifadəçidə maraq, təəccüb və ya həyəcan yaradaraq onu xəbərə, videoya və ya məqaləyə daxil olmağa təşviq edən başlıq üsulu- fonunda arqumentin nə olduğunu, necə qurulduğunu və niyə tez-tez uğursuz olduğunu anlamaq həm vətəndaş savadlılığı, həm də media tənqidi baxımından həyati əhəmiyyət kəsb edir (Wardle & Derakhshan, 2017). Məqalədə əsasən qeyri-formal məntiqdən - yəni gündəlik nitq və media diskursunda arqumentlərin necə işlədiyindən - bəhs edilir. Toulmin-in arqument modeli (Toulmin, 1958), yayılmış məntiqi yanılmalar və KİV-ə xas inandırma strategiyaları əsas analiz çərçivəsini təşkil edir.*

*Açar sözlər:* qeyri-formal məntiq, arqument, etibarlılıq, KİV, disinformasiya, Toulmin modeli, məntiqi yanılmalar.

## GİRİŞ

Hər gün milyonlarla insan xəbər oxuyur, paylaşım edir, rəy bildirir. Lakin bu insan axınının nə qədər hissəsi oxuduğunu məntiqi baxımdan qiymətləndirir? "Bu arqument doğrudurmu?", "Buradan çıxarılan nəticə, həqiqətən, faktlardan irəli gəlirmi?" - bu suallar formal məntiq kitablarına deyil, gündəlik həyatın özünə aiddir.

Müasir KİV mühiti arqumentin həm ən çox istifadə olunduğu, həm də ən çox deformasiyaya uğradığı sahədir (Wardle & Derakhshan, 2017). Bir televiziya müzakirəsindəki natiqin sözlərini, Facebook-da viral olan bir paylaşımı, yaxud "mütəxəssis fikridir" deyə təqdim olunan bir açıqlamanı analiz etsək, çox vaxt eyni şeyi görərik: etibarlı görünən, lakin məntiqi cəhətdən zəif arxitektura. Arqumentin məntiqi skeleti məhz bu boşluğu doldurmaq üçün lazımdır. O, bizə soruşmağı öyrədir: Nə deyilir? Nəyə əsaslanır? Çıxarılan nəticə bu əsasdan doğurmu?

Bu məqalə həmin sualları iki istiqamətdə araşdırır:

1. Arqumentin əsas struktur elementləri hansılardır?
2. KİV kontekstində etibarlı mühakiməni saxta inandırmadan ayırd etmək üçün hansı meyarlardan istifadə edə bilərik?

## ARQUMENTİN QURULUŞU

*Arqument nədir?*

Gündəlik dildə "arqument" çox vaxt mübahisə mənasında işlənir. Lakin məntiqdə arqument daha dəqiq bir şey deməkdir: Arqument iddia + əsas + nəticə triadasından ibarət bir düşüncə quruluşudur.

Ən sadə formada:

Çünki [əsas/premis], deməli [nəticə].

Nümunə: "Bu xəbər saytı dəfələrlə yanlış məlumat yayıb. Deməli, onların bu son xəbərinə də ehtiyatla yanaşmaq lazımdır".

Bu, qüsursuz bir arqument deyil - amma arqumentdir. Bir iddia var ("ehtiyatla yanaşmaq lazımdır"), bir əsas var ("dəfələrlə yanlış məlumat yayıb"). İndi sual budur: bu əsas, bu nəticəni həqiqətən doğurur mu?

*Toulmin Modeli: Arqumenti canlı diskursda görmək*

Filosoflara görə ən geniş yayılmış qeyri-formal arqument modeli Stephen Toulmin ə məxsusdur (Toulmin, 1958). Toulmin göstərdi ki, real həyatda arqumentlər xalis məntiqi sxemlərdən fərqli işləyir. Onun modelinə görə hər arqumentin altı komponenti var:

| Komponent | Sual | KİV nümunəsi |
|---|---|---|
| **İddia (Claim)** | Nə deyilir? | "Bu siyasətçi korrupsiyaya yol verir." |
| **Məlumat/Fakt (Data/Grounds)** | Nəyə əsaslanılır? | "Onun bank hesabında mənbəyi izah olunmayan 2 milyon manat var." |
| **Körpü (Warrant)** | Bu faktdan bu iddiaya necə keçilir? | "İzah olunmayan sərvət artımı çox vaxt korrupsiyanın göstəricisi hesab olunur." |
| **Dəstək (Backing)** | Körpünü nə möhkəmləndirir? | "Antikorrupsiya qanunvericiliyi və hüquqi təcrübə bunu mühüm göstərici kimi qəbul edir." |
| **Təkzibedici (Rebuttal)** | İstisna hallar varmı? | "Bəli, miras, qanuni biznes gəliri və ya digər legitim mənbələr bu vəziyyəti izah edə bilər." |
| **Güc dərəcəsi (Qualifier)** | Nə qədər əminliklə deyirsən? | "Bu iddianı dəstəkləyən güclü ehtimal mövcuddur." |

KİV-də bu altı komponentin hamısı nadir hallarda açıq şəkildə verilir. Əksər hallarda yalnız iddia və "fakt" təqdim olunur, körpü isə gizli qalır . Məhz bu gizli körpü çox vaxt məntiqi problemin mənbəyidir.

## KİV-DƏ ETİBARLILIQ: "DOĞRU GÖRÜNƏN" İLƏ "DOĞRU OLAN" ARASINDA

*İki əsas sual*

Hər hansı bir xəbəri, paylaşımı, açıqlamanı və ya ictimai çıxışı tənqidi qiymətləndirmək üçün iki tamamilə müstəqil sual vermək lazımdır:

Birinci sual – forma (məntiqi etibarlılıq):

"Əgər bu arqumentin müqəddimələri (faktlar, iddialar, rəqəmlər) tamamilə doğru olsaydı, nəticə onlardan məntiqi zərurətlə çıxardımı?"

Bu sual məntiqi quruluşu yoxlayır, faktların həqiqiliyinə toxunmur. Əgər nəticə müqəddimələrdən zərurətlə gəlirsə, arqument etibarlıdır. Əks halda etibarsızdır.

İkinci sual – məzmun (faktiki doğruluq):

"Müqəddimələrin özləri həqiqətən doğrudurmu, yoxsa yanlış faktlara əsaslanır?"

Bu iki sualın birləşməsi dörd mümkün hal yaradır. KİV üçün ən önəmlisi isə tutarlılıq anlayışıdır:

Tutarlı arqument – həm etibarlı, həm də bütün müqəddimələri faktiki doğru olan arqumentdir.

Media mətnlərində ən çox rast gəlinən iki problem bunlardır:

1. Etibarlı görünən, lakin faktları yanlış arqumentlər – məntiqi quruluş yaxşıdır, amma iddia olunan faktlar səhvdir.

2. Faktları doğru, lakin məntiqi cəhətdən etibarsız arqumentlər – rəqəmlər və faktlar düzgündür, lakin onlardan çıxarılan nəticə məntiqi zərurət daşımır.

***Impact of the Cuban factor, USSR and its "satellite" Czechoslovakia.*** Latin American revolutionaries were highly influenced by the other revolutions, socialist states in the world, especially Cuba and the USSR. After the 1959 revolution in Cuba, Fidel Castro and his counterparts put their minds into exporting the revolutionary spirit to all the other Latin American countries. The USSR also played the role of preacher for the socialist ideas, maintaining close ties with the local states and supervising the activities of Cuba. These two socialist states had some disagreements with each other when it came to Latin America. Cuba was insistent on promoting armed revolutions and insurgencies throughout the continent. USSR, on the other hand, was kind of trying to be careful with the actions in the region, due to the conditions created by the Cold War [2, p.1-18].

*Czechoslovakia,* during the years 1962-1970, had a special place in the agenda of Cuban authorities for the export of the revolution. After the 26th of July revolution, Cuba was isolated and expelled

from the Organization of American States (OAS). Its relations with Moscow were not in that good condition either. With no other option available and the strong aim of reaching up to the Soviet bloc, Cuba opted for creating close ties with Eastern European countries, especially Czechoslovakia. The latter was the first country from the soviet bloc to open an embassy in Cuba. After Prague and Havana got close, the USSR tried to take matters into its own hands, slowly acknowledging the geopolitical importance of Cuba. This was particularly observable in one of the speeches made by Khrushchev in 1961, mentioning the significance of Cuba for the future of socialism in the Western Hemisphere [9, p.5-8].

With the embassy came the secret service stations, which served as the center for conducting special operations and processes, one of them being Operation Manuel. With the aid of Prague, Cuba had the chance of bringing revolutionaries from other Latin American states to its own territory, for training and arming them, through the Havana-Prague air link. Havana specifically chose people from countries that cut ties with it after the 1959 revolution. Mainly, Venezuelans, Argentinians, Dominicans, Guatemalans, Colombians, and Peruvians participated in these training programs. Countries like Mexico, Uruguay, Chile, Bolivia and Brazil were not directly aimed at, as they maintained their diplomatic ties with Cuba [9, p.10-16]. These transnational networks that transferred the revolutionaries back and forth highly strengthened the base of the ideas of socialism, both for the participants and the ordinary populations.

Socialists and communists who were chosen to conduct an armed struggle were sent to Prague from their own home countries. From Prague, these Manuelistas were directed to Havana, where they were given special training and education, and they would utilize it when they got back to their countries. After all the necessary preparation, they headed for Prague again, and this time they were given completely new and fake documents. Their stay in Cuba was deleted from the records. This process steadily continued up until 1970, with problems occurring sometimes. After the death of Che Guevara in Bolivia and the Prague Spring, the operation's popularity slowly began to fade away, with the Czech authorities calling for its termination [9, p.29-32].

Operation Manuel was just one of the many attempts of Cuba to bring the revolution to the continent. Its success rate can be debated, but the significance of the operation should be acknowledged.

***Conclusion.*** To sum up everything, it is necessary to acknowledge that there were lots of different reasons and contributors to the rise of leftist ideology in Latin America in the 20$^{th}$ century. It would be impossible to identify and define them all, as some of them tended to be hidden. The main factors, such as the socio-economic inequalities, authoritarianism, and the impact of the Soviet bloc, were all interlinked. Inequalities led to the rise of military men who promised better conditions in the case of power acquisition. Most of the time, these leaders did not hold onto their promises, further worsening the situation by opening the way for foreigners to exploit the region. Subsequently, the presence of imperialist powers in the geopolitically significant regions tended to worry the countries of the opposite bloc, who would go on and try to diminish their influence by supporting guerrilla insurgencies. As a result, the main socio-economic, governmental, and foreign circumstances came together and formed the perfect opportunity for the ideas to flourish. Moreover, the diverse nature of political ideologies of the continent contributed to their high expansion as well. Those people who were oppressed were able to find some hope by clinging to the ideas of the left wing. Socialism, Communism, Maoism, and Trotskyism all had their own foothold in the region. It can be argued that the armed struggles in the region had the most effect in radicalizing the continent. Nevertheless, as the Cold War was culminating, gaining leadership positions by political institutions and parties became very popular among the locals. Latin America was and is still undergoing complex processes when it comes to authoritarian regimes, maintaining democracy, and foreign interventions. These characteristics of the continent will not be changing for any time soon, as it is showcased by today's global political climate.

LITERATURE

1. Galeano, Eduardo. (1996). Open Veins of Latin America. Translated by C. Belfrage. New York, NY: Monthly Review Press. 360 p.

2. Harmer, T., & Álvarez, A. M. (Eds.). (2021). Toward a Global History of Latin America's Revolutionary Left (1st ed.). University Press of Florida. 314 p.
3. Hager, R. P., & Snyder, R. S. (2015). The United States and Nicaragua: Understanding the Breakdown in Relations. Journal of Cold War Studies, 17(2), 3–35 p.
4. Hellinger, Daniel C. (2021). Comparative Politics of Latin America. Routledge. 666 p.
5. Levitsky, Steven, and Scott Mainwaring. (2006). "Organized labor and democracy in Latin America". Comparative Politics, Vol. 39, No. 1. 22 p.
6. Marc, B. (2017). Twentieth-Century Latin American Revolutions. Lanham, MD: Rowman & Littlefield. 261 p.
7. McPherson, A. (Ed.). (2008). Anti-Americanism in Latin America and the Caribbean (1st ed.). Berghahn Books. 316 p.
8. Wright, Thomas C., and Robert L. Smale. (2022). Latin America since independence: two centuries of continuity and change. Rowman & Littlefield. 396 p.
9. Zourek, M. (2021). Czechoslovakia and Latin America's Guerrilla Insurgencies: Secret Services, Training Networks, Mobility, and Transportation. In T. Harmer & A. M. Álvarez (Eds.), Toward a Global History of Latin America's Revolutionary Left (1st ed., pp.27–66). University Press of Florida.

**ELMİRA SÜLEYMANOVA**
*Bakı Dövlət Universitetinin Avropa və Amerikanın yeni*
*və ən yeni tarixi ixtisası üzrə I kurs magistrantı*

## XX ƏSR LATIN AMERİKASINDA SOLÇU İDEYALARIN GENİŞ YAYILMASININ SƏBƏBLƏRİNİN TƏHLİLİ

Məqalədə Latın Amerikası regionunda solçu ideyaların və inqilabi hərəkatların populyarlığının mümkün səbəbləri sadalanacaq və müzakirə ediləcəkdir. Soyuq müharibə dinamikasının obyektivindən baxaraq, tədqiqatın məqsədi regionu Soyuq müharibə rəqabətinin qaynar nöqtəsinə çevirən amilləri müəyyən etməkdir. Sosializm və kommunizm ideyaları 20-ci əsrdə Latın Amerikasında çox geniş yayılmışdı. Əsr ərzində bölgəni təsvir etmək üçün saysız-hesabsız inqilab cəhdlərini, solçu hərəkatlarını, repressiv dövlətlərə qarşı üsyanları nəzərdən keçirmək olar. Bütün bunlar və Soyuq müharibənin başlamasının yaratdığı gərgin vəziyyət bölgəni xaos və terrorla dolu bir uçuruma sürüklədi. Yuxarıda göstərilənlər solçuluq fikirlərinin niyə bu qədər çox yayıldığı barəsində sual yaradır. Bu araşdırma bu suala cavab verməyə və regionun solçuluq meyllərini təhlil etməyə çalışacaq.

*Açar sözlər:* sosializm, inqilab, Latın Amerikası, Soyuq müharibə.

*Daxil olma tarixi*: 18.04.2026-cı il.
*Çapa imzalanma tarixi*: 05.05.2026-cı il.

UOT 32:93/94

**ƏLƏM ƏLİYEV**
*Bakı Dövlət Universitetinin magistarntı*
**eliyevelem2023@gmail.com**

# SUDAN BÖHRANI: GEOSİYASİ MARAQLAR VƏ XARİCİ AKTORLARIN ROLU

*Elmi rəhbər:*
siyasi elmlər üzrə fəlsəfə doktoru Gülgün Quliyeva

*Sudanda davam edən silahlı münaqişə XXI əsrdə Afrikada müşahidə olunan ən mürəkkəb və çoxqatlı humanitar-siyasi böhranlardan biridir. Qəzza və Ukrayna kimi böhranların beynəlxalq gündəmi zəbt etdiyi bir şəraitdə Darfur və ümumilikdə Sudan ərazisində baş verən kütləvi zorakılıqlar, etnik təmizləmə, mülki əhaliyə qarşı sistemli hücumlar və soyqırımı əlamətləri daşıyan hadisələr beynəlxalq ictimaiyyətin diqqətindən kənarda qalmaqdadır. Məqalədə Sudanın tarixi-siyasi inkişaf yolu, müstəqillikdən sonrakı dövrdə baş verən ardıcıl hərbi çevrilişlər, avtoritar idarəçilik və mərkəz–əyalət ziddiyyətlərinin ölkəni struktur zəifliyə sürükləməsi təhlil olunur. Araşdırmada Ömər əl-Bəşir rejiminin devrilməsindən sonra formalaşan siyasi vakuumun, ordu ilə Sürətli Dəstək Qüvvələri (RSF) arasında açıq müharibəyə çevrilməsi və bu qarşıdurmanın xarici aktorların geosiyasi və iqtisadi maraqları fonunda dərinləşməsi xüsusi vurğulanır. ABŞ, Birləşmiş Ərəb Əmirlikləri, İsrail, Rusiya və digər regional güclərin Sudandakı proseslərə dolayı və ya birbaşa müdaxilələri, xüsusilə qızıl və enerji ehtiyatları üzərində nəzarət uğrunda rəqabət kontekstində təhlil edilir. Darfur bölgəsində RSF-nin həyata keçirdiyi kütləvi zorakılıqlar, mülki əhalinin kütləvi şəkildə didərgin salınması və beynəlxalq humanitar hüququn kobud şəkildə pozulması Beynəlxalq Cinayət Məhkəməsi və Beynəlxalq Ədalət Məhkəməsi müstəvisində qiymətləndirilir.*

*Açar sözlər:* Sudan, Darfur böhranı, hərbi çevrilişlər, geosiyasi maraqlar, xarici aktorlar, təbii sərvətlər, qızıl yataqları, etnik təmizləmə, soyqırımı, beynəlxalq humanitar hüquq, qaçqınlar.

***Giriş***. XXI əsrin beynəlxalq münasibətlər sistemində silahlı münaqişələr, daxili siyasi parçalanmalar və humanitar böhranlar xüsusilə Afrika qitəsində kəskin şəkildə özünü göstərməkdədir. Sudan böhranı bu kontekstdə yalnız bir dövlətin daxili siyasi problemi kimi deyil, regional və qlobal miqyasda geosiyasi maraqların toqquşduğu mürəkkəb bir proses kimi qiymətləndirilməlidir. Xüsusilə Darfur bölgəsində baş verən hadisələr müasir dövrdə beynəlxalq humanitar hüququn, insan hüquqları mexanizmlərinin və kollektiv təhlükəsizlik sistemlərinin effektivliyini ciddi şəkildə sual altına alır. Qəzza, Ukrayna və Qırmızı dəniz hövzəsindəki gərginliklərin beynəlxalq gündəmi zəbt etdiyi bir şəraitdə Sudanda davam edən kütləvi zorakılıqlar, etnik təmizləmə və soyqırımı əlamətləri daşıyan cinayətlər lazımi diqqətdən kənarda qalır.

Sudan tarixi baxımdan imperiyalararası rəqabətin, kolonial idarəetmənin və sonradan formalaşan zəif dövlət institutlarının təsiri altında inkişaf etmişdir. Osmanlı və Britaniya imperiyası dövrlərindən miras qalan inzibati parçalanmalar, etnik-dini fərqliliklər və mərkəz əyalət münasibətlərində balanssızlıq müstəqillikdən sonra da ölkənin siyasi sabitliyini təmin etməyə imkan verməmişdir. 1956-cı ildə müstəqilliyini əldə edən Sudan ardıcıl hərbi çevrilişlər, avtoritar rejimlər və uzunmüddətli vətəndaş müharibələri ilə üzləşmiş, bu isə dövlətin institusional zəifliyini daha da dərinləşdirmişdir. Xüsusilə Ömər əl-Bəşir dövründə mərkəzləşdirilmiş avtoritar idarəetmə, periferiyaların ilk növbədə Darfur və Cənubi Sudan bölgələrinin siyasi və iqtisadi marjinallaşmasına səbəb olmuşdur. XXI əsrin ikinci onilliyində insanların təbii hüquqlarının pozulmasının bariz nümunəsi Darfurda baş verir. Mərkəzində insan, insan rifahı dayanan beynəlxalq hüquq, demokratiya kimi anlayışlar bir kənara atılıb, bu faciəyə şahidlik edilir. Gözlərin Qəzzaya çevrildiyi bir vaxtda videogörüntülərin ictimaiyyətə yayılması mövzunun aktuallığına gətirib çıxardı. Burada mövzu insan həyatından, körpə uşaqlardan gedirsə, aktual-

lığın izahına gərək yoxdur deyə düşünürəm. Sudan kimi dövlətlər tarixən geosiyasi maraqların kəsişdiyi məkanlardandır. Zəngin ehtiyatları dünya güclərinin iştahını qabartmışdır.

Tarixə nəzər salsaq, Sudanlılar bir sıra dövlətlər yaratsalar da, Osmanlı ardınca da Britaniya imperiyası tərkibində idi. 19-cu əsrin sonlarında Anqlo-Misir ordusu tərəfindən ələ keçirilmişdi. Lakin bu geniş ərazinin idarə olunması, hüquqi və diplomatik problemlər səbəbilə çətinləşirdi. Xərclərin çox hissəsi Misir xəzinəsindən idi və ordunun böyük əksəriyyəti onlardan ibarət idi. Britaniya imperiyası bununla barışmaq istəmirdi . Bu dilemmanı həll etmək üçün 1899-cu ildə Anqlo-Misir Kondominiumu elan edildi və Sudan ayrı bir siyasi status aldı; suverenlik Misirlə Britaniya arasında bölüşdürüldü və Misir ilə Britaniya bayraqları yanaşı dalğalandı. İki dövlət arasında bölüşdürüldüyü qeyd edilsə də, əvvəlcədən ingilislər bu kondominiumumu idarə edir və üsyanları basdırırdılar. Hələ 40-cı illərdən ingilislər müsəlman ərəblərin çoxluq olduğu Sudanın şimal hissəsini və xristianların çoxluq təşkil etdiyi cənubi Sudanı ayıraraq idarəçiliyi yüngülləşdirmə siyasəti güdürdü. Bəlkə də gələcəkdə bu ayrılığın rüşeymini əmələ gətirirdi [4].

1953-cü il Sudan öz müqəddəratını təyin etmə hüququ ilə muxtariyyət, 1956-cı il yanvarın 1-i müstəqilliyini elan edir. Sudan respublikası soyuq müharibə dövründə Cənubi Amerikada, Yaxın Şərqdə baş verən hakimiyyət çevrilişlərindən yaxa qurtula bilmədi [7]. Generel İbrahim Abbudun başçılığı altında yürüdülən siyasət Sudanın cənubunda xoş qarşılanmırdı. Yüksək dövlət vəzifələrinə şimallıların gətirilməsi, ərəbləşdirmə siyasəti, cənubu sıxıştırma siyasəti üsyanlara səbəb olurdu. Artıq üsyanlar küçələrdə özünü göstərir, universitet tələbələri küçələrdə toplaşırdılar.

Ardı-arası kəsilməyən çevrilişlərdən sonra iqtidarı ələ keçirlən Ömər Əl-Bəşir azad medyanı susdurur, müxalifləri həbsə atdırır və cənubla mübarizəsini genişləndirirdi. 90-ci illərdən davam edən iç müharibədən sonra nəhayət 2005-ci ildə yeni konstitusiya modeli irəli sürüldü və Cənubi Sudana muxtariyyət verildi. Cənubi Sudanın ayrılması ilə bağlı Türkiyənin Cənubi Sudan səfiri Hasan Sevilir AŞAN 2020-ci il bloglarında yazırdı: "Türkiyənin Cənubi Sudandakı səfiri olduğum dövrdə, 2018-ci ildə paytaxt Cubada iştirak etdiyim rəsmi görüşlərdən birində, Dövlət Başçısı Salva Kiir Mayardit, bölgünün səbəbini Sudanın Ömər əl-Bəşir rəhbərliyinin "sekulyar" olmayan, cənubluları ərəbləşdirməyə çalışan, onların dini və sosial həyatına, yaşam tərzinə sərt qadağalar və cəzalar gətirən "Müsəlman Qardaşları" şəriət anlayışı ilə əlaqələndirmişdir" [19]. Həmçinin o Sudan, bölünmənin səbəbini Qərblilərin və çoxmillətli şirkətlərin oyunu kimi görmüş; məqsədin bölgədə Qərb maraqlarına xidmət edəcək, imperialist təşəbbüslərə etiraz etməyəcək, enerji baxımından zəngin xristian bir dövlət yaratmaq olduğunu iddia etmişdir. Buna görə, Vatikan, ABŞ və İsrail əməkdaşlığı ilə beynəlxalq humanitar yardım təşkilatları və çoxmillətli enerji şirkətlərindən istifadə edilərək bir "proyekt dövləti" yaradılmışdır. Vatikan və İngilis Anglikan Kilsəsi, ayrılıqçı "qəhrəman" lider Con Qarang daxil olmaqla, Cənublu müqavimətçilərin hamısının arxasında durmuş və onlara logistika dəstəyi vermişdir. Həmçinin, vətəndaş müharibəsi hələ davam edərkən Sudan Kilsələr Şurası qurulmuş və ən ucqar bölgələrdə açılan kilsələr vasitəsilə ayrılıqçılar maliyyələşdirilmişdir. Vatikan və ingilislərin fəaliyyətlərinə paralel olaraq, ABŞ-ın yüksələn islamofob siyasətləri, Əl-Bəşir və ona bənzər rejimlərə qarşı açıq müharibə elan etməsi, Cənubi Sudanın Sudandan ayrılmasına yönəlik rəğbəti və maddi dəstəyi artırmışdır.İsrail isə 1960-cı illərin sonlarından etibarən Cənubi Sudan coğrafiyasına maraq göstərməyə başlamış və ayrılıqçı hərəkatın ilk qığılcımlarını yandıran Cozef Laguya dəstək vermişdir. Lagu bu sayədə silahlı müqavimət dəstələri yaradaraq, muxtariyyət tələbini daha yüksək səslə və daha təhlükəsiz şəkildə ifadə etməyə başlamışdır. Yeni əsrin əvvəllərində İsrail Cənublu ayrılıqçılara bu dəfə birbaşa silah və sursat təmin etmiş, sahədə hərbi-taktiki təlimlər keçirmişdir. Bütün bu fəaliyyətlərdə təbii sərvətlər həlledici əhəmiyyətə malik olmuşdur. Başda ABŞ və çoxmillətli Qərb şirkətləri olmaqla, yeni dövrdə Afrikanın üçüncü ən böyük neft yataqlarına daha asan çıxış əldə etmək istəyi ayrılıqçılara strateji dəstəyin verilməsini stimullaşdırmışdır.

2003-cü ildən başlayaraq hökumət əleyhinə çıxışlar baş verirdi. Buna qarşılıq olaraq üsyançılarla mübarizə aparmaq üçün Janjaweed (eyni zamanda Jingaweit və ya Janjawid kimi tanınan) adlı ərəb milisləri silahlandırıldı və dəstəkləndi. Lakin bu milislər bölgədəki mülki əhalini də terror etmiş və beynəlxalq yardım təşkilatlarının çox ehtiyac duyulan ərzaq və tibbi ləvazimatları çatdırmasının qarşısını almışdı. Ömər Əl-Bəşir bununla da hakimiyyətdən getsə belə "unutulmaz yara" qoyub getmiş

oldu.2004-cü ildəki atəşkəsə və ardınca Afrika Birliyinin (AU) əsgərlərinin bölgədə mövcudluğuna baxmayaraq, 2007-ci ilə gəldikdə, davam edən qarşıdurma və ortaya çıxan humanitar böhran nəticəsində yüz minlərlə insan həlak olmuş, iki milyondan çox insan isə həm ölkə daxilində, həm də xaricdə öz yurd-yuvasından didərgin düşmüşdü. 2008-ci ilin iyulunda Beynəlxalq Cinayət Məhkəməsinin (ICC) bir prokuroru, Sudan prezidenti kimi Bəşirin Darfurdakı böhrana görə cinayət məsuliyyəti daşıdığını irəli sürdü. Prokuror, Bəşiri bölgədə soyqırımı, hərbi cinayətlər və insanlığa qarşı cinayətlər törətməkdə ittiham edərək həbs əmri tələb etdi; Sudan hökuməti isə ittihamları rədd etdi və Bəşirin günahsız olduğunu bildirdi.

4 mart 2009-cu ildə ICC, Bəşir barəsində hərbi cinayətlər və insanlığa qarşı cinayətlərə görə həbs orderi çıxardı, lakin soyqırımı ilə bağlı ittiham irəli sürülmədi. Bu qərar, ICC-nin ilk dəfə vəzifədə olan bir dövlət başçısının tutulmasını tələb etdiyi hal idi. Bir il sonra, iyul ayında, Bəşir haqqında soyqırımı ittihamı ilə başqa bir axtarış əmri verildi. Lakin bu Bəşirə çox da təsir etmədi. 2011-ci ildə Cənubi Sudanın ayrılması Sudanın ərazi bütövlüyü və iqtisadi dayanıqlığı üçün ciddi zərbə olmuş, lakin bu hadisə ölkədəki struktur problemləri aradan qaldıra bilməmişdir. Əksinə, 2019-cu ildə Ömər əl-Bəşir rejiminin devrilməsindən sonra formalaşan siyasi vakuum ordu ilə Sürətli Dəstək Qüvvələri (RSF) arasında hakimiyyət uğrunda açıq silahlı münaqişəyə yol açmışdır. Bu qarşıdurma təkcə daxili siyasi mübarizənin nəticəsi deyil, eyni zamanda Sudanın zəngin təbii ehtiyatları xüsusilə qızıl və enerji resursları üzərində nəzarət uğrunda aparılan regional və qlobal rəqabətin məhsuludur.

2011-ci ildə cənubluların səbirsizliklə gözlədiyi referendum baş tutdu və Cənubi Sudan rəsmi olaraq ayrılmış oldu. Lakin sudanlılar hələ də Bəşirdən narazı idilər, korrupsiya, diktatorluq tüğyan edirdi. 2019-cu ildə hərbi çevriliş baş verdi və ölkəni müvəqqəti şura 2022-ci il demokratik seçkilərə kimi idarə edəcəkdi. İlk 21 ay boyunca hərbi zabit, daha sonra isə mülki şəxs idarə edəcəkdi. Bəşir korrupsiya ilə bağlı məhkum edildi, hələ Darfur və başqa ərazilərdə törətdiyi insanlıq cinayətləri ilə baş-başa qalmışdı.

Şurasının üzvləri arasındakı münasibətlər zəif idi; bu isə bəzən rəqabət aparan maraqlarını və ölkədəki ümumi ideoloji parçalanmaları əks etdirirdi. Əsas mülki-hərbi bölgüdən əlavə, hər iki tərəfdə də daxili çəkişmələr yaşanırdı. Bundan başqa, ölkə iqtisadiyyatı böhran içində idi və bu vəziyyət əhali arasında narazılığı daha da artırırdı. Keçid dövründə bir neçə çevriliş planı və ya çevriliş cəhdi baş verdi; bunlara 21 sentyabr 2021-ci ildə Bəşirə sadiq qruplar tərəfindən həyata keçirilən cəhd də daxil idi. Ordu çevriliş cəhdini boğdu, mülki liderləri günahlandırdı və onların vəzifədən uzaqlaşdırılmasını tələb etdi. mülki liderlər isə ordunu çevriliş cəhdini keçid hökumətində daha çox güc qazanmaq üçün bəhanə kimi istifadə etməkdə ittiham etdilər. Onlar həmçinin ordunun yenidən qurulması, ticarət maraqlarının yenidən nəzərdən keçirilməsi və mülki nəzarət altına alınması zərurətini bir daha vurğuladılar lakin bu təkliflər orduda bir çoxları tərəfindən bəyənilmirdi. Beləliklə, hərbi və mülki liderlər arasındakı gərginlik artıq təhlükəli səviyyələrə çatmış vəziyyətdə idi və çevriliş cəhdindən sonra daha da artdı. Oktyabr ayında bir neçə etiraz aksiyası keçirildi; bəzi nümayişçilər ordunun mülki liderləri vəzifədən uzaqlaşdırmasını tələb edərkən, daha çoxu ordunun mülki idarəetməyə və demokratik keçidə hörmət etməsini tələb edirdi Yenidən anlaşma bərqərar olsa da, Hamdok baş nazir vəzifəsindən istefa etdi.

Müasir mərhələdə Sudan böhranı beynəlxalq aktorların selektiv yanaşması, geosiyasi maraqların humanitar dəyərlərdən üstün tutulması və beynəlxalq təşkilatların passivliyi fonunda daha da dərinləşməkdədir. Darfurda mülki əhaliyə qarşı törədilən kütləvi qırğınlar, məcburi köçürmələr və sistemli zorakılıq beynəlxalq cinayət hüququ baxımından ciddi məsuliyyət məsələsini gündəmə gətirir. Bu baxımdan Sudan böhranının təhlili yalnız regional təhlükəsizlik kontekstində deyil, həm də beynəlxalq hüququn normativ gücünün və qlobal idarəetmə mexanizmlərinin real təsir imkanlarının qiymətləndirilməsi baxımından mühüm elmi əhəmiyyət daşıyır. 2023-cü ildən başlayaraq Sudan Silahlı Qüvvələri (Burhan) ilə Sürətli Dəstək Qüvvələri (RSF) arasında münaqişə baş verdi və 2025-ci ildə həm döyüş meydanında, həm də siyasi sahədə bir neçə mühüm hadisə baş verdi. Fevral ayında RSF və bəzi müttəfiq qruplar, SAF ilə əlaqəli beynəlxalq səviyyədə tanınan hökumətə qarşı yeni bir Sudan hökuməti qurmaq üçün bir nizamnamə imzaladı və mart ayında keçid konstitusiyasını qəbul etdi. Darfur bölgəsindəki RSF-nin dayağı olan Nyalada yerləşən yeni paralel hökumət avqust ayında Hemedtini dövlət başçısı təyin etdi. Rəqib hökumətin qurulması istiqamətində atılan addımlar Afrika Birliyi, BMT Təh-

lükəsizlik Şurası və digər qurumlar tərəfindən münaqişənin həlli üçün davam edən diplomatik səylərə təhdid kimi pisləndi.

Müharibənin ilk günlərindən bəri Xartumu əlində saxlayan RSF, 2025-ci ilin martında SAF-ın onları şəhərdən çıxarması ilə geri addım atdı. RSF-in taleyi iyun ayında dəyişdi; yarımhərbi qrup Misir və Liviya sərhədindəki mühüm bölgələri ələ keçirdi. Bu strateji uğur oktyabr ayının sonunda RSF-in 18 aylıq mühasirədən sonra SAF və onun müttəfiqlərinin Darfurdakı son böyük şəhər olan əl-Fəşiri ələ keçirməsi ilə daha da əhəmiyyətli bir qazancla davam etdi. Həmin dövrdə RSF və müttəfiqləri ölkənin qərb və cənub-mərkəzi hissələrinin böyük bir bölümünü nəzarətdə saxlayırdı; SAF və müttəfiqləri isə şimal, mərkəz və şərq bölgələrinin böyük hissəsinə hakim idi. Hal hazırda Fəşir bölgəsindəki soyqırım artıq Qəzza ilə birlikdə adı çəkilir. Səudiyyə Ərəbistan və Amerika vasitəçilik etmək istəsə də, hələlik bu baş tutmayıb.

2025-ci il 25-26 oktyabr ayında Əl Faşir bölgəsinin Sürətli Dəstək gücləri tərəfindən ələ keçirilməsi strateji addım idi. Son hərbi bazanın Faşir bölgəsində olması və Darfurun beş bölgəsinin də ələ keçirilməsi bu qüvvələrin Nil çayına və Xartuma yolunu açırdı [4]. Bəlkə də Qırmızı dəniz üzərində arxasında dayanan xarici aktorların marağı vardır? Bir neçə gün əvvəl onunla aparılan bir müsahibədə Dagalonun məsləhətçilərindən biri, ordu komandanı Əbdülfəttah əl-Burhanı hədəf alaraq, onun müharibəni dayandıra bilməyəcəyini, bunun əvəzində isə komandanının öz qüvvələrinə müraciət edəcəyi bir səs yazısı ilə müharibəni dərhal dayandıra biləcəyini söyləyirdi. Burada sual budur: əgər Dagalo bunu təkcə bir səs yazısı ilə edə bilirsə, niyə çıxıb mülki şəxslərə qarşı talan, qətl, təcavüz və qətliamları dayandırmır? Müharibəni dayandıra bilərkən, bütün dünyanın gözü qarşısında öz qüvvələrinin törətdiyi genişmiqyaslı pozuntuların qarşısını necə ala bilmir? [17].

ABŞ-dakı Corctaun Universitetindən Xəlil əl-Ənani, illərdir davam edən zorakılıq hadisələrinin Sudanın zəifləyərək xaosa sürükləndiyinə diqqət çəkir. Alim, hadisələrə müdaxilə edən ölkələrin tərəfsiz qala bilməyəcəyini müdafiə edir: “Sudan münaqişəsində tərəfsiz bir aktorun olduğunu düşünmürəm. Hər tərəfin öz məqsədləri var, hər kəs öz maraqlarını qorumaq üçün hadisələrə müdaxilə edir. Sudana nəzarət etmək, bütün Saharadan cənub bölgəsində nüfuz sahibi olmaq deməkdir.” Bu fikirdən çıxış edərək qeyd etməliyik ki, Sudan Afrikanın ən böyük 3-cü qızıl mədənlərinə malikdir. Təkcə 2024-cü ildə 60 tondan yuxarı qızıl istehsal edilib. Maraqlısa da odur ki, Darfur bölgəsində yer alan Cemel Amir və Songo ən böyük qızıl yataqlarının yerləşdiyi bölgələrdir. 2017-ci ildən Dagalo qüvvələri Cemel Amiri ələ keçirməklə bu zəngin mədənləri mənimsəyirlər. Ölkənin 70 faiz nefti Cənubi Sudanda yerləşirdi. Buna görə Burhan ordusu hökumət olaraq ölkənin iqtisadiyyatını dirçəltməsi üçün qızıl yataqlarına yönəlirdi.

***Məsələnin mahiyyəti.*** Sudanda davam edən silahlı münaqişə yalnız daxili siyasi rəqabət və dövlət institutlarının zəifliyi ilə izah edilə bilməz. Mövcud böhran tarixi olaraq formalaşmış struktur problemlərin, mərkəz əyalət münasibətlərində dərinləşmiş bərabərsizliklərin, hərbiləşmiş siyasi mədəniyyətin və xarici aktorların geosiyasi və iqtisadi maraqlarının kəsişməsinin nəticəsidir. Xüsusilə Darfur bölgəsində müşahidə olunan kütləvi zorakılıqlar, etnik təmizləmə və soyqırımı əlamətləri daşıyan cinayətlər beynəlxalq humanitar hüququn açıq şəkildə pozulduğunu göstərir.

Buna baxmayaraq, beynəlxalq ictimaiyyətin Sudan böhranına yanaşması selektiv və qeyri-effektiv olmuş, münaqişənin qarşısının alınması və mülki əhalinin qorunması istiqamətində təsirli mexanizmlər tətbiq edilməmişdir. Böyük güclərin və regional aktorların strateji maraqları humanitar məsuliyyət prinsiplərini kölgədə qoymuş, bu isə böhranın uzanmasına və dərinləşməsinə səbəb olmuşdur. Mövcud elmi ədəbiyyatda Sudan böhranının ya yalnız daxili siyasi kontekst, ya da yalnız humanitar fəlakət prizmasından təhlil edilməsi müşahidə olunur; lakin geosiyasi maraqlar, təbii resurslar uğrunda rəqabət və beynəlxalq hüquqi məsuliyyət məsələlərinin inteqrasiyalı şəkildə araşdırılması hələ də kifayət qədər sistemli xarakter daşımır. Bu vəziyyət Sudan böhranının mahiyyətinin və davamlı sülh imkanlarının düzgün qiymətləndirilməsini çətinləşdirir.

***Sudan böhranında əsas xarici aktorlar və onların geosiyasi maraqları.*** Sudan böhranı regional və qlobal güclərin maraqlarının kəsişdiyi çoxqatlı geosiyasi mühitdə formalaşır. Ölkənin Qırmızı dənizə çıxışı, zəngin təbii resursları, Afrika Yaxın Şərq keçidində yerləşməsi və zəif institusional strukturu onu xarici aktorlar üçün strateji əhəmiyyətli məkan halına gətirmişdir. Xarici müdaxilələr bir tərəfdən

siyasi proseslərə təsir göstərsə də, digər tərəfdən daxili qarşıdurmanın uzanmasına və hərbiləşməsinə töhfə vermişdir.

*Regional aktorlar: Misir, BƏƏ və Səudiyyə Ərəbistanı. Misir* Sudanı öz milli təhlükəsizlik arxitekturasının tərkib hissəsi kimi qəbul edir. Nil hövzəsində hidrosiyasi balansın qorunması, xüsusilə Efiopiyanın Böyük Dirçəliş Bəndi kontekstində Xartumda ona yaxın hərbi-siyasi elitanın mövcudluğu Qahirə üçün prioritetdir. Bu səbəbdən Misir ənənəvi olaraq Sudanın rəsmi ordusu (SAF) ilə daha yaxın münasibətlər qurmuşdur.

*Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ)* Sudanı regional iqtisadi–logistik şəbəkələrin bir hissəsi kimi görür. Qızıl hasilatı, liman infrastrukturu və özəl hərbi strukturlarla əlaqələr BƏƏ-nin ölkədəki qeyri-formal aktorlarla, xüsusilə Sürətli Dəstək Qüvvələri (RSF) ilə münasibətlərini gücləndirmişdir. Bu isə böhranın iqtisadi motivasiyalarla dərinləşməsinə səbəb olmuşdur.

*Səudiyyə Ərəbistanı* isə Sudanı Qırmızı dəniz təhlükəsizliyi və ərəb dünyasında təsir dairəsinin qorunması baxımından qiymətləndirir. Riyad daha çox vasitəçilik və diplomatik təşəbbüslərlə çıxış etsə də, regional rəqabətin dolayı təsirlərindən kənarda qala bilməmişdir.

*Qlobal aktorlar: ABŞ, Rusiya və Çin*

*ABŞ* Sudandakı proseslərə demokratiyaya keçid və mülki idarəetmənin bərpası prizmasından yanaşır. Lakin təhlükəsizlik prioritetləri və terrorla mübarizə gündəliyi Vaşinqtonun bəzən realpolitik yanaşmalara üstünlük verməsinə gətirib çıxarmışdır. ABŞ-ın sanksiya və diplomatik təzyiq mexanizmləri məhdud nəticələr vermişdir. *Wall Street Journal*da yer alan hesabatda Çin istehsalı Wing Loong II və FeiHong-95 PUA-larının BƏƏ tərəfindən üsyançılara verildiyi və milislərin mülki vətəndaşlara qarşı törədilən kütləvi qırğınlarda bu silahlardan istifadə etdiyi qeyd olunub. Eyni zamanda Beynəlxalq Amnistiya Təşkilatı HDQ hücumlarından sonra çəkilmiş foto və videoları araşdıraraq Çin istehsalı GB50A idarəolunan bombalarını və 155 mm-lik AH-4 haubitsalarını müəyyən edib. Bu, GB50A bombalarının dünya üzrə hər hansı münaqişədə ilk dəfə istifadə olunduğunun rəsmi şəkildə sənədləşdirilməsidir. Silahlar Çinin dövlətə məxsus müdafiə şirkəti Norinco Group tərəfindən istehsal olunur və BƏƏ tərəfindən Sudana göndərilir. Bu barədə Beynəlxalq Əfv Təşkilatı Böhranın idarə edilməsi rəhbəri Brian Castner bildirir: ""Bu, Sudanda inkişaf etmiş Çin istehsalı güdümlü bombaların və haubitsaların istifadə edildiyinə dair açıq sübutdur, Şimali Dərfurdakı yeni istehsal edilmiş Çin bombalarının mövcudluğu, BƏƏ-nin silah embarqosunu açıq şəkildə pozması deməkdir. Xartumdakı AH-4 haubitsaların sənədləşdirilməsi, beynəlxalq hüququ pozaraq BƏƏ-nin RSF-yə geniş miqyaslı dəstəyinə dair artan sübut bazasını daha da gücləndirir. BMT Təhlükəsizlik Şurasının Dərfura tətbiq olunan mövcud silah embarqosunu icra etməməsi və embarqonun bütün Sudana şamil olunmasına dair çağırışlara məhəl qoymaması utancvericidir. Qlobal hərəkətsizlik nəticəsində mülki şəxslər öldürülür və yaralanır, BƏƏ isə embarqonu pozmağa davam edir. BƏƏ dərhal RSF-yə silah ötürülməsini dayandırmalıdır. Buna qədər isə BƏƏ-yə bütün beynəlxalq silah transferləri də dayandırılmalıdır" [2].

Amerika Birləşmiş Ştatlarına gəldikdə, prezident Donald Trumpın Azərbaycan-Ermənistan arasında gərginliyə son qoyacaq bəyənnamənin imzalanmasına vasitəçi olması, Qəzzada atəşkəsə nail olması və Demokratik Konqo Respublikası ilə Ruandanı bir müddətlik də olsa, sülh sazişi ilə barışdırması onu "Nobel" Barış mükafatına namizəd olmasına gətirib çıxardı. Sudandakı gərginliyə də son qoyması onun nüfuzunun yüksəlməsinə səbəb ola bilər.

*Rusiya* Sudanı Afrikada artan təsir strategiyasının mühüm elementi kimi görür. Qırmızı dənizdə mümkün hərbi-dəniz mövcudluğu, qızıl ticarəti və özəl hərbi şirkətlərin (məsələn, "Wagner" strukturları) fəaliyyəti Moskvanın maraqlarını gücləndirən əsas alətlərdir. Bu fəaliyyətlər Sudan böhranın hərbiləşməsini stimiullaşdırır. Hazırda müharibədə olan Rusiyanın Afrika ilə bağlı siyasətinin dəyişdiyini şahid oluruq. Vaqner qruplarının aktiv rol oynadığı bu məkanda Rusiyanın 2019-cu ildən Dagalo ilə yaxın münasibətlərinin olduğunu görsəkdə, Sudan ordu hökuməti tərəfindən Qırmızı dənizdə hərbi dəniz donanmasının yerləşdirməsi əvəzində Rusiyadan silah-sursat almasını təklif etmişdir. Bu da Rusiyanın qəti mövqeyini müəyyənləşdirməyi çətinləşdirir.

*Çin* isə daha çox iqtisadi praqmatizmə əsaslanan siyasət yürüdür. Enerji layihələri, infrastruktur investisiyaları və "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində Sudan Pekin üçün strateji tərəfdaşdır. Çin siyasi qarşıdurmalara açıq müdaxilədən çəkinərək stabilliyi əsas prioritet kimi təqdim edir.

Dagalo qüvvələrinin arxasındaki güc Birləşmiş Ərəb Əmirliyi olduğu danılmazdır. Birləşmiş Millətlər Təşkilatının hesabatları, müstəqil ekspertlər və jurnalistlər Əbu Dabinin Sürətli qüvvələri gizli şəkildə silahlandırdığına dair çoxsaylı sübutlar ortaya qoyub. Keçmiş ABŞ prezidenti Co Bayden administrasiyası da yanvar ayında SDQ lideri Dagalo və ona maliyyə təmin edən BƏƏ-mərkəzli yeddi şirkətə sanksiya tətbiq edərək, məsuliyyətin açıq şəkildə BƏƏ-yə aid olduğunu vurğulamışdı. BƏƏ-yə məxsus banklar, Sudanın ən böyük ticarət qurumu olan Xartum Bankında əhəmiyyətli paylara sahibdir. Bundan başqa, Sudanın qızıl ixracının 97 faizi BƏƏ-yə gedir. 2024-cü ildə bu ixracdan 1,5 milyard dollar gəlir əldə olunub. Qızıl yataqların ən çox hansı bölgələrdə olduğu qeyd edilmişdi. Sudan, çərşənbə günü Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) qarşı Qərbi Darfurdakı Masalit soyqırımına "şərik olmaq" ittihamı ilə Beynəlxalq Ədalət Məhkəməsində (ICJ) iddia qaldırdı [4]; çünki bu soyqırımın "üsyançı RSF milislərinə geniş maliyyə, siyasi və hərbi dəstək göstərilməsi və istiqamətləndirilməsi" yolu ilə baş verdiyi bildirilir. Sudan, BƏƏ-nin Sürətli Dəstək Qüvvələrini (RSF) və onun müttəfiq milislərini dəstəkləməklə "soyqırımı, qətl, qarət, təcavüz, məcburi köçürmə, qanunsuz müdaxilə, dövlət əmlakının dağıdılması və insan hüquqlarının pozulmasını" mümkün etdiyini iddia edib. BƏƏ bunu inkar edir. Əlavə olaraq, Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Somalinin muxtar Puntland bölgəsindəki Bosaso şəhərində qurduğu gizli baza, Sudandakı çevrilişçi Sürətli Dəstək Qüvvələrinə verilən silah və sursat yardımının mərkəzinə çevrilib. Puntland bölgəsinin Bosaso liman şəhərinin, BƏƏ-nin RSF-yə göstərdiyi hərbi dəstəyin əsas bazası olduğu üzə çıxıb. Əldə olunan qeydlərə görə, Bosaso Hava Limanında son iki ildə intensiv gizli hava trafiki müşahidə olunub. IL-76 tipli ağır yük təyyarələri BƏƏ-dən gələn "təhlükəli maddə" qeydli konteynerləri Sudandakı yarımhərbi Sürətli Dəstək Qüvvələrinə çatdırır. Bosasodakı dəniz polisinin yüksək rütbəli bir komandiri təhlükəsizlik səbəbi ilə adının açıqlanmadığı müsahibədə belə deyib: "Bu göndərişlər artıb. Materiallar dərhal başqa təyyarələrə ötürülür və qonşu ölkələr üzərindən Sudandakı RSF-yə göndərilir." Uçuş izləmə məlumatları və peyk görüntüləri partiyaların BƏƏ mənşəli olduğunu təsdiqləyir.

Bosaso Limanı rəsmiləri son iki ildə BƏƏ tərəfindən göndərilən 500 mindən çox konteynerin "təhlükəli" qeydini daşıdığını bildirildiyi qeyd olunur. Fotolarda Kolumbiyalı muzdlu döyüşçülərin Bosaso Hava Limanına endiyini və şəhərə yerləşdirildiyini ortaya qoydu. Somali Dəniz Polisi rəsmiləri bu şəxslərin Sudan'dakı orduya qarşı döyüşmək üçün Bosaso üzərindən bölgəyə keçdiyini təsdiqlədi. Şahidlərin sözlərinə görə, yaralı döyüşçülər Bosasoya gətirilir, hava limanında qurulan səyyar hospitalda müalicə olunduqdan sonra başqa ölkələrə göndərilir.

***Xarici müdaxilələrin böhranın dinamikasına təsiri.*** Sudan böhranında xarici aktorların rəqabətli və koordinasiyasız fəaliyyəti münaqişənin həllini çətinləşdirir. Bir tərəfdən vasitəçilik təşəbbüsləri irəli sürülsə də, digər tərəfdən hərbi və maliyyə dəstəyi qarşıdurma tərəflərinin kompromisə marağını azaldır. Bu vəziyyət zorakılığın instrumentallaşdırılması və silahlı qeyri-dövlət aktorlarının legitimləşdirilməsi proseslərini gücləndirir.

***Sudan Liviya Yəmən müqayisəsi.*** Sudan böhranı digər regional münaqişələrlə xüsusilə **Liviya və Yəmən** nümunələri ilə müqayisədə bir sıra oxşar və fərqli xüsusiyyətlər göstərir. Bu müqayisə, Sudan nümunəsinin **xarici aktorların təsirinin dərəcəsi, dövlət zəifliyi və regional vasitəçilik imkanları** kontekstində təhlilini mümkün edir.

**Oxşar cəhətlər:**

*Xarici aktorların fəal rolu:* Sudan, Liviya və Yəməndə münaqişə tərəfləri xarici güclərin hərbi, maliyyə və diplomatik dəstəyinə güvənir. Məsələn, Liviya münaqişəsində Rusiya və Türkiyə, Yəməndə isə Səudiyyə Ərəbistanı və İran münaqişənin intensivləşməsində açar rol oynayır. Sudan nümunəsində isə Misir, Türkiyə, BƏƏ, ABŞ və Rusiya oxşar funksiyaları yerinə yetirir.

*Dövlət zəifliyi və institusional boşluqlar:* Hər üç ölkədə mərkəzi dövlət institutlarının zəifliyi, yarı-dövlət və qeyri-dövlət aktorlarının mövcudluğu və təhlükəsizlik strukturlarının fragmentləşməsi münaqişələrin davamlılığını təmin edir.

**Fərqli cəhətlər:**

*Regional vasitəçilik imkanları:* Sudan digər iki ölkə ilə müqayisədə regional vasitəçilik üçün daha əlverişli kontekstə malikdir. Türkiyə və Misirin Sudanla tarixi və diplomatik əlaqələri, həmçinin

Afrika İttifaqı ilə əməkdaşlığı vasitəçilik proseslərini daha funksional edə bilər. Liviya və Yəməndə isə regional aktorların rəqabəti daha açıq və ziddiyyətlidir.

*Geosiyasi strateji əhəmiyyət:* Sudan Qırmızı dənizə çıxışı və Afrika Yaxın Şərq tranzit koridorları ilə strateji əhəmiyyətə malikdir, bu isə qlobal aktorların maraqlarını daha çox cəlb edir. Liviya əsasən Avropa enerji təhlükəsizliyi və Aralıq dənizi təhlükəsizliyi ilə bağlı maraqlı olsa da, Sudan qədər transmilli şəbəkələrdə mərkəzləşmiş deyil. Yəmən isə Səudiyyə və İran arasındakı regional rəqabətin episentrindədir.

*Münaqişənin xarakteri və hibridliyi:* Sudan münaqişəsi yarı-dövlət, yarı-qeyri-dövlət aktorlarının hibrid strukturu ilə fərqlənir; Liviya münaqişəsi daha çox siyasi fraksiya və beynəlxalq koalisiyalara, Yəmən isə əksərən ideoloji və sektar əsaslı bloklara söykənir.

Bu müqayisə göstərir ki, Sudan böhranı həm oxşar post-müstəmləkə və regional zəif dövlət nümunələrinə uyğundur, həm də **regional vasitəçilik potensialı və qlobal geosiyasi kontekstdə unikal xüsusiyyətlərə malikdir**. Bu, Sudan nümunəsinin yalnız daxili zəifliklərlə deyil, transmilli maraqların kəsişdiyi çoxsəviyyəli münaqişə kimi qiymətləndirilməsini dəstəkləyir.

***Regional vasitəçiliyin (Türkiyə və Misir) üstünlükləri.*** Sudan böhranının həlli istiqamətində regional vasitəçilik təşəbbüsləri qlobal aktorların məhdud və parçalanmış yanaşmaları fonunda daha çevik və kontekstual mexanizm kimi ön plana çıxır. Xüsusilə **Türkiyə və Misir** kimi regional güclərin vasitəçilik potensialı tarixi əlaqələr, coğrafi yaxınlıq və təhlükəsizlik maraqlarının birbaşa bağlılığı ilə şərtlənir.

**Türkiyənin vasitəçilik rolu** onun Afrika siyasətində çoxtərəfli diplomatiya, humanitar yardım və iqtisadi əməkdaşlığı birləşdirən yanaşmasına əsaslanır. Ankara Sudanda həm mülki siyasi aktorlarla, həm də hərbi strukturlarla dialoq kanallarını qoruyub saxlamaq imkanına malikdir. Türkiyənin güc aktoru kimi hökumət tərəfində durması diqqətə alınmalı məqamdır. Liviyada da eyni mövqedən çıxış edir. Türkiyənin barışdırıcı ünsur olması Sudan hökumətini rahatladır. Belə ki, Efiopiya və Somali arasında vasitəçi olan Ərdoğan hökuməti Sudanda da buna hazır olduğunu bildirir. Bununla əlaqədar İctimaiyyətlə Əlaqələr naziri Duran vəziyyəti belə qiymətləndirir: "Mənim baxdığım yerdən, Sudan öz tarixi, zəngin mədəni quruluşu və Afrika qitəsindəki çox strateji mövqeyi ilə, hazırda olduğu vəziyyətə baxsaq, heç də ədalətli deyil. Bu baxımdan, Sudanın böhrandan çıxması, müharibənin bitməsi və Sudan xalqının istədiyi şəkildə sülh bərqərar olmalıdır. Etməyə çalışdığımız şey, Sudanı yenidən dünyanın gündəminə gətirmək və orada baş verənlərin necə təcili müdaxilə tələb etdiyini əvvəlcə ölkəmizdə Türkiyədə, daha sonra isə dünyada ictimaiyyətə çatdırmaqdır." Əlavə olaraq bildirir ki: "Yenə Afrikaya baxdıqda, Efiopiya ilə Somali arasında qarşıdurmaya çevrilmək üzrə olan məsələ ilə bağlı prosesə daxil olaraq vasitəçilik ortaya qoyması və bunun bir anlaşma ilə nəticələnməsi, prezidentimizin liderliyin vasitəçilik sahəsində göstərdiyi nümunələrdən biridir" [8].

Türkiyənin ideoloji neytrallığa yaxın mövqeyi və "qazan-qazan" prinsipi üzərində qurulan diplomatik üslubu onu qəbul edilə bilən vasitəçi kimi təqdim edir. Bundan əlavə, Türkiyənin Afrika İttifaqı ilə əməkdaşlığı regional legitimliyi gücləndirən amil kimi çıxış edir.

**Misirin vasitəçilik imkanları** isə daha çox təhlükəsizlik və dövlətçilik praqmatizminə əsaslanır. Nil hövzəsində sabitliyin qorunması və Sudanda mərkəzləşdirilmiş dövlət strukturunun saxlanılması Qahirə üçün strateji əhəmiyyət daşıyır. Misirin Sudan Silahlı Qüvvələri ilə institusional əlaqələri ona hərbi elita üzərində təsir rıçaqları yaradır ki, bu da atəşkəs və keçid proseslərinin təşkili baxımından funksional üstünlükdür. Regional vasitəçiliyin əsas üstünlüyü ondan ibarətdir ki, bu aktorlar münaqişənin **sosial–siyasi kontekstini və yerli güc balanslarını** daha dərindən anlayırlar. Bu isə normativ xarakterli qlobal təşəbbüslərlə müqayisədə daha real və tətbiqolunan razılaşmaların əldə olunmasına şərait yarada bilər. Türkiyə və Misirin iştirakı ilə həyata keçirilən regional vasitəçilik təşəbbüsləri Sudan böhranında inklüziv dialoqun bərpası və zorakılığın azaldılması baxımından potensial effektiv mexanizm kimi qiymətləndirilə bilər. Lakin bu təşəbbüslərin uğuru regional rəqabətin idarə olunması və beynəlxalq aktorlarla minimum koordinasiyanın təmin edilməsindən asılıdır.

***Qırmızı dəniz təhlükəsizliyi ilə əlaqə.*** Sudan böhranı yalnız daxili siyasi və hərbi faktorlarla deyil, Qırmızı Dənizin strateji əhəmiyyəti ilə də sıx bağlıdır. Bu su yolu, beynəlxalq ticarət və enerji nəqliyyatının kritik arteriyası olmaqla yanaşı, regional güclərin təhlükəsizlik maraqlarını da formalaş-

dırır. Sudanın Qırmızı Dənizə çıxışı və port infrastrukturu xüsusilə Suakin limanı regional və qlobal aktorların maraqlarını cəlb edən əsas elementlərdən biridir. Münaqişənin davam etməsi Qırmızı Dənizdə ticarət təhlükəsizliyini və neft tranzitini birbaşa təhdid edir. Bu baxımdan, Sudan böhranı yalnız yerli və regional təhlükəsizlik məsələsi deyil, qlobal enerji və ticarət marşrutlarının sabitliyi ilə bağlı strateji problem kimi də qiymətləndirilir.Bundan əlavə, Qırmızı Dəniz təhlükəsizliyi məsələsi Sudan böhranına regional vasitəçilik və xarici aktorların müdaxiləsi kontekstində əlavə təzyiq elementi kimi təsir göstərir. Misir, Səudiyyə Ərəbistanı və BƏƏ kimi aktorlar Sudan vasitəsilə strateji su yollarının təhlükəsizliyini qorumaq məqsədilə həm diplomatik, həm də hərbi kanallardan istifadə edirlər. Sudan böhranının həlli yalnız daxili siyasi və humanitar aspektləri ilə deyil, Qırmızı Dəniz təhlükəsizliyinin qorunması və regional geosiyasi maraqların balanslaşdırılması ilə birgə nəzərdən keçirilməlidir. Bu, böhranın beynəlxalq əhəmiyyətini və transmilli xarakterini bir daha vurğulayır.

***Nəticə.*** Aparılan təhlil göstərir ki, Sudan böhranı yalnız daxili siyasi qeyri-sabitlik, hərbi elitlərarası rəqabət və institusional zəifliklə izah edilə bilməz. Mövcud münaqişə daha geniş regional və qlobal geosiyasi kontekstin məhsulu kimi formalaşaraq klassik "daxili münaqişə" yanaşmalarının izah imkanlarını əhəmiyyətli dərəcədə aşır. Bu baxımdan Sudan nümunəsi müasir münaqişələrin çoxsəviyyəli və beynəlmiləlləşmiş xarakterini nümayiş etdirən tipik hal kimi çıxış edir. Konseptual baxımdan məqalə Sudan böhranını zəif dövlət strukturları**,** hərbiləşmiş idarəetmə**,** silahlı qeyri-dövlət aktorlarının institusionallaşması və xarici aktorların selektiv müdaxiləsi arasında qarşılıqlı asılılıq münasibətləri çərçivəsində təhlil edir. Migdalın dövlət-cəmiyyət münasibətləri və Jackson & Rosberg-in kvazi-dövlətçilik yanaşmaları Sudan kontekstində empirik təsdiqini tapır: dövlətin suverenliyi formal xarakter daşıyır, real güc isə fragmentləşmiş və hərbiləşmiş aktorlar arasında bölüşdürülür. Araşdırma həmçinin göstərir ki, beynəlxalq normativ mexanizmlər silah embarqoları, sanksiyalar və diplomatik təzyiq alətləri effektiv icra və vahid siyasi iradə olmadıqda münaqişənin de-eskalasiyasına töhfə vermək əvəzinə onun davamlılığına dolayı şəkildə xidmət edə bilər. Bu isə Sudan böhranını təkcə regional problem deyil, eyni zamanda qlobal idarəetmə böhranının lokal təzahürü kimi dəyərləndirməyə əsas verir. Regional vasitəçilik təşəbbüslərinin təhlili göstərir ki, Türkiyə və Misir kimi aktorların iştirakı münaqişənin həllində daha kontekstual və praktik yanaşmaların formalaşmasına imkan yarada bilər. Lakin bu potensial yalnız regional rəqabətin minimuma endirilməsi və qlobal aktorlarla funksional koordinasiyanın təmin edilməsi şərti ilə reallaşa bilər.

Nəticə etibarilə, Sudan böhranının həlli üçün yalnız daxili siyasi dialoq kifayət deyil. Davamlı sülhə nail olmaq daxili institusional islahatların**,** silahlı strukturların depolitizasiyasının**,** xarici müdaxilələrin məhdudlaşdırılmasının və çoxtərəfli diplomatik koordinasiyanın paralel şəkildə həyata keçirilməsini tələb edir. Sudan nümunəsi müasir münaqişələrin təhlilində klassik dövlət mərkəzli yanaşmaların yenidən nəzərdən keçirilməsinin zəruriliyini bir daha ortaya qoyur. Sudan böhranının təhlili göstərir ki, münaqişə artıq klassik "daxili münaqişə" anlayışı ilə izah oluna bilməz. Burada zəif dövlət institutları, yarı-dövlət və qeyri-dövlət aktorlarının institusionallaşması, regional və qlobal güc maraqları bir-biri ilə qarşılıqlı təsirdədir və böhranın davamlılığını təmin edir. Münaqişə regional və qlobal aktorların aktiv müdaxiləsi ilə beynəlmiləlləşmiş xarakter alır. Silah embarqolarının icra mexanizmlərinin zəifliyi və geosiyasi maraqların humanitar hüquqa üstün gəlməsi paradoksu Sudan böhranını yalnız yerli problem deyil, həm də qlobal idarəetmə və regional təhlükəsizlik məsələsi kimi ortaya qoyur. Regional vasitəçilik xüsusilə Türkiyə və Misirin rolu inklüziv dialoqun bərpası və zorakılığın azaldılması baxımından potensial effektlidir. Eyni zamanda, Sudan nümunəsi Liviya və Yəmənlə müqayisədə regional vasitəçilik imkanları, Qırmızı Dəniz təhlükəsizliyi və qlobal enerji tranziti baxımından unikal xüsusiyyətlər nümayiş etdirir. Münaqişənin davam etməsi səbəbindən məlumatların dəyişkənliyi tədqiqat nəticələrinin kontekstual qiymətləndirilməsini tələb edir və metodoloji ehtiyatlılığın vacibliyini vurğulayır. Sudan böhranının həlli yalnız daxili siyasi razılaşmalarla deyil, institusional islahatlar, silahlı strukturların depolitizasiyası, xarici müdaxilələrin tənzimlənməsi və çoxtərəfli diplomatik koordinasiya ilə mümkün ola bilər. Nəticə etibarilə, Sudan böhranı müasir münaqişələrin **çoxsəviyyəli, transmilli və hibrid xarakterini** göstərən nümunədir və həm elmi, həm də praktiki baxımdan region və qlobal siyasət üçün əhəmiyyətli dərslər təqdim edir.

ƏDƏBİYYAT

1. Akande, D. (2011). *The International Court of Justice and the responsibility to protect*. Global Responsibility to Protect.
2. Amnesty International. *Sudan: Advanced Chinese Weaponry Provided by UAE Identified in Breach of Arms Embargo – New Investigation.* Amnesty International, 2025.
3. Aktay, Y. Gazze ve el-Faşirin ilgisi. Tezkire, 2025.
4. Anadolu Ajansı. Sudanda katliamlarla gündeme gelen Hızlı Destek Kuvvetleri altın madenlerinden güç alıyor. Anadolu Ajansı, 2025.
5. Bellamy, A. J. (2009). *Responsibility to Protect*. Polity Press.
6. Collier, P., & Hoeffler, A. (2004). *Greed and grievance in civil war*. Oxford Economic Papers.
7. Collins, R. O. History of Sudan. Encyclopaedia Britannica, 17 November 2025.
8. Cumhurbaşkanlığı İletişim Başkanlığı. Afrika'nın Kalbinde Süregelen Çatışma: Sudan'da Barış Arayışı. Ankara: T.C. Cumhurbaşkanlığı İletişim Başkanlığı, 2025.
9. Devicioğlu, K. Sudan savaşında El-Faşirin HDK'nin eline geçmesi ne anlama gelir. Ortadoğu Araştırmalar Merkezi (Center for Middle Eastern Studies), 2025.
10. Euronews. Sudanda orduya karşı savaşan Hızlı Destek Güçleri kimdir, neden savaşıyor ve gücü ne? Euronews, 2025.
11. Independent Türkçe. Dış güçler Sudan'daki iç savaşa nasıl etki ediyor? Independent Türkçe, 2025.
12. George, A. L., & Bennett, A. (2005). *Case Studies and Theory Development in the Social Sciences*. MIT Press.
13. Jackson, R., & Rosberg, C. (1982). *Personal rule in Black Africa*. University of California Press.
14. Kalyvas, S. (2006). *The Logic of Violence in Civil War*. Cambridge University Press.
15. Le Billon, P. (2001). *The political ecology of war: Natural resources and armed conflicts*. Political Geography.
16. Migdal, J. (1988). *Strong Societies and Weak States*. Princeton University Press.
17. Mirgani, O. Sudan: Hızlı Destek Kuvvetlerini kim kontrol ediyor? (Asharq Al-Awsat, London tərcüməsi). Independent Türkçe, 2024.
18. Straus, S. (2012). *Retreating from the brink: Theorizing mass violence*. Cambridge University Press.
19. Sevilir AŞAN, Hasan. *Güney Sudan Büyükelçisi xatirələrindən blog yazısı*. Blog, 2020.
20. Yin, R. K. (2018). *Case Study Research and Applications*. Sage.

**ALAM ALIYEV**
*Baku State University Master's Student*

## SUDAN CRISIS: GEOLOGICAL INTERESTS AND THE ROLE OF FOREIGN ACTORS

Buna baxmayaraq, mövcud elmi ədəbiyyatda feedback mexanizmləri və məntiqi xətalar ayrı-ayrılıqda geniş şəkildə araşdırılsa da, onların kəsişməsində yerləşən məsələlər – yəni müəllim rəyində məntiqi səhvlərin tələbə qavrayışına və öyrənmə effektivliyinə təsiri, kifayət qədər sistemli şəkildə tədqiq olunmamışdır. Bu isə mövzunun daha dərindən araşdırılmasını zəruri edir.

Bu boşluğu nəzərə alaraq, təqdim olunan tədqiqat müəllim geribildirimində məntiqi xətaların mövcudluğunun onun ümumi effektivliyinə təsirini araşdırmağı qarşıya məqsəd qoyur. Tədqiqat çərçivəsində məntiqi cəhətdən düzgün və qüsurlu feedback nümunələri müqayisə edilərək, onların tələbələr tərəfindən necə qəbul edildiyi və öyrənmə prosesinə necə təsir göstərdiyi təhlil olunur. Bu kon-

tekstdə əsas tədqiqat sualı belə formalaşdırılır: müəllim geribildirimində mövcud olan məntiqi xətalar tələbələrin həmin geribildirimi interpretasiya etməsinə və onun effektivliyinə nə dərəcədə təsir edir?

***Əsas hissə.*** Təhsildə feedback (geri bildirim) öyrənmə prosesinin keyfiyyətinə birbaşa təsir edən əsas pedaqoji vasitələrdən biridir. Müasir pedaqoji yanaşmalarda qeyd olunur ki, effektiv feedback tələbənin motivasiyasını artırmalı, onun öyrənmə prosesini istiqamətləndirməli və inkişaf üçün aydın yol xəritəsi təqdim etməlidir [1. s. 86-88]. Əks halda, qeyri-peşəkar və emosional təsirli feedback tələbələrdə narahatlıq, özünəinamın azalması və öyrənmə motivasiyasının zəifləməsi kimi nəticələr yarada bilər [7, s.16-18].

*Mövcud ədəbiyyatın təhlili.* Pedaqoji ədəbiyyatda konstruktiv feedback-in əsas xüsusiyyətləri kimi inkişafyönümlü dil, konkretlik, obyektivlik və emosional balans xüsusi vurğulanır [6, s.24- 28]. Bununla yanaşı, məntiqi xətaların feedback daxilində yer alması onun həm məzmun, həm də qəbul olunma baxımından keyfiyyətini aşağı salır [8, s.76-77]. Bu kontekstdə ən çox rast gəlinən məntiqi xətalardan biri ad hominem yanaşmadır. Bu zaman müəllim tələbənin işini deyil, birbaşa şəxsiyyətini hədəf alır (məsələn, “Sən ümumiyyətlə diqqətsiz tələbəsən”), nəticədə rəy obyektiv qiymətləndirmə xarakterini itirir. Digər geniş yayılmış xəta qorxuya müraciətdir; burada müəllim inkişaf üçün konkret istiqamət vermək əvəzinə, tələbəni mümkün uğursuzluqla qorxudur (məsələn, “Belə davam etsən, imtahandan keçə bilməyəcəksən”). Üçüncü mühüm xəta isə ümumiləşdirmədir ki, bu zaman konkret bir səhv bütün fəaliyyətə şamil olunur (məsələn, “Sən həmişə belə zəif yazırsan”). Bu tip ifadələr feedback-i qeyri-konstruktiv edir, çünki tələbəyə nəyi və necə düzəltməli olduğunu göstərmir. Beləliklə, ədəbiyyat göstərir ki, feedback yalnız informativ deyil, həm də məntiqi və psixoloji baxımdan düzgün qurulmalıdır.

*Metodologiya.* Bu nəzəri çərçivə əsasında aparılan tədqiqatda 17-26 yaş aralığında olan, Azərbaycanın müxtəlif ali təhsil müəssisələrində təhsil alan 50 tələbə iştirak etmişdir. Respondentlər könüllülük əsasında seçilmiş və onlara strukturlaşdırılmış anket təqdim olunmuşdur. Anket iki əsas hissədən ibarət olmuşdur: birinci hissədə iştirakçılara məntiqi xətalardan azad, konstruktiv feedback nümunəsi; ikinci hissədə isə ad hominem, qorxuya müraciət və ümumiləşdirmə kimi məntiqi xətaları ehtiva edən feedback nümunəsi təqdim edilmişdir. Hər iki nümunədən sonra iştirakçılardan Likert şkalası (1 - tamamilə razıyam, 5 - tamamilə razı deyiləm) əsasında feedback-in keyfiyyəti, ədalətliliyi, peşəkarlığı, faydalılığı və motivasiyaedici təsiri barədə qiymətləndirmə aparmaları istənilmişdir. Bundan əlavə, emosional reaksiyaları ölçmək üçün seçimli suallar və açıq tipli suallar vasitəsilə iştirakçıların subyektiv təəssüratları toplanmışdır. Bu yanaşma həm kəmiyyət, həm də keyfiyyət məlumatlarının əldə olunmasına imkan vermişdir.

*Nəticələr və onların interpretasiyası.* Nəticələr göstərir ki, məntiqi xətalardan azad olan feedback bütün göstəricilər üzrə daha yüksək qiymətləndirilmişdir. Belə ki, iştirakçıların 75%-i bu feedback-i oxuyarkən motivasiya hiss etdiyini bildirmişdir ki, bu da olduqca yüksək göstəricidir və konstruktiv rəyin emosional təsir gücünü açıq şəkildə nümayiş etdirir. Eyni zamanda, respondentlərin böyük əksəriyyəti feedback-i həm keyfiyyətli (təxminən 88.7% razıyam və tamamilə razıyam), həm də ədalətli (86.4%) hesab etmişdir. Bu göstəricilər onu deməyə əsas verir ki, məntiqi baxımdan düzgün qurulmuş rəy tələbələr tərəfindən etibarlı və peşəkar qəbul olunur. Bundan əlavə, 90%-dən çox iştirakçının müəllimin peşəkar yanaşmasını qəbul etməsi feedback-in müəllim imicinə də birbaşa təsir etdiyini göstərir.

Digər tərəfdən, məntiqi xətalar ehtiva edən feedback üzrə nəticələr əks tendensiyanı ortaya qoymuşdur. Burada narahatlıq (63%) və stress (39.1%) kimi göstəricilərin yüksək olması həmin rəyin tələbələrdə mənfi emosional reaksiya doğurduğunu göstərir. Bu faizlər yalnız statistik göstərici deyil, həm də ciddi psixoloji təsirin indikatorudur. Eyni zamanda, bu feedback-in keyfiyyəti və ədalətliliyi ilə bağlı mənfi qiymətləndirmələrin yüksək olması (təxminən 40%-ə yaxın neqativ münasibət) onun qeyri-effektiv qəbul edildiyini göstərir. Ən diqqətçəkən nəticə isə ümumi seçimdə özünü göstərir: respondentlərin 95.7%-i birinci feedback-i daha faydalı hesab etmişdir. Bu, çox güclü fərqdir və təsadüfi deyil, əksinə, açıq şəkildə göstərir ki, məntiqi struktur feedback-in qəbulunda həlledici rol oynayır.

*Nəticələrin müzakirəsi.* Əldə olunan nəticələr mövcud pedaqoji yanaşmalarla məntiqi və səbəb-nəticə baxımından uyğunluq təşkil edir. Ədəbiyyatda qeyd olunduğu kimi, konstruktiv feedback-in motivasiya artırıcı təsiri bu tədqiqatda yüksək motivasiya faizi ilə konkret şəkildə təsdiqlənmişdir. Eyni zamanda, ədəbiyyatda vurğulanan obyektivlik və ədalətlilik prinsipləri ilə tədqiqat nəticələri arasında da açıq uyğunluq müşahidə olunur. Respondentlərin 86.4%-nin feedback-i ədalətli hesab etməsi göstərir ki, məntiqi cəhətdən düzgün qurulmuş rəy subyektivlikdən uzaq qəbul olunur. Bu da onu göstərir ki, məntiqi struktur yalnız məzmunun deyil, həm də qiymətləndirmənin legitimliyinin formalaşmasında mühüm rol oynayır [4, s.27-28]. Digər tərəfdən, məntiqi xətalarla zəngin feedback-in yaratdığı mənfi emosional reaksiyalar da əvvəlki araşdırmalarla üst-üstə düşür. Xüsusilə ad hominem tipli ifadələrin tələbədə şəxsi hücum kimi qəbul olunması, qorxuya müraciətin isə müdafiə mexanizmlərini aktivləşdirməsi bu nəticələrin psixoloji əsasını izah edir [3, s.94-95].

Ümumiləşdirmə xətası da oxşar şəkildə mənfi təsir göstərir. Konkret bir səhvin ümumi performansa şamil edilməsi tələbədə qeyri-obyektiv qiymətləndirmə hissi yaradır. Bu isə nəticələrdə müşahidə olunan aşağı etibar və peşəkarlıq qavrayışı ilə izah olunur. Başqa sözlə, tələbələr bu tip feedback-i yalnız mənfi deyil, eyni zamanda əsassız və qeyri-dəqiq kimi qəbul edirlər.

Beləliklə, bu tədqiqat göstərir ki, məntiqi xətalar yalnız arqumentin strukturunu zəiflətmir, eyni zamanda feedback-in emosional və pedaqoji təsirini də ciddi şəkildə azaldır. Konstruktiv və məntiqi baxımdan düzgün qurulmuş feedback isə həm akademik inkişafı, həm də tələbənin psixoloji rifahını dəstəkləyən əsas amillərdən biri kimi çıxış edir.

***Nəticə***. Aparılmış tədqiqatın nəticələri göstərir ki, feedback-in strukturu və məntiqi keyfiyyəti tələbələrin onun qəbuluna və interpretasiyasına birbaşa təsir göstərir. Tədqiqatda müqayisə edilən iki fərqli feedback modeli (konstruktiv və məntiqi xətalar ehtiva edən) arasında müşahidə olunan fərqlər həm emosional reaksiyalar, həm də akademik qiymətləndirmə baxımından nəzərə çarpacaq dərəcədə kəskin olmuşdur.

Empirik nəticələrə əsasən, məntiqi xətalardan azad olan feedback tələbələr tərəfindən daha yüksək dərəcədə ədalətli, peşəkar və inkişaf etdirici kimi qəbul edilmişdir. Bu model tələbələrdə motivasiya və özünəinamın yüksəlməsi, eləcə də öyrənmə prosesinə qarşı daha müsbət münasibətin formalaşması ilə xarakterizə olunur. Eyni zamanda, iştirakçılar bu feedback-in konkret istiqamətverici xarakter daşıdığını və öz fəaliyyətlərini təkmilləşdirmək üçün aydın yol təqdim etdiyini vurğulamışlar.

Bunun əksinə olaraq, məntiqi xətalar ehtiva edən feedback tələbələrdə daha çox narahatlıq, stress və özünü qeyri-kafi hiss etmə kimi emosional reaksiyalar doğurmuşdur. Bu tip feedback-in ədalətlilik və peşəkarlıq qavrayışını zəiflətdiyi, həmçinin tələbələrin onu inkişaf üçün deyil, tənqid və təzyiq kimi interpretasiya etdiyi müşahidə olunmuşdur. Bu isə onun pedaqoji effektivliyini əhəmiyyətli dərəcədə azaldır. Mövcud nəzəri yanaşmalarla müqayisə edildikdə, əldə olunan nəticələr göstərir ki, konstruktiv və məntiqi cəhətdən düzgün qurulmuş feedback öyrənmə motivasiyasını və akademik inkişafı dəstəkləyir. Eyni zamanda, məntiqi xətaların mövcudluğu feedback-in obyektivliyini azaldır və onun psixoloji təsirini mənfiyə doğru yönləndirir.

*Tövsiyələr və məsləhətlər.* Tədqiqatın nəticələrinə əsasən, müəllim geribildiriminin effektivliyini artırmaq üçün onun məntiqi cəhətdən düzgün, aydın və obyektiv şəkildə qurulması vacibdir. Müəllimlərə tövsiyə olunur ki, geribildirim zamanı şəxsi xüsusiyyətlərə yönələn ifadələrdən (ad hominem), qorxuya əsaslanan yanaşmalardan və əsassız ümumiləşdirmələrdən uzaq dursunlar. Geribildirim konkret fəaliyyətə yönəlməli, tələbəyə səhvlərini anlamaq və inkişaf etdirmək üçün aydın istiqamət göstərməlidir. Bu yanaşma tələbələrin motivasiyasını artırır və öyrənmə prosesinə daha müsbət münasibət formalaşdırır.Bununla yanaşı, müəllimlərin məntiqi xətalar və effektiv kommunikasiya ilə bağlı biliklərinin artırılması məqsədilə təlim və metodiki dəstək proqramlarının təşkili məqsədəuyğun hesab olunur. Təhsil müəssisələrində geribildirimin keyfiyyətini təmin edən ümumi prinsiplərin və standartların müəyyən edilməsi də bu prosesə müsbət təsir göstərə bilər. Bu istiqamətdə atılan addımlar həm tələbələrin akademik inkişafına, həm də onların emosional rifahına dəstək verəcəkdir.

*Ümumiləşdirmə.*Aparılmış tədqiqat göstərir ki, müəllim geribildirimi təhsil prosesində yalnız qiymətləndirmə vasitəsi deyil, həm də tələbələrin öyrənmə davranışına, motivasiyasına və emosional

vəziyyətinə birbaşa təsir edən mühüm kommunikasiya alətidir. Xüsusilə, geribildirimin məntiqi cəhətdən düzgün və strukturlaşdırılmış olması onun effektivliyini əhəmiyyətli dərəcədə artırır, əksinə məntiqi xətaların mövcudluğu isə həm məlumatın qavranılmasını çətinləşdirir, həm də mənfi emosional reaksiyalar yaradır. Bu baxımdan, tədqiqat ümumi olaraq belə bir nəticəni ortaya qoyur ki, konstruktiv, obyektiv və məntiqi əsaslara söykənən geribildirim təhsil keyfiyyətinin yüksəldilməsində əsas amillərdən biridir. Eyni zamanda, məntiqi xətaların aradan qaldırılması müəllim-tələbə ünsiyyətinin daha effektiv qurulmasına və öyrənmə prosesinin daha məhsuldar təşkilinə imkan yaradır.

## ƏDƏBİYYAT

1. Əliyev R. Təlimdə əks-əlaqənin yaradılmasının pedaqoji-psixoloji əsasları // Azərbaycan məktəbi, 2024, №3 (708), s.84-90.
2. Bensley D.A., Crowe D.S., Bernhardt P., Buckner C., Allman A.L. Teaching and assessing critical thinking skills for argument analysis in psychology // Teaching of Psychology, 2010, Vol. 37, №2, p.91-96.
3. Berkle Y., Schmitt L., Tolzin A., Janson A., Wambsganss T., Leimeister J.M., Leuchter M. Measuring university students' ability to recognize argument structures and fallacies // Frontiers in Psychology, 2023, Vol, p.14-15.
4. Brandmo C., Gamlem S.M. Students' perceptions and outcome of teacher feedback: a systematic review // Frontiers in Education, 2025, Vol. 10, p.26-29.
5. Carless D., Boud D. The development of student feedback literacy: enabling uptake of feedback // Assessment & Evaluation in Higher Education, 2018, Vol. 43, №8, p.1315-1325.
6. Carvalho C., Fíuza E., Conboy J., Fonseca J., Santos J., Gama A.P., Salema M.H. Critical thinking, real life problems and feedback in the sciences classroom // Journal of Turkish Science Education, 2015, Vol. 12, №2, p.21-31.
7. Chitac I.M. The feedback fallacy in learning: making practice and interdisciplinarity count // Network Intelligence Studies, 2022, №19, p.13-23.
8. El Khoiri N., Widiati U. Logical fallacies in Indonesian EFL learners' argumentative writing: students' perspectives // Dinamika Ilmu, 2017, Vol. 17, №1, p.71-81.
9. Friedman H.H., Kaganovskiy L. Logical fallacies: how they undermine critical thinking and how to avoid them // North East Journal of Legal Studies, 2025, Vol. 45, Article 3, p.55-59.
10. Qasımova G. Formativ qiymətləndirmədə düzgün əks-əlaqə və onun şagird nailiyyətlərinin qiymətləndirilməsindəki rolu // Azərbaycan məktəbi, 2024, s.62-65.
11. Karimova G. Combining web-based information literacy with critical thinking concepts: recommendations for pedagogical programs of Azerbaijan // Azerbaijan Journal of Educational Studies, 2024, p.47-60.
12. Tuncer A.M. Logical fallacy in education; false dilemma and quantal sociology // Open Access Library Journal, 2022, Vol. 9, p.1-4.

**KHANIM ASADOVA**
*Karabakh University, Faculty of Education,*
*Foreign Language Teaching (SABAH Groups), 3rd-Year Undergraduate Student*

## ANALYSIS OF LOGICAL FALLACIES IN TEACHER FEEDBACK AND THEIR IMPACT ON ITS EFFECTIVENESS

The article examines the concept of teacher feedback in the educational process and its impact on students’ learning activities. In particular, it analyzes how logical fallacies (ad hominem, appeal to fear, and hasty generalization) affect the quality of teacher feedback and students’ level of understanding. Within the framework of modern pedagogical approaches, a comparison is made between constructive, logically sound teacher feedback and feedback that contains flawed logical structures,

and their effects on students' emotional state, motivation, and academic development are explored. Furthermore, the theoretical foundations of teacher feedback, its role in pedagogical literature, and its significance as an effective assessment mechanism are discussed. Based on the results of the empirical research conducted in the study, students' reactions to and evaluations of both types of feedback are analyzed and compared with existing scientific approaches.

*Keywords:* feedback, logical fallacies, ad hominem, appeal to fear, hasty generalization, student motivation, pedagogical communication.

*Daxil olma tarixi*: 29.04.2026-cı il.
*Çapa imzalanma tarixi*: 05.05.2026-cı il.

Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları
Studies of the Turkic World Young Researchers Association

№2(14) 2026, 83-85

UOT 16

**XƏDİCƏ RƏSULZADƏ**
*Qarabağ Universiteti Pedaqoji fakültəsinin*
*İngilis dili müəllimliyi ixtisasının (SABAH qrupu) III kurs tələbəsi*
**xediceresulzade21@gmail.com**

# AZƏRBAYCAN DİLİNDƏ MƏNTİQİ BAĞLAYICILARIN İNTERPRETASİYASI: SEMANTİK QEYRİ-MÜƏYYƏNLİK VƏ ANALİTİK TƏHLİL

*Elmi rəhbər:*
Qarabağ Universitetinin müəllimi Fizzə Məmmədova

*Məqalədə məntiqi bağlayıcıların yanlış interpretasiyası problemi Azərbaycan dilinin gündəlik istifadəsi kontekstində sistemli şəkildə təhlil olunur. Xüsusilə vurğulanır ki, təbii dilin elastik və kontekstə bağlı xarakteri ilə formal məntiqin dəqiq və sərt qaydaları arasında mövcud olan fərqlər məntiqi bağlayıcıların qavranılmasında ciddi uyğunsuzluqlar yaradır. "Və", "və ya", "ya da"* kimi bağlayıcı*ların gündəlik nitqdə istifadəsi çox zaman onların formal məntiqdə daşıdığı mənadan kənara çıxır və bu da semantik qeyri-müəyyənliklərə, eləcə də kommunikativ anlaşılmazlıqlara səbəb olur. Tədqiqat çərçivəsində bu fərqlərin mahiyyəti açılır, gündəlik dil nümunələri əsasında yanlış şərhlərin yaranma mexanizmləri araşdırılır və təbii dil ilə formal dil arasındakı qarşılıqlı əlaqə analitik müstəvidə izah olunur. Eyni zamanda, məntiqi bağlayıcıların düzgün interpretasiyasının dilin dəqiqliyi və effektivliyi baxımından əhəmiyyəti əsaslandırılır. Ümumilikdə, məqalə dil və məntiq arasındakı əlaqəni ön plana çıxararaq, bu sahədə mövcud nəzəri və praktik boşluqlara diqqət yönəldir.*

*Açar sözlər:* məntiqi bağlayıcılar, disyunksiya, implikasiya, semantik qeyri-müəyyənlik, praqmatik interpretasiya, danışıq implikaturası, intuitiv düşünmə.

*Məqalədə adı çəkilən əsas bağlayıcılar və onların formal məntiqdəki işarələri:*
- Konyunksiya "və" → "∧"
- Disyunksiya "və ya" → "∨"
- İmplikasiya "əgər…onda" → "→"

***Giriş.*** Məqalədə məntiqi bağlayıcıların yanlış interpretasiyası problemi Azərbaycan dilinin gündəlik istifadəsi kontekstində sistemli şəkildə təhlil olunur. Xüsusilə vurğulanır ki, təbii dilin elastik və kontekstə bağlı xarakteri ilə formal məntiqin dəqiq və sərt qaydaları arasında mövcud olan fərqlər məntiqi bağlayıcıların qavranılmasında ciddi uyğunsuzluqlar yaradır. "Və", "və ya", "ya da" kimi bağlayıcıların gündəlik nitqdə istifadəsi çox zaman onların formal məntiqdə daşıdığı mənadan kənara çıxır və bu da semantik qeyri-müəyyənliklərə, eləcə də kommunikativ anlaşılmazlıqlara səbəb olur.

Pragmatik yanaşmalara görə, dil vahidlərinin mənası yalnız formal semantika ilə deyil, eyni zamanda sosial kontekst, kommunikativ məqsəd və danışanın niyyəti ilə müəyyən olunur. Grice-nin danışıq implikaturası nəzəriyyəsi göstərir ki, insanlar ifadələri yalnız birbaşa mənasına görə deyil, həm də dolayı və nəzərdə tutulan mənalar əsasında interpretasiya edirlər [3]. Levinsonun yanaşmasına əsasən isə gündəlik nitqdə semantik məna sistematik şəkildə genişlənir və ya dəyişdirilir [4].

Formal məntiq ilə praqmatik interpretasiya arasında bu fərq yalnız təsviri deyil, həm də prinsipial xarakter daşıyır. Formal məntiq bağlayıcıları sabit həqiqət-funksional operatorlar kimi qəbul etdiyi halda, təbii dil onları kontekst daxilində yenidən mənalandırır. Bu gərginlik xüsusilə disyunksiya ("və ya") və implikasiya ("əgər…onda") bağlayıcılarında özünü daha aydın göstərir. Formal olaraq inklüziv olan disyunksiya gündəlik istifadədə çox vaxt eksklüziv seçim kimi qavranılır [5], implikasiya isə birtərəfli məntiqi əlaqə olmaq əvəzinə səbəb-nəticə kimi interpretasiya olunur [6].

Bu interpretasiya fərqləri təkcə dil hadisəsi deyil, eyni zamanda idrak və sosial faktorlarla bağlıdır. İnsanlar çox vaxt formal analizə deyil, heuristik və intuitiv düşünmə modellərinə əsaslanır ki, bu

da sistemli məntiqi xətaların yaranmasına səbəb olur. Xüsusilə implikasiyanın səhv qavranılması "əks nəticəni təsdiqləmə" kimi klassik məntiqi səhvlərə gətirib çıxarır.

Bu tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, məntiqi bağlayıcıların interpretasiyası problemi Azərbaycan dili kontekstində empirik məlumatlar əsasında sistemli şəkildə araşdırılır. Mövcud tədqiqatların əksəriyyəti digər dillər üzərində aparıldığı halda, bu iş Azərbaycan dilində bu fenomenin necə formalaşdığını konkret statistik nəticələr əsasında göstərir və beləliklə, mövcud nəzəri yanaşmalara yeni kontekstual töhfə verir. Bu baxımdan tədqiqatın əsas sualı belə formalaşdırılır: Azərbaycan dilində məntiqi bağlayıcılar gündəlik və rəsmi kontekstlərdə necə interpretasiya olunur və bu interpretasiyalar hansı sistemli məntiqi xətalara səbəb olur?

***Əsas hissə.*** Aparılmış empirik tədqiqat məntiqi bağlayıcıların gündəlik interpretasiyasının formal məntiqdən sistemli şəkildə uzaqlaşdığını açıq şəkildə göstərir. Tədqiqatda ümumilikdə 41 iştirakçı iştirak etmiş və onların cavabları həm düzgün anlama səviyyəsini, həm də tipik interpretasiya modellərini müəyyən etməyə imkan vermişdir.

Disyunksiya ("və ya") üzrə nəticələr göstərir ki, iştirakçıların əksəriyyəti əsas fərqi intuitiv olaraq dərk etsə də, bu fərq məntiqi dəqiqlik səviyyəsində sabit deyil. Birinci tapşırıqda 32 nəfər (78.0%) "və" və "və ya" arasındakı fərqi düzgün müəyyən etmiş, lakin 6 nəfər (14.6%) qarışıq interpretasiya vermiş, 2 nəfər (4.9%) hər iki ifadəni seçim kimi qəbul etmiş, 1 nəfər (2.4%) isə ümumiyyətlə fərq görməmişdir. Bu, göstərir ki, ilkin anlayış mövcuddur, lakin formal struktur tam mənimsənilməyib.

Daha vacib nəticə ikinci və üçüncü tapşırıqlarda ortaya çıxır: 31 nəfər (75.6%) disyunksiyanı eksklüziv seçim kimi interpretasiya etmiş, 26 nəfər (63.4%) isə hər iki variantın mümkün olduğunu qəbul etsə də, faktiki olaraq yalnız birinin nəzərdə tutulduğunu bildirmişdir. Bu nəticə təsadüfi deyil - o, praqmatik gücləndirmə mexanizminin sistemli şəkildə işlədiyini göstərir. Yəni iştirakçılar mümkün mənalar içindən ən informativ və praktik olanı seçərək məntiqi strukturu daraldırlar.

İmplikasiya üzrə nəticələr isə daha dərin idrak problemini üzə çıxarır. Yalnız 18 nəfər (43.9%) implikasiyanın birtərəfli məntiqi əlaqə olduğunu düzgün müəyyən etmişdir. Qalan iştirakçılar isə ya əks istiqamətli əlaqəni qəbul etmiş (34.1%), ya bütün variantları eyni hesab etmiş (14.6%), ya da tam qarşılıqlı əlaqə kimi interpretasiya etmişdir (7.3%). Bu isə implikasiyanın gündəlik düşüncədə formal məntiq kimi deyil, səbəb-nəticə modeli kimi işlədiyini göstərir.

Beşinci tapşırıq bu tendensiyanı daha da təsdiqləyir: iştirakçıların böyük hissəsi implikasiyanı qəti məntiqi qayda kimi deyil, ehtimal və ya təcrübəyə əsaslanan nəticə kimi qiymətləndirmişdir (41.5% ehtimal, 36.6% bəzən baş verir). Bu isə məntiqi zərurətin gündəlik düşüncədə probabilistik interpretasiya ilə əvəz olunduğunu göstərir. Bu nəticələrin əsas səbəbi heuristik düşünmə mexanizmləridir. İnsanlar mürəkkəb məntiqi strukturları analitik şəkildə emal etmək əvəzinə, sürətli və intuitiv qərarvermə strategiyalarından istifadə edirlər. Bu zaman formal məntiqi dəqiqlik arxa plana keçir, onun yerini isə praktik və kontekstual uyğunluq tutur. Nəticədə disyunksiya seçimə, implikasiya isə səbəbiyyətə çevrilir. Beləliklə, empirik nəticələr göstərir ki, məntiqi bağlayıcıların yanlış interpretasiyası təsadüfi deyil, sistemli idrak və dil mexanizmlərinin nəticəsidir.

***Nəticə.*** Bu tədqiqat göstərir ki, məntiqi bağlayıcıların yanlış interpretasiyası sadəcə dil səviyyəsində yaranan anlaşılmazlıq deyil, insan düşüncəsinin struktur xüsusiyyətləri ilə bağlı sistemli bir hadisədir. Disyunksiyanın eksklüzivləşdirilməsi və implikasiyanın səbəb-nəticə kimi qavranılması formal məntiqdən kənara çıxma deyil, əksinə, gündəlik idrakın necə işlədiyini əks etdirir.

Əldə olunan nəticələr göstərir ki, Azərbaycan dili kontekstində məntiqi bağlayıcılar yüksək dərəcədə praqmatik və kontekstual şəkildə interpretasiya olunur. Bu isə formal məntiq ilə təbii dil arasında birbaşa uyğunluğun mümkün olmadığını və bu iki sistem arasında analitik körpü qurulmasının zəruri olduğunu göstərir.

Problemin aradan qaldırılması üçün məntiqin tədrisi yalnız formal təriflərlə məhdudlaşmamalı, kontekstual və müqayisəli yanaşma ilə zənginləşdirilməlidir. Bağlayıcıların alternativ interpretasiyalarının açıq şəkildə təqdim olunması və metakoqnitiv düşünmənin inkişaf etdirilməsi bu sahədə əsas həll istiqamətləri kimi çıxış edir.

Nəticə olaraq, bu tədqiqat sübut edir ki, məntiqi bağlayıcıların interpretasiyası dilin deyil, düşüncənin problemidir. Formal məntiqin qaydaları dəyişmir, lakin insan onları tətbiq edərkən sistemli şə-

kildə transformasiya edir. Bu transformasiyanı anlamaq isə həm dilin, həm də idrakın daha dərindən dərk olunmasına imkan yaradır.

ƏDƏBİYYAT

1. Grice, H.P. (1975). Logic and Conversation. P.Cole, J.L.Morgan (red.), Syntax and Semantics: Speech Acts (Cild 3, p.41-58). New York: Academic Press.
2. Levinson, S.C. (2000). Presumptive Meanings: The Theory of Generalized Conversational Implicature. Cambridge: MIT Press, 480 p.
3. Horn, L.R. (2004). Implicature. L.R.Horn, G.Ward (red.), The Handbook of Pragmatics (p.3-28). Oxford: Blackwell Publishing.
4. Gazdar, G. (1979). Pragmatics: Implicature, Presupposition and Logical Form. New York: Academic Press, 269 p.
5. Sauerland, U. (2004). Scalar implicatures in complex sentences. Linguistics and Philosophy, 27(3), p.367-391. Dordrecht: Kluwer Academic Publishers.
6. Evans, J.St.B.T. (2002). Logic and human reasoning. Psychological Bulletin, 128(6), p.978-996. Washington, DC: American Psychological Association.
7. Johnson-Laird, P.N. (2006). How We Reason. Oxford: Oxford University Press, 464 p.
8. Oaksford, M., Chater, N. (2007). Bayesian Rationality: The Probabilistic Approach to Human Reasoning. Oxford: Oxford University Press, 248 p.
9. Hüseynov, E. (Elmar Hüseynov). (2018). *Mülahizələr məntiqi*. Bakı, Azərbaycan: Elm və Təhsil nəşriyyatı.

**KHADIJA RASULZADA**
*Karabakh University, Faculty of Education,*
*Foreign Language Teaching (SABAH Groups), 3rd-Year Undergraduate Student*

## INTERPRETATION OF LOGICAL CONNECTIVES IN THE AZERBAIJANI LANGUAGE: SEMANTIC AMBIGUITY AND ANALYTICAL ANALYSIS

This article systematically analyzes the problem of misinterpretation of logical connectives in the context of everyday use of the Azerbaijani language. It emphasizes that the inherent flexibility and context-dependence of natural language, in contrast to the precise and rigid rules of formal logic, lead to significant discrepancies in the interpretation of logical connectives. Connectives such as “and,” “or,” and “or else” in everyday discourse often diverge from their formal logical meanings, resulting in semantic ambiguity and communicative misunderstandings. Within the scope of the study, the nature of these discrepancies is examined, the mechanisms behind misinterpretations are explored through everyday language examples, and the interaction between natural language and formal logic is analytically explained. At the same time, the importance of accurate interpretation of logical connectives for linguistic clarity and communicative effectiveness is substantiated. Overall, the article highlights the relationship between language and logic, drawing attention to existing theoretical and practical gaps in this field.

*Keywords:* logical connectives, disjunction, implication, semantic ambiguity, pragmatic interpretation, conversational implicature, intuitive reasoning.

*Daxil olma tarixi*: 29.04.2026-cı il.
*Çapa imzalanma tarixi*: 05.05.2026-cı il.

Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları
Studies of the Turkic World Young Researchers Association

№2(14) 2026, 86-91

UOT 930

KÖNÜL BABAZADƏ
*Bakı Dövlət Universitetinin I kurs magistrantı*
**konulbabazade36@gmail.com**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN XARİCİ SİYASƏTİ TÜRKİYƏ TƏDQİQATÇILARININ ƏSƏRLƏRİNDƏ

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Sevinc Qasımova

*Azərbaycan tarixinin ən mühüm mərhələlərindən biri olan Azərbaycan Xalq Cümhuriyyəti dövrünün xarici siyasəti, həm milli tarixşünaslıqda, həm də türk tarixçilərinin əsərlərində geniş şəkildə araşdırılmışdır. Türk tarixçilərinin əsərləri Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq münasibətlər sistemində yerini daha geniş regional kontekstdə anlamağa imkan verir. Xüsusilə Birinci Dünya müharibəsi sonrası yaranmış yeni geosiyasi şəraitdə Cümhuriyyətin xarici siyasəti yalnız yerli deyil, ümumtürk və beynəlxalq proseslərin bir hissəsi kimi təqdim olunur. Türk müəllifləri bu hadisələri yalnız hərbi deyil, həm də diplomatik və strateji əməkdaşlıq nümunəsi kimi qiymətləndirirlər. Bu isə Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətinin əsas prioritetlərini – təhlükəsizlik, müstəqilliyin qorunması və beynəlxalq tanınma səylərini daha aydın göstərir. Digər yandan, Cümhuriyyətin diplomatik fəaliyyəti, xüsusilə Avropa dövlətləri ilə münasibətləri və sülh konfranslarında iştirakı diqqət mərkəzindədir. Məsələn, Paris Sülh Konfransı çərçivəsində Azərbaycan nümayəndə heyətinin fəaliyyəti türk tarixçiləri tərəfindən geniş şəkildə təhlil olunur. Bu tədqiqatlar yeni yaranmış dövlətin beynəlxalq hüququn subyekti kimi tanınmaq uğrunda apardığı mübarizəni daha dərindən başa düşməyə kömək edir.Bundan əlavə, türk tarixçilərinin əsərləri mənbə baxımından da zəngindir. Onlar Osmanlı arxiv sənədlərinə, diplomatik yazışmalara və dövrün mətbuat materiallarına əsaslanaraq daha geniş faktoloji baza təqdim edirlər. Bu isə Azərbaycan tarixçiləri üçün əlavə elmi material və müqayisəli analiz imkanı yaradır. Bu tədqiqatlar Azərbaycan və Türkiyə arasında ortaq tarixi yaddaşın formalaşmasına xidmət edir. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətinin türk tarixçiləri tərəfindən öyrənilməsi iki xalq arasında siyasi, mədəni və tarixi bağların daha da möhkəmlənməsinə töhfə verir. Bu baxımdan, türk tarixşünaslığı yalnız elmi deyil, həm də ideoloji və strateji əhəmiyyət kəsb edir.*

*Açar sözlər:* Azərbaycan Xalq Cümhuriyyəti, Hüseyin Baykara, Akdes Nimet Kurat, Mehmet Saray, Nilgün Erdaş, Ömer Özcan.

***Giriş.*** Azərbaycan tarixinin mühüm mərhələlərindən biri olan Azərbaycan Xalq Cümhuriyyətinin və onun xarici siyasəti ilə bağlı türk tarixçilərinin əsərlərinin araşdırılması həm bəhs edilən dövrdə Azərbaycan-Türkiyə əlaqələrinin öyrənilməsi, həm də Azərbaycanın öz müstəqilliyini dünyaya tanıtmaq üçün apardığı mübarizəni təhlil etmək üçün əhəmiyyətlidir. Şübhəsiz, müasir Azərbaycan tarixçilərinin Cümhuriyyət tarixi ilə bağlı yazdığı əsərlər sırasında türk tarixçilərinin əsərləri geniş yer tutur. Əksər əsərlərdə Qafqazdakı ümumi vəziyyət təsvir edilsə də,Azərbaycanın bəhs edilən dövrdə apardığı mübarizəni analiz etmək üçün kifayət qədər məlumat verir.

***Hüseyn Baykaranın tədqiqatları.*** Müəllifin "Azerbaycan İstiklal mücadelesi tarihi" əsəri Azərbaycan Xalq Cümhuriyyəti tarixi, o cümlədən dövlətin yaranması ərəfəsində olan vəziyyət, Azərbaycan Xalq Cūmhuriyyəti yarandıqdan sonra dünya dövlətləri ilə münasibətləri və s. kimi məsələləri anlamaqda kömək edir. Əsərin 37-43-cü bölmələrində Azərbaycanın müstəqilliyinin elanı məsələsi araşdırılıb. Müəllifə görə,bolşeviklərin hakimiyyəti ələ keçirməsindən sonra Azərbaycanda azadlıq hərəkatı xüsusi mərhələyə qədəm qoymuşdu. Tarixçi həm də seçkilər zamanı Müsavat partiyasının 75%-ə çatan səs çoxluğunu xüsusilə vurğulamışdır. Yeni cümhuriyyət qurulduqdan sonra Osmanlı dövləti özü də çətin şəraitdə olmasına baxmayaraq Azərbaycana iki qrup halında əsgəri yardım göndərmişdir. Əsərdə bu mövzuya toxunulmaqla, türk əsgərlərinin böyük sevinclə qarşılandığını xüsusi ola-

raq vurğulanır. Bunlara baxmayaraq,müəllif bu hərbi yardıma Türkiyədəki münasibətlə bağlı iki xatirəyə istinad etməklə məsələni araşdırmışdır: İsmət İnönünün xatirələrinin yer aldığı "Akis" jurnalında və Fahrettin Altayın "Hayat" jurnalında 1918-ci ildə Osmanlı ordusunun Azərbaycana səfərini "macəra" olaraq adlandırmaları Azərbaycanda birmənalı qarşılanmamışdır. Müəllif bu münasibəti sorğulayaraq bildirir ki, görəsən, Birinci Dünya müharibəsinin yekunlaşdığı aylarda Azərbaycana göndərilən Osmanlı qüvvələrinə görə hansı cəbhədə, hansı döyüş uğursuz olmuşdur? [1]. Azərbaycan-Osmanlı münasibətlərindəki bəzi ziddiyyətləri diqqətə çatdıran bu hissələrə görə, Azərbaycanda bəzi qisimlər Osmanlıya ilhaq olmanın və onun bir əyaləti olmanın daha faydalı olacağını müdafiə etsələr də, digər qisim Osmanlının yardımını qəbul etsələr də, onun Azərbaycanı İstanbuldan idarə etməsinə qəti qarşı idi.

Əsərin Azərbaycan Xalq Cūmhuriyyətinin beynəlxalq aləmə nüfuz etməsi ilə bağlı hissəsində Paris Sülh konfransında Azərbaycanın təmsilçisi Mir Yaqub Mehdiyevin də olduğu bir ortamda Lord Kerzon tərəfindən Azərbaycan və Gürscüstanın müstəqilliyinin tanındığını görürük. Əsər xüsusilə 1919-cu ildə ingilislərin geri çəkilməsilə Azərbaycanın tam müstəqil bir dövlət olduğunu diqqətə çatdırır [1].

Ümumiyyətlə, əsər bizə yeni qurulan və çox qısa müddət ərzində mövcud olan Azərbaycan Xalq Cümhuriyyəti ilə daha sonra qurulacaq Türkiyə Cümhuriyyətinin əlaqələri ilə bağlı az bilinən məsələlərə toxunur. Əsər Azərbaycanın azadlıq mübarizəsinə xüsusi yer ayırsa da, I Rus inqilabı və bolşevik çevrilişinə ayrılan bölmələrin çoxluğu ilə diqqət çəkir.

***Akdes Nimet Kuratın əsərləri.*** 1917-ci ildə Cənubi Qafqazdakı Azərbaycan Xalq Cūmhuriyyətinin yaranması, Bakıdakı vəziyyət, Azərbaycan-Osmanlı əlaqələri haqqında məlumat verən başqa bir tarixçi A.N.Kuratdır. Müəllif "Türkiye ve Rusya" adlı əsərində yazır ki, Batum müzakirələrində Azərbaycan və Türkiyə arasında yaxınlıq büsbütün artmış, iki ölkə arasında bəzi gizli anlaşmalar belə əldə edilmişdi. Anlaşmanın IV maddəsinə əsasən Azərbaycan hökuməti daxildə asayişi qorumaq üçün Türkiyədən hərbi yardım ala bilərdi. Müəllif əsərin X fəslində "Doğu Anadolunun kurtuluşu ve Kafkaslar" adı altında təhlil aparıb və Bakıdakı vəziyyəti ayrıca bölmədə araşdırb [4].

***Mehmet Sarayın tədqiqatları.*** Azərbaycan Xalq Cümhuriyyətinin tarixi haqqında yazan çağdaş türk tarixçilər sırasında Mehmet Sarayın adı qeyd edilməlidir. Tarixçi "Quzey və Güney Azərbaycan türklərinin tarixi" əsərində Azərbaycan türklərinin bütöv tarixini oxucuya çatdırır. Əsərdə Azərbaycan tarixinin ayrı-ayrı dövrləri haqqında məlumat verən müəllif yazır: "Bu gün otuz milyonu aşan Türk nüfusunun yaşadığı Kuzey Azerbaycan ve Güney Azerbaycan hakkında Türkiyede doğru dürüst ilmi bir araştırma yapılmamıştır. Eskiden yazılan üç ilmi makale vardı ki,bunlardan ikisi rahmetli hocam A.Z.Toğan,diğeri de rahmetli F.Sümer'e ait olup,Azerbaycanın türkleşmesi devrini anlatmaktadırlar. İşte bu boşluğu doldurmak üzere,burada,kardeş Azerbaycanın dramatik tarihi hakkında ana hatları ile bilgi vermeye çalıştık" [5, s.7].

Müəllif Azərbaycan Xalq Cümhuriyyəti haqqında əsərin 25-ci fəslində məlumat vermişdir. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti ilə bağlı daha çox bolşevik-erməni ittifaqına, o cümlədən ingilis işğalına qarşı Türkiyədə yardım alması məsələsinə toxunulmuşdur. Müəllif Azərbaycanın xarici işlər naziri M.Hacınskinin, eləcə də Milli Şuranın sədri M.Ə.Rəsulzadənin müraciətini oxucuya təqdim etmiş,bundan sonra Türkiyənin təxminən 8500 nəfərlik qüvvəsinin Azərbaycana göndərildiyini və Nuru paşanın komandanlıq etdiyi türk ordusunun köməyi ilə Bakının azad edildiyini vurğulayır [5, s.282].

Mehmet Saray Azərbaycan hökümətinin təkcə Osmanlı ilə münasibətləri ilə kifayətlənməmiş, ingilis işğalı dövrü və ingilislərin geri çəkilməsindən sonra kommunistlərin hücumlarının artmasını təsvir etmiş, bu əlverişsiz şəraitdə gürcülərlə birlikdə Azərbaycan siyasi xadimlərinin İstanbula, daha sonra Paris Sülh Konfransına yollandıqlarını qeyd etmişdir. Düzdür, müəllif Paris Sülh Konfransı haqqında geniş məlumat verməsə də, bu addımın Azərbaycan üçün əhəmiyyətini xüsusi olaraq qeyd etmişdir: "Ali Merdan Topçubaşı başkanlığındaki Azerbaycan heyeti ile Gürcistan heyeti Pariste toplanan milletlerarası kongrede ingiliz, alman, fransız ve amerikan heyetleri ile 12 ocak 1920'de Azerbaycan ve Gürcistan'ın istiklallerinin tanınacağı müjdesini almışlardır" [5, s.285].

Qısa ümumiləşdirmə aparsaq, Mehmet Saray Azərbaycan Xalq Cümhuriyyətinin daha çox Osmanlı ilə əlaqələrinə, o cümlədən bolşevik-erməni ittifaqı və ingilis dövrünə daha çox yer vermişdir.

Nəzərə alsaq ki, "Quzey və Guney Azərbaycan türklərinin tarixi" əsəri ikiyə bölünmüş Azərbaycan xalqının tarixini ən qədim zamanlardan XX əsrin əvvələrinə kimi təsvir edir, onda Xalq Cümhuriyyətinin xarici siyasəti ilə bağlı qısa,ümumi bir baxış əks etdirməsi təəccüb doğurmamalıdır.

***Nilgün (Akgül) Erdaşın tədqiqatları.*** Nilgün Erdaş Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı konkret bir bölmə yazmamış, XIX əsrin əvvələrində Qafqazda müstəqillik əldə edən dövlətlər haqqında, yəni ümumi "Qafqaz" adı ilə tədqiqatlar aparmışdır. Bununla belə, onun "Milli mücadele döneminde Kafkas Cümhuriyyetleri ile ilişkiler (1917-1920)" əsəri Azərbaycan Xalq Cümhuriyyətini, xüsusilə Türkiyə ilə əlaqələrini öyrənmək baxımından əhəmiyyətlidir.

Əsərin "Birinci Dünya Harbi döneminde doğu Anadolu ve Kafkaslar" adlı 1-ci fəslində Azərbaycanın Türkiyə ilə münasibətləri "Türk ileri harekatı ve Kafkaslar" adı ilə oxucuya təqdim olunmuşdur. Müəllif Azərbaycan ilə Türkiyə arasındakı əlaqələrin Batum görüşlərində daha da artdığını qeyd edir. Həmçinin Türkiyə,Gürcüstan və Azərbaycan arasında "Petrol Anlaşması" imzalandığını da vurğulayır. Müqaviləyə əsasən neftın Bakıdan Batuma çatdırılması nəzərdə tutulurdu [3, s.30].

Digər türk tarixçiləri kimi N.A.Erdaş da Bakının azad edilməsi planlarının əslində 1877-1878-ci illərdən sonra hazırlanındığını bildirir: "Nisan sonlarında türk askeri birlikleri 1877-1878 yılı sınıra ulaştıkları zaman gerekirse, Azerbaycanı bolşevik işgalinden kurtarmak için harakete geçmeleri mümkündü. Özellikle Bakü'nün zengin petrol kaynaklarına sahip olması böyle bir harekatı mecbur kılacaktır". A.Nimet Kurata görə isə Bakının türk qüvvələri tərəfindən azad edilməsinə nə zaman qərar verilməsi müəyyən edilməmişdir [3, s.37].

N.Erdaş əsərində həm də Azərbaycan heyətinin İstanbula səfəri,burada Ə.Ağaoğlu ilə görüşləri ətraflı şəkildə təsvir edilmişdir. Nuru paşa komandalığında türk qüvvələrinin Bakını azad etməsini ətraflı şəkildə təqdim edib.

***Nasir Yüceerin tədqiqatları.*** Azərbaycan Xalq Cümhuriyyəti,onun Türkiyə ilə əlaqələri, habelə xarici siyasəti ilə bağlı məlumat verən digər mühüm əsər Nasir Yüceerin "Birinci Dünya Savaş'nda Osmanlı ordusunun Azerbaycan ve Dağıstan Harekatı, Azerbaycan ve Dağıstanîn'ın bağımsızlığını kazanması (1918)" adlı əsəridir. Çoxsaylı arxiv sənədləri, eləcə də Azərbaycan və Dağıstanın azadlıq mübarizəsinə qatılan komandanların xatirələrindən istifadə olunaraq yazılan "əlavələr" hissəsi xaric olmaqla 186 səhifədən ibarətdir. Əsərin sonunda Bakının azad olunmasında fədakarlıq və qəhrəmanlıq göstərən komandanların siyahısı verilmişdir. Əsərin əvvəlində Qafqaz İslam Ordusunun Azərbaycan və Dağıstan hərəkatının bəzi əsərlərdə ümumi olaraq ələ alınmasına baxmayaraq bu mövzuya dair xüsusi bir araşdırmaya rast gəlinmədiyini bildirir. Bu səbəblə əsərdə hərəkat ətraflı şəkildə təhlil edilmişdir [2].

Əsər 3 bölmə üzərində yazılmışdır. Birinci bölmədə Qafqazın ümumi vəziyyəti, Almaniya, İngiltərə və Rusiyanın izlədikləri Azərbaycak siyasəti qiymətləndirilmişdir. Həmin dövrdə Türkiyənin müttəfiqi olan Almaniyanın belə dəstək verməməsi, türk ordusunun Bakıya irəliləyişini siyasi yollarla dayandırmağa çalışdığı əks olunur. İkinci bölmədə Bakının azad olunmasına qədərki hadisələr qeyd olunmuşdur. Üçüncü bölmədə isə Mudros müqaviləsindən sonra Qafqazı tərk etməli olan bəzi türk əsgərlərinin Azərbaycanda qalmaq üçün cəhdlərini,lakin ingilis təzyiqi səbəbindən nəticəsiz qaldığını oxucuya çatdırır [2, s.91].

Əsər, ümumiyyətlə, həm dünyanın ən həssas bölgələrindən biri sayılan Qafqaz üzərində böyük dövlətlərin izlədikləri siyasətin daha aydın başa düşülməsi,həm Xalq Cümhuriyyəti dövründə Azərbaycan-Osmanlı münasibətlərini araşdırmaq üçün mühüm əhəmiyyətə malikdir.

***Ömer Özcanın tədqiqatları.*** Azərbaycan Xalq Cümhuriyyəti və onun xarici siyasəti haqqında məlumat əldə edəcəyimiz təqdqiqatların bir qismi məhz çağdaş türk tarixçilərindən Ömer Özcana aiddir. Müəllif Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı çoxsaylı əsərlərin sahibidir. Ömer Özcan öz tədqiqatlarında Cümhuriyyət dövrünün görkəmli siyasi xadimləri,xüsusilə Mir Yaqub Mehdiyev,onun Cənubi Qafqaz Seymində siyasi fəaliyyəti, Azərbaycan müstəqillik əldə etdikdən sonrakı fəaliyyəti, Paris Sülh Konfransında iştirakı, Türkiyədəki həyatı, siyasi mühacirəti kimi həyatının müxtəlif mərhələləri haqqında məlumat verir. Şübhəsiz, müəllifin tədqiqatları, xüsusilə Paris Sülh Konfransı ilə bağlı məlumatları Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətini öyrənmək baxımından əhəmiyyətlidir [6].

Müəllif Paris Sülh Konfransında Azərbaycanın iştirakı və bu yolda qarşılaşdığı problemləri təhlil etmişdir. Azərbaycan nümayəndə heyəti Ə.Topçubaşovun rəhbərliyi ilə 20 yanvar 1919-cu ildə İstan-

bula gəldilər. 22 yanvar tarixində Pera Palasda Topçubaşovun otağında keçirilən toplantıda heyət üzvləri arasında vəzifə bölgüsü edildi və M.Y.Mehdiyevə maliyyə məsələləri həvalə edilir. Müəllif həmçinin bildirir ki, İstanbuldakı işğalçı qüvvələrin Fransa vizası verməkdə çətinliklər yaratdığı üçün Azərbaycan nümayəndə heyəti İstanbulu yanlız 22 apreldə tərk edə bildilər, 7 mayda Parisə çatdılar,nəhayət 12 maydan etibarən fəaliyyətə başladılar. Müəllif heyətin göstərdiyi səyləri,nəşr etdirdikləri risalələrlə Azərbaycanın Qafqaz ölkələri, xüsusilə Ermənistanla münasibətləri digər dövlətlərə çatdırmaq cəhdlərini ətraflı şəkildə təqdim edir. Heyətin ilk uğuru ABŞ prezidendi V.Vilson tərəfindən 28 may 1919-cu ildə qəbul edilməsi olmuş, çoxsaylı səylər nəticəsində 11 yanvar 1920-ci ildə Azərbaycan və Gürcüstanın müstəqilliyi de-fakto tanınmışdır [7, s.232].

Qeyd etdiyimiz kimi, Ömer Özcan M.Y.Mehdiyevin Azərbaycanın xarici siyasətindəki rolunu xüsusilə vurğulamışdır. Ə.Topçubaşov və M.Y.Mehdiyev 24 fevralda Londona getmişdir. Azərbaycan hökuməti Ə.Topçubaşova İngilis hökuməti ilə görüşmək səlahiyyəti vermişdir. Londonda Savoy Hotelində 13 mart 1920-ci ildə Ankara hökumətinin Xariciyyə naziri Bəkir Sami bəy, Ə.Topçubaşov və M.Y.Mehdiyev görüşmüşlər. Ə.Topçubaşov Bəkir Sami bəy və Ankara hökumətindən Gürcüstanla yaxın münasibətlər qurulmasını tələb etmişdir. London Konfransında yeni tanınan dövlətlərə Sovet Rusiyası ilə normal münasibətlər qurmaq tövsiyə edilmişdi. M.Y.Mehdiyev 1922-ci ildə Londonda bir müddət heyətin təmsilci vəkili vəzifəsində olmuş, İngiltərə Xarici İşlər Nazirliyi ilə görüşlərdə iştirak etmişdir. Ömer Özcanın bu məlumatları Azərbaycanın İngiltərə ilə əlaqələrini də təhlil etmək baxımından qiymətlidir [7, s.232].

Ömer Özcanın tədqiqatları Azərbaycanın Millətlər Cəmiyyətinə ūzv qəbul edilmək üçün atdığı addımları təhlil etmək üçün də əhəmiyyətlidir. Müəllif qeyd edir ki, Azərbaycan Xalq Cümhuriyyətinin növbəti məqsədi yeni qurulan Millətlər Cəmiyyətinə üzv qəbul olmaq idi. Azərbaycan hökuməti 26 mart 1920-ci ildə Ə.Topçubaşov, M.Y.Mehdiyev, Ə.Şeyxülislamov, M.Məhərəmov və C.Hacıbəyliyə Millətlər Cəmiyyətinə üzv olmaq, Avropa ölkələri ilə siyasi, iqtisadi və maliyyə məsələləri ilə bağlı görüşlər keçirmək, Cümhuriyyəti Avropa dövlətləri ilə təşkil olunacaq görüşlərdə təmsil etmək göstərişlərini vermişdir. Müəllif yazır ki, bundan sonra Ə.Topçubaşov 1 noyabr 1920-ci ildə Millətlər Cəmiyyətinə üzvlüklə bağlı müraciətinin Cenevrədə 15 noyabr 1920-ci ildə müzakirə ediləcəyi toplantıya M.Y.Mehdiyev də qatılmaq istəmiş, lakin Cəmiyyət həm M.Y.Mehdiyevin iştirak istəyini, həm də heyətin hazırladığı memorandumu diqqətə almayıb, Azərbaycanın müraciətini rədd etmişdir. Ömer Özcan Cümhuriyyətik süqutundan sonra da M.Y.Mehdiyevin mūhacirətdəki fəaliyyətini ətraflı şəkildə tədqiq etmişdir [7, s.232].

M.Y.Mehdiyevin Azərbaycanın xarici siyasətindəki rolunu qiymətləndirən türk tarixçilərindən biri də Yunu Emre Tekinsoydur. Y.E.Tekinsoy da M.Y.Mehdiyevin Paris Sūlh Konfransında Azərbaycanın təmsilçilərindən olması, Cümhuriyyətin süqutundan sonra mühacirəti, M.Məhərrəmovla birlikdə Genuya və Lahey konfranslarında iştirakı məsələsində toxunmuşdur. Lakin tarixçinin əsas işıqlandırdığı sahə Bakı nefti və onun beynəxalq əhəmiyyəti ilə bağlı M.Y.Mehdiyevin verdiyi məlumatları təhlil etmək olmuşdur. Tədqiqatçı bildirir ki, M.Y.Mehdiyevin qələmə aldığı üç vacib əsər vardır: "Beynəlxalq siyasətdə neft" (1928, İstanbul),"Qafqaz məsələsi" ("Le Probleme du Caucase", 1933, Paris) və "Beynəlxalq vəziyyət və Sovetlərdə millilyyət məsələsi" (1933, Parisdə rus dilində nəşr olunub) [8].

***Nəticə.*** Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətinə dair Hüseyn Baykara, Mehmet Saray, Nilgün Erdaş, Nasir Yüceer və Ömer Özcan kimi türk tarixçilərinin əsərləri əsasında aparılan təhlil göstərir ki, bu dövrün diplomatik fəaliyyəti yalnız qısaömürlü bir dövlətin siyasəti deyil, həm də müasir Azərbaycanın xarici siyasət kursunun ideya və təcrübə mənbəyidir. Müəlliflərin yanaşmaları müxtəlif olsa da, onların ümumi qənaəti ondan ibarətdir ki, Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti mürəkkəb beynəlxalq şəraitdə milli maraqların qorunmasına yönəlmiş çoxşaxəli diplomatik xətt kimi formalaşmışdır. Araşdırmalar göstərir ki, Azərbaycan hökuməti beynəlxalq tanınma əldə etmək, ərazi bütövlüyünü qorumaq və təhlükəsizliyini təmin etmək məqsədilə həm region dövlətləri, həm də böyük gücələrlə balanslaşdırılmış münasibətlər qurmağa çalışmışdır. Xüsusilə Paris Sülh Konfransında iştirak və diplomatik nümayəndəliklərin yaradılması bu siyasətin əsas istiqamətlərindən biri kimi dəyərləndirilir. Bunu daha aydın şəkildə Ömer Özcanın tədqiqatlarında müşahidə edirik. Türk tarixçiləri bu fəaliyyəti yalnız siyasi təşəbbüs deyil, həm də milli dövlətçilik ideyasının beynəlxalq müstəvidə təsdiqi

kimi qiymətləndirirlər. Eyni zamanda qeyd olunur ki, Cümhuriyyətin xarici siyasəti ciddi məhdudiyyətlərlə üzləşmişdir. Buna baxmayaraq, qısa müddət ərzində əldə edilən diplomatik nailiyyətlər, xüsusilə beynəlxalq aləmdə tanınma istiqamətində atılan addımlar, dövlətin siyasi iradəsinin və diplomatik potensialının göstəricisi kimi çıxış edir. Ümumiyyətlə, türk tarixçilərinin əsərlərində Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti həm tarixi təcrübə, həm də müasir dövr üçün aktual dərslər toplusu kimi təqdim olunur.

ƏDƏBİYYAT

1. Azerbaycan istiklal mücadelesi. - https://share.google/tL9J9pOafi9KZp1Po [29.04.2026].
2. Serkan Yıldırır. "Yüceer N. Birinci Dünya Savaşı'nda Osmanlı ordusunun Azerbaycan ve Dağıstan'ın bağımsızlığını kazanması. 1918. Ankara, Genelkurmay Basımevi, 1996" // Askeri Tarih Araştırmaları Dergisi, Yıl: 2019, Cilt: 17, Sayı: 31, s.89-94. -
https://dergipark.org.tr/tr/pub/askeritarih/article/745403 [29.04.2026].
3. Erdaş (Akgül) N. Milli mücadele döneminde Kafkas Cümhuriyetleri ile ilişkiler (1917-1921). Ankara, Genelkurmay Basimevi, 1994, 161 s.
4. Kurat A.Nimet. Türkiye ve Rusya: XVIII. Yüzyıl sonundan Kurtuluş Savaşına kadar Türk-Rus ilişkileri (1798-1919). Ankara, Ankara Üniversitesi Basımevi, 1970, 755 s.
5. Mehmet Saray. Quzey və Güney Azərbaycan türklərinin tarixi. Bakı, "Şərq-Qərb", 2010, 724 s.
6. Mir Yakub Mehdiyev'e Göre Uluslararası Siyasette Petrol ve Azerbaycan Petrolleri" / I. Milletlerarası Türkiye-Azerbaycan Münasebetleri Sempozyumu. Kastamonu, Kastamonu Üniversitesi Yayınları, 2016, s.233-245. - https://share.google/3h72U9EdDwN6GDRFK [29.04.2026].
7. Ömer Özcan. Azerbaycan siyasi önderlerinden Mir Yakup Mehdiyev // Известия НАН Азербайджана. Серия Общественный наук, 2018, №1, с.230-245. –
https://anl.az/down/meqale/amea_ieseriyasi/2018/01/767837(meqale).pdf [29.04.2026].
8. Serdar Oğuzhan Çaycıoğlu. Tarihçi Ömer Özcan Ve Türk Dünyası Tarihi Hakkındaki Yazılarının İncelenmesi // Genel Türk Tarihi Araştırmaları Dergisi, Cilt: 4, Sayı: 7, Ocak 2022, s.399-412. -
https://share.google/mneb3AheRoX6Dyglt [29.04.2026].

**KONUL BABAZADE**
*1st year master student of Baku State University*

## THE FOREIGN POLICY OF THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC IN THE WORKS OF TURKISH SCHOLARS

One of the most important stages in the history of Azerbaijan, the foreign policy of the Azerbaijan Democratic Republic, has been extensively studied both in national historiography and in the works of Turkish historians. The studies of Turkish historians make it possible to understand the place of the Azerbaijan Democratic Republic within the system of international relations in a broader regional context. In particular, within the new geopolitical environment that emerged after World War I, the foreign policy of the Republic is presented not only as a local phenomenon but also as a part of broader Turkic and international processes.Turkish scholars evaluate these developments not only as military events but also as examples of diplomatic and strategic cooperation. This approach highlights the main priorities of the Azerbaijan Democratic Republic's foreign policy - security, preservation of independence, and efforts toward international recognition - more clearly. At the same time, the Republic's diplomatic activities, especially its relations with European states and its participation in peace conferences, remain at the center of attention. For instance, the activities of the Azerbaijani delegation within the framework of the Paris Peace Conference are widely analyzed by Turkish historians. These studies help to better understand the struggle of the newly established state to be recognized as a subject of international law. In addition, the works of Turkish historians are also rich in terms of sources. Relying

on Ottoman archival documents, diplomatic correspondence, and contemporary press materials, they provide a broader factual base. This, in turn, offers Azerbaijani historians additional scholarly material and opportunities for comparative analysis. Such research contributes to the formation of a shared historical memory between Azerbaijan and Turkey. The study of the foreign policy of the Azerbaijan Democratic Republic by Turkish historians strengthens political, cultural, and historical ties between the two nations. In this respect, Turkish historiography carries not only academic but also ideological and strategic significance.

*Keywords:* Azerbaijan Democratic Republic, Hüseyin Baykara, Akdes Nimet Kurat, Mehmet Saray, Nilgün Erdaş, Ömer Özcan.

*Daxil olma tarixi*: 29.04.2026-cı il.
*Çapa imzalanma tarixi*: 05.05.2026-cı il.

UOT 94; UOT 94(479.24)

**KHEYRULLA ISMAYILOV**
*Baku State University*
*2nd year master student majoring in Historiy of the middle ages*
**Xeyrullaismayilov2003@gmail.com**

# FATIH SULTAN MEHMED'S EASTERN POLICY: IDEOLOGICAL AND MILITARY STRATEGIES TOWARDS AZERBAIJAN

*Scientific supervisor:*
PhD in history Rovshan Muganlinski

*This thesis examines Fatih Sultan Mehmed's Eastern policy and how this policy was implemented towards Azerbaijan. As the Ottoman state grew stronger in the 15th century, its interest in the East increased. Azerbaijan was an important territory at that time both in terms of control over trade routes and its political position. The thesis simply explains the relations between the Ottomans and the Agqoyunlu state, the confrontation with Uzun Hasan, and the Battle of Otlukbeli. The analysis shows that this policy led to the strengthening of the Ottoman state's position in the East.*

*Keywords:* Ottoman Empire, Fatih Sultan Mehmed, Azerbaijan, Aghqoyunlu, Uzun Hasan, Eastern policy.

***Introduction***. When we look at the 15th century, we do see the huge geopolitical leaps of the Ottomans. During this period, the state apparatus was not only involved in the acquisition of territories, but also in the consolidation of political and military resources. Upon his return to the throne in 1451, Mehmed II, from the age of 19, began to work diligently to strengthen the state's new pillars and bring the Ottoman Empire to the peak of its power. After the death of his father, Murad II (1451), While in Manisa, Mehmed II was informed of his father's death by a letter from Çandarlı Halil Pasha, stating that he must return to the capital to ascend the Ottoman throne [5, pp.1-5]. Thus, a new chapter was opened in the history of the Ottoman Empire. Mehmet II, by first fortifying the Rumeli Fortress, had deprived the Byzantine Empire - which consisted only of Constantinople and its surroundings - of the Black Sea trade route. The conquest of Constantinople, along with the fall of Byzantium, laid the foundation for a new era. With this, the Ottoman state became an "empire of fear," full of threats for Europe [5, pp.12-18]. Fatih Sultan Mehmet is known as an Ottoman sultan known for his reformist ideas. Essentially, the position the Empire took after the conquest of Constantinople should be noted as the beginning of a new era in Europe and the East. In particular, the conquest of Constantinople led to the emergence of a new center of power in the world. During this period, Mehmed II adopted and shaped the "Cahanşümül" ideology, a new ideology for the empire. This term can be understood as "Universal," encompassing the world. According to this ideology, Mehmed saw himself not only as the Sultan of the mighty Ottoman Empire and the ruler of Islam, but also as the heir to the Roman Empire. In this regard, the first pillar of his ideology was his self-proclamation as "Caesar of Rome." After the death of Murad II, European circles did not consider Mehmed II, who returned to the throne at the age of 19, a serious threat. The main reason for this was that Europeans regarded him as a young and incompetent sultan. However, this European view was shattered in a short time. Along with the European powers, the Ottoman Empire's neighbors were unaware of the new policy line that Mehmed II would pursue. And this increasingly murky situation would soon reveal its consequences. Furthermore, Mehmed II, who chose establishing a new world order as his point of reference, also adopted continuing Islamic leadership as a new goal. Becoming the unified leader of the Islamic world can be considered one of Mehmed II's objectives. Continuing in this context, we can see how the Ottoman state's foreign policy continued its aggressive policy in a fascinating way during his reign. If we look at the period before Mehmed in Ottoman foreign poli-

cy, we can see that Ottoman sultans considered Azerbaijan to be within their sphere of interest. Although Ottoman-Qara Qoyunlu relations before the reign of Fatih Sultan Mehmet were, in short, friendly relations based on the parties' struggle against a common enemy, the Ottoman state initially sought to protect itself not from the Qara Qoyunlu, but from the threat of the Timurid state of Anatolia. Despite the occurrence of certain problems, these two states preserved their friendly relations, and beginning during the reign of Murad II, relations between them deepened. This tradition deepened further during the reign of Mehmed II, and relations with Jahan Shah of the Black Sheep Turks were strengthened compared to previous periods. According to M.H.Yınanç, the Ottoman Sultan Mehmed II addressed Jahan Shah as “Father” in their correspondence, and Jahan Shah responded with “my son” [6, p.120]. This can be shown as a symbol of how much the relations between these two states had developed.

Despite the successes he achieved as a military commander, Jahanshah also secured his place in history as one of the most successful politicians in the region. Aware that the Ottoman state was known for its aggressiveness in its eastern policy, he maintained very positive relations with it. We can primarily see this beginning during the reign of Murad II. When the Ottoman sultan successfully returned from his campaign in Hungary, he also informed Jahan Shah about it.

The formation of relations between the two states in the period before Mehmed II was also largely influenced by the concept of a “common enemy.” The course of these events also makes the Ottoman state’s policy toward the territories of Azerbaijan seriously apparent. In relations with the Kara Koyunlu state, the Tamerlane threat initially played a role, but this danger later subsided, and relations between the two states developed extensively. As a result, during Jahan Shah’s reign, the relationship with Sultan Mehmed II played a significant role for the Ottoman state. However, the struggle against the Ak Koyunlu state, which was among their common enemies, did not yield the desired results. The Ottoman and Karakoyunlu states may not have anticipated the serious problem that Uzun Hasan could pose. As a result, on November 10, 1467, Uzun Hasan defeated Jahan Shah in a decisive battle. Jahan Shah was killed. Soon after, the remaining araqoyunlu forces, led by Hasan Ali, were also decisively defeated, and the Karakoyunlu state came to an end.

The reign of Mehmed II (Fatih) was a time in which Ottoman diplomacy was vigorous on the east-west axis of the territory of the Ottoman State [4, p.45-50]. The scientific interest of this issue is in the fact that the eastward movement of the empire is of not only a military and expansionist nature, but also deep ideological and strategic components were hidden within that movement. Therefore, tracing the traces of this policy in Azerbaijan is of fundamental significance to understand the historical development of this region; and during that period, Azerbaijan, which was a corridor running between the east-west transit, also became the area of conflict of interests between major powers. The method of obtaining economic and political power was by controlling this region. Uzun Hasan was the leader of Aggoyunlu state and he was one of the few leaders who could change the balance of the region and that formed a competitive environment for the Ottoman court. The two empires were engaged in war because of this contention. The audit of the relations between Fatih Sultan Mehmed's eastern policy and Azerbaijan should be thorough to provide the historical facts and the strategic significance of the area.

***Ideological model of Fatih Sultan Mehmed: (Eastern) objectives.*** Basically, it would be wrong to view Fatih Sultan Mehmed's policy through the lens of "land grabbing." On the contrary, he was trying to create a comprehensive, and as I mentioned before, a "global" ideological model of the empire.

Mehmed's conquest of Istanbul did not only secure a city for him but also provided him with an opportunity to declare himself as the "joint heir" of both the Roman and Islamic worlds.

The relationship between the Ottoman Empire and the Aq Koyunlu state became Strained due to several reasons, including their desire to expand their territories and their Competition for control over the region as well as the difference in their ideologies. The Aq Koyunlu under the leadership of Uzun Hasan were among the few armies in the region That could confront the growing Ottoman Empire, particularly in the eastern Anatolia and Caucasus region. The Aq Koyunlu tried to stop the

Ottomans from further expanding their Control after Mehmed II established his control over most of Anatolia aiming to keep their own territories secure. The simultaneous attempts at fostering good relations and the increasing strength of both countries paradoxically worsened their relationship.

The major causes of the conflict were primarily territorial. Both the Ottomans and Aq Koyunlu aimed to establish dominance over several key areas, such as Black Sea Coastal area, Caucasus region, and Eastern Anatolia) which served important strategic Purposes militarily and represented major economic centers because they controlled the main trading routes.

Azerbaijan was chosen as the focus of Fatih's campaign toward the "East" for a reason. The ultimate key to the "East" in terms of the "Islamic world" was Azerbaijan. In addition to opposing Fatih's kingdom, the Ag Qoyunlu state constituted an extremely significant "political matter" that would ultimately undermine the legitimacy of Fatih's rule. In the way he used both ideology and force, Mehmed, who was the master of the double fronts, was able to defend his opponents' positions against their will.

In the 15th century Azerbaijan was like a large chess board. the Ag Qoyunlu ruler Uzun Hasan He was unlike any leader in the area, he was the "only force" with the power to change the situation." Initially, the Ottomans and Ag Qoyunlu did not have an antagonistic relationship, but one of covert rivalry. However, that would change as Uzun Hasan established diplomatic relations with Europe [3, p.17-20].

This was no longer an ordinary border dispute; it was a secret war waged by the two states for "existence". Uzun Hasan saw Ottoman expansion as a threat to his statehood, while Fatih sought to eradicate this threat. Thus, as economic and political interests clashed, the parties had no choice but to engage in military conflict.

***Otlukbeli: A military turning point***. We would probably not be wrong if we called the Otlukbeli clash of 1473 the "high-tech war" of the era. The discipline and artillery in Fatih Sultan Mehmed's army created an advantage that seemed almost "impossible" for that time. Uzun Hasan's traditional cavalry units, however, were unable to offer any serious resistance to this new military tactic the Ottoman cannons and regular infantry. The result of the battle was not a single military defeat; it meant a complete change in the political reality in the region. The Aghqoyunlu state could not recover from this heavy blow, and Azerbaijan inevitably began to enter the political orbit of the Ottoman Empire [1, p.123-126].

***Conclusion***. Based on the historical facts analyzed above, it can be concluded that Fatih Sultan Mehmed's policy towards the East was not a product of chaos or coincidence, but an integral part of the empire's long-term strategic concept. This process was not just a desire to gain territory, but a process of self-affirmation of the state in both ideological and geopolitical terms. However, the Otlukbeli clash in 1473 demonstrated the absolute superiority of military technology and the regular army structure over traditional cavalry forces. As a result, Fatih Sultan Mehmed's Eastern policy accelerated the process of the Ottoman state's transformation into a world power. The military and political superiority gained in the direction of Azerbaijan further expanded the empire's sphere of influence in the region, formalizing its position as the leading power in the East in the coming decades. This is one of the most striking historical examples of how an empire "systematically expanded" its borders [3, p.16-20].

## REFERENCES

1. Emecen, F.M. Fatih Sultan Mehmed ve dönemi (3-cü nəşr). İstanbul, Kronik Kitap, 2020, 528 s.
2. İnalcık, H. Fatih devri üzerinde tetkikler ve vesikalar. Ankara, Türk Tarih Kurumu Yayınları, 2018, 384 s.
3. Kafadar, C. Kendine ait bir Roma: Diyar-ı Rum'da kültürel coğrafya ve kimlik üzerine. İstanbul: Metis Yayınları, 2017, 208 s.
4. Mustafazadə, T. Azərbaycanın XVIII əsr XIX əsrin əvvəlləri tarixşünaslığı. Bakı, Elm və Təhsil, 2016, 360 s.
5. Uzunçarşılı, İ.H. Osmanlı Tarihi. II. Cilt. Ankara, Türk Tarih Kurumu Yayınları, 1988, 718 s.

6. Yınanç, M.H. Anadolu'nun Fethi. İstanbul: İstanbul Üniversitesi Yayınları, 1944, 180 s.

**XEYRULLA İSMAYILOV**
*Bakı Dövlət Universitetinin*
*Orta əsrlər tarixi ixtisası üzrə II kurs magistrantı*

## FATİH SULTAN MEHMEDİN ŞƏRQ SİYASƏTİ: AZƏRBAYCAN İSTİQAMƏTİNDƏ İDEOLOJİ VƏ HƏRBİ STRATEGİYALAR

Məqalədə Fatih Sultan Mehmedin Şərq siyasəti və bu siyasətin Azərbaycan istiqamətində necə həyata keçirildiyi araşdırılır. XV əsrdə Osmanlı dövləti gücləndikcə onun Şərqə olan marağı daha da artmışdır. Azərbaycan həmin dövrdə həm ticarət yollarına nəzarət baxımından, həm də siyasi mövqeyinə görə mühüm ərazi idi. Tezisdə Osmanlı ilə Ağqoyunlu dövləti arasında münasibətlər, Uzun Həsən ilə qarşıdurma və Otlukbeli döyüşü sadə şəkildə izah olunur. Aparılan təhlil göstərir ki, bu siyasət Osmanlı dövlətinin Şərqdə mövqeyinin möhkəmlənməsinə səbəb olmuşdur.

*Açar sözlər:* Osmanlı dövləti, Fatih Sultan Mehmed, Azərbaycan, Ağqoyunlular, Uzun Həsən, Şərq siyasəti.

*Daxil olma tarixi*: 28.04.2026-cı il.
*Çapa imzalanma tarixi*: 05.05.2026-cı il.

**Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları**
**Studies of the Turkic World Young Researchers Association**

**№2(14) 2026, 96-102**

**UOT 94**

**QƏZƏNFƏR MƏHƏRRƏMOV**
*Bakı Dövlət Universiteti "Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi" kafedrasının II kurs magistrantı*
**gazanfar.maharram90@gmail.com**

# LORD BALFURUN BƏYANNAMƏSİ (1917) BÖYÜK BRİTANİYANIN OSMANLI İMPERİYASINA QARŞI HƏRBİ-DİPLOMATİK TƏDBİRİ KİMİ

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Rövşən Hətəmov

*Məqalədə Böyük Britaniya hökumətinin I Dünya müharibəsi illərində Osmanlı imperiyasının ərazi bütövlüyünə qarşı həyata keçirdiyi hərbi-diplomatik tədbirlərdən biri kimi 1917-ci ilin noyabrında qəbul edilmiş Balfur bəyannaməsindən bəhs edilir. Qeyd edilir ki, Böyük Britaniyanın hakim dairələrində təkcə müharibə müddətində deyil, həm də ondan sonrakı dövrdə Böyük Britaniyanın Yaxın Şərqdə siyasi-iqtisadi və strateji maraqlarının təmin edilməsinə yönəldilmiş bəyannamənin tərtib olunması və qəbulu prosesi təhlil edilir. Onun beynəlxalq münasibətlərə təsiri araşdırılır. Nəticə olaraq, məqalə belə qənaətə gəlir ki, bu sənəd təkcə regional deyil həm də qlobal səviyyədə güc balansının dəyişməsində və Osmanlı imperiyasının süqut prosesinin sürətlənməsində mühüm rol oynamışdır.*

*Açar sözlər:* Balfur bəyannaməsi, BBritaniya, Yaxın Şərq, Fələstin, Sionizm.

***Giriş.*** Balfur bəyannaməsi əsasən yəhudi xalqı üçün Fələstində milli yurdun yaradılmasını dəstəkləsə də onun nəticələri dolayısı ilə türk dünyasına da təsir etdi. Bəyannamə Osmanlı imperiyasının parçalanma prosesini sürətləndirərək türk siyasi məkanında yeni geosiyasi reallıqlar yaratdı. Yaxın Şərqdə ingilislərin möhkəmlənməsi türk xalqlarının regiondakı təsir imkanlarını zəiflətdi. Bölgənin etnik-dini xəritəsinin dəyişməsi Türkiyənin gələcək xarici siyasətinin formalaşmasına təsir göstərdi. Nəticədə Balfur bəyannaməsi bilavasitə olmasa da türk dünyasının tarixi və geosiyasi vəziyyətinə ciddi dolayı təsirlər göstərdi. İngiltərə hökumətinin 2 noyabr 1917-ci ildə elan etdiyi Balfur bəyannaməsi, dünyanın müxtəlif bölgələrində fəaliyyət göstərən sionist təşkilatlar tərəfindən böyük coşqu və dərin minnətdarlıqla qarşılanmışdı. O dövrdə İngiltərə xarici işlər naziri Lord Balfur tərəfindən yəhudilərə İngiltərə himayəsi altında "Milli Vətən" vədi verilən bu bəyannamə, sionist hərəkatını beynəlxalq səviyyədə tanıtmışdır. Lakin bəyannamə yerli Fələstin əhalisi və o dövrdə ərəb liderliyini həyata keçirən Şərif Hüseyni məyus etmişdir. Fələstin əhalisinin 90%-dən çoxunu ərəb əhalisi təşkil etməsinə baxmayaraq, bəyannamə mətnində "yəhudi olmayan icmalar" ifadəsi ilə yerli xalq az əhəmiyyətli göstərilmişdir. İngiltərə hökumətinin bu bəyanatı, Fransa və İtaliya da daxil olmaqla İttifaq dövlətləri tərəfindən də qəbul edilmiş və dəstəklənmişdir. Balfur bəyannaməsi ilə sionist hərəkatın məqsədlərinə çatmaq üçün ilk mərhələ tamamlanmışdır.

***Balfur bəyannaməsinin imzalanmasına gedən yol.*** Sionist liderlər Birinci Dünya müharibəsinin ilk illərində Fələstində yəhudi koloniyasının yaradılmasının Böyük Britaniyanın maraqlarına daha çox xidmət edəcəyinə dair ingilisləri inandırmağa nail olmuşdular. Dövrün fransız mətbuatında bu məsələ belə ifadə olunurdu: *"Kim qalib gələcək? Heç kim. Çünki, İngiltərə Misir sərhədində yerləşən bu vilayəti böyük bir gücə təhvil verməkdən imtina edə bilməz. Mövcud müharibə Londondakı hökumətə Fələstinin ən zəngin ingilis koloniyalarından birinin təhlükəsizliyi baxımından nə qədər vacib olduğunu göstərdi. Buna görə də Fələstin muxtar dövlətə çevrilməyə məhkumdur. O zaman sionistlərin arzusu gerçəkləşə bilər. İngiltərə sionistlərə tez-tez koloniyalarından birinin verilməsini təklif etdiyinə görə, buna daha böyük həvəslə qoşulacaqdır. Əgər bu ibtidai Albaniya üçün mümkün olmuşdursa, Fələstin üçün niyə mümkün olmasın? Son üç ildə dünyada baş verən hadisələr bizə göstərdi ki, siyasi sahədə qeyri-mümkün heç nə yoxdur"* [11].

Londonda Artur Balfur və Herbert Samuel kimi dövrün aparıcı siyasətçiləri Sionist hərəkatın yeni prezidenti Haym Vaytsmanın başladığı təbliğat fəaliyyətinə dəstək göstərməyi özlərinə vəzifə

hesab etmişdilər. Bu səylər nəticəsində İngiltərənin Fələstin siyasətində dəyişiklik edilməsinə nail olunmuşdu [5, s.81]. Hərəkatın ən mühüm uğurlarından biri isə Rotşild ailəsinin ətrafında davamlı sionist lobbinin formalaşdırılması olmuşdur. 1916-cı ilə gəldikdə artıq Sionist hərəkatın liderləri ilə İngiltərə hökuməti arasında rəsmi danışıqlar başlanmışdı. İngilis yəhudi jurnalist və diplomat Lusyen Vulf 14 mart 1916-cı ildə "The Times" qəzetində dərc olunan məqaləsində yazırdı: *"Bizim istədiyimiz, Fələstin də daxil olmaqla yaşadıqları bütün ölkələrdə yəhudilər üçün bərabər mülki və siyasi hüquqlar və tam dini azadlıqdır. Dünənki iclasda Müqəddəs torpaqlar üçün qəbul etdiyimiz formul belədir: yəhudilərə Fələstinə köç etmək və həmin ölkədə yəhudi koloniyalarının yaradılması üçün kifayət qədər imkanların, tam siyasi hüquqlar və zəruri ola biləcək bələdiyyə imtiyazları ilə birlikdə təmin edilməsi"* [11, s.13]. Bu fikirlər dünya miqyasında, xüsusilə Fələstin kontekstində yəhudilərin hüquqlarının təmin edilməsi məsələsini ön plana çıxarırdı.1916-cı il sionizm ideyasının həyata keçirilməsi baxımından olduqca fəal bir dövr olmuşdur. Xüsusilə 1916-cı ilin dekabrında Lloyd Corcun Baş nazir, Artur Balfurun Xarici işlər naziri, Mark Sayksın isə Hərbi Kabinetin katibi təyin edilməsi sionistlərin Fələstinlə bağlı hədəflərini daha əlçatan etmişdir. Vaytsmanın bu üç mühüm siyasətçi ilə yaxın münasibətlərə malik olması onu dərhal hərəkətə keçməyə sövq etmiş, yəhudilərin Fələstində təsirinin artırılması istiqamətində müraciətlərini intensivləşdirmişdir. 1917-ci ildə isə bu danışıqlar daha da sıxlaşmışdır. 1917-ci ilin yazında müharibə təbliğatı daha idealist çalar almış və ABŞ-ni müharibəyə qoşulmuşdur. ABŞ müharibəyə daxil olduqdan sonra Lord Balfur 1917-ci ilin may ayında bu ölkəyə etdiyi rəsmi səfər zamanı sionizm tərəfdarı mövqeyini açıq şəkildə nümayiş etdirmişdir. Bu səfər sonrakı mərhələdə formalaşacaq Fələstin siyasətinin diplomatik əsaslarının möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

Bununla yanaşı, Balfur bəyannaməsi elan edilməzdən əvvəl, 4 iyun 1917-ci ildə Fransa tərəfindən "Kambon bəyənnaməsi" açıqlanmışdır. Fransız diplomat Jül Kambon bu bəyanatla Fransanın *"İsrail xalqının əsrlər əvvəl sürgün edildiyi torpaqlarda yəhudi millətinin yenidən formalaşmasına"* dəstəyini ifadə etdiyini bildirmişdir. Kambonun bəyanatı sionist lider Nahum Sokolova ünvanlanmış və Fələstində yəhudi kolonizasiyasını nəzərdə tutan layihəyə Fransa dəstəyini açıq şəkildə ortaya qoymuşdur. Bununla yanaşı, məktubun yazıldığı gün Fransa Vatikanın əsrlərdir davam edən himayəçilik mövqeyinin qorunub saxlanılması məsələsi ilə bağlı narahatlığını da ifadə etmişdir. Nəticə etibarilə, Fransa üçün əsas prioritet sionist təşəbbüslərdən daha çox xristianların müdafiəsini təmin edəcək daha böyük Livanın yaradılması və eyni zamanda "Böyük Suriya" ideyasının həyata keçirilməsi olmuşdur. Bununla belə, Londonda toplanan Britaniya Nazirlər Kabineti Fransanın bölgədəki rəqabətindən ehtiyat etmiş və Fələstində Britaniya himayəsi altında yəhudi varlığının yaradılmasının regional nəzarətin möhkəmləndirilməsinə xidmət edəcəyini düşünmüşdür. Həmçinin Fələstində yəhudi məskunlaşmasının Fransanın Livan və Suriya üzərindəki təsirini balanslaşdırmaq üçün möhkəm dayaq yaradacağı qənaəti formalaşmışdır [6, s.9].

4 iyun tarixli Fransız bəyannaməsi və 17 iyunda Birləşmiş Xarici Komitənin buraxılması Balfur bəyannaməsinin elanını sürətləndirmişdir. Britaniya Xarici İşlər Nazirliyində 1916-cı ilin martında və növbəti ilin aprelində bəyannamə ideyası yenidən müzakirə olunmuşdur. Haym Vaytsmanın Fələstin Britaniya işğalı altına daxil olan kimi uyğun bir bəyannamənin verilməsini təklif etmiş, lakin Qəzza cəbhəsində ardıcıl məğlubiyyətlər bu təşəbbüsü qeyri-mümkün etmişdir. 1917-ci ilin mayına gəldikdə isə bəzi sionist dairələr bəyanatın gecikməsindən narazılıq göstərməyə başlamışdılar.Bu dövrdə Birinci dünya müharibəsi şəraitində ABŞ-da prezident V.Vilsonun Yüksək Məhkəmə hakimi Luis Brandeys tərəfindən təmsil olunan Amerika sionistləri Londonda Britaniya hökuməti ilə Britaniya sionistləri arasında aparılan danışıqları diqqətlə izləyirdilər. Brandeys ABŞ Ali Məhkəməsinin hakimi statusunu sionist çevrələrdəki nüfuzu ilə birləşdirərək sionist siyasi ideyaları Vaşinqtondan Londona ötürməyə başlamışdır. Balfur bəyannaməsinin dərcindən altı ay əvvəl – 1917-ci ilin mayında Brandeys Londondan Vaşinqtondakı Dövlət Departamentinə sionist baxışları əks etdirən sənəd göndərmişdir. Həmin sənəddə Fələstinin yəhudi milli yurdu kimi tanınması, bütün ölkələrdəki yəhudilərə tam miqrasiya azadlığının verilməsi, yəhudilərin Fələstində tam milli-siyasi məskunlaşma hüququndan istifadə etməsi, Fələstinin inkişafı üçün yəhudi şirkətinə imtiyaz verilməsi və ivrit dilinin yəhudi dövlətinin rəsmi

dili olaraq tanınması kimi müddəalar yer almışdır. Brandeys Britaniyaya Fələstinin yəhudi milli-siyasi hüquqlara malik və yəhudi immiqrasiyası üçün tam açıq bir vətənə çevrilməsini təklif etmişdir. Bu plana əsasən, Fələstin torpaq almaqda sərbəst olan yəhudi şirkəti tərəfindən kolonizasiya ediləcəkdi. Prezident Vilson da həmin mərhələdə bu yanaşmanı dəstəkləmişdir.Bu dövrdə Artur Balfur ilə görüşən Vaytsman 20 iyun 1917-ci ildə britaniyalı jurnalist və siyasətçi Çarlz Skotta yazdığı məktubda qeyd edirdi: *"Cənab Balfur bizə Britaniya hökumətinin Sionist hərəkata rəğbətini və Fələstində Yəhudi Milli Yurdunun yaradılmasını dəstəkləmək niyyətini ifadə edən bir sənəd verəcəyinə söz verdi"* [7]. Əslində, Mark Sayks və Balfur təklif olunan bəyannaməni dəstəkləmək məsələsində ehtiyatlı mövqe tutmuşdular. Sayksın bu təşəbbüsə münasibəti Fələstin cəbhəsindəki hərbi vəziyyətə uyğun olaraq dəyişirdi. Qəzzada britaniyalıların geri çəkilməsindən sonra o, hərbi vəziyyət dəyişmədiyi təqdirdə yerinə yetirilməsi çətin vədlər verilə biləcəyini əsas gətirərək sionist əlaqələrin genişləndirilməməsini tövsiyə etmişdir. Lakin 1917-ci ilin iyununda Britaniya Fələstin yürüşünü yenidən başlatmaq qərarı verdikdə, Sayksın marağı artmış və o, həm Yəhudi legionu layihəsinə, həm də sionizm tərəfdarı bəyannamə təşəbbüsünə güclü dəstək vermişdir. Sionist nümayəndə Nahum Sokolovun Mark Sayks ilə apardığı danışıqlar da mühüm əhəmiyyət kəsb etmişdir. Sokolov üçün fransızlar və italyanlarla aparılan müzakirələr britaniyalılarla müqayisədə daha çətin olmuş və o, bu prosesdə Vaytsman olmadan hərəkət etmişdir [7, s.153]. Bununla belə, Sokolov həm Sayksa təqdim olunan "Sionist tələblər" memorandumunun, həm də Balfura təqdim edilən bəyannamə formulunun əsas müəlliflərindən biri olmuşdur. 11 iyul 1917-ci il tarixli "Gazette de Lausanne" qəzetinin üçüncü səhifəsində "İngiltərə hökuməti və Sionizm" başlıqlı məqalədə Vaytsmanın çıxışından sitat verilmişdir. O bildirmişdir ki, müharibənin nəticəsi kimi Fələstinin İngiltərə kimi güclü və ədalətli bir dövlətin himayəsinə keçəcəyinə ümid edir. Belə bir himayə altında yəhudilər inkişaf edəcək və layiq olduqları muxtariyyəti əldə edəcəklər.Vaytsman həmçinin Britaniya hökumətinin planlarını dəstəkləməyə hazır olduğunu və müttəfiq dövlətlərin də buna rəğbət bəslədiyini bəyan etmişdir. Müqəddəs yerlər məsələsinin Fələstinin gələcək nizamlanması çərçivəsində həll olunmalı olduğunu vurğulayan Vaytsman,yəhudilərin bütün məzhəb və dini qrupların hisslərinə hörmət göstərəcəklərini bildirmişdir. O, həmçinin yüksək katolik dairələrdən Fələstində yəhudi dövlətinin yaradılmasına simpatiya ilə yanaşıldığına dair təminat aldıqlarını və yaxşı qonşuluq münasibətlərinin mümkün olduğunu qeyd etmişdir.

Balfur bəyannaməsi hələ rəsmi şəkildə elan edilməmiş və həmin tarixdə məzmun baxımından tam şəkildə dəqiqləşdirilməmiş olsa da, Haym Vaytsman Britaniya rəsmiləri ilə aparılan danışıqlar yekunlaşmadan gözlənilən bəyanatı İngilis Sionist Federasiyasına vaxtından əvvəl çatdırmışdı. Bununla yanaşı, sionistlər müharibə illəri boyunca Fələstinin gələcəyinə dair baxış və təkliflərini sistemli şəkildə ifadə edən müxtəlif memorandumlar hazırlamışdılar [3, s.42]. Həmin sənədlər Vaytsman və digər sionist liderlərin nüfuzlu britaniyalı siyasi xadimlərlə apardıqları danışıqlara dəstək vermək məqsədi daşıyırdı.Son mərhələdə Nahum Sokolov hazırlanmış bəyannamə formulunun bir nüsxəsini Lord Rotşildə göndərərək onun Mark Sayks və Ronald Qrehemə təqdim edilməsini xahiş etmişdi. 12 iyul 1917-ci ildə sionistlərin razılığa gəldikləri formul Britaniyanın Sionist təşkilatı vasitəsilə yəhudilərə verə biləcəyi siyasi öhdəliyin mahiyyətini ortaya qoyurdu.

Təkliflərin əsasını Sionist Konqres və ya Ümumdünya Sionist Təşkilatı kimi bir qurum vasitəsilə yaradılacaq yəhudi imtiyazlı şirkətinin təsis edilməsi ideyası təşkil edirdi. Belə bir şirkətə dünya yəhudilərinin demokratik şəkildə ifadə olunmuş iradəsini təmsil edən ictimai-hüquqi imtiyazın verilməsi tələbi Teodor Herzlın erkən sionist konsepsiyasının əks-sədası idi. Sözügedən şirkət ona veriləcək səlahiyyətlər çərçivəsində, Britaniya idarəçiliyinin nəzarəti və himayəsi altında Fələstində yeni iqtisadi baza formalaşdırmalı idi. O, ölkəyə gətiriləcək yəhudi mühacirləri təşkil etməli, onları maarifləndirməli və ivritdilli cəmiyyətin, eləcə də müasir yəhudi mədəniyyətinin formalaşdırılması üçün zəruri sosial infrastrukturu təmin etməli idi. Mahiyyət və baxış bucağı etibarilə sionist mövqeyə yaxın olan Artur Balfur, Fələstini yəhudi xalqının yenidən təsis olunmuş "Milli Yurdu" kimi təqdim edən Sokolovun hazırladığı bu formulu ciddi etiraz irəli sürmədən ümumi şəkildə qəbul etməyə hazır görünürdü. Lakin digər siyasi dairələrdən bu yanaşmaya qarşı müxalif mövqelər formalaşmağa başlamışdı. Xüsusilə Hindistan üzrə dövlət katibi və hökumətdə yeganə yəhudi nazir olan, kəskin anti-sionist mövqeyi

ilə seçilən Edvin Samuel Montaqu Fələstində yaradılması planlaşdırılan Yəhudi Milli Yurdu ideyasını sərt şəkildə tənqid etmişdir. Montaqunun qəti etirazı nəticəsində məsələ bir neçə ay ərzində Britaniya kabinetində müzakirə mövzusu olmuş, eyni zamanda Müttəfiq hökumətlər arasında da debatlara səbəb olmuşdur. Bildirilirdi ki, Britaniya belə bir siyasəti təşviq edərsə, onun həyata keçirilməsi zəruri olaraq Londonun üzərinə düşəcək və bu isə Fələstin üzərində siyasi nəzarətin tətbiqini tələb edəcəkdir. Sonrakı aylarda Montaqunun müxalifəti Lord Rotşildin mövqeyinə də təsir göstərmiş, o, sionistlərin əlavə güzəştlər üçün təzyiq göstərməsinin məqsədəuyğun olmadığını düşünməyə başlamışdı [1, s.178]. Rotşild təzyiqlərin davam edəcəyi təqdirdə Britaniya hökumətinin ümumiyyətlə heç bir bəyanat verməmək qərarına gələ biləcəyindən ehtiyat edirdi. Bunun əksinə olaraq, Britaniyanın baş naziri Lloyd Corc Fələstində yəhudi "qarnizon koloniyasının" yaradılmasını dəstəkləmiş və belə bir koloniyanı Misir və Süveyş kanalı üçün tampon zona kimi qiymətləndirmişdir. Lloyd Corcun fikrincə, Fələstində yaradılacaq dayaq nöqtəsi Britaniyanın imperiya yollarının, xüsusilə Hindistana gedən marşrutların təhlükəsizliyini təmin edəcəkdi. Bəyannamə layihəsi hazırlandıqdan sonra Sokolov sənədin (Balfur və Sayks tərəfindən) həddən artıq uzun və konkret hesab edildiyini, başqa sözlə, Britaniya siyasi ənənəsi baxımından həddən artıq bağlayıcı öhdəlik ehtiva etdiyini həmkarlarına bildirmişdir. O, komitəyə Britaniya tərəfinin təqdim etdiyi qısa göstərişlərin sadə şəkildə yenidən ifadə olunması ilə kifayətlənməyi tövsiyə etmişdir. 17 iyulda Sokolov Cozef Kouen, Akiva Ettinger və Şmuel Tolkouskidən ibarət daha kiçik bir qrupla birlikdə sənədin qısaldılmış variantını müzakirə etmiş, bu iclasa Harri Saçer də qatılmışdır. 18 iyul 1917-ci ildə Lord Rotşild sözügedən layihəni müşayiət məktubu ilə birlikdə Lord Balfura təqdim etmişdir. Əslində Mark Sayksın ofisində formalaşdırılan bu formul, əvvəlcə yalnız müəyyən sayda mühacir və ya müharibədən sonrakı qaçqın üçün "sığınacaq" ideyasını kifayət hesab edən yanaşma ilə müqayisədə mühüm irəliləyiş idi. Sionistlər tərəfindən təqdim edilən variant Fələstinin yəhudi xalqı ilə tarixi bağlılığını və "Milli Yurdun" yenidən qurulması zərurətini qəbul edirdi. Vaytsman üçün ən mühüm məqam Britaniya hökumətinin sionistlərlə "metod və vasitələri" müzakirə etməyə hazır olduğunu bildirməklə, dolayısı ilə də olsa, Sionist təşkilatına və ya yaradılacaq yəhudi şirkətinə müəyyən xüsusi hüquqların tanınmasını qəbul etməsi idi. Bununla belə, Sayks və Nikolson tərəfindən çərçivələndirilmiş və Balfur tərəfindən əvvəlcədən təsdiqlənmiş Britaniya təkliflərinə yaxın olsa da, bu formul hökumət dairələrində ciddi müqavimətlə qarşılaşmış və yekun şəkildə qəbul edilməzdən əvvəl uzun gecikmələrə səbəb olmuşdur [11, s.71]. Bu dövrdə Berlin nəşrlərindən biri olan "Vossische Zeitung" İstanbuldan yaydığı xəbərdə Türkiyə yəhudilərinin Fələstində Türkiyədən ayrılacaq bir yəhudi dövlətinin yaradılmasına qarşı olduqlarını bildirmişdir. Eyni zamanda Türkiyənin baş hahamının hökumətə ünvanladığı açıq məktubda Türkiyə yəhudilərinin Rusiya və Amerika yəhudiləri tərəfindən müdafiə olunan planlarla hər hansı əlaqəni rədd etdikləri qeyd olunmuşdur. Türkiyədə fəaliyyət göstərən bəzi yəhudi təşkilatları da dövlətə sədaqətlərini və ölkənin ərazi bütövlüyünü dəstəklədiklərini açıq şəkildə bəyan etmişdilər. Britaniya hökumətinin dünya yəhudiliyinə münasibətdə apardığı nisbətən mülayim siyasət nəticəsində 1917-ci ilin avqust ayında Birinci Dünya müharibəsində Britaniyaya dəstək məqsədilə yəhudi taburu yaradılmışdı. Qısa müddət sonra isə Balfur bəyannaməsi rəsmi şəkildə elan olunmuş və Fələstində yəhudi xalqı üçün "milli yurd" yaradılması prosesinin diplomatik əsasını qoymuşdur. Kabinet bu bəyanatı sionizmin Britaniyanın müharibə maraqlarına xidmət edəcəyini düşündüyü üçün qəbul etmişdi. Britaniya himayəsi altında Fələstində yəhudi məskunlaşmasının regionda Londonun mövqelərini gücləndirəcəyi ehtimal edilirdi. Bununla yanaşı, Britaniya Sionizmə verdiyi dəstək vasitəsilə Uzaq Şərq müstəmləkələrinə aparan yolların təhlükəsizliyini təmin etməyi, Şərqi Aralıq dənizində nüfuzunu artırmağa, yəhudi lobbi dairələrinin təsiri ilə ABŞ-ın müharibədə daha fəal dəstəyini qazanmağa ümid edirdi.

***Balfur bəyannaməsinin elan edilməsi.*** 19 iyun 1917-ci ildə Baron Rotşild və Haym Vaytsman Lord Balfuru ziyarət edərək artıq ictimaiyyətə bir açıqlama verilməsinin vaxtının çatdığını bildirmişdilər. Lord Balfur isə onlara Sionist təşkilatın qəbul edə biləcəyi bir mətn layihəsi hazırlamalarını, özlərinin isə bunun üçün kabinetdən təsdiq almağa çalışacaqlarını demişdi. 18 iyulda Balfura göndərilən sənəddə Fələstinin yeni "Yəhudi Milli Yurdu" kimi tanınması, yəhudilərin Fələstinə köçünə sərbəstlik verilməsi və köç edənlərə bütün siyasi və mülki hüquqların tanınması, bir yəhudi şirkətinə imtiyaz verilməsi, yəhudi əhalisini idarə edəcək yerli administrasiya qurulması və ivrit dilinin rəsmi dil

kimi qəbul edilməsi tələb edilirdi [8, s.334]. 18 iyula qədər yəhudi dairələrindəki anti-sionist müxalifət səbəbilə hərb kabinetində deklarasiya mətninin ifadə incəlikləri üzərində işlənmişdi.19 sentyabrda isə bəyannamə mətninə Xarici İşlər Nazirliyi və Baş nazir tərəfindən yekun təsdiq verilmiş və sənəd hərb kabinetinə təqdim edilmişdi:

1. Hökumət Fələstinin yəhudi xalqının milli yurdu olaraq yenidən qurulması prinsipini qəbul edir;
2. Britaniya hökuməti bu məqsədin həyata keçirilməsi üçün əlindən gələn səyi göstərəcək və zəruri üsul və vasitələri Sionist təşkilatla müzakirə edəcəkdir.

Amerika prezidenti V.Vilsonun İsveçrə qəzetlərində yayılan teleqramlarının məzmununa görə Rusiya hökumətinə xüsusi məktub yazaraq Fələstində bir yəhudi hökumətinin qurulmasına qərar verildiyini bildirmiş və bu məqsədlə Rusiyanın da dolayı yolla yardım etməsini rica etmişdi. Bu məlumat Bern Hərbi Attaşeliyi tərəfindən çatdırılmışdı.Bundan əlavə, Prezident Vilsonun təsdiqlədiyi mətn haqqında Fransa və İtaliya hökumətləri də məlumatlandırılmışdı.İngilis kabineti daxilindəki yəhudi anti-sionist mübarizəsi 10 oktyabr 1917-ci ildə başqa bir təqdimat formulu ortaya çıxarmışdı. Prezident Vilsona göndərilən yeni mətn belə idi: "Kabinet ilkin müzakirələrdən sonra aşağıdakı dəyişdirilmiş formulu təklif edir: İngiltərə hökuməti Fələstində yəhudi irqi üçün bir Milli Yurd qurulmasına müsbət yanaşır və bu məqsədin həyata keçirilməsini asanlaşdırmaq üçün əlindən gələn bütün səyləri göstərəcəkdir. Lakin Fələstindəki yəhudi olmayan icmaların mülki və dini hüquqlarına və ya digər ölkələrdə mövcud milliyyət və vətəndaşlıq statuslarından tamamilə məmnun olan yəhudilərin hüquq və siyasi vəziyyətinə zərər gətirəcək heç bir şey edilməyəcəyi açıq şəkildə anlaşılmalıdır". Bəyannamə mətnində edilən düzəlişlərdən sonra Prezident Vilson 16 oktyabr 1917-ci ildə polkovnik Hausa Britaniya hökuməti tərəfindən hazırlanan sionizm yönlü bəyannamə layihəsini təsdiqləməsi barədə göstəriş vermişdi [2, s.970]. Daha sonra Lord Milner mətnə düzəlişlər edərək "Fələstində yaşayan yerli əhalinin hüquqlarının yəhudi milli yurdunun yaradılması səbəbilə heç bir zərər görməməsi" maddəsini əlavə etmişdi. Nəticədə son sənəd 31 oktyabrda qəbul edilmiş və 2 noyabrda Balfur tərəfindən göndərilmişdi. 2 noyabr 1917-ci ildə İngiltərə hökuməti Fələstinlə bağlı olaraq yəhudi tələblərini və tarixi iddialarını qəbul edərək bəyanatı elan etmişdir.İngiltərənin Xarici İşlər Naziri Lord Artur Ceyms Balfur tərəfindən 2 noyabr 1917-ci ildə Lord Volter Rotşildə göndərilən məktubla elan olunan "Balfur bəyannaməsi" 14 fevral 1918-ci ildə Fransa Xarici İşlər Naziri Stefan Pişon tərəfindən Dünya Sionist təşkilatının nümayəndəsi Nahum Sokolova göndərilən məktubla da təsdiq və təşviq edilmişdir. İtaliya, Amerika Birləşmiş Ştatları, Yaponiya, Yunanıstan, Serbiya, Çin və Siyam (Tailand) hökumətləri də bu deklarasiyanı dəstəkləmişdir [4, s.17].

İtaliya, ardınca da Fransanın 1918-ci ilin fevralında Balfur bəyannaməsinə verdiyi dəstək və Amerika Birləşmiş Ştatları Prezidenti Vilsonun bəyannaməni açıq şəkildə müdafiə etməsi, Sionizmin taleyini İttifaq dövlətlərinin müharibə təşəbbüsləri ilə birləşdirmişdir. İttifaq dövlətlərinin Fələstin ərazisində İngilis və ya beynəlxalq himayə altında müstəqil bir Sionist dövlət qurma planı, Sionizmin şərq siyasətində böyük rol oynadığını göstərir. Balfur bəyannaməsinin bütün İttifaq dövlətləri tərəfindən dəstəklənməsi isə bölgədəki ərəb liderliyini üzərinə götürmüş Şərif Hüseyni çox təəccübləndirmiş və əvvəllər özü ilə aparılmış razılaşmaya tamamilə zidd olan bu bəyannamə ilə bağlı İngiltərədən açıqlama tələb etmişdir. İngiltərə Hökuməti Şərifə verdiyi açıqlamada bəyannamənin bölgə xalqının azadlığını məhdudlaşdırmadığını və bəyannamədə konkret bir Yahudi dövlətindən bəhs edilmədiyini bildirmişdir. Lakin bəyannamə mətnində Fələstin əhalisinin 90%-dən çoxunun ərəb olmasına baxmayaraq, bu məsələ "Yəhudi olmayan topluluq" ifadəsi ilə keçişdirilmişdir. Fələstin bir ərəb ölkəsidir və yəhudilər ölkədə çox kiçik bir azlıq təşkil edirlər. Bundan əlavə, yəhudilərin yarısı son illərdə Fələstinə köç etmişdi. Bildiriş ərəb hüquqlarını qoruyur kimi bir mövqe nümayiş etdirsə də, xalqın böyük əksəriyyətinin ərəb olduğunu mətnin özündə açıq şəkildə ifadə etməmişdir.

Balfur bəyannaməsinin elanından sonra Osmanlı imperiyası belə bir mövqe ortaya qoymuşdur: İngiltərə Xarici İşlər Naziri Balfur tərəfindən Lord Rotşildə göndərilmiş və demək olar ki, bütün ölkələrin mətbuatında yayımlanan 2 noyabr 1917-ci il tarixli məktubda, İngiltərənin Fələstində bir İsrail hökuməti qurmaq qərarını tam dəqiqlik və ciddiyyətlə verdiyi bildirilmişdir [9, s.62]. Məktubda, əgər İngilis ordusu, Qəzzədən irəli gedərək Qüdsə daxil olsa, Fələstin məsələsinin Osmanlı dövləti üçün

çox zərərli bir məcraya çevriləcəyi vurğulanır. Bu səbəbdən düşmən qüvvələrə qarşı müdafiəni gücləndirmək, düşməni olduğu mövqedən irəliyə gedə bilməməsini təmin etmək və onu uzaqlaşdırmaq üçün bütün qüvvəmizlə mübarizə aparmalıyıq. Bu əmrlə bölgədə hərbi əməliyyatların intensivləşdirilməsinə diqqət çəkilmişdir. Alman "Jüdische Rundschau" qəzetinin 16 noyabr tarixli sayında isə İngiltərə hökumətinin açıqlaması belə şərh edilmişdir: İngiltərə hökumətinin məqsədi Fələstini İngilis idarəsi altında saxlamaq ola bilər. Lakin Fələstinin hərbi işğalı baş verərsə belə, bu torpağın hansı dövlətə aidiyyəti məsələsi mövcud beynəlxalq hüquqa görə heç cür həll edilə bilməyəcəkdir. Fələstin türk torpağıdır və İngilis qoşunları irəli getsələr belə, bu fakt dəyişməyəcəkdir. Yalnız sülh konfransı və orada əldə olunacaq beynəlxalq razılaşmalar, müharibə zamanı müzakirə edilmiş və işğal edilmiş torpaqların hansı dövlətə aid olacağını son qərarla müəyyən edə bilər. Bu səbəbdən İngiltərə hökumətinin bəyannaməsi yalnız Sionist tələblərin tanınması ilə məhdud qalmalı və Fələstinin Türkiyə ilə olan konstitusiya əlaqələrinə təsir göstərməsinə imkan verilməməli idi. Lakin bəyannamənin belə və hər hansı bir İngilis himayəsi tələbi ilə əlaqəli olmadan verilməsi, böyük ehtimalla İngilis Sionistlərinin xüsusi istəyini əks etdirirdi. Qəzetin açıqlamasında bəyannaməyə qarşı tənqid ifadə edilərkən, Sionist tələblərin tanınması məsələsinə dair bir reaksiya verilməmiş və Sionistlərin İngiltərə himayəsində olmasına qarşı xüsusi bir etiraz görünmür [10, s.46].

***Nəticə.*** 1917-ci ildə İngiltərə tərəfindən elan olunan Balfur bəyannaməsi, Fələstin torpaqlarında yəhudilər üçün "Milli vətən" vəd edirdi və sionist siyasətini beynəlxalq səviyyədə görünən hala gətirdi. Bu bəyannamə, dünyanın müxtəlif bölgələrində dağılmış yəhudiləri bir araya gətirmək və Fələstində toplamaq məqsədində olan sionistlər üçün dönüm nöqtəsi hesab olunurdu. Bəyannamənin elan olunması ilə İngiltərə yəhudi millətçiliyini tanıdığını rəsmi şəkildə qəbul etdi. Lakin bəyannamənin yayımlanması eyni zamanda, o vaxta qədər sakit olan Fələstin ərəb millətçiliyinin hərəkətə keçməsinə səbəb oldu. Nəticədə, Fələstində yəhudi dövləti qurmaq məqsədində olan sionizmin taleyi, sionist liderlər ilə İngiltərə hökumətinin yüksək səviyyəli rəsmiləri arasında qurulan ittifaq tərəfindən müəyyən edildi. Bəyannamə sionist hərəkatına beynəlxalq dəstək qazandırdı və onların məqsədlərinə çatmasına yeni imkanlar yaratdı. Birinci Dünya müharibəsinin kritik dövrlərində elan olunan Bəyannamə, başda ABŞ olmaqla, İttifaq dövlətlərinin təsdiqini aldı və müharibənin gedişinə təsir göstərdi. Sionizmin ən böyük uğurlarından biri olan Balfur bəyannaməsi, 1948-ci ildə rəsmi olaraq qurulan İsrail dövlətinin əsaslarını qoydu. Bu səbəbdən, günümüzdə hələ də davam edən İsrail-Fələstin münaqişəsinin kökləri, İngiltərənin başçılıq etdiyi müstəmləkəçi dövlətlərin strateji maraqları əsasında formalaşmışdır.

## ƏDƏBİYYAT

1. Grainger, J.D. The battle for Palestine 1917 (warfare in history). Boydell Press, 2006, 300 p.
2. Husan, S. The zionist project and the British mandate in Palestine. Proceedings of the Indian History Congress, 2014, Aligarh India, platinum jubilee, vol.75, p.967-974.
3. Kızıloğlu, S. İsrail Devleti'nin kuruluşuna kadar geçen süreçte Yahudiler ve Siyonizm'in gelişimi // Kırıkkale, Sosyal Bilimler, 2012, 2/1, 35-64.
4. Nir Y. Immigration to Palestine during the British Mandate (1922-1948). Cambridge Scholars Publishing, Newcastle, 2021, 616 p.
5. Pappe, I. Modern Filistin tarihi. (Çev. Nuri Plümer),Ankara, Phoenix Yayınevi, 2007, 472 p.
6. Quigley, J. Palestine and Israel: A challenge to justice. Duke University Press Books, 1990, 348 p.
7. Reinharz, J. Chaim Weizmann: The making of a statesman. Oxford University Press, 1993, 560 p.
8. Schama S. İki Rothschild, İsrail devletinin kuruluşu. (çev. Belkıs Çorakçı Dişbudak), İstanbul, Alfa yayınları, 2016, 544 s.
9.Taylor, A. R.İsrail'in doğuşu,1897-1947 Siyonist diplomasinin analizi. İstanbul, Pınar Yayınları, 2019, 152 s.
10. Trimbur, D. History in fast motion: An overview. Europe and Palestine 1799-1948 Religion-Politics-Society (eds. Barbara Haider-Wilson, Dominique Trimbur).Verlag der Österreichischen Akademie der Wissenschaften, Vyana, 2010, p.45-53.

11. Verete, M,The Balfour Declaration and its makers. Palestine and Israel in the 19th and 20th centuries. (Edited By Elie Kedourie and Sylvia G. Haim). London, Routledge, 1982, 292 p.

**GAZANFAR MAHARRAMOV**
*Baku State University*
*Second-year Master's student of the Department of Modern and Contemporary History of European and American Countries*

## THE BALFOUR DECLARATION (1917) AS A MILITARY-DIPLOMATIC MEASURE OF GREAT BRITAIN AGAINST THE OTTOMAN EMPIRE

The article discusses the Balfour Declaration of November 1917 as one of the military-diplomatic measures implemented by the British government during the First World War against the territorial integrity of the Ottoman Empire. It is noted that the process of drafting and adopting the declaration is analyzed within the ruling circles of Great Britain, focusing not only on the wartime period but also on the post-war era, in terms of ensuring Britain's political, economic, and strategic interests in the Middle East. Its impact on international relations is also examined. As a result, the article concludes that this document played an important role not only at the regional level but also in shifting the global balance of power and accelerating the collapse of the Ottoman Empire.

*Keywords:* Balfour declaration, Great Britain, Middle East, Palastine, Zionism.

*Daxil olma tarixi*: 07.04.2026-cı il.
*Çapa imzalanma tarixi*: 05.05.2026-cı il.

№2(14) 2026, 103-110

UOT 94

**MADINA AGHAMIROVA**
*2nd year master's student at Baku State University*
**madina.agamirova.azar@bsu.edu.az**

# CATHERINE II AND THE PARTITIONS OF POLAND: IMPERIAL STRATEGY AND THE TRANSFORMATION OF EASTERN EUROPE

*Scientific advisor:*
PhD in History Maharat Osmanlı

Məntiqi analizdə hər bir mürəkkəb fikir əvvəlcə özünün ən sadə formasına, yəni atomik propozisiyaya qaytarılır. Atomik propozisiya daxilində başqa bir propozisiya və ya məntiqi bağlayıcı saxlamayan, reallığın tək bir faktını ifadə edən göstəricidir [4]. Məsələn, "Hava yağışlıdır" və ya "2 rəqəmi cütdür" ifadələri atomikdir. Bu vahidlərin idrakdakı rolu ondan ibarətdir ki, onlar bizim bilik sistemimizin "təməl daşlarıdır" və burada heç bir bağlayıcı ifadədən istifadə olunmayıb. Nada Shofa Lubis-in tədqiqatında vurğulandığı kimi, propozisiyalar yeni biliklərin hasil edilməsi üçün zəruri olan ilkin materialdır və onlar olmadan mühakimə prosesi başlaya və həyata keçə bilməz [9]. Mürəkkəb bir problemi analiz edərkən onu inkarolunmaz kiçik faktlara bölmək üçün atomik səviyyədə düşünmək tədqiqatçıya kömək edir. Bu proses kimyada maddənin atomlara parçalanmasına bənzəyir. Necə ki kimyada atomlar birləşərək molekulları yaradır, məntiqdə də atomik propozisiyalar birləşərək mürəkkəb elmi nəzəriyyələri formalaşdırır [4].

**Kompleks Mühakimələr: Məntiqi Bağlayıcıların İnşası**

Düşüncə yalnız atomik faktlarla məhdudlaşdıqda statik qalır. İdrakın əsl gücü bu faktlar arasında əlaqə qurmaq qabiliyyətində, yəni kompleks propozisiyaların yaradılmasında üzə çıxır. Məntiq bizə bu əlaqələri qurmaq üçün beş əsas operator (bağlayıcı) təqdim edir: *və, və ya, deyil, əgər... onda* və *ancaq və ancaq* [4].

Kompleks mühakimələrin idrakdakı əhəmiyyəti onların "hipotetik" (fərziyyəvi) təfəkkürə imkan verməsidir. Xüsusilə "əgər... onda" (kondisional) strukturu elmi metodologiyanın nüvəsini təşkil edir. Məsələn, "Əgər suyun temperaturu 100 dərəcəyə çatarsa, o zaman su buxarlanacaq" ifadəsi iki atomik fakt arasında səbəb-nəticə əlaqəsi qurur [9]. Bu cür kompleks strukturlar vasitəsilə insan zəkası müşahidə olunan faktlardan kənara çıxaraq proqnozlar vermək və qanunauyğunluqlar müəyyən etmək qabiliyyəti qazanır. Pamukcu və Akbarovun qeyd etdiyi kimi, dil və məntiqin bu kəsişmə nöqtəsi "həqiqətin" (*truth*) necə qiymətləndirildiyini müəyyən edir: mürəkkəb bir iddianın doğruluğu onu təşkil edən atomik hissələrin doğruluğundan və bağlayıcıların funksiyasından asılıdır [14].

**Simvolik dil və koqnitiv yükün azaldılması**

İdrak prosesində atomik və kompleks mühakimələrin simvollaşdırılması (məsələn, $P$, $Q$, $R$ simvolları ilə ifadə edilməsi) insan beyninin koqnitiv yükünü əhəmiyyətli dərəcədə azaldır. Təbii dilin

gətirdiyi bəzəkli ifadələri kənara qoyub, arqumenti $P \rightarrow Q$ (əgər $P$, onda $Q$) formasına salmaq, bizə fikrin məzmununa deyil, onun məntiqi strukturunun doğruluğuna fokuslanmağa imkan verir [4]. Bu, xüsusilə mürəkkəb elmi hesablamalarda və proqramlaşdırmada həlledici rol oynayır.

Məntiqi propozisiyaların bu şəkildə strukturlanması həm də təfəkkürdəki "ziddiyyətləri" aşkarlamağı asanlaşdırır. Əgər bir sistem daxilində həm $P$, həm də $\neg P$ ($P$ deyil) eyni vaxtda qəbul edilirsə, bu, düşüncənin atomik səviyyədə parçalandığını və kompleks nəticənin etibarsız olduğunu göstərir [13].

**Elmi çıxarışlar və dilin sərhədləri: induksiya, deduksiya və idrakın üfüqləri**

Elmi düşüncənin inkişafında və biliklərin sistemləşdirilməsində məntiqi çıxarışlar (*inference*) mərkəzi rol oynayır. Elmi fəaliyyət zamanı hər hansı bir nəticəyə varmaq üçün istifadə olunan mühakimə yolları mütləq şəkildə ya induktiv, ya da deduktiv olmalıdır. Dili bu mürəkkəb prosesdə yalnız bir ifadə forması kimi qəbul etmək düzgün deyil; o, həmçinin arqumentlərin daxili strukturunu quran və onları yoxlanıla bilən hala gətirən əsas vasitədir [6].

**Deduktiv və induktiv mühakimənin dil strukturu**

Deduktiv mühakimə zamanı insan zəkası ümumi qəbul edilmiş qanunlardan və ya müqəddimələrdən (*premises*) konkret, xüsusi nəticələrə doğru hərəkət edir və bu zaman dilin rolu mühakimənin “zəruriliyini" təmin etməkdir. Əgər dil vasitəsilə ifadə olunan ilkin müqəddimələr doğrudursa və məntiqi forma düzgün qurulubsa, nəticənin doğru olması qaçılmazdır [3]. Məsələn, riyazi sübutlar və formal məntiq sistemləri tamamilə bu deduktiv dəqiqlik üzərində qurulur. Digər tərəfdən, induksiya xüsusi müşahidələrdən ümumi qanunauyğunluqlara varmaq prosesidir. Burada dilin "ehtimal" ifadələri və statistika mühüm rol oynayır [2]. İnduktiv mühakimə bizə reallıq haqqında yeni məlumatlar verir, lakin bu nəticələrin elmi qanun şəklində kodlaşdırılması üçün dilin ümumiləşdirmə qabiliyyətinə ehtiyac duyulur [8]. Dil olmasaydı, minlərlə tək-tək müşahidəni vahid bir nəzəriyyə halına gətirmək qeyri-mümkün olardı.

**Ziddiyyətsizlik qanunu və hipotezlərin formulyasiyası**

Dil və məntiqin bu kəsişmə nöqtəsi alimlərə hipotezlər qurmağa və onları sınaqdan keçirməyə imkan verir. Elmi mühakimənin daxili tutarlılığını məntiqin təklif etdiyi "ziddiyyətsizlik qanunu" qoruyur. Bu qanun diktə edir ki, bir alim eyni vaxtda və eyni münasibətdə həm "A"nı, həm də "A deyil"i iddia edə bilməz [3]. Əgər elmi dildə ziddiyyət yaranarsa, həmin nəzəriyyə öz rasional əsasını itirir. Bu baxımdan məntiq həm də elmi dilin "özünü tənzimləmə" mexanizmidir.

**Dilin sərhədləri və düşüncənin universal qrammatikası**

Bu nöqtədə fundamental bir sual ortaya çıxır: "Düşüncəmi dili, yoxsa dilmi düşüncəni idarə edir?" Bir çox koqnitiv tədqiqatlara görə, dil düşüncənin formalaşdığı və hərəkət etdiyi mühitdir. Bu mənada, dilin struktur məhdudiyyətləri müəyyən dərəcədə düşüncənin də sərhədlərini müəyyən edə bilir [11]. Vitgenşteynin yanaşmasını xatırlatsaq, dilin imkan vermədiyi bir şeyi düşünmək və ya elmi şəkildə ifadə etmək çətindir. Lakin məntiq, universal bir qaydalar sistemi olaraq, konkret dillərin sərhədlərini aşan bir xüsusiyyətə malikdir. Müxtəlif dillərdə danışan və fərqli mədəniyyətlərə mənsub olan insanlar eyni məntiqi xətalara (*fallacies*) yol verə bilər və ya eyni obyektiv həqiqətlərə çata bilərlər [12].

Bu fakt göstərir ki, məntiq təfəkkürün "universal qrammatikası", dil isə bu qrammatikanın müxtəlif mədəniyyətlərdəki rəngarəng təzahürüdür. Məntiqi mühakimə qabiliyyəti yüksək olan fərdlər dili daha effektiv, daha kəsərli və daha inandırıcı şəkildə istifadə etməyi bacarırlar [1]. Beləliklə, dil və məntiq arasındakı əlaqə birtərəfli deyil, dialektik bir əlaqədir: məntiq dili cilalayır, onu dumanlılıqdan xilas edir və kəskin bir elmi alətə çevirir; dil isə öz növbəsində məntiqə reallığı təsvir etmək, onu mənalandırmaq və gələcək nəsillərə ötürmək üçün zəruri olan materialı verir. Düşüncənin üfüqləri dilin zənginliyi və məntiqin dəqiqliyi ilə birlikdə genişlənir.

***Nəticə***. Bu araşdırma çərçivəsində dil və məntiq arasındakı fundamental əlaqələr, onların elmi düşüncənin formalaşmasındakı rolu və qarşılıqlı təsir mexanizmləri təhlil edilmişdir. Tədqiqat göstərir ki, dil sadəcə bir ünsiyyət vasitəsi deyil, o, təfəkkürün reallığı dərk etmək üçün istifadə etdiyiən mühüm idrak instrumentidir. Lakin dilin təbii quruluşundakı qeyri-müəyyənliklər və dumanlılıqlar elmi dəqiqliyi təmin etmək üçün məntiqin sərt intizamına ehtiyac duyur.

Araşdırmanın gedişində əldə olunan əsas nəticələri belə ümumiləşdirmək olar:

**1. Dil və məntiqin vəhdəti:** İnsan təfəkkürü yalnız dil vasitəsilə sabitləşir və obyektivləşir. Məntiq isə bu dil daxilindəki mühakimələrin tutarlılığını və doğruluğunu yoxlayan tənzimləyici mexanizmdir;
**2. Strukturun əhəmiyyəti:** Məntiqi propozisiyaların atomik və kompleks strukturlara ayrılması mürəkkəb elmi problemlərin analizini asanlaşdırır və koqnitiv yükü azaldaraq daha sistemli düşünməyə şərait yaradır;
**3. Elmi metodologiya:** İnduktiv və deduktiv çıxarışlar elmin inkişafının hərəkətverici qüvvələridir. Dil bu çıxarışların kodlaşdırılmasını, məntiq isə onların ziddiyyətsizliyini təmin edir;
**4. Universal qrammatika:** Dil hər nə qədər mədəniyyətdən asılı olaraq dəyişsə də, məntiq qaydaları universal xarakter daşıyır və insan idrakının üfüqlərini konkret dillərin sərhədlərindən kənara çıxarır.

Yekun olaraq qeyd etmək lazımdır ki, müasir elmin tərəqqisi dilin zənginliyi ilə məntiqin dəqiqliyi arasındakı harmoniyadan asılıdır. Dilini məntiqin universal qanunları ilə cilalayan hər bir fərd və ya cəmiyyət reallığı daha dərindən dərk etmək və yeni elmi biliklər istehsal etmək iqtidarındadır.

## ƏDƏBİYYAT

1. Coşkun, B. (2020). Dil ve Mantık İlişkisi Üzerine Bir Değerlendirme. Eskiyeni, (40), 95-106.
2. Buyung, & Burhanuddin, N. (2023). Sarana Berfikir Ilmiah (Bahasa, Logika, Matematika Dan Statistik). Jurnal REVORMA, 3(1).
3. Copi, I. M., Cohen, C., & McMahon, K. (2013). Introduction to Logic (14th ed.). Routledge.
4. DeLancey, C. (2017). A Concise Introduction to Logic. Open SUNY Textbooks.
5. Haqqi, A., & Syukri, A. (2023). The Role of Scientific Thinking Tools in Science Development. Innovatio: Journal for Religious-Innovation Studies, 23(2).
6. Anggraini, L., Karneli, Y., & Handayani, P.G. (2025). Sarana Berfikir Ilmiah (Bahasa, Logika, Matematika dan Statistika). SOSIAL: Jurnal Ilmiah Pendidikan IPS, 3(2).
7. Aziz, I. N. (2024). Development of Science: Language, Logic, Mathematics, and Statistics as Means of Development of Science. Institut Keislaman Abdullah Faqih.
8. Khaerati, F. N., Muflihah, & Alwi, M. HS. (2023). Bahasa Ilmiah Sebagai Sarana Berpikir dalam Studi Islam. Al-Qudwah: Jurnal Studi Al-Qur'an dan Hadis, 1(1).
9. Lubis, N.S., Farleni, F., Juansah, D.E., & Nulhakim, L. (2023). Proposisi, Logika dalam Berpikir Sebagai Dasar Penalaran Ilmiah. Jurnal Filsafat Indonesia, 6(2).
10. Utami, N. M., & Ulhaq, U. D. (2026). Logic and Language as Instruments of Scientific Thinking. Gunung Djati Conference Series, 62.
11. Pamukcu, A., & Akbarov, A.A. (2015). Analyzing the Interrelations of Cognitive Process and Logic on Language. EKEV Akademi Dergisi, 19(64).
12. Mahmudi, I. (2016). Bahasa Sebagai Sarana Berpikir Ilmiah: Analisis Pembelajaran Bahasa Kontekstual. At-Ta'dib, 4(1).
13. Kassem, A. (2026). The Relationship between Language and Logic. Ph.D. Course Paper, The Philosophy of Language.
14. Castellano, D. J. (2009). Logic and Language: Part I. Arcane Knowledge.

**NƏRMİN MAQSUDOVA**
*Karabakh University, Faculty of Education,*
*Foreign Language Teaching (SABAH Groups), 3rd-Year Undergraduate Student*

## THE RELATIONSHIP BETWEEN LANGUAGE AND LOGIC: THE ROLE IN THE FORMATION OF THINKING

This article looks at how language norms and logical thinking are related to each other, as well as how scientific ideas come together to make structured thought. The primary objective is to demons-

trate that language functions not only as a medium of communication but also as a mechanism that shapes cognitive structure. It's also important to remember that one of the main jobs of language is to shape thought, and logic makes sure that this structure is accurate and consistent. The article looks at the role of true and false statements in how we think, as well as how language encodes induction and deduction. Based on what has been said, it seems that scientific progress is possible when the expressive powers of language are combined with the rules of logic. Language would be a mess and hard to understand without logic, and logical thinking would be impossible to express without language. Even if a speaker uses the right words, if their thoughts aren't clear, their message isn't clear and is not acceptable.

*Keywords:* Language, logic, scientific thinking, cognition, proposition, bivalence, induction, deduction.

*Daxil olma tarixi*: 29.04.2026-cı il.
*Çapa imzalanma tarixi*: 05.05.2026-cı il.

Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları
Studies of the Turkic World Young Researchers Association
№2(14) 2026, 118-121

UOT 94(479.24); UOT 32:93/94

**RƏMZİ SƏFƏRLİ**
*Bakı Dövlət Universitetinin magistrantı*
**ramzisafarli0@gmail.com**

# HEYDƏR ƏLİYEVİN SİYASİ LİDERLİYİ DÖVRÜNDƏ DAĞLIQ QARABAĞ PROBLEMİ

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Mətanət Məmmədova

*Müstəqilliyimizin bərpasından sonrakı ilk illərdə ölkəmizin üzləşdiyi ən mürəkkəb sınaqlardan biri olan Dağlıq Qarabağ problemi milli təhlükəsizliyimizə və ərazi bütövlüyümüzə ən böyük təhdidlərdən birinə çevrilmişdi. Xalqımızın və ölkəmizin dar günündə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev bu münaqişənin həlli istiqamətində məqsədyönlü mübarizəyə başlamışdır. Ümumilli Lider hələ Azərbaycan SSR-ə rəhbərliyi dövründən etibarən erməni millətçilərinin ərazi iddialarının qarşısını vaxtında sərt şəkildə almış və Qarabağın Azərbaycana daha da bağlı olması üçün əsaslı bir sıra addımlar atmışdır. Lakin onun 1987-ci ildə SSRİ-nin ali siyasi rəhbərliyindən süni şəkildə kənarlaşdırılması erməni separatçılarının fəaliyyətlərini genişləndirməsinə çox münbit zəmin yaratmışdır. Müstəqillik dövründə isə xalqımızın təkidi ilə siyasi liderliyə qayıdan Dahi Şəxsiyyət 1994-cü ildə Bişkek protokolu ilə atəşkəsə nail olmaqla və Əsrin Müqaviləsi"kimi uzaqgörən geostrateji addımlarla dünya birliyinin diqqətini bizim haqq işimizə cəlb etməyi bacarmışdır. Məhz bu məqsədyönlü siyasət nəticəsində 1996-cı il Lissabon sammitində Azərbaycanın diplomatik qələbəsi təmin edilmiş, ərazi bütövlüyümüzün beynəlxalq hüquq müstəvisində tanınmasına nail olunmuşdur. Məqaləmizin yazılmasında əsas məqsəd təkcə Ulu Öndər Heydər Əliyevin ölkəmiz üçün etdiyi misilsiz siyasi rəhbərliyini əks etdirmək deyil , həm də gələcək tarixi Zəfərimizə aparan yolda onun atdığı uzaqgörən diplomatik addımların təfərrüatlarına enmək və problemin beynəlxalq müstəvidə hüquqi həlli istiqamətində apardığı mübarizəni tam dolğun formada işıqlandırmaqdan ibarətdir.*

*Açar sözlər*: Heydər Əliyev, Dağlıq Qarabağ, I Qarabağ müharibəsi, Bişkek sülhü, Atəşkəs.

***Giriş.*** Heydər Əliyevin siyasi liderliyi dövrü Azərbaycanın müstəqillik əldə etməsindən sonra ən çətin və mürəkkəb dövrlərdən biri olaraq tarixə düşmüşdür. Bu dövrdə ölkə iqtisadi və siyasi islahatlar həyata keçirmək, həmçinin Dağlıq Qarabağ münaqişəsi kimi ciddi xarici və daxili problemlərlə mübarizə aparmaq məcburiyyətində qalmışdır. Dağlıq Qarabağ problemi Azərbaycanın müstəqillik qazandığı ilk illərdən etibarən ən böyük və ən həssas məsələlərdən biri olmuş, ölkənin milli təhlükəsizliyi və ərazi bütövlüyü ilə bağlı ciddi təhdidlər yaratmışdır. Heydər Əliyev 1993-cü ildə Azərbaycanın rəhbərliyinə gəldikdən sonra Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ardıcıl və məqsədyönlü diplomatik addımlar atmışdır. Onun liderliyi altında Azərbaycan beynəlxalq aləmdə öz mövqeyini möhkəmləndirərək münaqişənin hüquqi və ədalətli həlli üçün çoxşaxəli yanaşmalar ortaya qoymuşdur. Bu məqaləmizdə Heydər Əliyevin rəhbərliyi altında Dağlıq Qarabağ probleminin həlli üçün atılan addımlar və bu dövrün Azərbaycanın xarici siyasətindəki rolu təhlil ediləcəkdir.

Qarabağ məsələsi tariximizin hər bir dövründə xüsusi əhəmiyyət kəsb etdiyi kimi Heydər Əliyevin dövlətçilik tarixində də xüsusi izlər buraxmış əsas məsələlərdən biridir.

Öncəliklə qeyd edək ki, Azərbaycan xalqının ümummilli lideri olan Heydər Əliyevin siyasi fəaliyyəti uzunmüddətli bir dövrü özündə ehtiva etməkdədir. Onun dövlətçiliklə bağlı olan ideyaları yalnız prezident seçildiyi dövr yox, daha öncəki dövrləri də əhatə edirdi. İlk addımlarını 1967-ci ildən - Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi komitəsinin sədri olaraq fəaliyyətə başladığı dövrdən atmağa başlamış görkəmli xadim sonrakı dövrlərdə öz statusuna yeni adlar əlavə etmiş, 1969-cu ildə Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi vəzifəsində çalışaraq fəaliyyətinə davam etdirmişdir. Əliyev Azərbaycan SSR-də vəzifəyə gəldiyi dövrdən bir çox sahədə

yeniliklər icra etmişdir. Bununla bağlı bir çox sahələrdə kadr dəyişikliyi etmiş, rüşvətxorluq, korrupsiya kimi halların aradan qaldırılması ilə bağlı əsaslı tədbirlər həyata keçirmişdir. Kadr dəyişikliklərinin bir qismi də məhz Dağlıq Qarabağla bağlı idi. 1973-cü ilin payızında Heydər Əliyev Azərbaycan KP MK-ın Dağlıq Qarabağ Vilayət Komitəsinin birinci katibi vəzifəsinə bundan əvvəl Bakıda Kirov Rayon Partiya Komitəsinin birinci katibi vəzifəsində çalışmış Boris Kevorkovun seçilməsini təklif edir [5]. Onun bu təklifinin nəticəsi olaraq, 1973-cü il oktyabrın 12-də Boris Kevorkov Dağlıq Qarabağ Vilayət Komitəsinin birinci katibi vəzifəsinə təyin edilmiş, 1988-ci ilə qədər bu sahədə fəaliyyət göstərmişdir.

Bildiyimiz kimi ermənilərin əraziyə olan iddiaları dəfələrlə qabardılmış məsələlərdən biri idi. Hətta bununla bağlı Heydər Əliyev Milli Məclis qarşısında olan çıxışında belə deyirdi: “Ermənilərin bu torpaq iddiası yeni bir şey deyildir” [4, s.19]. Bir daha qeyd edək ki, bu hallar təkcə Ulu Öndərin siyasi hakimiyyətdə olduğu dövrlərdə deyil, tariximizin çox keçmiş səhifələrində belə öz əksini tapır. Bunlardan biri kimi 1964-cü ildə baş qaldırılan ərazi iddialarını misal göstərə bilərik. Belə ki, bu dövrdə SSRİ rəhbərliyindəki Mikoyan ilə Ermənistan liderləri Sov. İKP MK-nın baş katibi Xruşşovla görüşlərində Krımın Ukraynaya verilməsini nümunə göstərərək DQMV-nin də Ermənistana birləşdirilməsini istəmişdilər. Xruşov isə cavabında “Sizə Dağlıq Qarabağdakı erməniləri Ermənistana daşımanız üçün 24 saat vaxt və 12 min hərbi yük maşını verməyə hazıram” demişdir. Xruşşovun bu sərt cavabı səbəbi ilə mövzu yenə müvəqqəti olaraq bağlanmışdır [1, s.18]. Lakin Xruşşovun istefasından sonrakı dövrdə bu məsələ yenidən baş qaldırır. Xüsusilə bununla bağlı daşnak qüvvələr 1967-ci ilin yayında Xankəndidə təxribat törədərək Dağlıq Qarabağın Ermənistana verilməsi fikrini güdürdülər. Məhz bu dövrdə Heydər Əliyevin səyləri nəticəsində təxribat törətmiş nümayəndələr həbs edilir. Buna baxmayaraq bu məsələ 1977-ci il noyabrın 23-də yenidən gündəmə gətirilir. Bu zaman siyasi lider kimi meydana atılan Heydər Əliyev ermənilərin ərazi iddialarının əsassız olduğunu dilə gətirmiş, onların bu iddialarına qarşı mübarizə aparmışdır. Eyni zamanda bu məsələ SSRİ hökumətinin iclasında müzakirə olunsa da Heydə Əliyev müzakirələrin aparılmasının qarşısını almışdır. Beləliklə, Ulu Öndərdən öncəki dövrlərdə Qarabağda ayrıca hakimiyyət qurmaq cəhdləri xeyli artan ermənilərin atdığı bu addımlar öz uğursuz nəticəsini göstərir. Nəticədə, Ümumilli Liderin qətiyyətli addımları sayəsində ermənilərin mərkəzdənqaçma meyilləri kəskin surətdə neytrallaşdırılır.

Atılmış addımlara və Heydər Əliyevin sərt siyasətinə baxmayaraq ermənilərin Dağlıq Qarabağa olan iddiaları 1980-ci illərdə də davam edir. “1980-ci illərin ilk yarısında bölgədən olan Erməni əsilli yazarlar yazılarının sonuna ünvan kimi “Ermənistanın Qarabağ bölgəsi” yazmağa başlamışdılar” [1, s.18]. Məhz buradan da aydın olur ki, özlərinin olmayan ərazilərə göz dikmiş qüvvələr bu torpaqların özlərinə xas olduğunu qələmə vermək üçün əllərindən gələni edirdilər. 1982-ci ilin noyabrında Siyasi Büronun üzvü seçilmiş Heydər Əliyevə sözsüz ki, bu məsələlərin hər biri ilə bağlı məlumat verilmiş və məsələ ilə bağlı dəfələrlə Erməni qüvvələrinə xəbərdarlıq edilmişdir. Bütün bunları nəzərə almayaraq qulaqardı edən erməni mənfurları Qarabağ məsələsinin siyasi cəbhədə alovlanması üçün əllərindən gələni etməyə çalışırdılar. Erməni dairələri məqsədlərinə çatmaq üçün ilk növbədə Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin üzərinə kütləvi böhtan dolu hücuma keçdilər. Bununla da Əliyev 1987-ci il oktyabrın 21-də keçirilən Sov.İKP MK plenumunda vəzifəsindən azad edildi [3, s.57]. Beləliklə, 1988-ci ildən etibarən separatçılıq qüvvələrini gücləndirən ermənilər bu sahədə Rusiya hərbi qüvvələrindən də kömək almağa başlamışdılar. Baş verən təxribatlar, provakasiya aktları bir-birini əvəz etməkdə idi. Dağlıq Qarabağla bağlı hakimiyyətin fikrini yayındırmaq üçün ardıcıl olaraq terror aktları törədilirdi. Hansı ki, bunlardan ən böyüyü də məhz Sumqayıt hadisələri ilə bağlı idi. Mövcud olan siyasi qarışıqla bağlı daha sonrakı dövrlərdə Vladislav Safonov belə deyirdi: “Əgər o vaxt, Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gəlməsini israrla tələb etsəydi, bu gün sizin Qarabağ probleminiz olmazdı”[2]. Bütün bunlar bir daha onu deməyə əsas verir ki, Heydər Əliyev həqiqətən də siyasi lider kimi böyük gücü əks etdirirdi. Onun bu dövrlərdə məqsədyönlü şəkildə hakim dairələrdən uzaqlaşdırılması Dağlıq Qarabağ probleminin daha sürətli “inkişafına” gətirib çıxardı. Hətta bu mövzuya Milli Məclis qarşısında çıxışlarından birində də toxunmuşdur. O deyirdi: “O fakt da nəzərdən qaçmamalıdır ki, mən Moskvada bütün işlərdən kənarlaşdırılandan 25 gün sonra bu proses sürətlə başladı. Ondan bir ay sonra Dağlıq Qarabağda olan ermənilərin hamısı ayağa qalxdılar və qərar qəbul etdilər ki, Dağlıq Qarabağ Ermənistana birləşdirilsin. Ondan sonra bu faciələr başladı, bunun nəticəsi də göz qabağındadır” [4, s.20]. Beləliklə, Qarabağ münaqişəsi

şiddətlənərək Vətən müharibəsi halını alır. Dağlıq Qarabağ münaqişəsinin yatırılması sahəsində addımlar atılır. Atəşkəs elan edilməsi üçün məhz Heydər Əliyevin siyasi liderliyə yenidən qayıtmasından sonra tədbirlər görülür. Nəticədə 1994-cü ildə Bişkekdə müqavilə imzalanması ilə tərəflər arasında atəşkəs əldə edilir. Bu baxımdan Ulu Öndər Heydər Əliyevin rolu danılmazdır.

Müharibə zamanı qeyd etməli olduğumuz məqamlardan biri də Rus hərbi dairələrindən güc alan daşnak qüvvələrinin ərazilərimizdə ardıcıl olaraq dəhşətli soyqırımlar törətməsi ilə bağlıdır. Bunlardan biri də məhz Xocalı soyqırımı idi. Hansı ki, Heydər Əliyev prezident kimi fəaliyyətə başladıqdan sonra Xocalı faciəsinin "Xocalı soyqırımı günü" kimi yad edilməsi ilə bağlı qərar verir. Bununla da 26 fevral Xocalı faciəsinin il dönümü kimi hər il Respublikamızda anım günü olaraq yad edilir. Ümumiyyətlə, Heydər Əliyevin hakimiyyətə yenidən qayıtması ilə Dağlıq Qarabağ məsələsinin siyasi cəbhədə canlandırılması və düzgün qiymət verilməsi prosesi yenidən baş qaldırır. Xüsusilə bu proseslər 1996-cı ildə baş vermiş Lissabon sammitində öz əksini tapır. Nəticə etibarı ilə Dağlıq Qarabağ məsələsinə düzgün hüquqi dəyərin verilməsi sahəsində addımlar atmaq üçün diaspor fəaliyyəti də gücləndirilir. Bununla yanaşı ölkə daxilində gənclərin maarifləndirilməsi fonunda Dağlıq Qarabağla bağlı məsələləri əks etdirən layihələrə imza atılır. Bir sözlə, bunların hər biri Ümumilli Lider Heydər Əliyevin uğurlu siyasətinin göstəricisidir.

***Nəticə***. Heydər Əliyevin siyasi liderliyi dövründə Dağlıq Qarabağ problemi yalnız Azərbaycanın daxili məsələsi deyil, həm də beynəlxalq müstəvidə geniş müzakirə olunan, ölkənin ərazi bütövlüyünü təhdid edən bir məsələ kimi gündəmdə qalmışdır. Heydər Əliyevin münaqişənin həlli istiqamətində apardığı diplomatik və hərbi siyasət Azərbaycanın güclü beynəlxalq mövqeyini formalaşdırmış, eyni zamanda Dağlıq Qarabağ məsələsinin ədalətli və beynəlxalq hüququn prinsipləri əsasında həllinə dair müsbət imkanlar yaratmışdır. Onun liderliyi dövründə atılan addımlar, yalnız münaqişənin hərbi həllindən imtina etməklə kifayətlənməmiş, həm də diplomatik cəbhədə böyük uğurlar əldə edilməsi ilə nəticələnmişdir. Heydər Əliyevin beynəlxalq aləmdəki nüfuzu Azərbaycanın haqq səsini eşitdirərək, ərazi bütövlüyünü təmin etmək üçün mühüm zəmin yaratmışdır.

Ümumilikdə, Heydər Əliyevin Dağlıq Qarabağ problemi ilə bağlı apardığı siyasət yalnız münaqişənin diplomatik həllinə doğru atılmış əhəmiyyətli addımlar deyil, həm də Azərbaycanın güclü, müstəqil və ərazi bütövlüyünü qoruyan bir dövlət olaraq beynəlxalq aləmdə tanınmasına və mövqeyinin möhkəmlənməsinə xidmət etmişdir. Bu siyasət həm də müstəqil Azərbaycanın gələcək uğurları üçün əsaslı bir zəmin yaratmışdır. Son olaraq onu qeyd etmək lazımdır ki, Heydər Əliyev heç zaman Qarabağımızın itirilməsi ilə barışmırdı. O hər zaman çıxış nitqlərində "Qarabağa qayıdacayıq!" deyə qeyd edirdi. Onun bu siyasətini uğurla davam etdirən İlham Əliyevin komandanlığı sayəsində, XX əsrin sonlarında işğal edilmiş torpaqlarımız bu gün azaddır.

## ƏDƏBİYYAT


1. Aslanlı A.Qarabağ problemi: tarixi, mahiyyəti, həll prosesi. Bakı, Nurlar, 2009, 112 s.
2. General V. Sofonov: "Əgər o vaxt Heydər Əliyevin hakimiyyətə gəlməsini israrla tələb etsəydi, bu gün sizin Qarabağ probleminiz olmazdı" // AzərTAC, 30.04.2018. - general_vladislav_safonov_eger_o_vaxt_heyder_eliyev_hakimiyyetde_olsaydi_bu_gun_azerbaycanin_qarabag_problemi_olmazdi [26.04.2026].
3. Qasımlı M. Azərbaycan Respublikasının tarixi. I cild: 1991-2021. Bakı, BDU nəşriyyatı, 2021, 384s.
4. Abdullayev E. Dağlıq Qarabağ problemi beynəlxalq hüquq müstəvisində. Bakı, Təhsil, 2004, 216 s.
5. Heydər Əliyev və 1970-80-ci illərdə Qarabağ məsələsi / "Karabakh.Center" layihəsi. - https://story.karabakh.center/az/heyder-eliyev-ve-1970-80-ci-illerde-qarabag-meselesi [26.04.2026].



**RAMZI SAFARLI**

*Master student of Baku State University*


## THE NAGORNO-KARABAKH CONFLICT DURING HEYDAR ALIYEV'S POLITICAL LEADERSHIP


Heydar Aliyev's political leadership period is considered one of the most difficult and complex times in Azerbaijan's history after regaining independence. During this period, the country was faced

with the need to implement economic and political reforms while simultaneously dealing with serious external and internal issues, such as the Nagorno-Karabakh conflict. The Nagorno-Karabakh issue became one of the most significant and sensitive matters for Azerbaijan since the early years of its independence, posing severe threats to the country's national security and territorial integrity. After Heydar Aliyev assumed leadership in 1993, he took consistent and purposeful diplomatic steps towards resolving the Nagorno-Karabakh conflict. Under his leadership, Azerbaijan strengthened its position in the international arena and put forward multifaceted approaches for the legal and just resolution of the conflict. This article will analyze the steps taken under Heydar Aliyev's leadership to address the Nagorno-Karabakh issue and explore the role of this period in shaping Azerbaijan's foreign policy.

*Keywords:* Heydar Aliyev, Nagorno-Karabakh, First Karabakh War, Peace of Bishkek, Armistice.

*Daxil olma tarixi*: 26.04.2026-cı il.
*Çapa imzalanma tarixi*: 05.05.2026-cı il.

*Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları*
*Studies of the Turkic World Young Researchers Association*
*№2(14) 2026, 122-127*

**UOT 16**

**ROZA LƏLƏYEVA**
*Qarabağ Universiteti Pedaqoji fakültəsinin*
*İngilis dili müəllimliyi ixtisasının (SABAH qrupu) III kurs tələbəsi*
**rozaleleyeva@gmail.com**

# MƏNTİQ XƏTALARININ ÖYRƏNİLMƏSİNİN UNİVERSİTET TƏLƏBƏLƏRİNİN QƏRARVERMƏ VƏ TƏNQİDİ DÜŞÜNCƏ BACARIQARINA TƏSİRİ

*Elmi rəhbər:*
Qarabağ Universitetinin müəllimi Fizzə Məmmədova

*Bu tədqiqat ali təhsil müəssisələrində təhsil alan tələbələrin tənqidi düşünmə və qərar qəbul etmə bacarıqlarına məntiq xətalarının təsirini araşdırmağa yönəlmişdir. Sürətlə dəyişən rəqəmsal informasiya mühitində tələbələrin ziddiyyətli məlumat və arqumentləri dəqiq şəkildə qiymətləndirə bilməsi, xüsusilə də məntiqi şəkildə əsaslandırılmış qərarlar qəbul etməsi vacibdir. Lakin mövcud müşahidələr göstərir ki, tələbələr tez-tez emosional cəhətdən təsiredici arqumentləri məntiqi cəhətdən əsaslandırılmış arqumentlərdən fərqləndirə bilmirlər. Burada aparılan araşdırma kvazi-eksperimental tədqiqat dizaynından istifadə etmişdir. Beləliklə, nəticələr eksperimental və nəzarət qrupu vasitəsilə əldə edilmişdir. Eksperimental qrupa məntiq xətaları üzrə sistemli tədris verilmiş, nəzarət qrupuna isə bu mövzu üzrə hər hansı xüsusi təlim verilməmiş tələbələr yer alır. Müqayisəli təhlil zamanı məntiq xətaları üzrə təlim keçmiş tələbələrin arqumentləri daha yaxşı təhlil edə bildiyi, məntiqi zəiflikləri müəyyənləşdirdiyi və daha rasional qərarlar qəbul etdiyi müəyyən edilmişdir. Nəticələr təsdiq edir ki, məntiq xətalarının ali təhsil proqramlarına daxil edilməsi tələbələrin qərar qəbul etmə keyfiyyətini və tənqidi düşünmə bacarıqlarını əhəmiyyətli dərəcədə yüksəldir.*

*Açar sözlər:* tənqidi düşüncə, qərarvermə, məntiq xətaları, ad hominem, ad baculum, ad misericordiam, ali təhsil.

***Giriş.*** Müasir cəmiyyətimizdə tənqidi düşüncə və əsaslı qərar vermə bacarıqları hər bir fərdin sosial, peşəkar və akademik həyatında ən vacib bacarıqlar kimi qəbul edilir. Bunun əsas səbəbi dəyişən dünyamızda insanların hər gün çoxsaylı məlumatlara məruz qalmasıdır. İnsanlar məlumatların doğruluğunu və yanlışlığını həmin bacarıqlar sayəsində qiymətləndirirlər. Məhz bu kontekstdə cəmiyyətin analitik və tənqidi düşünən, ən doğru qərarlar verən fərdlərini yetişdirən məkan, yəni universitetlər diqqət qazanır. Arqumentlərə tənqidi yanaşaraq və doğru təhlil apararaq qərar vermə kimi proseslər ilkin olaraq məktəb mühitindən başlayır, daha sonra müasir ali təhsil mərkəzlərində geniş şəkildə tətbiq olunur. Həmçinin fərdlərin uğurlu karyerası, vətəndaşlıq mövqeyinin inkişafı və bir çox sahəyə töhfəsi üçün bu bacarıqların öyrədilməsi böyük əhəmiyyət daşıyır.

Bununla belə, tələbələrin arqumentləri təhlil edərək onlar haqqında qərar verməsində ciddi çətinliklər müşahidə edilir. Bir çox təhsilalan emosional cəhətdən güclü, lakin məntiqi cəhətdən zəif olan arqumentlərə doğru hesab etməyə meyl göstərirlər. Tənqidi düşüncənin və qərar verməyin əhəmiyyətini ön plana çıxarmasının əsas səbəblərindən biri isə akademik mühitdə, hətta sosial mediada da yanlış arqumentlərin yayılması hesab olunur. Elmi ədəbiyyatlar göstərir ki, insanlar çox vaxt arqumentin məntiqi quruluşunu deyil, onun emosional təsirini əsas götürərək qərar verirlər.

Belə bir sual ortaya çıxır: tələbələr niyə yanlış arqumentləri düzgün qiymətləndirə bilmirlər? Bu sualın cavabı əsasən onların məntiq xətalarını tanımaq sahəsindəki hazırlıqsızlığı ilə bağlıdır. Həmçinin, kognitiv qərəzlər və təcrübə çatışmazlığı kimi digər amillər də rol oynaya bilər.

Qeyd etdiyimiz kimi, məntiq xətalarının tanınmaması arqumentlərin doğruluğunun və yanlışlığının təhlilində bir çox problemlərə yol açır. Məntiq xətalarından bəhs etdikdə, görünüşcə inandırıcı, lakin quruluşca qüsurlu olan arqumentasiya formaları nəzərdə tutulur. Bu tədqiqatın əsas mərkəzində

üç xüsusi xəta növü dayanır: *ad baculum* (qorxuya müraciət), *ad hominem* (şəxsə hücum) və *ad misericordiam* (mərhəmətə müraciət). Adı çəkilən üç xəta forması gündəlik həyatda geniş yayılmışdır və tələbələrin qərar vermə prosesini ciddi şəkildə təhrif etmək gücünə malikdir.

Məntiq xətaları ilə bağlı yazılanlara nəzər saldıqda görürük ki, onların böyük əksəriyyəti ideya və nəzəriyyələrə, biliklərə əsaslanır. Xüsusilə universitet tələbələrinin məntiq sahəsindəki idrak prosesləri ilə bağlı aparılan eksperimental araşdırmalar son dərəcə məhduddur. Daha da konkretləşdirsək, məntiq xətalarını öyrənməyin insanların düşünmə və qərar qəbul etmə tərzinə necə təsir etdiyini göstərən tədqiqatlar isə demək olar ki, araşdırılmamışdır. Bu isə tədqiqatlardakı bir boşluq kimi hesab edilir. Məhz buna görə bu tədqiqat əhəmiyyətliliyini ortaya qoyur.

Bu məqalənin əsas məqsədi qorxuya müraciət, şəxsi hücum və mərhəmətə müraciət kimi xüsusi məntiq xətalarının universitet tələbələrinin qərar vermə və tənqidi düşüncə tərzinə necə təsir etdiyini öyrənməkdir. Həmçinin, məntiq xətalarının qərar vermə və tənqidi düşüncə bacarıqlarına necə təsir etdiyini, eləcə də bu xətaları öyrənməyin universitet tələbələrinin idrak proseslərini necə dəyişdirə biləcəyi barədə anlayış əldə etmək hədəflənir.

***Əsas hissə.*** Tənqidi təfəkkür, fərdin hər hansı bir iddianın məntiqini və doğruluğunu yoxlamaq üçün istifadə etdiyi mürəkkəb metakoqnitiv fəaliyyət kimi müəyyən edilir [9, s.155-158]. Bu sadəcə aktiv bir proses deyil, o, həmçinin ədalətlilik, obyektivlik və empirik sübutların davamlı axtarışını tələb edən dərin düşünmə prosesidir [2, s.4-6]. Bu baxımdan, tənqidi düşüncə anlayışı bəzən yanlış anlaşılsa da, o, yalnız irəli sürülən arqumentlərin tənqidi ilə məhdudlaşmır, əksinə məntiqi və sistemli düşüncəni vurğulayır.

Bu anlayışın komponentlərinə nəzər yetirildikdə buraya interpretasiya, analiz, qiymətləndirmə kimi hissələr ön plana çıxır [2, s.5]. İnterpretasiya bacarığı arqumentin mahiyyətini aydınlaşdırmağa imkan verərkən, analiz və qiymətləndirmə bacarıqları isə məlumatın daxili tutarlılığını yoxlamağa xidmət edir. Bununla yanaşı, açıq fikirlik və intellektual dürüstlük kimi komponentlər tələbələrin çətin situasiyalarda əqli dözümlülüyünü əks etdirir [4, s.10-12].

***Qərarvermə bacarığı.*** Mövcud alternativlər arasından müəyyən meyarlara əsaslanaraq əlverişli variantın seçilməsi prosesi qərarvermə bacarığı kimi müəyyən edilir [6, s. 978-981]. Bu bacarıq fərdin problemi düzgün müəyyənləşdirməsini tələb edir. Eyni zamanda mümkün həll yollarını müqayisəli şəkildə təhlil etməsini, yəni tənqidi düşüncəni də özündə əks etdirir.

Qərarvermə prosesi iki əsas perspektivdən rasional və emosional olaraq izah olunur [10, s.45-49]. Rasional qərarvermə məntiqi analizə, sübutlara və obyektiv qiymətləndirməyə əsaslandığı halda, emosional qərarvermə şəxsin hissləri, şəxsi təcrübələri və psixoloji vəziyyətini əsas götürür. Doğru və əsaslı qərarvermə prosesi üçün hər iki perspektivin balanslı şəkildə istifadəsi xüsusi əhəmiyyət kəsb edir.

***Tənqidi düşüncə və qərarvermə bacarıqlarının təhsildəki rolu.*** Ali təhsil müəssisələrində tənqidi düşüncənin inkişaf etdirilməsi həm akademik uğur, həm də gələcək peşə fəaliyyəti üçün strateji əhəmiyyət daşıyır [3, s.9-11]. Bu bacarığın təhsil prosesinə tətbiqi tələbələrin nəzəri bilikləri sintez edərək real həyat situasiyalarına tətbiq etməsinə zəmin yaradır [5, s.20-23]. Bu tipli bacarıqların öyrədilməsi intellektual inkişafı təmin etməklə yanaşı, cəmiyyətdə əsaslı arqumentlərin seçilməsinə və emosional manipulyasiyaların azaldılmasına birbaşa töhfə verir.

Eyni zamanda tənqidi düşüncənin ayrılmaz hissəsi olan qərarvermə bacarığı tələbənin muxtariyyətinin həm akademik, həm də real həyat aspektindən əsasını qoyur [8, s.65-67]. Bu bacarıq inkişaf etdikcə tələbə məlumatı passiv qəbul etməyi rədd edərək öz həyatında müstəqil qərar verici səviyyəsinə yüksəlir. Kurikulum və pedaqogika sahələri vasitəsilə qərarvermə qabiliyyətinin ötürülməsi tələbələri gələcəkdə çətin situasiyalarda və riskli vəziyyətlərdə doğru seçim etməyə hazırlayır. Beləliklə, bu iki mühüm bacarıq cəmiyyətin müxtəlif sahələrində rasional, etik və obyektiv seçimlər edilməsini təmin edir.

***Məntiq xətaları.*** Məntiq xətaları, mühakimə prosesinin arqumentin məntiqi quruluşunda yol verilən və nəticənin etibarsızlığına gətirib çıxaran qüsurlar kimi xarakterizə olunur [11, s.8-10]. Bu xətalar çox zaman inandırıcı və məntiqi görünsə də, mahiyyəti etibarilə rasional arqumentasiyadan uzaqdır. Aşkarlanmadığı müddətdə isə sosial münaqişələrə və qeyri-sabit cəmiyyət mühitinə zəmin hazırlayır.

Ədəbiyyatda ən geniş yayılmış məntiq xətaları aşağıdakılardır:

**Ad Hominem (Şəxsə hücum)**

*Ad hominem* xətası bir arqumentin məzmununun xətalı olduğunu sübut etmək əvəzinə, onu irəli sürən şəxsin şəxsiyyətini, xarakterini və ya etibarlılığını hədəf almaqla fikirləri etibarsız göstərmə cəhdidir [13, s.1-3]. Bu məntiqi qüsur çox zaman rəqibin dürüstlüyünü, mənəvi keyfiyyətlərini və ya sosial mənsubiyyətini sorğulamaq yolu ilə həyata keçirilir və nəticədə məzmunlu müzakirənin yerini şəxsi hücumlar tutur.

Tələbələrin bu xətaya düşməsinin əsas səbəbi insanın təbiətən sübutlardan çox emosional reaksiyalar və əvvəlcədən formalaşmış inanclar əsasında mühakimə yürütməyə meyli olmasıdır [11, s.12-14]. Xətanın "quyunu zəhərləmək" adlanan daha incə formasında isə rəqib birbaşa deyil, aid olduğu qrup, ideologiya və ya sosial mövqe vasitəsilə diskreditasiya edilir. Bu, rasional dialoqu başlanğıcda bloklamağa xidmət edir. *Ad hominem* xətasını tanımağı öyrənmək tələbəyə arqumentin dəyərini onu səsləndirən şəxsdən asılı olmayaraq qiymətləndirmək bacarığı verir.

**Ad Baculum (Güc və ya təhdid yolu ilə razılıq)**

Ədəbiyyatlarda "gücə müraciət" (*argumentum ad baculum*) xətası hakimiyyət və məcburetmə vasitəsilə razılıq əldə etmə cəhdi kimi təsvir edilir [14, s.301-305]. Bu qüsur məntiqi əsaslandırma prosesini kənara qoyaraq dinləyicini təhdid, qorxutma və ya güc nümayişi ilə müəyyən bir nəticəni qəbul etməyə sövq etməyi nəzərdə tutur. Akademik və sosial mühitdə bu, natiqin öz mövqeyini dəlillərlə deyil, nüfuz və ya təzyiqlə təsdiqləməsi şəklində özünü göstərir.

**Ad Misericordiam (Mərhəmətə müraciət)**

"Mərhəmətə müraciət" (*ad misericordiam*) xətası məntiqi müqəddimələr əvəzinə dinləyicinin emosional dünyasını, rəğbət, acıma və ya kədər hissini hədəf alaraq müəyyən bir nəticəni qəbul etdirmə cəhdi kimi xarakterizə edilir [5, s.20-22]. Bu qüsur faktlara əsaslanan əsaslandırma prosesini kənara qoyaraq auditoriyanın hiss dünyasına birbaşa müraciət etməyi nəzərdə tutur.

Bu strategiya inandırıcı ünsiyyətdə geniş yayılmış olduğundan xüsusilə təhlükəlidir. Dinləyici öz emosional reaksiyalarını qorumaq naminə məntiqi nəticələri şüursuz şəkildə rədd edə bilir [11, s.13-15]. Tənqidi düşüncə təlimi məhz bu həssas nöqtəyə yönəlir. Tələbələr güclü bir arqumentin subyektiv emosional çağırışlara deyil, düzgün müqəddimələrin ardıcıl və məntiqi şəkildə birləşdirilməsinə əsaslanmalı olduğunu dərk edirlər.

**Məntiq xətalarının tələbələrə təsiri və tədrisinin əhəmiyyəti**

Tələbələrin məntiq xətalarının təsirinə məruz qalması əksər hallarda düşüncə qənaətcilliyi və güclü emosional vəziyyətlərlə sıx əlaqəlidir. Bu xətalar analitik düşünmə qabiliyyətini zəiflədir və emosiyaların məntiqi arqumentlərin yerini almasına imkan yaradır [11, s.14-16]. Tələbə bu xətaların təsirinə məruz qaldıqda obyektiv təhlil arxa plana keçir və qərarlar strateji deyil, emosiyalara əsaslanan impulsiv davranışlara çevrilir. Bu vəziyyətin fasiləsiz baş verdiyi hallarda akademik uğursuzluqlara, yanlış seçimlərə və münasibətlərin zədələnməsinə zəmin yarana bilər.

Məntiq xətalarının ali təhsil sistemində sistematik şəkildə öyrədilməsi tələbələrdə arqumentasiya zəifliklərini tanıma və müəyyənləşdirmə qabiliyyətini formalaşdırır [5, s.18-24]. Tələbələr manipulyativ ritorikanı etibarlı məntiqi sübutdan fərqləndirməyi öyrəndikdə, qəbul etdikləri qərarlar daha rasional və əsaslandırılmış olur. Məntiq xətaları üzrə xüsusi təlim alan tələbələrin analitik problem həll etmə bacarıqları bu təlimi almayan həmyaşıdları ilə müqayisədə statistik baxımdan daha yüksəkdir (lakin statistik əhəmiyyətlilik ayrıca yoxlanılmamışdır) [3, s.10-12].

**Tədqiqat dizaynı**

Aparılan tədqiqat müxtəlif ixtisaslardan olan universitet tələbələrinin məntiq xətalarına aid bilik səviyyəsinin onların bacarıqlarına necə təsir etdiyini ölçmüşdür. Pretestposttest tətbiq edilmədən, iki müxtəlif qruplara bölünmüşlər. Eyni zamanda tədqiqat kvazi-eksperimental dizayn çərçivəsində aparılmışdır. İki müstəqil qrupa isə A - məntiq üzrə ixtisaslaşmış fənlər keçən tələbələr (eksperimental qrup). B - formal məntiq dərsləri tədris olunmayan tələbələr (nəzarət qrupu). Hər qrup 10 nəfərdən ibarət olmuşdur.

Tədqiqatda iştirakçı sayı hər qrup üzrə 10 nəfər olmaqla ümumilikdə 20 nəfər təşkil etmişdir. Təhsil sahəsində aparılan bu kiçik miqyaslı və ilkin xüsusiyyət daşıyan kvazi-eksperimental tədqiqat,

məntiq xətalarının tədrisinin bacarıqlara olan təsirini aydın şəkildə əks etdirmişdir. Həmçinin, qruplar arasında potensial fərqlərin ilkin səviyyədə aşkarlanmasına imkan yaratmışdır.

**Ölçmə alətinin əsaslandırılması**

Akademik iştirakçılardan məlumat toplanmasında ssenari əsaslı qiymətləndirmə metodundan istifadə olunmuşdur. Bu metod tələbələrin yalnız nəzəri biliklərini deyil, eyni zamanda məntiq sahəsinə aid bilikləri real həyat situasiyalarında tətbiqetmə bacarıqlarını ölçməyə imkan verdiyi üçün xüsusi olaraq seçilmişdir. Bu texnika, həyatımızın bütün hissələrini əhatə edən bu kimi idrak proseslərinin qiymətləndirilməsində yüksək ekoloji validlik təmin edir.

Bundan əlavə, ssenari əsaslı qiymətləndirmə orijinal mühüm qiymətləndirmə formalarından biri kimi qəbul edilir. Bir çox bacarıqda, məsələn: analitik düşünmə, tətbiqetmə və qiymətləndirmə kimi yüksək səviyyəli idrak bacarıqlarının ölçülməsində effektiv metod hesab olunur (Wiggins, 1998; Mislevy, 2007).

Tədqiqatda istifadə olunan ssenarilər məzmun etibarlılığını təmin etmək məqsədilə məntiq xətalarına dair qaydalara uyğun, akademik ədəbiyyata əsaslanaraq hazırlanmışdır. Ümumilikdə 4 ssenari və 16 sual tətbiq olunmuşdur. İştirakçılardan arqumentin məntiqi etibarlılığını qiymətləndirmək, məntiqi xətanı müəyyən etmək və arqumentin mənbəyini tanımaq tələb olunmuşdur. Qiymətləndirmə 1 bal (tam doğru) və 0,5 bal (qismən doğru) sistemi ilə aparılmışdır ki, bu da həm bilik, həm də tətbiq bacarıqlarının ölçülməsinə imkan vermişdir.

**Statistik analiz**

Məlumatların ilkin təhlili nümunə məlumatlarının işlənməsi və qruplaşdırılması üçün həm sadə, həm də mürəkkəb metodlardan istifadə edilməklə aparılmışdır. Qruplar A və B arasında fərqi ölçmək üçün orta göstəricilər və standart sapmalar hesablanmış və aşağıdakı ümumi nəticələr əldə olunmuşdur: A qrupu 7,6 (SD = 2,73), B qrupu isə 3,95 (SD = 1,79). A və B qrupları arasındakı statistik fərq əhəmiyyətli hesab edilmişdir ki, bu da tədqiqatın ilkin hipotezini təsdiqləyir; yəni bu tədqiqatın nəticələrinə əsasən iki qrup arasında ölçülə bilən (statistik baxımdan əhəmiyyətli) fərqin mövcud olduğu müəyyən edilmişdir.

İnferensial statistika isə A və B qrupları arasındakı fərqin statistik baxımdan nə dərəcədə əhəmiyyətli olduğunu müəyyən etmək üçün müstəqil nümunələr üçün t-test tətbiq edilmişdir. Bu t-test qruplar arasında əlaqəni ölçmək və beləliklə statistik münasibəti müəyyən etmək məqsədilə istifadə olunmuşdur. Analizin nəticələri ($t = 9,87$, $p < 0,05$) göstərir ki, məntiq xətaları üzrə təlim almış iştirakçılar (A qrupu) ilə təlim almamış iştirakçılar (B qrupu) arasındakı fərq statistik cəhətdən əhəmiyyətlidir. Bundan əlavə, bu analizdə müstəqil nümunələr üçün t-test istifadə edildiyi üçün bu fərqin təsadüfi dəyişkənlik nəticəsində yaranmadığı və iştirakçıların məntiq xətaları üzrə təlim alması ilə bağlı real performans fərqini əks etdirdiyi gözlənilir.

Son olaraq isə, iki qrup arasındakı fərqin praktiki əhəmiyyətini müəyyən etmək üçün effekt ölçüsü (Cohen's $d = 1,58$) hesablanmışdır. Çox yüksək statistik effekt ölçüsünün (yəni güclü əlaqənin) olması bu fərqin əhəmiyyətini təsdiqləyir və məntiq xətaları üzrə təlim almış iştirakçıların təlim almayanlara nisbətən daha yüksək performans göstərdiyini sübut edir. Bu fərqin əsas əhəmiyyəti ondan ibarətdir ki, məntiq xətaları üzrə təlim keçmiş iştirakçılar təlim almayanlara nisbətən ritorik üsulları elmi əsaslı sübutlardan daha yaxşı fərqləndirə bilirlər.

***Nəticə.*** Tədqiqat nəticələri göstərir ki, məntiq xətaları üzrə xüsusi hazırlıq keçmiş tələbələr arqumentlərin daxili məntiqi quruluşunu daha dərindən analiz edə bilmiş və xətaları daha yüksək dəqiqliklə müəyyənləşdirmişlər.

Müqayisəli təhlil göstərir ki, məntiq xətalarının tədris edildiyi A qrupunun iştirakçıları arqumentlər daxilindəki örtülü emosional təsirləri və manipulyasiyaları aşkara çıxarmaqda daha yüksək nəticə göstərmişlər. B qrupunun cavablarında isə əsasən səthi mühakimələrə və emosional faktorlara aldanma halları müşahidə olunmuşdur. Ümumilikdə əldə olunan statistik nəticələr məntiq xətaları üzrə xüsusi təlimin tələbələrin analitik düşünmə və arqument təhlili bacarıqlarına müsbət və güclü təsir göstərdiyini empirik şəkildə dəstəkləyir.

Tədqiqatın diqqətə dəyər ikinci tapıntısı tənqidi düşüncə bacarığının emosional manipulyasiyalara qarşı dözümlülüyü artırmasıdır. B qrupunun aşağı nəticə göstərməsi göstərir ki, məntiq xətaları

haqqında sistemli bilik olmadıqda tələbələr *ad misericordiam* tipli emosional çağırışlara qarşı daha həssas olurlar. Məntiq xətalarının tədrisi isə tələbəyə arqumenti onu ifadə edən şəxsiyyətdən və emosional kontekstdən ayırd etmək qabiliyyəti qazandırır. Bu qabiliyyət gələcək akademik və peşəkar qərarvermə proseslərində daha sübuta əsaslanan və rasional seçimlər üçün mühüm əsas yaradır.

ƏDƏBIYYAT


1. Manousou, E. (2025). Critical thinking in distance education: The challenges in a decade (2016-2025) and the role of artificial intelligence. Education Sciences, 15(757), 1-24.
2. Indrašienė, V., Jegelevičienė, V., Merfeldaitė, O., Penkauskienė, D., Pivorienė, J., Railienė, A., Sadauskas, J., & Valavičienė, N. (2021). The value of critical thinking in higher education and the labour market: The voice of stakeholders. Social Sciences, 10(286).
3. Dumitru, D., Minciu, M., Mihaila, R. A., Livinti, R., & Paduraru, M. E. (2022). Experimental programs of critical thinking enhancement: A worked-based, blended learning higher education curriculum for economics. Education Sciences.
4. Jaramillo Gómez, D.L., Álvarez Maestre, A.J., Parada Trujillo, A.E., Pérez Fuentes, C.A., Bedoya Ortiz, D.H., & Sanabria Alarcón, R.K. (2025). Determining factors for the development of critical thinking in higher education. Journal of Intelligence, 13(59).
5. Bregant, J. (2014). Critical thinking in education: Why to avoid logical fallacies? Problems of Education in the 21st Century, 61, 18-27.
6. Ehule, G.E., & Ehule, F.G. (2020). Decision making in higher education: A theoretical perspective. International Journal of Scientific Research in Education, 13(5), 978-993.
7. McConvey, K., & Guha, S. (2023). A human-centered review of algorithms in decision-making in higher education. arXiv preprint arXiv:2302.05839.
8. Pérez Lavandera, R., Constantin, C. P., Rodríguez Veiguela, Y., & Ramos-Giral, G.V. (2025). Decision-making processes in higher education: A systematic literature review. Bulletin of the Transilvania University of Braşov, Series V: Economic Sciences, 18(67).
9. Adhikari, N.P., Budhathoki, J.K., & Adhikari, S. (2025). Use of critical thinking in decision-making process. Perspectives on Higher Education, 15(1), 155-168.
10. Wong, B., & Watt, K. (2019). Thinking and decision-making. In Handbook of Cognition and Emotion. Routledge.
11. Manalu, L., et al. (2025). The impact of logical fallacies in business communication: Exploring their impact on decision making and interpersonal relationships in the professional world. Indonesian Journal of Management and Economic Research, 2(1).
12. Tuncer, A.M. (2022). Logical fallacy in education: False dilemma and quantal sociology. Open Access Library Journal, 9(e9131).
13. Habernal, I., Wachsmuth, H., Gurevych, I., & Stein, B. (2018). Before name-calling: Dynamics and triggers of ad hominem fallacies in web argumentation. Proceedings of the NAACL.
14. Budzynska, K., & Witek, M. (2014). Non-inferential aspects of ad hominem and ad baculum. Argumentation, 28, 301-315.



**ROZA LALAYEVA**

*Karabakh University, Faculty of Education,*

*Foreign Language Teaching (SABAH Groups), 3rd-Year Undergraduate Student*


## THE IMPACT OF LOGICAL FALLACIES ON UNIVERSITY STUDENTS' CRITICAL THINKING AND DECISION-MAKING SKILLS


The aim of this article is to investigate the impact of logical fallacies on the critical thinking and decision-making skills of students studying in higher education institutions. In a rapidly digitalizing information environment, the ability of students to correctly evaluate contradictory information and

arguments and to make sound decisions is of particular importance. However, many observations indicate that students often consider emotionally strong arguments to be equivalent to logically grounded arguments.

The study was conducted using a quasi-experimental design, and students were divided into experimental and control groups. The experimental group received instruction on logical fallacies, while the control group did not receive any specific training in logic. According to the results, students who received training on logical fallacies analyze arguments more accurately, identify errors more effectively, and make more rational decisions.

Finally, the obtained results demonstrate that teaching students about logical fallacies has a significant impact on the quality of their critical thinking and decision-making skills.

*Keywords:* critical thinking, decision-making, logical fallacies, ad hominem, ad baculum, ad misericordiam, higher education.

*Daxil olma tarixi*: 29.04.2026-cı il.
*Çapa imzalanma tarixi*: 05.05.2026-cı il.

***Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları***
***Studies of the Turkic World Young Researchers Association***
***№2(14) 2026, 128-131***

**UOT 372.8:94**

**RÖYA MİRZƏZADƏ**
*Bakı Dövlət Universitetinin I kurs magistrantı*
**roya.mirzezade.1994@gmail.com**

# AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİNDƏ "ÇEVRİLMİŞ SİNİF" MODELİNİN TƏTBİQİ: ÜSTÜNLÜKLƏR VƏ PROBLEMLƏR

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Mətanət Məmmədova

*Məqalədə şagirdin şəxsiyyət kimi formalaşması üçün tarix təliminin mühüm önəm daşıması kimi tarix təlimində istifadə olunacaq interaktiv metodların da bir o qədər əhəmiyyətli olduğu əsaslandırılmışdır. Bu interaktiv metodlardan biri olan "Çevrilmiş sinif" modelinin Azərbaycan tarixi tədrisində tətbiqi nümunələr əsasında göstərilmişdir. Modelin ortaya çıxması və inkişaf tarixinə deyinilmiş, eyni zamanda tətbiqi zamanı qarşılaşa biləcəyimiz müsbət və mənfi tendensiyalar haqqında məlumat verilmişdir. Nəticə hissəsində isə, gəlinən qənaətlər ümumiləşdirilərək elmi-texniki tərəqqinin də gətirdiyi yeniliklərin bu kimi innovativ yanaşmaların tədrisə inteqrasiyasının vacibliyi vurğulanmışdır.*

*Açar sözlər:* İnteraktivlik, çevrilmiş sinif, müasir təlim, tarixin tədrisi, aktiv öyrənmə.

***Giriş.*** Tarix özündə bir çox elmlərin təzahürünü əks etdirən inteqrativ bir fəndir. Buraya Sosiologiya, Pedaqogika, Politologiya və s. aiddir. Yəni, biz tarixi öyrənərkən bunun paralelində baş vermiş hadisələrin səbəb-nəticə əlaqələrini, ictimai həyata təsirini, dövrün mədəni-siyasi həyatını, qısacası, müvafiq problemin baş verməsinə təsir göstərmiş bir çox prosesi təhlil etmiş oluruq. Bununla biz passiv dinləyici rolundan çıxaraq hadisələri analiz edən, səbəb-nəticə əlaqələrini araşdıran bir növ tədqiqatçı rolundan çıxış edirik. Bu, aktiv və effektiv tarix öyrənməyin təzahürüdür.

Tarix elminin inkişaf etməsi, eyni zamanda tarixin tədrisi metodlarının da günü-gündən daha da təkmilləşməsinə və müasir elmi-texniki tərəqqi ilə ayaqlaşmasına səbəb olur. Ənənəvi təlimdə tarix tədrisində xronoloji ardıcıllıqdan daha çox istifadə edilərək, əsasən əzbər xarakterli öyrənməyə üstünlük verilirdi. Ancaq tarix elmi özündə sadəcə xronoloji ardıcıllıqlardan ibarət olmadığı kimi bu cür öyrənmə forması da effektiv və məqsədəuyğun sayılmır.

Ənənəvi təlimin yerini artıq müasir təlim alıb və hazırda interaktivliyi təmin etmək və aktiv öyrənməni surətləndirəcək onlarla metod işlənib hazırlanmışdır. Bu metodların məqsədi dərsdə şagird fəallığını artırmaq və şagirdin müstəqil öyrənmə araşdırma bacarıqlarının daha da inkişaf etdirilməsini təmin etməkdir. Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan təhsil strategiyamızın təməl prinsiplərindən biri də "şəxsiyyətyönümlü" təhsildir. Aktiv öyrənməni təmin etməkdə bizim bir digər məqsədimiz məhz şagirdin bir şəxsiyyət kimi inkişafını təmin etməkdir. Bu baxımdan tarixin tədrisi zamanı istifadə olunacaq metodlarda bilavasitə xüsusi önəm daşımaqdadır.

***Çevrilmiş sinif modeli nədir?*** Tarixin tədrisində istifadə olunan interaktiv metodlardan biri də "Çevrilmiş sinif" modelidir. Bu model ənənəvi tədrisi tərsinə çevirərək şagirdin mühazirə tipli daha çox nəzəri məsələləri, araşdırma və məlumat öyrənməsini gərəkdirən proseslərin evdə, əsasən interaktivlik və praktika tələb edən fəaliyyətlərin isə, sinifdə tətbiqini nəzərdə tutur. İlk öncə bu tədris modelinin qısa tarixinə nəzər salaq.

"Maureen Lage, Glenn Platt və Michael Treglia oxşar yanaşmanı "tərs sinif otağı" kimi təsvir etdilər və 2000-ci ildə iqtisadiyyata giriş kursunda onun tətbiqinə başladılar" [4, s.1]. Bu modelin nəzəri əsasları 2000-ci illərə dayanır. İlk olaraq bu model mikroiqtisadiyyat dərslərində tətbiq olunmağa başlandı. Hansı ki, tədris olunacaq dərsə aid bir sıra video materiallar və ya slaydlar, eyni zamanda mühazirə mətnləri tələbələrin evdə məşğul olmaları üçün əlçatan edildi. Beləliklə, artıq dərs prosesində müəllim şagirdlərə birbaşa öyrəndikləri nəzəri biliklərə aid sualları olub olmamasına dair sorğu keçirərək başlanılırdı. Əgər tələbələrin hər hansı sualı yox idisə deməli ki, mövzunun mənimsənilməsində

problem yox idi və artıq sinifdə praktiki tətbiqə başlanılırdı. Təbii ki, zaman keçdikcə informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı ilə əlaqədar olaraq "Çevrilmiş sinif" modeli də inkişaf etdi.

"2007-ci ildə ABŞ-ın Kolorado ştatının kiçik bir şəhərciyində kimya müəllimləri Berqman və Sams şagirdlərin idmanla məşğul olduqlarına görə dərsdən yayındıqlarını müşahidə edərək bilmədən təhsildə yeni model kəşf etdilər" [3]. Şagirdlərinin müxtəlif səbəblərə görə dərslərə gələ bilməməsini və geriləmələrini görən kimya müəllimləri Bergman və Sams dərsləri onlayn videolar şəklində Youtube kimi platformalara yükləyərək onlara istənilən vaxt əlçatan olmasını hədəflədilər. Beləliklə, müxtəlif səbəblərdən dərsdə iştirak edə bilməyən şagirdlərlə bərabər digər şagirdlər üçün də dərsə aid materiallar daha əlçatan olacaq və dərs prosesində isə, daha çox praktiki məsələlərə öncəlik veriləcəkdi. Jon Bergmann zamanla bu model üzərində işləyərək onu daha da təkmilləşdirir və hansı fənnin tədrisində istifadə olunmasından asılı olamayaraq kifayət qədər effektiv bir model olduğunu əsaslandırır.

"Çevrilmiş sinif" modeli haqqında bir müsahibəsində hətta o deyir: "Bu modelin tətbiqində təməl fikir budur: Bloom taksanomiyasının alt səviyyələrindəki asan proseslərin, yəni bilgi, anlama müstəqil ortamda aparılır. Digər mərhələlər isə, qrup ortamında gerçəkləşir" [6]. Bildiyimiz kimi, şagirdlərin ən çox əziyyət çəkdiyi məsələlərdən biri də məhz praktiki tətbiqdir. Nəzəri bilikləri öyrənmək təəssüf ki, kifayət etmir. Xüsusilə müasir təlimdə əsas hədəf şagirdin qavrama prosesini surətləndirmək, və onun müstəqil fəaliyyətini dəstəkləyərək müxtəlif kompetensiyaların formalaşmasına dəstək verməkdir. Öyrəndiyi biliklərin həyatda real proseslərdə necə istifadə edəcəyini təcrübədən keçirməsi, eyni zamanda biliklərin uzun müddət yadda qalmasına da mühüm əsas yaradır. Burada Bergmanın da əsaslandırdığı məqam budur. Bloom taksanomiyasının üst mərhələləri olan anlama, tətbiq, təhlil, yaratmaq şagirdlərin daha çox çətinlik çəkdikləri mərhələlərdir. Bu baxımdan dərsdə əsas fokusun bura yönəldilməsi dərsin daha effektiv qavranılmasına şərait yaradacaqdır.

***Tarixin tədrisində tətbiqi (nümunələr əsasında).*** Dəqiq fənnlərin tədrisi zamanı bu modelin nə dərəcədə effektiv ola biləcəyini yuxarıdakı nümunələrdən də anladıq. Indi isə, Tarix fənninin tədrisində biz bu modeli necə tətbiq edə bilərik ona yaxından nəzər salaq. Bildiyimiz kimi, tarix özündə səbəb-nəticə əlaqələrinin təzahüründən ibarətdir. Bir çox hadisə zəncirvari formada bir-birnə bağlı şəkildə irəliləyir. Buna görə də, xronoloji ardıcıllığa önəm verilməklə yanaşı şagirdlər baş vermiş hər hadisənin səbəbini müəyyən etmək üçün mütəmmadi olaraq özlərinə "niyə?" sualını verməlidirlər. Tam da bu əsnada biz çevrilmiş sinif modeli əsasında effektiv öyrənməni əsaslandıra bilərik. Belə ki, şagirdlər bilik əldə etmə və öyrənmə mərhələsini evdə, öz müstəqil fəaliyyətləri ilə həyata keçirirlər. Bu mərhələdə təkcə dərslikdəki material ilə kifayətlənməyib müxtəlif əlavə mənbələrdən də məlumatlar əldə edilərək mövzunun dərindən araşdırılması daha məqsədəuyğundur. Xüsusilə müəllim dərsdən əvvəl zəruri materialları hazırlayıb şagirdlər üçün müvafiq onlayn platformlarda paylaşaraq əlçatanlığı təmin edir. Şagirdlər bu materiallardan eləcə də öz araşdırmaları ilə əldə etdiyi materiallar əsasında məlumat toplayır. Ikinci mərhələdə isə, yəni sinifdə artıq öyrənilən dərsin müzakirəsi təşkil olunur. Bu zaman "debat", "sokrat dialoqu", "evristik müsahibə", "xəritə üzərində izahlı təqdimat" və digər üsullarla da proses daha da dəstəklənməlidir. Problemli və sual yaradan məqamlar müəllim tərəfindən aydınlaşdırılır və qiymətləndirmə, refleksiya mərhələsi ilə dərs sonlandırılır.

*Mövzu: Müstəqil dövlətçiliyin bərpası* [1, s.28].

I mərhələ: dərslikdən əlavə olaraq şagirdlər müəllimin göndərdiyi qaynaqlar və öz araşdırmaları əsasında mövzu haqqında ətraflı məlumat əldə edirlər. Dövrün siyasi və iqtisadi şəraiti haqqındada ətraflı araşdırma. Müstəqil dövlətlərin yaranmasına və xilafətin zəifləməsinə hansı amillər təsir etdi?

II mərhələ: Sinifdə BİBÖ cədvəli qurulur. İlk öncə şagirdlərin bildikləri yəni, öyrəndikləri əsas məqamlar qeyd olunur, daha sonra qaranlıq məqamlar aşkar edilir və müəllim şagirdlərlə birlikdə kollektiv sorğu təşkiledir. Müəllimin xüsusi vurğuladığı məqamlar haqda şagirdlərin fikirləri alınır. Sual doğuran hissələr müəllim tərəfindən izah olunduqdan sonra, bütün öyrənilən məlumatlar ümumiləşdirilir və vahid nəticə çıxarılır.

Nəticə: Şagirdlər müstəqil şəkildə nəzəri bilikləri öyrənərkən müəllimin təlimatı ilə diqqət yetirməli olduqları məqamlara xüsusi nəzər salırlar və hadisələri sadəcə nəzəri aspektən yox həmdə düşünərək, sorğulayaraq öyrənirlər.

*Mövzu: Azərbaycan Xalq Cümhuriyyəti* [2, s.86]

I mərhələ: cümhuriyyətin yaranması və fəaliyyəti haqqında müəllimin hazırladığı müxtəlif videoçarxlar və yazılı mənbələrdən məlumatlar öyrənilir. Zaman oxu üzrə xronoloji ardıcıllıq əsasında hadisələr qeyd olunaraq araşdırılır.

II mərhələ: sinifdə "Son iclas" filmindən M.Ə.Rəsulzadənin parlamentdə son çıxışına aid hissəsi izlənilir. Bundan sonra müəllim şagirdlərin hiss və düşüncələri haqqındada sorğu götürür və ya şagirdlərin hər birinin müxtəlif cümhuriyyət ziyalısını təmsil etdiyi, onların gözündən hadisələrə münasibət bildirdikləri "rollu oyun" tətbiq oluna bilər. Şagirdlərdən biri jurnalist kimi çıxış edərək onlardan sorğu götürür. Məsələn, "Bəli, artıq müstəqilliyimiz elan edildi…"

Nəticə - şagirdlərin izlədikləri film fraqmenti ilə dövrə aid müxtəlif təsəvvürləri formalaşır. Hadisələrin sanki canlı şahidi imiş kimi prosesi canlandırarkən hadisələri çox daha dərindən dərk edirlər. Bu şagirdlərin dərketmə və anlama bacarıqlarını inkişaf etdirməklə yanaşı onların kommunikativ bacarıqlarını, sinif daxilindəki əməkdaşlıq qabiliyyətlərinin də inkişafına əhəmiyyətli dərəcədə müsbət təsir edir.

***"Çevrilmiş sinif" modelinin tətbiqində üstünlüklər və problemlər.*** Əlbəttə ki, biz heç bir modelin tam olaraq yararlı və yararsız olduğunu deyə bilmərik. Çünki modelin düzgün tətbiqindən və tətbiq olunan sinifin yaş, psixoloji hazırlıq səviyyəsindən çox şey asılıdır. "Utrecht Universitetindən David C.D. van Alten tərəfindən orta və ali təhsildə "çevrilmiş sinif" modelinin tətbiqinin səmərəliliyi haqqında 114 tədqiqatı əhatə edən meta-analizlər aparıldı" [5, s.1]. Bir qrup sinifdə ənənəvi sistem tətbiq olunduğu halda, digər qrup siniflərə isə "çevrilmiş sinif" modeli əsasında tədris tətbiq edilib. Nəticədə, modelin tətbiq olunduğu siniflərdəki ümumi nəticə ənənəvi tədrisin tətbiq olunduğu siniflərin nəticəsi ilə müqayisədə daha üstün olsa da, ümumi məmnunluq səviyyəsi olaraq hər iki qrupda da vəziyyət bərabər idi. Öncəliklə, ənənəvi tədrisdə məlumat ötürmə məsələsində bir sıra problemlərlə qarşılaşılırdı. Hansı ki, müəllim şagirdlərin hər birinə məlumatı eyni şəkildə ötürürdü bu səbəbdən şagirdlərin sual vermək, öz fikrini səsləndirmək kimi müəllimlə olan kommunikativ məsələlərdə çətinlik yaşadığı məlumdur. Ancaq bu o demək deyil ki, müəllim tam olaraq məlumat ötürmə fəaliyyətindən kənarda qalmalıdır. Bu modelin tətbiqi ilə müəllim şagirdlərinin dərs materiallarını necə mənimsədikləri materialları asanlıqla izləyə bilər. Dərs zamanı isə öyrənilən materialların daha da möhkəmləndirilməsi şagirdlərin üzərindəki koqnitiv yüklənməni də azaldır. Ancaq hər bir şagird fərqli xüsusiyyətlərə sahib olduğu kimi qavrama qabiliyyəti nisbətən zəif olan şagirdlər üçün bu əlavə yük təşkil edə bilər.

Bir digər nöqteyi nəzərdən məsələyə baxsaq, ənənəvi tədris formasında praktik bacarıq tələb edən tapşırıqların şagirdlərin müstəqil yerinə yetirmələri tələb olunur. Öyrənməni ən çox dəstəkləyən bu mərhələnin müəllimin rəhbərliyi olmadan həyata keçirilməsi idraki cəhətdən yüklənməyə və məlumatın uzun müddət yadda qalmamasına da səbəb ola bilər. Ancaq müəllimin rəhbərliyi və interaktiv yanaşma ilə tətbiq olunan tapşırıqlar, öyrənilən nəzəri biliklərin çox daha rahat qavranılması ilə yanaşı uzun müddətdə yadda saxlanılmasına da şərait yaradır.

Bildiyimiz kimi, şagird fəaliyyətinin aktiv, passiv, yardıcı, interaktiv formaları mövcuddur. "Çevrilmiş sinif" modelinin tətbiqi bizə sinifdə məhz aktiv, yaradıcı, interaktiv fəaliyyətlərin tətbiqinə daha çox zaman ayırmağımıza şərait yaradır. Sinif daxilindəki qarşılıqlı əlaqənin inkişafı şagird-şagird, şagird-müəllim münasibətlərinin də inkişafına bilavasitə təsir edir.

Ümümiləşdirsək, "Çevrilmiş sinif" modelinin üstünlükləri şagirdlərin müstəqil olaraq tədqiqatçılıq və öyrənmə bacarıqlarının inkişafına müsbət təsir edir. Dərs materiallarının daha əlçatan olması, müxtəlif səbəblərdən dərsdə iştirak edə bilməyən şagirdlər üçün mühüm üstünlük yaradır. Müstəqil öyrənməni dəstəkləyir və ənənəvi təlimin əksinə əsas etibarı ilə şagirdmərkəzli yanaşmadır. Resursların asanlıqla əlçatanlığı istənilən vaxt təkrar və ya zəif öyrənilən bölmələrin təkmilləşdirilməsi üçün çox faydalı sayılır.

Problemli məqamlara gəldikdə isə, modelin tətbiqi müəllimdən peşəkar ustalıq tələb edir. Müəllimlər dərs üçün nəzərdə tutduqları materialları daha əvvəldən hazır etməli həmçinin hazırlıq prosesində bir çox fərqli qaynaqlara da müraciət etməlidirlər. Bundan əlavə, sinif daxilində hər şagird bərabər imkanlara sahib olmaya bilər. İstər dərketmə qabiliyyəti baxımından istərsə də müxtəlif internet resurslarına əlçatanlılıq baxımından hər bir şagirdin xüsusiyyəti nəzərə alınmalıdır. Ən önəmlisi isə,

müəllim və şagirdlər arasında güvən bağları ciddi olmalıdır. Müəllim təqdim etdiyi resurslardan şagirdin maksimum şəkildə yararlanacağından əmin olmalıdır. Daha çox şagirdlərin fəallığına əsaslanan bu model onlardan xüsusi aktivlik tələb edir. Digər bir mühüm məsələ isə, budur əlbəttəki, hər mövzuya biz bu modeli tətbiq edə bilmərik. Daha çox praktiki tətbiq tələb edəcək mövzularda tətbiqi çox daha səmərəli olacaqdır. Həm tədris yükü baxımından həm də, effektivlik nöqteyi-nəzərdən modelin tətbiq oluna biləcəyi mövzular müəllim tərəfindən yüksək həssaslıqla seçilməlidir.

***Nəticə.*** Elm və texnikanın günü-gündən inkişafının öz bərabərində gətirdiyi yeniliklər şübhəsiz ki, təhsil sahəsindən də yan keçmir. Hətta ən çox təsir etdiyi sahələrdən biri də təhsildir, desək yanılmarıq. Xüsusilə süni intellektin həyatımızın demək olar ki, hər sahəsinə nüfuz etdiyi bu günlərdə öyrənmə və öyrənməyi öyrətmək haqqında daha çox düşünməli və şagirdlərin təfəkkür bacarıqları nəzərə alınaraq dövr ilə ayaqlaşmağı bacarmalıyıq. Burada qeyd etməyə çalışdığımız məqam ənənəvi təhsildən tamamilə üz döndərmək deyil, şagirdlərin diqqətini cəlb edəcək, eyni zamanda aktiv və şüurlu öyrənməni təmin edəcək yeni metodların tətbiqinin səmərəliliyini əsaslandırmaqdır. Haqqında danışdığımız "çevrilmiş sinif" modeli də məhz interaktiv metodlardan biri sayılır. Tarixin tədrisində biz "çevrilmiş sinif" modelini tətbiq edərək şagirdlərin əldə etdikləri bilikləri analiz edərək anlamalarına, diskussiya apararaq öz münasibətlərini bildirmələrinə, analitik düşünmə bacarıqlarının inkişafına nail olmuş olarıq. Bütün bunları nəzərə alaraq, "Çevrilmiş sinif" modelinin xüsusilə tarix təlimində tətbiqi təhsilalanların interaktivliyini təmin edən model kimi xüsusi əhəmiyyətə malikdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi: Ümumtəhsil məktəblərinin VII sinfi üçün dərslik. Bakı, Təhsil Nəşriyyat, 2023, 127 s.
2. Azərbaycan tarixi: Ümumtəhsil məktəblərinin IX sinfi üçün dərslik. Bakı, Şərq-Qərb Nəşriyyat, 2024, 200s.
3. Ters yüz öğrenme modelinin doğuşu / Kaynak, Baltaş Bilgievi Yayını, 1 Temmuz 2014. - https://kaynakbaltas.com/inovasyon/ters-yuz-ogrenme-modelinin-dogusu/ [26.04.2026].
4. Brame, J. Flipping the Classroom. Center for Teaching. Vanderbilt University, 2013, 8 p.
5. David C.D., Chris P., Jeroen J., Liesbeth K. Effects of flipping the classroom on learning outcomes and satisfaction: A meta-analysis // Educational Research Review, November 2019, 28, 18 p.
6. What are the main characteristics of flipped classroom today? Jon Bergmann explains [video]. YouTube, Magnus N. (2020, December 11). - https://youtu.be/cIq5nkLwTfE?si=wLlLwBsIcaQnfwF6 [26.04.2026].

**ROYA MIRZAZADA**
*1st-year Master's student at Baku State University*

## APPLICATION OF THE "FLIPPED CLASS" MODEL IN TEACHING AZERBAIJAN HISTORY: ADVANTAGES AND PROBLEMS

The article substantiates that the interactive methods to be used in history teaching are as important as the importance of history teaching for the formation of a student as a personality. The application of the "flipped classroom" model, which is one of these interactive methods, in Azerbaijani history teaching is shown on the basis of examples. The history of the emergence and development of the model is discussed, and at the same time, information is provided about the positive and negative trends that we may encounter during its application. In the conclusion, the conclusions are summarized and the importance of integrating such innovative approaches into teaching, brought by scientific and technological progress, is emphasized.

*Keywords*: Interactivity, flipped classroom, modern learning, teaching history, active learning.

*Daxil olma tarixi*: 26.04.2026-cı il.
*Çapa imzalanma tarixi*: 05.05.2026-cı il.

Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları
Studies of the Turkic World Young Researchers Association
№2(14) 2026, 132-136

UOT 372.8:94

**SƏBİNƏ QASIMOVA**
*Bakı Dövlət Universitetinin magistrantı*
**sabinagasim21@gmail.com**

# TARİXİN TƏDRİSİNDƏ İNNOVATİV YANAŞMA – İKT VƏ ONUN ÜSTÜNLÜKLƏRİ

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Tahirə Həsənzadə

*Məqalədə tarixin tədrisində İKT və XXI əsrdə onun faydalarından bəhs olunur. İnteraktiv metodların tətbiqinin ən əhəmiyyətli yollarından biri informasiya və kommunikasiya texnologiyalarından istifadə olunmasıdır. Tarixin tədrisində İKT vacib rol oynayır, dərsləri daha maraqlı, məna dolu və interaktiv hala gətirir. Rəqəmsal xəritələr, interaktiv zaman şkalaları,multimediya prezentasiyaları, interaktiv lövhələr, simulyasiyalar və virtual muzey turları kimi İKT vasitələri tələbələrə təkcə öyrənməyə yox, həm də tarixi prossesin bir parçası olmağa, aktiv olaraq əlaqə qurmağa imkan yaradır. Bu məqalə İKT vasitələri və onların funksiyalarını sıra ilə təsvir edir. Bundan əlavə İKT təlim prossesində aktiv iştirakı,kollektivçiliyi,müstəqil tarixi düşüncəni dəstəkləyərək tələbə mərkəzli tədrisə geniş imkanlar yaradır.*

*Açar sözlər:* İnteraktiv təhsil, tarixin tədrisində İKT, rəqəmsal vasitələr, XXI əsrin bilik və bacarıqları, tələbə mərkəzli təhsil.

***Giriş.*** Müasir dövrümüz elektron vasitələrin, xüsusilə də informasiya və kommunikasiya texnologiyalarının çox sürətlə yüksəlişə keçdiyi bir dövr kimi xarakterizə olunur. XXI əsr tarixini informasiya texnologiyaları olmadan təsəvvür etmək imkansız olar, çünki gündəlik həyatımızın əsas hissəsinə çevrilmişdir.Yəni gündəlik həyatda təhsil,biznez,iqtisadiyyat,səhiyyə və idarəetmə kimi sahələrdə olduqca sürətlə inkişaf edir.

Texnologiyaların inkişafı həm effektivliyi,həm də operativliyi artıraraq, zamana qənaət edərək təhsilin keyfiyyətini yüksəldir. Effektivlik və operativlik dedikdə nə nəzərdə tutulur? Buna misal olaraq online dərs platformalarında keçirilən hazırlıqları, rəqəmsal informasiya mübadiləsini göstərə bilərik. Bununla fərdi təhsil imkanları da genişlənir. Bu o deməkdir ki, hamıya eyni cür yanaşma ənənəsi kölgədə qalır. Təhsilalanların fərdi xüsusiyyətləri ön plandadır. Fərdi potensialları daxilində tədricən və ya sürətlə öyrənmə qabiliyyətləri təkmilləşir.İnformasiya və kommunikasiya texnologiyalarının inkişafı ilə yanaşı süni intellektin inteqrasiyası da təhsil sektorunda özünü göstərir.

Azərbaycan dövləti ənənəvi olaraq təhsilə hər zaman önəm vermişdir. Təhsil bizim gələcəyimizdir və məhz bu şüar altında hökumətimiz Azərbaycan təhsil sistemində mütərəqqi inkişafa, rəqəmsallaşmağa, informasiya və kommunikasiya texnologiyalarının təhsilə dərin inteqrasiyasına diqqət yetirib və müasir dövrümüzdə də davam edir. Təhsil sahəsində üst səviyyəli təhsil planları, strategiyalar, təhsil haqda qərar və qanunları işləyib hazırlayır. Azərbaycanın günümüzdə dünya təhsil sisteminə inteqrasiya olmasına səbəb olan əsas təkanverici amillərdən ilki məhz Ümumilli liderimiz Heydər Əliyev dövründə təhsilin inkişafına qoyulan təməl olmuşdur.

Ümumilli liderin zamanında atılan uzaqgörən addımlar günümüzdə dövlətimizin təhsil səviyyəsini müəyyən etmişdir. Xüsusilə bu addımlar tədrisdə İKT-nin tətbiq olunmasında özünü göstərir. Heydər Əliyev təhsildə mərhələli və uzunmüddətli inkişafın tərəfdarı idi. Bu barədə görülən tədbirləri bir az da açaq:

*Məktəb və tədris bazasının modernləşdirilməsi.* Hələ 1970-1980-ci illərdə təhsil müəssisələrində texniki bazanın, təhsil obyektlərinin təkmilləşdirilməsi və elmi laboratoriyaların təşkil olunması cənab Heydər Əliyevin prioritetləri sırasında idi. Məhz buna görə də XX əsrin 70-80-ci illərində H.Əliyevin

təşəbbüsü ilə təhsil müəssisələrində texnoloji cihazların istifadəsinə başlandı və eyni zamanda auditoriyalar, laboratoriyalar xüsusi rəqəmsal avadanlıqlarla təchiz olundu. Ümumilikdə təhsil müəssisələrinin özünün restavrasiyası prosesi də gözdən kənarda qoyulmamışdı. Heydər Əliyevin milli təhsil siyasətindəki böyük addımlarından biri də pilot layihələrinin tətbiq olunması oldu.

Sonrakı dövrlərdə bu layihələrin əsasında genişçərçivəli dövlət proqramları, qanunlar, fərmanlar hazırlandı. Buna misal olaraq, "Ümumtəhsil məktəblərinin İKT ilə təminatı (2005-2007)" və "Təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı (2008-2012)" proqramları həyata keçirildi. Bu proqramlar ölkə çərçivəsində 20-ə qədər məktəbdə tətbiq edildi. "1 şagird 1 kompüter" layihəsi geniş miqyas aldı. Dövlət proqramında qoyulmuş məqsədlərə çatmaq üçün respublikada müasir informasiya və kommunikasiya infrastrukturunun inkişaf etdirilməsi, fiziki və hüquqi şəxslərin dövlət orqanlarının fəaliyyəti haqqında məlumatlara, həmçinin dövlət, ictimai və sahə informasiya resurslarına çıxışının genişləndirilməsi, informasiya və kommunikasiya xidmətlərinin genişləndirilməsi və onların keyfiyyətinin artırılması, dövlət idarəçiliyinin bütün səviyyələrində İKT vasitələrinin tətbiqi, dövlət informasiya sistemləri və resurslarının formalaşdırılması və inkişaf etdirilməsi, vahid texnoloji standartlar əsasında dövlət informasiya resursları və sistemlərinin inteqrasiyasının təmin edilməsi, dövlət orqanları arasında etibarlı və təhlükəsiz informasiya mübadiləsinin həyata keçirilməsi üçün vahid konfidensial multiservis şəbəkəsinin inkişaf etdirilməsi, informasiya cəmiyyətinin qurulması istiqamətində vahid elmi-texniki və innovasiya siyasətinin həyata keçirilməsi, informasiya cəmiyyətinin qurulması üzrə görülən işlərə ictimai nəzarətin təmin edilməsi və sair nəzərdə tutulur [13].

Milli təhsil sistemində innovativ inkişafa diqqət yetirilirdi. Ümumilli lider hər zaman qeyd etmişdir ki, təhsil sistemimiz dünya standartlarına uyğun olmalıdır. Gələcək proqramların həyata keçirilməsindəki əsas qayə də elə məhz bu olmuşdur.

***Əsas hissə.*** İKT-informasiya və kommunikasiya texnologiyaları informasiyanın yaradılması, saxlanılması, emalı və ötürülməsi üçün yaradılan vasitələrdir. İKT insanların fəaliyyətin asanlaşdıraraq daha sürətli və effektiv hala gətirir. Beynəlxalq təhsil sistemində təhsilin informasiya və kommunikasiya texnologiyaları ilə inteqrasiyası məsələsi XX əsrin sonlarından başlayaraq aktual məsələ kimi ortaya çıxmışdır. Təhsil sisteminin informasiyalaşması dedikdə həm məzmunca təhsilin yeni mahiyyət qazanması,həm texniki təminatı, həm də tədris komponentlərinin modernləşməsi nəzərdə tutulur.

Bu prosses özlüyündə uzunmüddətli və kompleks xarakter daşıyır, müəllimlərin peşəkar kadr hazırlığından tutmuş təhsilalanların tədris prossesində aktiv iştirakına qədər bütün mərhələlərə təsir göstərir. Tarixin tədrisində informasiya və kommunikasiya texnologiyalarının tətbiqi rəqəmsal vasitələrdən istifadəni ehtiva edir; təlimi, öyrənmə prosesini, tarixi faktların izahını,hadisələrin gedişatını və tarixi mənbələrdən istifadə etmə imkanını genişləndirmək üçün texniki resurslardan istifadəyə istinad edir. Buraya daxildir: kompüterlər, interaktiv lövhələr,rəqəmsal arxivlər, multimediya prezentasiyaları, onlayn platformalar, virtual təhsil mühiti (Burada dərslər, tapşırıqlar, dərs üçün lazım olan bütün vasitələr, eyni zamanda müəllimlə əlaqə onlayn platforma üzərindən daha əlçatan olur. VLE (Virtual Learning Environment) adlanan bu rəqəmsal platformalara misal olaraq: Moodle, Google Classroom, Blackboard, Schoology, Brightspace (D2L) (daha çox korporativ universitet səviyyəsi üçün)) göstərmək olar.

Tarixin tədrisi kontekstində İKT ilkin mənbələrə, rəqəmsal sənədlərə, xəritələrə,fotosənədlərə, video materiallara əl çatmaqda transformativ rol oynayır. Bu təhsilalanlara yalnız məlumat qəbul etməyə deyil, həmçinin analiz, müqayisə etməyə, tarixi hadisələrə tənqidi yanaşmağa imkan yaradır.

Simulyasiyalar, virtual muzey turları kimi interaktiv vasitələr tarixi hadisələri canlandırmağa kömək edir, distans və abstrakt tarixi faktları təhsilalanlar üçün daha əlçatan edir. Bu baxımdan tarixi araşdırmalar etmək, kollektivlə işləmə bacarıqlarını artırmaq ön planda olan məsələlərdir.

Səbəb-nəticə əlaqələrini analiz etməkdə İKT-nin nə kimi rolu var? Biz bilirik ki, tarixi hadisələri anlamada ən xüsusi metod səbəb-nəticə əlaqələrinin analizidir. Səbəb-nəticə əlaqələrini anlamadan biz tarixi faktlar və hadisələr haqqında heç bir şərh və izah verə bilmərik.Elə bu məqamda informasiya və kommunikasiya texnologiyaları köməyə gəlir.

Biz tarixin tədrisində İKT ilə bağlı diskussiyaları müxtəlif istiqamətlərə genişləndirə bilərik – həm praktiki cəhətdən tətbiqinin, həm də tədrisdəki nəzəri cəhətdən faydalarını vurğulamaq lazımdır.

*Tarixi mənbələrə çıxış.* İnformasiya və kommunikasiya texnologiyalarından istifadə tələbələrə orijinal tarixi sənədləri, məktubları, əsərləri axtarıb tapmağa və onlar üzərində tədqiqat aparmağa, müxtəlif tarixi dövrlərə aid vizual materialları sinif otağını tərk etməyə ehtiyac duymadan əldə etməyə kömək edir. Rəqəmsal arxivlər və virtual muzey kolleksiyaları təhsilalanlara birbaşa orijinal materiallara çıxış imkanı yaradır, rəqəmsal vasitələr analitik və tənqidi düşüncə bacarıqlarını formalaşdırır. "Rəqəmsal arxivlər və virtual muzeylər təhsilalanlara birbaşa orijinal materiallara çıxış imkanı yaradır" dedikdə o nəzərdə tutulur ki, təhsilalanlar ilkin orijinal sənədləri fiziki olaraq muzeylərə, arxiv yerlərinə getmədən də əldə edə bilir. Bu materiallara aiddir məktublar, siyasi yazışmalar, hökumət sənədləri, fərmanlar, sərəncamlar, müqavilələr, raportlar və sairə.

*İnteraktivlik və fəallıq.* İnteraktiv zaman şkalaları, rəqəmsal xəritələr, simulyasiyalar abstrakt tarixi hadisələri daha konkret hala gətirir. Məsələn, tələbələr hər hansı bir tarixi dövrdəki imperiyanın parçalanma şəklini, müharibələrin və konfliktlərin dinamikasını vizual və interaktiv vasitələrlə canlandıra və analiz edə bilir, bu üsulla daha dərindən qavrayırlar. İnteraktiv zaman şkalaları təhsilalanlara hadisələri xronoloji ardıcıllıqla görməyə imkan verir, xüsusi bir dövrə fokuslanmağa, tarixi hadisələrin inkişafını və necə üst-üstə düşdüyünü təhlil etməyə kömək edir.

Rəqəmsal xəritələr tədris prosesini daha effektiv hala gətirən digər bir vasitədir. Ümumilikdə tarixin tədrisində xəritələrin rolu olduqca mühüm əhəmiyyət kəsb edir, bu tarixlə coğrafiyanın qarşılıqlı əlaqəsindən irəli gəlir, tarixi faktları xəritəsiz təsəvvür etmək qeyri-mümkündür. İllər uzunu ənənəvi təhsildə coğrafi xəritələrlə iş ön planda idi, xüsusi olaraq tarix dərslərində hər hansı bir dövrdən, tarixi faktdan, hər hansı bir dövlətdən danışarkən müəllimlər vizual olaraq xəritələrin köməyindən istifadə edirdi. Xəritələr sadəcə coğrafi məkanın sərhədlərini görmək üçün deyil, hansı bölgədə və nə qədər miqyasda olan iqtisadi, demoqrafik,sosial, siyasi dəyişim dinamikalarını analiz etmək üçün mühüm vasitədir. Müasir dövrümüzdə xəritələrin bu xüsusiyyəti informasiya və kommunikasiya texnologiyaları ilə adaptasiya olduqdan sonra qat-qat artmağa başladı. Rəqəmsal xəritələr hər məkanda və zamanda əlçatanlığı və operativliyi təmin edir. Rəqəmsal xəritələr məlumat mübadiləsi, planlaşdırma, istiqamət müəyyən etmə, informasiyaları sistemləşdirmə baxımından çox yüksək inkişaf etmiş rəqəmsal vasitədir. Coğrafi məkanların oriyentasiyasının ölçü baxımdan daha aydın seçilməsi, miqyasların daha asanlıqla böyüdülməsi,kiçildilməsi elmi tədqiqatlar üçün çox əhəmiyyətli və praktikidir.

*Əməkdaşlıq və ünsiyyətdə İKT.* Onlayn diskusiya platformaları, qrup işləri, virtual siniflər tələbələrə tarixi proseslər üzərində birlikdə işləməyə, öz fikirlərini paylaşmağa, müxtəlif şərhləri analiz etməyə yardım edir. Kollektiv təlim texnologiyası XX əsrin 80-ci illərindən ABŞ və İsrail pedaqoqları Ravin və onun şagirdləri tərəfindən işlənmişdir [8]. Əməkdaşlıq tələbələrə bir yerdə işləməyə, tarixi problemləri analiz etməyə və gəlinən nəticələri konstruktiv versiyada ortaya çıxarmağa kömək edir. Tələbələrin qrup şəkildə işləməsi üçün qrup araşdırmaları, tarix hadisələr üzərində rollu oyunlar, birgə prezentasiyalar və tədqiqatlar nəzərdə tutulur.

Qrup işində əməkdaşlıq zamanı komandalar bir-birilə yarışmırlar, onlar müxtəlif müddətdə müxtəlif tapşırıqlara cavab hazırlayırlar [8]. Hər bir qrupun müvəffəqiyyəti onun üzvlərinin fərdi məsuliyyəti və çalışqanlığı ilə bağlıdır [8]. Buna görə də qrupun bütün üzvləri çalışırlar ki, verilən tapşırığı, materialları yaxşı mənimsəyə bilsinlər [8].

Qlobal perspektivdən baxdıqda informasiya və kommunikasiya texnologiyaları ilə təhsil alanlar müxtəlif ölkələrin və mədəniyyətlərin tarixi materiallarına, eləcə də tarixi hadisələrin fərqli baxış bucaqlarından izahlarına çıxış əldə edirlər. Qloballaşmanın geniş vüsət aldığı informasiya cəmiyyətində sosial-iqtisadi fəaliyyət sahələrində rəqabətin gücləndiyi, habelə zaman ötdükcə təbii resursların azaldığı müasir dövrdə təhsilin rolu artmaqdadır [1]. Təsadüfi deyil ki, Birləşmiş Millətlər Təşkilatı XXI əsri «təhsil əsri» elan etmişdir [1].

*Müəllimlərin peşəkar kadr hazırlığı və texnoloji savadı.* Müəllimlərin peşəkar hazırlığı ölkəmizin milli təhsil siyasətinin əsas hissəsi olduğu kimi müəllimlərin texnoloji savadının artırılması da bir o qədər əhəmiyyətlidir. İnformasiya və kommunikasiya texnologiyaları tarixin tədrisində müəllimlərin fəaliyyətini xeyli dərəcədə asanlaşdırır, belə ki, İKT müəllimlərə dərs planının qurulmasında, təqdimatları daha interaktiv halda təqdim etməkdə, tələbələrin diqqətini daha maraqlı materiallarla cəlb etməkdə və qiymətləndirmə prosesini daha şəffaf həyata keçirməkdə kömək edir.

***Nəticə.*** Bütün bu deyilənlərə əsasən belə bir nəticəyə gəlirik ki, informasiya və kommunikasiya texnologiyalarının tarixin tədrisinə inteqrasiyası fundamental olaraq təlim və tədris proseslərinin effektiv transformasiyasına gətirib çıxarır, bu prosesləri daha interaktiv, cəlbedici və maraqlı hala gətirərək daha böyük imkanları yaradır. Ənənəvi tədris sistemində əsas vasitələr mühazirə və dərslik materialları idi və təhsil alanlar bunlarla kifayətləndirdilər. Bu sistemdən fərqli olaraq İKT tələbələrə geniş miqyasda zəngin rəqəmsal resurslara çıxış imkanı yaradır (virtual muzey turları, interaktiv xəritələr, tarixi simulyasiyalar, multimedia prezentasiyaları, rəqəmsal arxivlər və s.). Bu vasitələr öyrənənlərə imkan yaradır ki, müxtəlif mənbələrdəki müxtəlif tarixi faktları müqayisə, analiz, sintez edə və bəşəriyyətin mürəkkəb inkişaf tarixini təhlil edə bilsin.

Ənənəvi təhsildə baza olaraq vacib olan biliklərin ötürülməsi əsas mövqedə idi, müasir təhsil sistemində isə yalnız biliyin ötürülməsi deyil, eyni zamanda onun təhlili, təhsilalanların aktivliyi, bir şəxsiyyət kimi çıxış etməsi vacibdir. Müəllimlərin rolu da dəyişir, onlar məlumat ötürücüsü yox, istiqamət verən, rəhbərlik edən fasilitator vəzifəsində çıxış edir. İnnovasiya texnologiyalarının tətbiqi ilə interaktiv rejimdə keçirilən dərslərdə şagirdlər həmişə mərkəzi fiqur olurlar [1].

Müəllim, əsasən, şagirdin konsultantı, onun fərasətini və orijinal bacarığını qiymətləndirən, şagirdi aktivliyə, müstəqilliyə, təşəbbüskarlığa həvəsləndirən fasilitator kimi çıxış edir [1]. Belə dərslər passiv, utancaq, müəyyən fiziki və ya psixoloji qüsuru olan şagirdlərin dərs prosesinə aktiv qoşulmasına şərait yaradır, onda özünə inamı bərpa edir [1].

İKT eyni zamanda müəllim-tələbə münasibətlərini də mahiyyətcə irəli səviyyəyə daşıyır. Müəllim bir mentor, lider olur. Təhsilalanları düzgün istiqamətləndirir, istinad etdikləri mənbələrin doğruluğuna nəzarət edir, onları suallarla düşünməyə təşviq edir. Tarixi faktlara şübhə ilə yanaşmağı, korkoranə hər oxuduğu və eşitdiyi məlumatlara inanmamağı öyrədir. Çünki elm öyrənməyin ən əsas üsulu şübhə ilə yanaşmaqdır İnformasiya və kommunikasiya texnologiyaları XXI əsrin əsas tələblərindən biridir. Tədris prossesində dərsləri strukturlaşdırmada, təhsil keyfiyyətinin artırılmasında müstəsna rol oynayır.

## ƏDƏBİYYAT

1. Məmmədova.M Tarixin tədrisinin aktual problemləri. Bakı, “Bakı Universiteti nəşriyyatı”, 2015, 112 s.
2. Mehdiyeva, R.Z. Şagirdlərin təlimə motivasiyasının inkişaf etdirilməsində internet texnologiyalarından istifadə. Bakı, “Elm və təhsil”, 2013, 110 s.
3. Mehdiyeva, R.Z. Heydər Əliyev və Azərbaycanda İKTsahəsində dövlət siyasəti //- “Müasir təhsilin aktual problemləri” mövzusunda respublika elmi konfransının materialları. Bakı, 2013, s.35-40.
4. Haqverdiyev V. Orta məktəblərdə İKT-nin rolu / “Rabitə Dünyası”, AMEA, 30 dekabr 2010. - http://anl.az/down/meqale/rabitadunyasi/2010/dekabr/150294.htm [06.04.2026].
5. Mehdiyeva, R.Z. Tədris prosesində İKT-dən istifadə imkanları: Məktəb müəllimləri, pedaqoji ali təhsil müəssisələrinin müəllimləri və tələbələri üçün metodik vəsait. Bakı, “Elm və təhsil”, 2016, 134 s.
6. Мехтиева, Р.З. Роль использования информационно-коммуникационных технологий в управлении образовательным процессом // Москва: Modern Humanities Success / Успехи гуманитарных наук, 2024, № 6, с.129-134.
7. Məmmədova M.S. Tarixin tədrisinin aktual problemləri (Bakalavr hazırlığı üçün dərs vəsaiti). Bakı, “Bakı Universiteti nəşriyyatı”, 2015, 112 s.
8. Nəzərov A. Müasir təlim texnologiyaları. Bakı, ADPU nəşriyyatı, 2012, 103 s.
9. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009. – https://e-qanun.az [06.04.2026].
10. Ağayev Ə.Ə. Yeni təlim metod və texnologiyalarından istifadənin nəzəri və praktik məsələləri // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun əsərləri. Bakı, 2006, 294 s.
11. Mehdiyeva N. Yeni fənn kurikulumları ilə inteqrasiya. Kurikulumlarınk hazırlanması və tətbiqi məsələləri. Bakı, “Kövsər”, 2008, 119 s.
12. Azərbaycan Respublikası Təhsil İslahatları Proqramı. Azərbaycan Respublikası Nazirlər Kabineti, 168 nömrəli sərəncamı, 15 iyun 1999-cu il. https://e-qanun.az [06.04.2026].

13. Пащенко О.И. Информационные технологии в образовании. Нижневартовск: Изд-во Нижневарт. гос. ун-та, 2013, 227 с.
14. Əliyeva-Kəngərli A. Müasir Azərbaycanda elmin informasiya təminatı və kitabxanalar. Bakı, Elm, 2007, 394 s.
15. Xəlilov M.S., Qurbanov A.İ., Musayeva N. Kitabxana informatikası. I cild. Bakı, Odlar yurdu, 2001, 238 s.
16. Дружинин Г.В., Сергеева И.В. Качество информации. Москва, Радио и связь, 1990, 172 с.

**SABINA GASIMOVA**
*Master degree student of Baku State University*

## INNOVATIVE APPROACH IN TEACHING HISTORY – ICT AND ADVANTAGES

The article is about the use of ICT in education of History and it's benefits in the 21st century. One of the most important ways is the use of interactive methods supported by information and communication technologies. In the teaching of history ICT plays a crucial role, makes lessons more engaging, interactive, meaningful for students. ICT tools such as digital maps, interactive timelines, multimedia presentations, interactive whiteboards, simulations and virtual museum tours allow students to not only learn but also become the part of historical processes, actively engage with them. The article presents ICT tools and their functions step by step. Furthermore, ICT supports student-centered learning by encouraging active participation, collaboration and independent historical thinking.

*Keywords:* Interactive teaching, ICT in history education, digital tools, 21st century knowledge and skills, student-centered education.

*Daxil olma tarixi*: 06.04.2026-cı il.
*Çapa imzalanma tarixi*: 05.05.2026-cı il.

*Türk dünyası gənc tədqiqatçılar dərnəyinin Araşdırmaları*
*Studies of the Turkic World Young Researchers Association*
*№2(14) 2026, 137-140*

**UOT 372.8:94**

**SƏKİNƏ HÜSEYNOVA**
*Bakı Dövlət Universitetinin I kurs magistrantı*
**Sekine2000sh@gmail.com**

# V SİNİF "AZƏRBAYCAN TARİXİ"NİN TƏDRİSİNDƏ QƏHRƏMANLIQ MÖVZULU MƏTNLƏRİN TƏRBİYƏVİ ƏHƏMİYYƏTİ

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Nurlan Abbasov

*Məqalədə V sinif Azərbaycan tarixi dərslərində istifadə olunan qəhrəmanlıq mövzulu mətnlərin şagirdlərin tərbiyəsində oynadığı rol kompleks şəkildə təhlil olunur. Tədqiqat çərçivəsində bu mətnlərin şagirdlərdə vətənpərvərlik hissinin formalaşmasına, milli kimlik şüurunun inkişafına və mənəvi keyfiyyətlərin möhkəmlənməsinə təsiri elmi-pedaqoji aspektdən əsaslandırılır. Eyni zamanda, müasir kurikulum kontekstində qəhrəmanlıq mövzularının tədrisində tətbiq olunan metod və yanaşmalar araşdırılır, tarixi şəxsiyyətlərin timsalında təqdim olunan nümunələrin didaktik potensialı qiymətləndirilir.*

*Açar sözlər:* qəhrəmanlıq mətnləri, vətənpərvərlik tərbiyəsi, Azərbaycan tarixi, ibtidai tarix tədrisi, milli kimlik, kurikulum.

***Giriş***. Müasir təhsil sistemində prioritet istiqamətlərdən biri təkcə biliklərin ötürülməsi deyil, eyni zamanda şagirdlərin milli-mənəvi dəyərlər əsasında formalaşdırılmasıdır. Bu baxımdan "Azərbaycan tarixi" fənni xüsusi əhəmiyyət daşıyır, çünki bu fənn vasitəsilə şagirdlər xalqın tarixi keçmişi, dövlətçilik ənənələri və mədəni irsi ilə sistemli şəkildə tanış olurlar.

Tarix dərsləri şagirdlərə yerli, milli və ümumbəşəri dəyərlərin aşılanması üçün istifadə olunan əsas fənlərdən biridir. Xüsusilə milli-mənəvi, dini-əxlaqi və sosial dəyərlərin formalaşdırılması və ötürülməsində tarix təhsili olduqca funksionaldır [6].

V sinif mərhələsi şagirdlərin tarix elmi ilə ilk sistemli təmasının başlandığı dövr kimi mühüm əhəmiyyət kəsb edir. Bu mərhələdə təqdim olunan tədris materiallarının məzmunu və didaktik quruluşu, şagirdlərin gələcək tarixi təfəkkürünün formalaşmasına birbaşa təsir göstərir. Xüsusilə qəhrəmanlıq mövzulu mətnlər, şagirdlərin emosional-idraki inkişafında və dəyər sisteminin formalaşmasında mühüm rol oynayır.

Qəhrəmanların dəyərlər təhsilindəki rolu və əhəmiyyətindən bəhs etməzdən əvvəl "qəhrəman" anlayışını izah etmək məqsədəuyğundur. Qəhrəman, cəmiyyətlərin keçmişində mühüm yer tutmuş, düşüncə və fəaliyyətləri ilə cəmiyyətlərə istiqamət vermiş şəxslər kimi xarakterizə olunur. Tarixi proses boyunca müstəqillik və azadlıq uğrunda mübarizə aparan xalqların qəhrəmanlarının olduğu söylənilə bilər. Lakin günümüzdə qəhrəman anlayışının əhatə dairəsi genişlənmiş, elm, incəsənət, texnologiya, siyasət, hərbi sahə, idarəçilik və ədəbiyyat kimi sahələrdə də özünəməxsus qəhrəmanlar cəmiyyət tərəfindən qəbul edilməyə başlanmışdır. Başqa bir yanaşmaya görə isə, qəhrəman zaman və məkan sərhədlərini aşan, adi olmayan şəxslərdir. Qəhrəmanlar cəmiyyətlərin ortaq ata hekayələrindən qaynaqlanaraq nəsildən-nəslə ötürülən və insanların düşüncəsində bu gün də canlı qalan şəxsiyyətlərdir. Onlar həm aid olduqları cəmiyyətin dəyərlərini, həm də ümumbəşəri dəyərləri təmsil edən şəxslərdir [4].

Keçmişdə qəhrəmanların əxlaq və dəyər təhsilində pedaqoji məqsədlə öyrədilməsi ənənəsinin məktəblərə yansıması da qaçılmaz idi. Belə ki, bir çox ölkə uşaqların xarakter tərbiyəsini böyük şəxsiyyətlər vasitəsilə həyata keçirir. Bu mənada, tarix təhsilində qəhrəmanlara verilən rol, uşaqlara qəhrəmanların xarakterləri üzərindən xarakter tərbiyəsi vermək və əxlaqi nəticələr çıxarmaq idi. Çünki uşaqların əxlaqi, zehni və sosial inkişafı məktəblərin əsas vəzifələrindən biridir.

Tarixin əxlaqi inkişaf üzərində təsiri böyükdür və şagirdlər yaxşı ilə pisi yalnız qaydalarla deyil, konkret fəaliyyətlər vasitəsilə öyrənirlər. Digər tərəfdən, qəhrəmanlar dəyər təhsilində rol modeli kimi istifadə olunur. Tarix anlayışının formalaşması prosesində 11-12 yaşlarından etibarən uşaqlar detektiv

hekayələrə, cəngavər və qəhrəmanlıq əfsanələrinə maraq göstərirlər. Uşaqlar və gənclər qəhrəmanları özlərinə nümunə götürür, onlara maraq və hörmət bəsləyirlər.

Xüsusilə qəhrəmanların real tarixi şəxsiyyətlər olması şagirdlərin emosional və idraki inkişafına müsbət təsir göstərir. Qəhrəman bioqrafiyaları dəyər təhsilində təsirli vasitədir. Belə ki, qəhrəmanların həyatını oxuyan uşaqlar həmin dövrün ənənələrini də öyrənirlər.

Əxlaq və dəyər təhsilində bu funksional roluna görə qəhrəmanlar qədimdən etibarən tədris proqramlarında yer almışdır. Məsələn, 1926-cı il proqramı böyük şəxsiyyətlərin həyatının uşaqlar üçün rol modeli olmasını hədəfləmişdir. Buradan aydın olur ki, tarixin məqsədi əxlaqi rəhbərlikdirsə, böyük şəxsiyyətlər qaçılmaz mövzudur [2].

Qəhrəmanlıq mövzuları yalnız tarixi faktların təqdimatı ilə məhdudlaşmır, eyni zamanda vətənə sədaqət, azadlıq uğrunda mübarizə, fədakarlıq və cəsarət kimi ali dəyərlərin daşıyıcısı kimi çıxış edir. Bu baxımdan, onların tədrisi xüsusi metodoloji yanaşma tələb edir.

Azərbaycan tarixi dərslərində qəhrəmanlıq mövzulu mətnlər şagirdlərin tərbiyəsinə çoxşaxəli təsir göstərir. Bu təsir emosional, idrak və sosial komponentlərin vəhdəti şəklində özünü büruzə verir.

İlk növbədə, bu mətnlər şagirdlərdə vətənpərvərlik hissinin formalaşmasına xidmət edir. Məsələn, Babəkin ərəb xilafətinə qarşı uzunmüddətli azadlıq mübarizəsi şagirdlərdə milli müqavimət və azadlıq ideallarının dərk edilməsinə şərait yaradır. Babək obrazı təkcə tarixi şəxsiyyət kimi deyil, həm də azadlıq uğrunda mübarizənin simvolu kimi təqdim edilir. Eyni zamanda, Koroğlu obrazı xalqın sosial ədalət uğrunda mübarizəsinin bədii-tarixi ifadəsi kimi şagirdlərdə haqsızlığa qarşı mübarizə, zəiflərin müdafiəsi və cəsarət kimi keyfiyyətləri formalaşdırır. Bu kimi obrazlar şagirdlərin şüurunda ideal davranış modelləri yaradır.

Digər mühüm nümunələrdən biri Cavanşirin fəaliyyəti ilə bağlıdır. Albaniya hökmdarı kimi, onun ölkənin müstəqilliyini qorumaq uğrunda apardığı siyasət şagirdlərdə dövlətçilik şüurunun ilkin əsaslarının formalaşmasına xidmət edir. Həmçinin, Şah İsmayıl Xətainin dövlət quruculuğu fəaliyyəti və liderlik keyfiyyətləri şagirdlər üçün güclü siyasi iradə və strateji düşüncə nümunəsi kimi çıxış edir.

Bu kontekstdə qəhrəmanlıq mətnlərinin tərbiyəvi əhəmiyyətini aşağıdakı istiqamətlər üzrə ümumiləşdirmək olar:

- Milli şüurun formalaşması – şagirdlər tarixi şəxsiyyətlər vasitəsilə milli dəyərləri mənimsəyirlər;
- Tarixi yaddaşı inkişafı – keçmiş hadisələr səbəb-nəticə əlaqələri ilə qavranılır;
- Emosional inkişaf – qəhrəmanlıq nümunələri empatiya və emosional bağlılıq yaradır;
- Motivasiya – tarixi şəxsiyyətlərin uğurları şagirdlərdə özünüinkişaf meylini artırır.

Müasir təlim prosesində bu mətnlərin tədrisi ənənəvi üsullarla məhdudlaşmamalıdır. Kurikulumun tələblərinə uyğun olaraq interaktiv metodlardan istifadə etmək daha məqsədəuyğundur. Bu metodlara aşağıdakılar daxildir:

- Diskussiya və fikir mübadiləsi;
- Rollu oyunlar və səhnələşdirmə;
- Layihə və tədqiqat işləri;
- Təqdimatlar və vizual materiallardan istifadə.

Bununla yanaşı, qeyd olunan interaktiv metodların hər biri konkret nümunələr əsasında tətbiq edildikdə daha effektiv nəticələr verir.

Diskussiya və fikir mübadiləsi zamanı müəllim şagirdlərə problemli suallar təqdim edə bilər. Məsələn, "Babəkin mübarizəsini uğurlu edən əsas amillər hansılar idi?" və ya "Koroğlu obrazını qəhrəman edən xüsusiyyətlər nələrdir?" kimi suallar ətrafında aparılan müzakirələr şagirdlərin tənqidi və analitik düşünmə bacarıqlarını inkişaf etdirir.

Rollu oyunlar və səhnələşdirmə metodunda şagirdlər tarixi şəxsiyyətlərin rollarını canlandırırlar. Məsələn, bir qrup şagird Babəkin tərəfdarlarını, digər qrup isə onun rəqiblərini təmsil edərək hadisələri dialoq formasında təqdim edə bilər. Bu üsul şagirdlərin mövzunu daha dərindən qavramasına və emosional şəkildə mənimsəmələrinə şərait yaradır.

Layihə və tədqiqat işləri çərçivəsində şagirdlərə konkret mövzular verilə bilər. Məsələn, "Şah İsmayıl Xətainin dövlətçilik fəaliyyəti" və ya "Cavanşirin siyasi mübarizəsi" mövzularında kiçik tədqi-

qatlar apararaq nəticələrini sinif qarşısında təqdim edirlər. Bu fəaliyyət onların müstəqil araşdırma aparmaq və məlumatları sistemləşdirmək bacarıqlarını inkişaf etdirir.

Təqdimatlar və vizual materiallardan istifadə zamanı şagirdlər xəritələr, şəkillər, sxemlər və qısa video materiallar vasitəsilə tarixi hadisələri daha aydın şəkildə qavrayırlar. Məsələn, Babəkin fəaliyyət göstərdiyi ərazilərin xəritədə göstərilməsi və ya tarixi qalaların vizual təsviri mövzunun yadda qalmasını asanlaşdırır.

Araşdırmalardan aydın olur ki, tarixi şəxsiyyətləri əks etdirən mövzuları müəllim aşağıdakı tədris vasitələrinin köməyi ilə reallaşdırmalıdır: 1) dərsliklər, 2) dərsliklərə yazılmış metodik vəsaitlər, 3) tarixi şəxsiyyətlərin həyat və fəaliyyətlərini əks etdirən portretlər və şəkillər, 4) ağıllı lövhələr, 5) proyektor, 6) kompüter və s. [5].

Bundan əlavə, "beyin həmləsi" (brainstorming) metodu da tətbiq edilə bilər. Müəllim "Qəhrəman kimdir?" sualı ətrafında şagirdlərin sərbəst fikirlərini toplayaraq onların mövzuya ilkin münasibətini formalaşdırır.

Eyni zamanda "Venn diaqramı" vasitəsilə şagirdlər müxtəlif tarixi şəxsiyyətləri müqayisə edə bilərlər. Məsələn, Babək və Şah İsmayıl Xətainin oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək şagirdlərdə müqayisəli təhlil bacarığını inkişaf etdirir.

Belə yanaşma şagirdlərin passiv dinləyici mövqeyindən çıxaraq aktiv iştirakçıya çevrilməsinə şərait yaradır.

Problemlə bağlı müşahidə və araşdırmalar şagirdlərin tarixi şəxsiyyətlərinin nümunəsi əsasında tərbiyə edilməsini üç metodik yoldan istifadə etməklə həyata keçirilməsini məqsədəuyğun hesab edir: Birincisi, tarix dərsləri, ikincisi, sinifdənxaric tədbirlər, üçüncüsü məktəbdənkənar tədbirlər 5].

Tarix dərslərində qəhrəmanlıq mövzuları vizual materiallar (şəkillər, xəritələr), sənədli materiallar və interaktiv metodlar (rol oyunları, müzakirələr) vasitəsilə təqdim edildikdə, bu, şagirdlərdə daha dərindən mənimsənilir və tərbiyəvi təsir gücü artır [3, s.13].

Bununla yanaşı, tədris prosesində müəyyən çətinliklər də müşahidə olunur. Bunlara dərs materiallarının bəzən yaş səviyyəsinə uyğun olmaması, müəllimlərin innovativ metodlardan məhdud istifadə etməsi və texnoloji resursların çatışmazlığı daxildir. Bu problemlərin aradan qaldırılması üçün müəllimlərin metodiki hazırlığının artırılması və rəqəmsal tədris vasitələrinin geniş tətbiqi zəruridir.

***Nəticə.*** Aparılan təhlil göstərir ki, V sinif Azərbaycan tarixi dərslərində qəhrəmanlıq mövzulu mətnlərin istifadəsi şagirdlərin tərbiyəsində mühüm yer tutur. Bu mətnlər vasitəsilə şagirdlərdə vətənpərvərlik hissi möhkəmlənir, milli kimlik şüuru formalaşır və mənəvi dəyərlər inkişaf edir.

Qəhrəmanlıq mövzularının tədrisi yalnız informativ xarakter daşımır, həm də şagirdlərin şəxsiyyət kimi formalaşmasına xidmət edən güclü pedaqoji vasitədir. Müasir interaktiv metodların tətbiqi bu təsiri daha da gücləndirir və təlim prosesinin effektivliyini artırır.

Beləliklə, Azərbaycan tarixi dərslərində qəhrəmanlıq mövzulu mətnlərin sistemli və məqsədyönlü şəkildə istifadəsi gələcək nəsillərin milli ruhda tərbiyəsində mühüm rol oynayır və onların vətəndaş kimi formalaşmasına ciddi töhfə verir.

## ƏDƏBİYYAT

1. Ağalarov P., Hüseynov E., Quliyev N. Ümumtəhsil məktəblərinin 5-ci sinifləri üçün Azərbaycan tarixi fənni üzrə metodik vəsait. Bakı, "Şərq-Qərb" ASC, 2024, 168 s.
2. Elban M. Tarih düşüncesinde ve eğitiminde kahramanların / büyük adamların rolü // Motif Akademi Halk Bilimi Dergisi, 2018, Cilt 11, Sayı 22, s.98-116.
3. Əsədov S. V-XI siniflərdə tarix fənninin tədrisi metodikası. Bakı, "M Dizayn", 2021, 224 s.
4. Faiz M., Karasu Avcı E. Tarihi kahramanların değerler eğitiminde rol model olarak kullanılmasına ilişkin ortaokul öğrencilerinin algıları // YYÜ Eğitim Fakültesi Dergisi, 2019, 16(1), s.694-724.
5. Kərimova L. V-XI siniflərin Azərbaycan tarixi kurslarında şagirdlərin tarixi şəxsiyyətlərin nümunəsində tərbiyə edilməsinin imkanları vasitələri, metodları və yolları // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2018, Cild 85, №2, s.143-146.

6. Yıldırım T. Yeni ortaöğretim tarih ders programları ve 9. sınıf tarih ders kitabında değerler eğitimi // Turkish Studies (Elektronik), Yıl: 2017, Cilt: 12, Sayı: 33, s.557-572.

**SAKINA HUSEYNOVA**
*1st Year Master's Student of Baku State University*

## THE PEDAGOGICAL VALUE OF HEROISM-THEMED TEXTS IN THE INSTRUCTION OF AZERBAIJAN'S HISTORY IN THE 5TH GRADE

This article provides a comprehensive analysis of the educational significance of heroism-themed texts used in 5th grade History of Azerbaijan lessons. It examines their role in fostering students' patriotism, strengthening national identity, and developing moral values. The study also explores modern teaching approaches within the curriculum framework and evaluates the pedagogical effectiveness of presenting historical figures such as Babak, Javanshir, and Shah Ismail Khatai as role models. The findings suggest that integrating interactive methods significantly enhances the educational impact of such texts.

*Keywords:* heroism-themed texts, patriotic education, History of Azerbaijan, primary history education, national identity, curriculum.

*Daxil olma tarixi*: 25.04.2026-cı il.
*Çapa imzalanma tarixi*: 05.05.2026-cı il.

UOT 94(479.24); UOT 930.2

**SUĞRA ƏSGƏROVA**
*Bakı Dövlət Universitetinin magistrantı*
**asgarovasugra5@gmail.com**

# HEYDƏR ƏLİYEVİN DÖVLƏTÇİLİK KONSEPSİYASINDAKI TÜRK BİRLİYİ İDEYASINA TARİXŞÜNASLIQDA YENİ BAXIŞ

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Samir İsmayılov

*Məqalədə müstəqillik dövrü Azərbaycan tarixşünaslığı kontekstində Ümummilli Lider Heydər Əliyevin dövlətçilik konsepsiyasının formalaşması, onun siyasi-ideoloji parametrləri və bu xəttin Türk dünyası ilə strateji inteqrasiya prosesindəki həlledici rolu tədqiq edilir. Tədqiqatın əsas məqsədi Heydər Əliyevin "Bir millət, iki dövlət" fəlsəfəsinin tarixi köklərini araşdırmaq, Türkiyə-Azərbaycan münasibətlərinin sadəcə diplomatik deyil, həm də strateji tərəfdaşlıq müstəvisindəki inkişafını sənədlər və tarixi faktlarla əsaslandırmaqdır. Məqalədə 1990-cı illərin əvvəllərində dövlətçilik ənənələrinin bərpası, "Əsrin müqaviləsi" və Bakı-Tbilisi-Ceyhan neft kəməri kimi transmilli layihələrin Azərbaycan-Türkiyə münasibətlərinin iqtisadi və geopolitik təməli kimi çıxış etməsi təhlil olunur. Eyni zamanda, Heydər Əliyevin "Kitabi-Dədə Qorqud" dastanının yubileyi və digər mədəni-mənəvi layihələrlə türkçülük ideologiyasını dövlət siyasətinin ayrılmaz hissəsinə çevirməsi tarixşünaslıq baxımından qiymətləndirilir. Müəllif belə bir nəticəyə gəlir ki, Heydər Əliyev tərəfindən təməli qoyulan bu strateji kurs müasir Türk Dövlətləri Təşkilatının formalaşmasında ideoloji fundament rolunu oynayır və Azərbaycanın regional təhlükəsizlik memarlığında tutduğu yeri möhkəmləndirir.*

*Açar sözlər:* Heydər Əliyev, dövlətçilik konsepsiyası, Azərbaycan-Türkiyə münasibətləri, strateji tərəfdaşlıq, tarixşünaslıq, Türk dünyası, inteqrasiya.

***Giriş.*** Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın qarşısında duran ən mühüm vəzifə dövlətçilik ənənələrinin bərpası və milli kimliyin siyasi-hüquqi müstəvidə yenidən formalaşdırılması idi. Heydər Əliyevin 1993-cü ildə ali hakimiyyətə qayıdışı ilə Azərbaycanın dövlətçilik tarixində yeni bir mərhələnin əsası qoyuldu. Bu mərhələnin mahiyyətini təşkil edən əsas amil, Azərbaycanın öz tarixi köklərinə – Türk dünyasına qayıdışı və bu birliyi dövlət siyasətinin strateji xətti kimi müəyyənləşdirməsi olmuşdur. Heydər Əliyevin dövlətçilik konsepsiyasında "Bir millət, iki dövlət" fəlsəfəsi sadəcə siyasi bir şüar deyil, həm də çoxəsrlik tarixi təcrübəyə, qarşılıqlı etimada və ortaq taleyə əsaslanan bir doktrinadır. Sənədlərdə də qeyd olunduğu kimi, tarixi təcrübə sübut edir ki, Azərbaycan və Türk xalqları arasındakı bağlar hələ XX əsrin əvvəllərində, xüsusilə Qafqaz İslam Ordusunun fəaliyyəti və Çanaqqala döyüşü dövründəki həmrəyliklə daha da möhkəmlənmişdi. Heydər Əliyev sovet dövrünün qadağaları nəticəsində unudulmağa məhkum edilmiş bu tarixi yaddaşı yenidən elmi və siyasi dövriyyəyə qaytarmışdır. Onun Ankaradakı Anıtqəbir ziyarəti zamanı Mustafa Kamal Atatürkün xatirə dəftərinə yazdığı fikirlər, Heydər Əliyevin Türk dünyasına baxışının ideoloji çərçivəsini müəyyən edirdi: "Türk dünyasının əvəzsiz şəxsiyyəti, böyük öndər Mustafa Kamal Atatürkün məzarı önündə, onun ruhu qarşısında hörmətlə baş əyirəm". Konsepsiyanın formalaşmasında 1994-cü il xüsusi bir dönüş nöqtəsidir. Heydər Əliyevin həmin il fevralın 10-da İstanbulda keçirdiyi mətbuat konfransında səsləndirdiyi fikirlər, dövlətçilik fəlsəfəsinin əsas istiqamətlərini dəqiq əks etdirirdi. O, Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətin Türkiyə olmasını, dövlətlərarası münasibətlərin inkişafı üçün etibarlı zəmin kimi dəyərləndirirdi. 1994-cü ilin 18 oktyabrında Türk dövlətləri başçılarının 2-ci zirvə toplantısında qəbul edilən "İstanbul bəyannaməsi" isə əlaqələrin yeni səviyyəyə daşınması üçün hüquqi bazanı möhkəmləndirdi. Heydər Əliyev bu prosesdə iqtisadiyyat, ticarət, elm və təhsil sahələrində inteqrasiyanı dövlətçilik üçün vacib komponent hesab edirdi.İqtisadi dövlətçilik kontekstində Heydər Əliyev üçün neft strategiyası sadəcə xam malın satışı deyil, regionun geosiyasi

arxitekturasını dəyişdirən bir vasitə idi. Onun "Xəzər nefti Türkiyə üzərindən dünyaya açılmalıdır" tezisi, Bakı-Tbilisi-Ceyhan (BTC) layihəsinin əsasını qoydu. Bu, iki qardaş dövləti iqtisadi cəhətdən bir-birinə bağlayan "yeni ipək yolu" mahiyyətində bir layihə idi. Eyni zamanda, mədəni-mənəvi bütövlüyü təmin etmək üçün 1990-cı illərin sonlarında "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması, Türk dünyasının ortaq tarixi keçmişinin elmi-tarixi əsaslarını daha da möhkəmləndirdi.Müstəqillik dövrü Azərbaycan tarixşünaslığı bu münasibətləri regional təhlükəsizliyin və sabitliyin təminatı kimi tədqiq edir. Prezident İlham Əliyevin 2003-cü ildə vurğuladığı "Türkiyə haradadırsa, Azərbaycan onun yanındadır, Azərbaycan haradadırsa, Türkiyə onun yanındadır" fikri, Heydər Əliyevin qoyduğu strateji təməlin müasir çağırışlara uyğun şəkildə davam etdirildiyinin sübutudur. Qarabağ münaqişəsinin həlli prosesində, xüsusilə 44 günlük Vətən müharibəsi dövründə Türkiyənin nümayiş etdiyi siyasi-mənəvi dəstək, bu münasibətlərin dövlətçilik üçün nə qədər həyati əhəmiyyət daşıdığını və Heydər Əliyev tərəfindən təməli qoyulmuş strateji xəttin necə uğurla reallaşdığını təsdiqləyir. Bu tarixi-siyasi reallıqlar sübut edir ki, Heydər Əliyevin dövlətçilik konsepsiyası sadəcə lokal bir idarəetmə modeli deyil, böyük Türk dünyasının inteqrasiya prosesinin hərəkətverici qüvvəsi və müasir Türk Dövlətləri Təşkilatının ideoloji fundamentidir [3].

***Əsas hissə.*** Heydər Əliyevin dövlətçilik konsepsiyasında müstəqilliyin möhkəmləndirilməsi yalnız geosiyasi layihələrlə deyil, həm də Türk dünyasının siyasi elitası ilə qurulan etibarlı şəxsi münasibətlərlə təmin edilirdi ki, bu da arxiv sənədlərində geniş əksini tapıb. Məsələn, Kalmıkiya Prezidenti Kirsan İlyumjinovun Heydər Əliyev haqqında dediyi "mən və bir çox gənc siyasətçilər üçün o, bir patrix (ağsaqqal) idi" fikri, Ulu öndərin türk coğrafiyasının siyasi varislərinə ötürdüyü təcrübənin və onların ona olan ehtiramının təzahürüdür. Eyni zamanda, Adıgey Respublikasının keçmiş Prezidenti Aslan Cərimovun Heydər Əliyevin xalqların məhəbbətini necə qazandığını və onun siyasi iradəsinin Azərbaycanın dövlətçilik taleyində həlledici rol oynadığını vurğulaması, liderin "xalqın qəlbinə yol tapmaq" bacarığının dövlətçilik konsepsiyasının ayrılmaz hissəsi olduğunu göstərir.

Heydər Əliyevin diplomatiyasında "humanitar körpü" amili də xüsusi yer tuturdu; onun Tatarıstanın keçmiş Prezidenti Mintimer Şaymiyevlə olan münasibətləri, xüsusən də Şaymiyevin Heydər Əliyevin idarəetmə bacarığına və onun xalqların inkişafı üçün atdığı addımlara verdiyi yüksək qiymət, Ulu öndərin inteqrasiya modelinin necə praktik və tətbiqi xarakter daşıdığını təsdiqləyir. Arxiv materiallarında yer alan faktlara görə, Heydər Əliyev hətta Rusiya Federasiyasının subyekti olan türk respublikaları ilə də dövlətlərarası səviyyədə dialoq qurmağı bacarmış, bununla da türk dünyasının parçalanmışlığını aradan qaldıraraq ümumi mədəni və siyasi məkana inteqrasiyanı stimullaşdırmışdır [1].

Onun dövlətçilik konsepsiyasının bir digər özəlliyi isə bölgədəki hər hansı bir çətin məqamda – istər Çeçenistan, istərsə də digər türk bölgələrində baş verən siyasi gərginliklərdə – məsələyə sırf "müdrik dövlət xadimi" mövqeyindən yanaşaraq sülhsevər missiyalar həyata keçirməsi idi. Özbəkistanın keçmiş Prezidenti İslam Kərimovun Heydər Əliyevin siyasi ustalığına və onun Azərbaycanın gələcəyi üçün atdığı qətiyyətli addımlara olan ehtiramı, bu konsepsiyanın regional miqyasda necə nüfuzlu olduğunu bir daha təsdiqləyir. Bütün bunlar Heydər Əliyevin dövlətçilik modelinin sadəcə qanunlar və sazişlər toplusu deyil, türk dünyasını bir araya gətirən, tarixin çətin sınaqlarından keçmiş, şəxsi nüfuz və mənəvi dəyərlərə söykənən canlı bir "inteqrasiya orqanizmi" olduğunu sübut edir. Bu yanaşma, tarixin müxtəlif dövrlərində parçalanan türk topluluqlarını bir mərkəz ətrafında – müstəqil və güclü Azərbaycan dövlətçiliyi ətrafında birləşdirməyi hədəfləyən daha geniş, çoxşaxəli bir strateji vizyon idi.

Türk dünyasının 20-ci əsrin sonlarında yaşadığı siyasi və mədəni oyanış, xalqlarımızın ortaq keçmişə qayıdışı və gələcəyə birgə addımlaması yolunda atılan ən mühüm addımlardan biri şübhəsiz ki, TÜRKSOY-un təsis edilməsi və dövlət başçılarının mütəmadi keçirilən Zirvə görüşləridir. Sovet hakimiyyəti illərində süni şəkildə bir-birindən ayrılan, əlaqələri məhdudlaşdırılan türkdilli xalqlar müstəqilliklərini bərpa etdikdən sonra mədəni və mənəvi birliyi təmin etməyin tarixi bir zərurət olduğunu dərindən dərk etdilər və bu tarixi missiya 12 iyul 1993-cü ildə Almatı şəhərində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Türkiyə nümayəndələrinin imzası ilə reallığa çevrildi; beləliklə, Türk Kültür və Sənətləri Ortaq Yönətimi – TÜRKSOY yaradıldı. Bu təşkilatın əsas qayəsi türk xalqlarının minilliklərlə ölçülən zəngin mədəni irsini qorumaq, onu tədqiq etmək və

Dədə Qorqud, Manas, Nizami Gəncəvi, Məhəmməd Füzuli, Yunis İmrə, Əlişir Nəvai, Məxtumqulu Fəraqi və Abay Kunanbayev kimi dahi şəxsiyyətlərin yaradıcılığını dünya mədəniyyət xəzinəsinə bəxş etmək idi. TÜRKSOY-un fəaliyyəti təkcə mədəni layihələrlə deyil, həm də türk xalqlarının birliyini siyasi müstəvidə gücləndirən və strateji hədəfləri müəyyənləşdirən Zirvə görüşləri ilə daha da möhkəmləndi. Bu zirvələr, xüsusilə də 26-27 aprel 2001-ci ildə İstanbulda keçirilən görüş, dövlət başçılarının türk birliyinə olan sarsılmaz inamını nümayiş etdirdi; burada iştirak edən liderlər bəyan edirdilər ki, dünyada iqtisadi və ticari münasibətlər dəyişkən olsa da, dilimiz, dinimiz, mədəniyyətimiz və ortaq köklərimiz bizi əbədi olaraq bir-birinə bağlayan ən güclü amillərdir. Bu tarixi proseslərdə Azərbaycanın ümummilli lideri Heydər Əliyevin rolu misilsiz idi; o, TÜRKSOY-un XV toplantısında iştirak edərkən və nümayəndələri qəbul edərkən bu qurumu türk dünyasını bir araya gətirən mühüm bir körpü kimi dəyərləndirərək vurğulayırdı ki, uzun illər bizə təsir edən qadağalara baxmayaraq, xalqlarımızın mənəvi kökləri o qədər dərindir ki, indi yaranan əlverişli imkanlar çərçivəsində bu əlaqələri daha da mütəşəkkil etmək və genişləndirmək bizim tarixi borcumuzdur. Məhz bu baxış bucağı altında TÜRKSOY-un çətiri altında keçirilən beynəlxalq tədbirlər, məsələn, 1991-ci ildən bəri təşkil olunan və 2000-ci ildə Ufada keçirilən "Tuqanlıq" Beynəlxalq Teatr Festivalı kimi təşəbbüslər türk xalqlarının mədəni inteqrasiyasına xidmət edən, teatr sənətinin problemlərinin müzakirə edildiyi və Azərbaycanın "Burla Xatun" kimi parlaq nümunələrlə təmsil olunduğu əhəmiyyətli platformalara çevrildi. Bu gün TÜRKSOY və Zirvə görüşləri çərçivəsində atılan hər bir addım, imzalanan hər bir sənəd türk dünyasının qədim və zəngin mədəniyyətini müasir dünyaya çatdıran, xalqlarımızın birliyini sarsılmaz edən və gələcək nəsillərə ortaq bir yaddaş mirası qoyan tarixi bir missiyanın, türk birliyi idealının reallığa çevrilməsidir [2].

İbrahim Ethem Atnurun elmi yaradıcılığı və baxış bucağı çərçivəsində Türkiyə-Azərbaycan münasibətləri, keçmişin sınaqlarından keçərək bu günün strateji reallığına çevrilən epik bir yol hekayəsini xatırladır. Görkəmli tarixçi üçün bu əlaqələr heç vaxt kəsilməyən, sadəcə tarixi dövrlərin tələblərinə görə müxtəlif formalarda təzahür edən, kökləri dərinliklərə uzanan böyük bir tarixi davamlılığın məhsuludur. Onun tədqiqatlarının özəyini təşkil edən Naxçıvan məsələsi, bu münasibətlərin necə qorunub saxlanıldığını anlamaq üçün açar rolunu oynayır; professor 1918-1921-ci illərin çətin şərtlərini təhlil edərkən, Naxçıvanı sadəcə bir bölgə deyil, Türk dünyasının coğrafi bütövlüyünü və qardaşlıq bağlarını qoruyan canlı bir qala kimi səciyyələndirir.Atnurun nəzərində sovet dönəmi münasibətlərin süni şəkildə dondurulduğu bir fasilə olsa da, xalqların ruhunun və mədəni bağlarının məhz bu illərdə də yaşadılması, müstəqillik illərindəki sürətli dirçəlişin əsasını təşkil edib. O, "Bir millət, iki dövlət" konsepsiyasını sadəcə diplomatik bir şüar kimi deyil, xalqın daxili tələbatının dövlət siyasətinə çevrilmiş bir forması kimi qiymətləndirir və bu prosesdə Heydər Əliyevlə Süleyman Dəmirəlin rolunu iki ölkənin dövlətçilik ənənələrinin sintezi kimi izah edir. 44 günlük Vətən müharibəsi və Şuşa Bəyannaməsi isə tarixçi üçün bu münasibətlərin "qızıl dövrü"nün başlanğıcıdır; o, müqaviləni hüquqi bir sənəddən daha çox, qardaşlığın hərbi və strateji reallığa çevrilməsinin təsdiqi kimi görür. Xüsusilə Milli Müdafiə Universitetindəki fəaliyyəti də nəzərə alınarsa, Atnurun hərbi kadrların birgə yetişdirilməsi və müdafiə sənayesindəki əməkdaşlığı "təhlükəsizlik ortaqlığı" kimi şərh etməsi, münasibətlərin institusionallaşması istiqamətindəki dərinliyini göstərir. Onun üçün Zəngəzur dəhlizi sadəcə bir nəqliyyat marşrutu deyil, türk dünyasının damarlarını birləşdirən mərkəzi arteriyadır və bu baxış Türkiyə-Azərbaycan əlaqələrini regional sabitliyin əsas təminatçısı, eyni zamanda Türk Dövlətləri Təşkilatının inkişafının lokomotivi kimi müəyyən edir. Nəticə etibarilə, İbrahim Ethem Atnurun yanaşması, münasibətlərə kənar müşahidəçi kimi deyil, bu tarixin bir parçası olan və onu dərindən hiss edən, elmi obyektivliklə milli maraqları üzvi şəkildə birləşdirən bir tədqiqatçının baxışını əks etdirir [5].

Yaqub Mahmudovun "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti" əsəri, müasir Azərbaycan dövlətçiliyinin formalaşması prosesini tarixi varislik kontekstində araşdıran və bu sahədə elmi-nəzəri bazanı özündə ehtiva edən fundamental bir tədqiqatdır. Müəllif bu əsərdə Heydər Əliyevin siyasi fəaliyyətini sadəcə bir liderin dövrü kimi deyil, Azərbaycanın minillik dövlətçilik ənənələrinin məntiqi davamı və tarixi yaddaşın bərpası kimi təqdim edir. Mahmudovun yanaşmasında Heydər Əliyevin hakimiyyətə gəldiyi hər iki dövr – həm sovet dövründəki rəhbərliyi, həm də müstəqillik

illərindəki xilaskarlıq missiyası – vahid bir dövlətçilik konsepsiyası kimi qiymətləndirilir. Tarixşünaslıq baxımından müəllif sübut edir ki, Heydər Əliyev Azərbaycanı parçalanmaq və məhv olmaq təhlükəsindən xilas etməklə yanaşı, xalqın özünəinamını bərpa edərək milli-mənəvi dəyərləri dövlət siyasətinin sütununa çevirib. Mahmudovun konsepsiyasına görə, 1969-cu ildə Heydər Əliyevin hakimiyyətə gəlməsi Azərbaycanın gələcək müstəqilliyi üçün lazım olan kadr bazasının, iqtisadi potensialın və milli elmi-mədəni mühitin formalaşdırılması üçün gizli bir müstəqillik yolu idi. Daha sonra 1993-cü ildəki fəaliyyəti isə itirilmiş dövlətçiliyin bərpası və müstəqilliyin hüquqi-siyasi təminatının yaradılması kimi dəyərləndirilir. Əsərdə dövlətçilik ənənələrinin bərpası prosesi Azərbaycançılıq məfkurəsi üzərində qurulur. Müəllif qeyd edir ki, Heydər Əliyev qədim dövlətçilik tariximizi (Manna, Atropatena, Albaniya, Səfəvilər və s.) bugünkü müstəqil dövlətlə əlaqələndirməklə, Azərbaycan xalqının tarixi yaddaşını özünə qaytarıb. Nəticə etibarilə, Yaqub Mahmudov Heydər Əliyevi təkcə müasir dövrün siyasətçisi deyil, Azərbaycan tarixini öz tarixi məcrasına qaytaran bir tarixi şəxsiyyət kimi səciyyələndirir və onun fəaliyyətini dövlətçilik tariximizin ən parlaq səhifələrindən biri kimi sistemləşdirir [6].

***Nəticə.*** Aparılan elmi təhlil və dövlətçilik konsepsiyasının sistematik araşdırılması göstərir ki, Heydər Əliyevin türk dünyası ilə bağlı strateji xətti, sadəcə dövlətlərarası münasibətlər müstəvisini aşaraq, türk xalqlarının mənəvi, siyasi və iqtisadi birliyini özündə ehtiva edən vahid bir inteqrasiya fəlsəfəsinə çevrilmişdir. Tədqiqatın əsas elmi qənaəti ondan ibarətdir ki, Ulu öndər türk dövlətçiliyini yalnız modern institutlar üzərində deyil, eyni zamanda tarixi yaddaşın dərki və mədəniyyətlərarası dialoqun sintezi əsasında bərpa etmişdir. Heydər Əliyev diplomatiyasının özünəməxsusluğu onun türk dünyasının regional liderlərini (məsələn, Çeçenistan, Tatarıstan və s. bölgələrin siyasi rəhbərləri) ortaq mənəvi dəyərlər ətrafında birləşdirməyi bacarması, bununla da parçalanmış tarixi coğrafiyanı siyasi sabitlik məkanına çevirməsində təzahür edir.

Xüsusilə, müxtəlif türk dövlətlərinin rəhbərlərinin arxiv sənədlərində əksini tapan etiraf xarakterli fikirləri – Ulu öndərin onları siyasi sınaqlardan çıxaran bir "ağsaqqal" və "müdrik dövlət rəhbəri" kimi görməsi, onun dövlətçilik modelinin sadəcə inzibati-siyasi tədbirlər yığını deyil, həm də şəxsi nüfuz və mənəvi autoritetə söykənən "canlı bir inteqrasiya sistemi" olduğunu təsdiqləyir. Tədqiqatın yekunu kimi vurğulamaq lazımdır ki, Heydər Əliyevin yaratdığı bu sistem türk dünyasının təkcə enerji və nəqliyyat dəhlizləri (xüsusilə Bakı-Tbilisi-Ceyhan layihəsi) vasitəsilə deyil, həm də humanitar-mədəni körpülərlə bir-birinə bağlanmasının əsas təminatçısıdır [4]. Bu fəlsəfə, tarixin sınağından çıxaraq, Azərbaycanın türk coğrafiyasının təhlükəsizlik və inkişaf mərkəzi kimi mövqeyini uzunmüddətli perspektivdə möhkəmləndirmiş, müasir Türk Dövlətləri Təşkilatının formalaşmasında həlledici ideoloji fundament rolunu oynamışdır. Beləliklə, Heydər Əliyev dövlətçilik konsepsiyası zamanın çağırışlarına cavab verən, regional liderliyi təmin edən və türk dünyasının inteqrasiya perspektivlərini şərtləndirən ən mükəmməl strateji model olaraq qalır.

## ƏDƏBİYYAT

1. Cəfərov Nizami. Heydər Əliyev və türk dünyası. Bakı, “Çaşıoğlu” nəşriyyatı, 2006, 479 s.
2. Hüseynova Fərqanə. Müstəqillik dövründə Azərbaycan Türkiyə əlaqələrinin kulturoloji aspektləri. Bakı, 2007, 302 s.
3. Hacıyev Qasım. Heydər Əliyevin Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında rolu / Respublika, 2023, №237, s.5.
4. Hüseynova İ.M. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, “Təhsil”, 2004, 472 s.
5. İbrahim Ethem Atnur. Muxtariyyət ərəfəsində Naxçıvan. “Qeyrət” nəşriyyatı, 1999, 442 s.
6. Mahmudov Yaqub. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı, “Təhsil”, 2002, 328 s.

**SUGRA ASGAROVA**
*Master's student of Baku State University*

## A NEW PERSPECTIVE IN HISTORIOGRAPHY ON THE IDEA OF TURKIC UNITY IN HEYDAR ALIYEV'S CONCEPT OF STATEHOOD

This article examines the formation of National Leader Heydar Aliyev's statehood concept, its political-ideological parameters, and its decisive role in the process of strategic integration with the Turkic world within the context of Azerbaijani historiography of the independence period. The main purpose of the research is to investigate the historical roots of Heydar Aliyev's philosophy of "One nation, two states" and to substantiate the development of Turkish-Azerbaijani relations not merely as diplomatic ties, but as a strategic partnership through documents and historical facts. The article analyzes the restoration of statehood traditions in the early 1990s and how transnational projects, such as the "Contract of the Century" and the Baku-Tbilisi-Ceyhan oil pipeline, served as the economic and geopolitical foundation of Azerbaijan-Turkey relations. At the same time, it evaluates from a historiographical perspective how Heydar Aliyev transformed the ideology of Turkism into an integral part of state policy through the anniversary of the "Kitabi-Dede Gorgud" epic and other cultural-spiritual projects. The author concludes that this strategic course, founded by Heydar Aliyev, plays the role of an ideological foundation in the formation of the modern Organization of Turkic States and strengthens Azerbaijan's position in the regional security architecture.

*Keywords:* Heydar Aliyev, concept of statehood, Azerbaijan-Turkey relations, strategic partnership, historiography, Turkic world, integration.

*Daxil olma tarixi*: 28.04.2026-cı il.
*Çapa imzalanma tarixi*: 05.05.2026-cı il.

№2(14) 2026, 146-152

UOT 94; UOT 32:93/94

**НАЗРИН МУРСАЛОВА**
*Магистрант II курса Бакинского государственного Университета*
**nazrin.mursalova.rufan@bsu.edu.az**

# ПОЛИТИКА ПОЛЬШИ В ОТНОШЕНИИ УКРАИНЫ (1989-2024)

*Научный руководитель:*
доктор исторических наук Таир Бахшалиев

*В статье рассматривается политика Польши в отношении Украины в период 1989-2024 гг. как важное направление её внешней политики и региональной стратегии. После распада Советского Союза Польша переосмыслила свою восточную политику, уделяя особое внимание поддержке независимости Украины, её стабильности и европейской интеграции. Украина рассматривалась не только как соседнее государство, но и как ключевой геополитический фактор, влияющий на баланс сил в Восточной Европе и безопасность самой Польши. В работе анализируются основные этапы польско-украинских отношений, включая становление сотрудничества в 1990-е годы, активизацию взаимодействия после вступления Польши в НАТО и Европейский союз, а также усиление роли Польши как посредника между Украиной и западными институтами. Особое внимание уделяется таким событиям, как «оранжевая революция» 2004 года, инициатива «Восточное партнёрство», а также изменениям после кризиса 2014 года и полномасштабной войны 2022 года. Рассматриваются ключевые факторы, определяющие польскую политику в отношении Украины, включая вопросы безопасности, экономического сотрудничества, энергетики и исторической памяти. Подчёркивается, что политика Польши сочетает стратегическую поддержку Украины с прагматическим подходом, обусловленным внутренними и внешними факторами. В результате делается вывод о том, что Польша стала одним из наиболее активных сторонников Украины на международной арене, одновременно укрепляя свою роль в Восточной Европе. Политика Польши в отношении Украины рассматривается как важный элемент формирования новой архитектуры безопасности в регионе.*

*Ключевые слова:* Польша, Украина, Восточная Европа, внешняя политика, международные отношения.

***Введение.*** После 1989 г. польская внешняя политика вступила в качественно новый этап. Освобождение от прямой зависимости от СССР, демонтаж прежней идеологической модели и ориентация на евроатлантическую интеграцию заставили Варшаву по-новому определить свои приоритеты на восточном направлении. В этой новой конфигурации Украина заняла особое место. Для польской политической элиты независимая Украина рассматривалась не только как соседнее государство, но и как важнейший геополитический фактор, от которого зависело соотношение сил в Восточной Европе, характер отношений с Россией и перспективы собственной безопасности Польши. Уже в первые постсоциалистические годы в польской экспертной и политической среде получила развитие мысль о том, что существование суверенной Украины соответствует стратегическим интересам Польши, поскольку снижает возможность восстановления доминирования России в регионе и создаёт буфер стабильности между Варшавой и Москвой. Вместе с тем польская политика в отношении Украины никогда не была однолинейной. Она сочетала в себе поддержку украинской независимости и европейского выбора, экономический прагматизм, внимание к исторической памяти, участие в инициативах ЕС и НАТО, а также необходимость реагировать на меняющуюся международную обстановку. Именно поэтому анализ политики Польши в отношении Украины в 1989–2024 гг. позволяет

проследить, как менялись не только двусторонние отношения, но и сама роль Польши в международных отношениях Восточной Европы.

***Основная часть.*** Формирование новой польской политики в отношении Украины началось ещё до окончательного распада Советского Союза. В 1989–1991 гг. в Польше постепенно утверждалось представление о том, что на востоке должна проводиться политика поддержки самостоятельности постсоветских республик, прежде всего Украины, Литвы и Беларуси. Эта линия во многом была связана с интеллектуальным наследием круга Ежи Гедройца и Юлиуша Мерошевского, которые ещё в эмигрантской публицистике обосновывали необходимость отказа от ревизионизма и выстраивания отношений с восточными соседями на основе признания их суверенитета. Практическое воплощение данная концепция получила уже в начале 1990-х гг., когда польская дипломатия стала одной из первых в Европе выстраивать прямой политический диалог с Киевом [3, p.45]. Символичным и одновременно стратегически значимым стало то обстоятельство, что Польша первой признала независимость Украины 2 декабря 1991 г. Этот шаг имел не только дипломатический, но и долговременный политический смысл: Варшава демонстрировала, что рассматривает Украину как самостоятельного и желательного партнёра в новой системе международных отношений [4, p.78].

В 1990-е гг. польско-украинские отношения развивались в условиях одновременного становления государственности Украины и институциональной переориентации самой Польши. Для Варшавы главной задачей в этот период оставалось вступление в НАТО и Европейский союз, однако украинское направление не воспринималось как второстепенное. Напротив, польские руководители стремились убедить западных партнёров в том, что стабильная и независимая Украина отвечает интересам всей Европы. В польской дипломатии укрепилась формула о том, что без независимой Украины невозможна устойчивая безопасность самой Польши, и эта логика заметно влияла на практические решения Варшавы [5, p.10]. Важным элементом данной линии было развитие двусторонних контактов на высшем уровне, расширение договорно-правовой базы, а также постепенное наращивание экономических и гуманитарных связей. Уже в середине 1990-х гг. в двусторонних отношениях закрепилась идея «стратегического партнёрства», хотя её практическое наполнение в тот период ещё оставалось ограниченным. Препятствиями были различия в темпах реформ, слабость украинских институтов, нестабильность экономики и разные внешнеполитические возможности двух государств [2, p.132].

Существенное значение для польской политики имело вступление в НАТО в 1999 г. и ЕС в 2004 г. Членство в западных структурах не ослабило интерес Варшавы к Украине, а, напротив, придало ему новый характер. С одной стороны, Польша получила возможность выступать не только как сосед, но и как своеобразный адвокат Украины в рамках евроатлантических институтов. С другой стороны, членство в ЕС и НАТО наложило на польскую дипломатию новые ограничения, поскольку поддержка Украины должна была соотноситься с общей политикой союзов и с позицией других государств-членов [6, p.421]. В польском политическом дискурсе начала 2000-х гг. украинская тема всё чаще связывалась с вопросами безопасности европейских границ, энергетической диверсификации и предотвращения чрезмерного влияния России на постсоветское пространство. Именно в этот период Польша стала особенно активно продвигать тезис о том, что Украина должна иметь европейскую перспективу, а отношения ЕС с Киевом не могут ограничиваться только политикой соседства [7, p.120].

Поворотным событием для польско-украинских отношений стала «оранжевая революция» 2004 г. Польша проявила себя как один из наиболее активных внешних участников политического урегулирования кризиса. Тогдашний президент Александр Квасьневский вместе с представителями ЕС принял участие в посреднической миссии, способствовавшей компромиссному разрешению конфликта вокруг результатов президентских выборов. Для польской внешней политики это был важный момент институционального и символического самоутверждения: Варшава демонстрировала, что способна не только высказывать позиции, но и

участвовать в практическом разрешении кризисов в Восточной Европе [8, p.210]. Поддержка демократических преобразований в Украине одновременно укрепляла международный имидж Польши как государства, которое сочетает собственный западный выбор с активной восточной политикой. В то же время ожидания быстрого продвижения Украины к евроинтеграции оказались завышенными. В Польше постепенно нарастало понимание того, что украинские внутренние проблемы, борьба элит и неоднозначность политики западных стран ограничивают возможности Варшавы.

Новым этапом польской политики стало участие в разработке и продвижении инициативы «Восточное партнёрство». Польша совместно со Швецией выступила одним из инициаторов данного проекта, официально запущенного в 2009 г. Эта программа должна была углубить сотрудничество ЕС с шестью постсоветскими государствами, включая Украину, и создать инструменты политической ассоциации, экономической интеграции и институционального сближения [9, p.15]. Для Польши «Восточное партнёрство» имело двойное значение. С одной стороны, оно позволяло придать восточной политике ЕС более оформленный и системный характер. С другой стороны, Варшава получала возможность закрепить за собой статус одного из главных экспертов и посредников в отношениях Евросоюза с восточными соседями. При этом польская дипломатия последовательно подчёркивала особое место Украины в данной инициативе: именно Украина рассматривалась как наиболее важный и перспективный партнёр ЕС на восточном направлении. В польской аналитической литературе отмечалось, что успех или неудача политики «Восточного партнёрства» во многом будет зависеть именно от украинского направления [6, p.421].Несмотря на активное продвижение инициативы «Восточного партнёрства», польская политика в отношении Украины в конце 2000-х - начале 2010-х гг. сталкивалась с рядом структурных ограничений. Одним из ключевых факторов была неоднозначность самой политики Европейского союза в отношении восточных соседей. В отличие от стран Центральной Европы, Украина не получила чётко обозначенной перспективы членства в ЕС, что снижало эффективность польских усилий по продвижению украинской евроинтеграции [3, p.45]. Варшава, выступая в роли посредника между Киевом и Брюсселем, нередко оказывалась в ситуации, когда её инициативы не находили достаточной поддержки со стороны ведущих западноевропейских государств, прежде всего Германии и Франции, ориентировавшихся на более осторожный подход к расширению ЕС [6, p.421].В этот период польская дипломатия стремилась компенсировать ограничения институционального уровня за счёт развития двусторонних механизмов взаимодействия. Активизировались межправительственные консультации, расширялись контакты на уровне парламентов, регионов и экспертного сообщества. Особое внимание уделялось поддержке украинских реформ в административной, правовой и экономической сферах. Польский опыт трансформации рассматривался как потенциальная модель для Украины, особенно в контексте децентрализации власти и адаптации законодательства к стандартам ЕС [7, p.120]. Важную роль играли также программы технической помощи и обмена опытом, реализуемые при участии польских государственных и неправительственных организаций.

Наряду с этим усиливалось значение энергетического измерения польско-украинских отношений. Польша последовательно выступала за снижение зависимости стран региона от российских энергоресурсов и поддерживала проекты диверсификации поставок. В этом контексте Украина рассматривалась как важный транзитный партнёр и потенциальный участник более широкой региональной энергетической архитектуры. Инициативы, связанные с развитием инфраструктуры, включая интерконнекторы и модернизацию газотранспортной системы, рассматривались Варшавой как элементы не только экономической, но и стратегической политики [10, p.1113]. Однако внутренние политические процессы в Украине, включая колебания внешнеполитического курса и проблемы институциональной стабильности, ограничивали эффективность этих усилий. Польская сторона всё более ясно осознавала, что успех восточной политики зависит не только от внешней поддержки, но и от способности самой Украины про-

водить последовательные реформы и формировать устойчивые государственные институты. Это приводило к постепенному переходу от избыточно оптимистичных ожиданий к более прагматичной и взвешенной оценке перспектив двустороннего сотрудничества [3, p.45]. События 2013–2014 гг., связанные с Евромайданом, сменой власти в Украине, аннексией Крыма и началом вооружённого конфликта на Донбассе, существенно изменили характер польской политики. Если раньше Варшава исходила прежде всего из логики поддержки реформ и европейского выбора Украины, то после 2014 г. на первый план всё более явно вышла проблематика жёсткой безопасности. Польша стала рассматривать украинский кризис как непосредственный вызов всей европейской системе безопасности и как подтверждение собственных прежних предупреждений относительно ревизионистской политики России [10, p.1113]. На международной арене Варшава последовательно выступала за сохранение санкционного давления на Москву, за расширение практической поддержки Украины и за укрепление восточного фланга НАТО. В этот период польско-украинские отношения получили дополнительную политическую глубину: вопрос о судьбе Украины стал для Польши не только предметом добрососедства, но и частью более широкого спора о будущем всей Восточной Европы. После 2014 г. польская политика в отношении Украины стала развиваться сразу в нескольких направлениях. Во-первых, усилилась военная и политическая кооперация. Польша поддерживала программы подготовки украинских военных, выступала за расширение контактов Украины с НАТО и участвовала в различных региональных форматах безопасности. Во-вторых, выросло значение экономического взаимодействия. Несмотря на сохранявшиеся проблемы и различия в уровне развития, Польша стала одним из важнейших экономических партнёров Украины, а польский рынок труда - одним из главных направлений трудовой миграции украинских граждан. Это придало отношениям новую социально-экономическую основу, выходящую за рамки исключительно дипломатического взаимодействия [11, p.20]. В-третьих, возросло значение гуманитарного измерения. Миллионы контактов между гражданами, образовательные программы, присутствие украинских студентов и работников в Польше создали качественно новый уровень взаимосвязанности обществ. Одновременно именно это сближение обостряло чувствительность к вопросам исторической памяти, включая оценки Волынской трагедии и других сложных страниц прошлого. Польские правительства пытались удерживать баланс между поддержкой Украины и вниманием к внутриполитическим ожиданиям собственного общества, для которого историческая проблематика оставалась значимой.

Отдельного внимания заслуживает вопрос исторической памяти, который на протяжении всего периода оставался одним из наиболее чувствительных элементов двусторонних отношений. Польско-украинский политический диалог неоднократно сталкивался с различиями в оценке событий Второй мировой войны, деятельности ОУН и УПА, а также трагедии на Волыни. Для Варшавы эти вопросы имели не только морально-историческое, но и внутриполитическое значение, поскольку тема памяти активно присутствовала в публичных дискуссиях и партийной конкуренции. Тем не менее даже в периоды обострения споров польское руководство, как правило, стремилось не допустить того, чтобы исторические разногласия разрушили стратегический характер отношений с Киевом. Это позволяло сохранять базовый консенсус: при всей сложности прошлого современное сотрудничество должно строиться исходя из интересов безопасности и будущего развития региона [2, p.132]. Именно способность сочетать историческую чувствительность с политическим прагматизмом стала одной из особенностей польской линии в украинском вопросе.

Особенно заметно значение Польши для Украины возросло после начала полномасштабной российско-украинской войны в феврале 2022 г. Польша стала одним из главных центров международной поддержки Украины: через её территорию проходили поставки военной и гуманитарной помощи, в страну прибыло огромное число украинских беженцев, а польское руководство заняло одну из наиболее жёстких антироссийских позиций в Европе [12, p.30]. В международном измерении Варшава активно выступала за ужесточение санкций, расширение

военной помощи Киеву и предоставление Украине более чёткой европейской и евроатлантической перспективы. Характерно, что польская поддержка Украины после 2022 г. была не только правительственной, но и общественной: масштабная вовлечённость местных органов власти, неправительственных организаций, волонтёров и обычных граждан придала этой политике широкий социальный фундамент. Внешнеполитически это укрепило позиции Польши в ЕС и НАТО, поскольку именно Варшава оказалась среди тех государств, чья оценка российской угрозы в наибольшей степени подтвердилась на практике [13, p.12]. Вместе с тем период 2022–2024 гг. показал, что даже высокий уровень политической солидарности не устраняет всех противоречий. В польско-украинских отношениях возникали споры вокруг экспорта украинского зерна, правил торговли, транспортной конкуренции и отдельных историко-политических вопросов. Эти разногласия, однако, не привели к стратегическому разрыву, а лишь продемонстрировали, что отношения двух государств становятся всё более комплексными и зрелыми. Если в 1990-е гг. Польша в значительной степени воспринимала Украину как объект поддержки и важный внешний фактор безопасности, то к 2024 г. Украина превратилась для Польши в самостоятельного и крайне значимого партнёра, взаимодействие с которым охватывает дипломатию, безопасность, экономику, миграцию, инфраструктуру и общественные связи [14, p.5]. В 2024 г. польско-украинские отношения получили дальнейшее институциональное оформление в сфере безопасности. Подписанное двустороннее соглашение о сотрудничестве в области безопасности подтвердило стремление сторон перевести уже сложившееся взаимодействие в более устойчивую политико-правовую форму. Для Польши это означало закрепление статуса одного из главных европейских партнёров Украины, а для самой Украины - дополнительный канал связи с государством, которое сочетает непосредственную региональную вовлечённость с членством в ЕС и НАТО.

***Заключение.*** Политика Польши в отношении Украины в 1989–2024 гг. прошла сложную эволюцию - от раннего признания независимости и осторожного стратегического партнёрства до масштабного политического, военного, экономического и гуманитарного сотрудничества в условиях крупнейшего кризиса европейской безопасности XXI века. На протяжении всего рассматриваемого периода польская дипломатия исходила из понимания того, что суверенная, стабильная и ориентированная на Европу Украина соответствует как национальным интересам Польши, так и логике безопасности всего региона. При этом каждая новая фаза отношений отражала не только двустороннюю динамику, но и более широкие изменения международной среды: расширение НАТО и ЕС, запуск «Восточного партнёрства», кризис 2014 г. и войну после 2022 г. В современных условиях украинское направление остаётся одним из центральных в польской внешней политике, а сама Польша выступает важным посредником между Украиной и западными институтами, одновременно укрепляя собственный международный статус. Следовательно, анализ польской политики в отношении Украины позволяет лучше понять как трансформацию внешней политики Польши после 1989 г., так и основные тенденции развития международных отношений в Восточной Европе в целом.

## ЛИТЕРАТУРА

1. Беспалов А.С. Польская восточная политика после 1989 г. // Россия и современный мир, 2007, № 2, С.52–69.
2. Szeptycki A. Poland-Ukrainian Relations // Yearbook of Polish Foreign Policy, 2006, P.132–145.
3. Snyder T. The Reconstruction of Nations: Poland, Ukraine, Lithuania, Belarus, 1569–1999, New Haven; London: Yale University Press, 2003, 367 p.
4. Poland–Ukraine Relations / ed. by A. Wilson. Warsaw: PISM, 2008, 250 p.
5. Szeptycki A. Polish-Ukrainian Relations: From the Success of the “Orange Revolution” to Russia-First Policy // The Polish Quarterly of International Affairs, 2010, Vol. 19, No.3, P.5-25.
6. Copsey N., Pomorska K. The Influence of Newer Member States in the European Union: The Case of Poland and the Eastern Partnership // Europe-Asia Studies, 2014, Vol. 66, No.3, P.421–443.

7. Bugajski J. Eastern Europe: Russia, Ukraine, Moldova, Belarus, and the South Caucasus in Focus. Westport, Praeger, 2002, 320 p.
8. Asmus R. Opening NATO's Door: How the Alliance Remade Itself for a New Era. New York: Columbia University Press, 2002, 350 p.
9. European External Action Service. Eastern Partnership: Policy Beyond 2020. Brussels, EEAS, 2020, 40 p.
10. Szeptycki A. Poland versus Russia: Competition in Ukraine // East European Politics and Societies. 2021, Vol. 35, No. 4, P.1113–1135.
11. World Bank. Poland Economic Update: Navigating the Energy Shock. Washington, DC: World Bank, 2022, 120 p.
12. International Institute for Strategic Studies. Poland's Foreign-Policy Priorities in the East and in the EU. London: IISS, 2023, 60 p.
13. Mieroszewski Centre. Ukraine and Polish-Ukrainian Relations as Seen by Poles. Warsaw: Mieroszewski Centre, 2025, 80 p.
14. Kancelaria Prezesa Rady Ministrów. Polish-Ukrainian Security Agreement. Warsaw: Government of Poland, 2024, 25 p.

**NƏZRİN MÜRSƏLOVA**
*Bakı Dövlət Universitetinin II kurs magistrantı*

## POLŞANIN UKRAYNAYA MÜNASİBƏTDƏ SİYASƏTİ (1989–2024)

